

# HƏYATIM XATİRƏLƏRİM...

"AZƏRBAYCAN"
NƏŞRİYYATI

BAKI–2022

T08(21)

*Azərbaycanın görkəmli şairi Əli Tudənin çapı latın qrafikası ilə nəzərdə tutulmuş 20 cildliyinin 20-ci cildi olan bu kitabında sənətkarın yaşadığı həyatı, illəri, gördükləri, şahidi olduğu və iştirak etdiyi hadisələr, xatirələri qələmə alınmışdır. 5 hissədən ibarət olan "Həyatım, xatirələrim..." adlı bu toplunun beşinci hissəsini sizə təqdim edirik.*

**Əli Tudə**
T08(21) Həyatım, xatirələrim... XX cild (beşinci hissə) – Bakı, "Azərbaycan" nəşriyyatı, 2022. – 336 səh.

**T $\frac{4804000000-008(2021)}{M\ 670(07)-2021}$ Sifarişlə**

©"Azərbaycan" nəşriyyatı, 2022.

# *ƏLİ TUDƏ*

Əslən Ərdəbilin Çanaxbulaq kəndindən olan atası Qulu və anası Şahbəyim Şimali Azərbaycana köçmüş və Əli 1924-cü il yanvarın 31-də Bakıda anadan olmuşdur. Atası Qulu neft mədənində fəhləlik etmiş, sonra isə buruq ustası vəzifəsinədək yüksəlmişdir. Əli 1 yaşında olarkən atası, 5 yaşında isə anası dünyasını dəyişmişdir. O, nənəsi Qəribin himayəsində böyümüşdür. 150 saylı orta məktəbdə oxumuşdur. Bu dövrdə Bakı Pionerlər Sarayının nəzdində Osman Sarıvəllinin rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvü olmuşdur. Artıq 13 yaşında ikən Əlinin ilk şeirləri Heydər Rzazadə imzası ilə "Kommunist", "Yeni yol" qəzetlərində çap olunub, radioda səslənib. 1938-ci ildə həmin ədəbiyyat dərnəyinin nəşr etdiyi almanaxda da şeirləri dərc edilib. 1938-ci il repressiya dövründə 7-ci sinifdə oxuyarkən o, Cənubi Azərbaycan mənşəli olduğundan nənəsi ilə birlikdə İrana sürgün edilir. Təhsili yarımçıq qalır. İranda təsərrüfat işləri və fəhləliklə məşğul olaraq ağır həyat tərzi keçirir. Lakin şəxsi mütaliəsi, ədəbiyyata güclü meyli onda yazıb-yaratmaq həvəsini söndürmür. 50 ildən artıq bir müddət ərzində bircə gün belə olsun qələmini yerə qoymayan Əli Tudə dərəli-təpəli bir həyat

və yaradıclıq yolu keçmişdir. 1940-cı illərdə Cənubi Azərbaycanda başlanan azadlıq hərəkatına qoşulub silahı və qələmi ilə mübarizə aparır. Milli ruhlu şeirləri ilə xalqı istiqlala çağırır. 1944-cü ildə "Vətən yolunda" qəzetində Əli Tudə imzası ilə şeirləri çap olunur. 1944–1946-cı illərdə Ərdəbildə çıxan "Ziddifaşist", "Cövdət" qəzetlərində, ədəbi almanaxlarda, Təbrizdə çıxan "Vətən yolunda", "Azərbaycan" qəzetlərində, "Şəfəq", "Azərbaycan" məcmuələrində, "Şairlər məclisi" almanaxlarında şeirləri müntəzəm çap olunmuşdur. O, "Hizbitudeyi-İran" partiyasının üzvü olur (1944). Bir ildən sonra, 1945-ci il sentyabrın 3-də Təbrizdə yaranan Azərbaycan Demokrat Firqəsi sıralarına qoşulur. İran xalq partiyası Ərdəbil vilayət komitəsində təbliğatçı (1944–1945), Milli hökumət yarandıqdan sonra Təbrizdə Maarif Nazirliyində tədris şöbəsinin müdiri (1945–1946) işləyir. "Ana dili" kitabının tərtibi və çap olunmasında xüsusi rol oynayır. Sonra isə İran tarixində ilk dəfə olaraq Təbrizdə Milli filarmoniya yaradır, onun ilk və son müdiri olur. Mahal-mahal, kəndbəkənd gəzərək istedadları bu böyük mədəniyyət ocağına cəlb edir. Əli Tudə Cənubi Azərbaycan Demokratik ədəbiyyatının yaradıcılarından biridir. İctimai-siyasi fəaliyyəti ilə bərabər şair öz qələminin qüdrətindən inqilabın nailiyyətlərinin qorunub saxlanılması üçün ustalıqla istifadə edir. Yaradıcılığını, yüksək əqidəsini, mütərəqqi fikirlərini mübarizə yollarında məşələ çevirən Əliyə Təbrizin “Şairlər məclisi”ndə müdriklər tərəfindən Tudə, yəni Xalq təxəllüsü verilir. Milli hökumət onu



ali mükafat "21 Azər" medalıyla təltif edir. O vaxt şairin cəmi 22 yaşı var idi və ilk şeirlər kitabı da çap ərəfəsində idi.

Lakin tale burda da öz qəddar hökmünü verdi. Bu xoş günlər, azadlıq və səadət uzun çəkmədi. Min bir əzabla, qanlar bahasına qurulmuş Milli hökuməti İran dövləti beşikdəcə boğdu. Şairin üsyankar ruhlu şeirlər kitabı mətbəədəcə yandırıldı. Tutulduğu anda məhkəməsiz-filansız qətlə yetirilməsi barədə şahın fərmanı verildi. Şair mübarizəni davam etdirmək və qayıtmaq məqsədilə öz məsləkdaşları ilə bir daha Vətəndən Vətənə mühacirət etmək məcburiyyətində qaldı. 1946-cı il dekabrın 12-də sərhəddə yazdığı "Mən nə gətirdim" şeiri Cənubi Azərbaycan mühacir ədəbiyyatının ilk nümunəsi oldu. O taydan gələn qardaş-bacılarımızın manifestinə, həyat məramına dönən bu şeir tez bir zamanda dillər əzbərinə çevrildi.

Milli demokratik hökumət irtica qüvvələri tərəfindən boğulduqdan sonra Bakıya mühacirət zamanı "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi vəzifəsində işləyir. Ona ali təhsil almaq imkanı yaranır. BDU-nun filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirir (1947–1952). 1958-ci ildən Azərbaycan və SSRİ Yazıçılar İttifaqının üzvü. Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Ali Partiya Məktəbində müdavim, "Azərbaycan" qəzetində (Azərbaycan demokratik firqəsinin orqanı) ədəbi-şöbə müdiri olur (1952–1962). Sonra bütün həyatını bədii yaradıcılığa həsr edir. Ümumittifaq tədbirlərində, Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə,

Tbilisidə SSRİ Yazıçılar İttifaqının plenumunda və s. iştirak etmişdir. "21 Azər" (1946), "Əməkdə fərqlənməyə görə" (1959) medalları ilə mükafatlandırılmışdır. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur (1984). Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü seçilmişdir (1960-cı ildən). Əmək veteranı (1986), Əməkdar incəsənət xadimi (1987). 50 poemanın, 40-a yaxın kitabın müəllifidir. Əsərləri özbək, qırğız, hind, ukrayna, rus, ingilis və s. dillərə tərcümə olunmuşdur. Əli Tudə ömrü boyu siyasi mühacir olaraq qaldı. Sovet pasportu daşımadı. Bir çox yüksək titul və mükafatlardan məhrum oldu.

1996-cı il fevralın 26-da Bakıda vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.



# PROLOQ

*Xatirə kül altda közərən közdür,*
*Eşsən, korun-korun alışacaqdır.*
*O elə bəstədir, o elə sözdür*
*Sən sussan, o özü danışacaqdır.*

Mən uzun illər boyu yazıb çap etdirdiyim şeirlərim, poemalarım, hekayələrim, povestlərim, məqalələrim haqqında həm qələm yoldaşlarımdan, həm də oxuculardan səmimiyyətlə dolu tərifləri çox eşitmişdim. Doğrusu, xatirələrimin əsasında yazdığım bu əsərin daha da rəğbətlə qarşılanacağına inanmırdım. Lakin əsərin ayrı-ayrı parçalarını mətbuatda çap etdirdikdən sonra fikrimdə nə qədər yanıldığımı bildim. Sən demə, həyat şirinli-acılı hadisələrinə müdaxilə etmədən ağ vərəqlər üstə köçürüldükdə daha maraqlı olurmuş. Harada, hansı qələm yoldaşımla qarşılaşdımsa, elə bu əsərdən danışdı. Məni məmnun-məmnun təbrik etdi. Sonra isə əsərin ardını yazmağı təkidlə tapşırdı. Bəli! Məsləhətlə yox, təkidlə. Bu əsəri oxuyan şairlərin bir neçəsi mənə nisgillə dolu şeir həsr etdi. Məni telefonla təbrik edən oxucuların sayını yadda saxlamaq mümkün olmadı. Mən hələ əsərin ardını yazmaq niyyətində deyildim. Çünki hələ əsərin hazır parçalarından bir neçəsi mətbəədə idi. “Azərbaycan” jurnalında çap olunacaqdı. Jurnalın çıxmağını gözləyirdim.

Bir axşam telefonumuz səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran mətbəə fəhlələri idi. Bu sadə, zəhmətkeş, xeyirxah adamlar əsərimin parçalarını maraq dolu həyəcanla oxuyubmuşlar. İndi isə məndən əsərin ardını yazmağı xahiş edirdilər. Nə gizlədim. Bu həyəcan dolu duyğulardan qürurlandım. Axı, mənə indiyə qədər telefonda əsərimə görə xoş sözlər deyən oxucular çox olmuşdu. Bunların arasında şair də, yazıçı da, tənqidçi də, həkim də, müəllim də, bəstəkar da, müğənni də, bir sözlə, yaradıcı ziyalılar var idi. Ancaq doğrusu, mətbəə fəhlələri zəng vurmamışdı. Mən də həssas ürəkli ilk oxucularıma söz verdim ki, əsərin ardını yazam, sonra yazdım da.



## ŞAİR TALEYİ

Deyirlər hər şairin öz məhrəm mövzusu olur. Məsələn, kimi təbiətdən, kimi məhəbbətdən, kimi siyasətdən yazır. Ancaq elə şair də olur ki, burnunu hər mövzuya soxur. Yazacağı şeir xoşa gəlsə də, gəlməsə də yazır. Təki desinlər ki, filan şair də filan mövzuda yazıb. Tüstüsü düz çıxandan sonra nə var ki? Elə iş də burasındadır ki, tüstü həmişə düz çıxmır. Axı, hava həmişə bir qaydada olmur. İqlimin küləyi var, yağışı var, qarı var...

Bir rəssam yeni çəkib qurtardığı qadın portretini çərçivəyə salıb otağının divarına söykəyibmiş. Bir qədər gendən müştəri gözüylə öz çəkdiyi şəkilə baxırmış. Bu zaman qapı döyülür. Rəssam içəridən buyur deyir. Qapı açılır. Əlində rəssamın ayaqqabılarını tutmuş pinəçi içəri girir: – Ağa, ayaqqabılarınız hazırdır. Düşündüm ki, bəlkə geyməli oldunuz. Ona görə gətirdim – deyir. Sonra pinəçi rəssamın ayaqqabılarını yerə qoyub o qadın portretinə maraqla baxır. Birdən gözləri qadının ayaqqabılarına sataşır. Görür ki, rəssam qadının ayaqqabılarını yaxşı çəkməyib. Sonra o, ayaqqabıların çəkilişindəki nöqsanları rəssama deyir. Rəssam bu dəfə çəkdiyi ayaqqabılara pinəçinin gözlərilə baxır. Görür ki, pinəçi düz deyir. Çəkdiyi ayaqqabıların nöqsanını düzəldir. Sonra pinəçi qadının paltarına baxır. Paltarda da bir nöqsan olduğunu bildirir. Rəssam qətiyyətlə pinəçiyə: – Yox! Daha bu mənim işimdir. Sənin işin deyil – deyir...

Hər adamın bir qapısı var. O da evinin qapısıdır. Qəribə olsa da, mənim iki qapım var. Biri evimin qapısıdır. Biri də ürəyimin. Ürəyimin qapısı evimin qapısından daha çox döyülür. Evimin qapısını döyənlər kömək, məsləhət, ünvan istəyir. Ürəyimin qapısını döyənlərsə, yeni əsərlər istəyir. Yenə tanış oxucularımdan bir neçəsi ürəyimin qapısını döyür. Məndən əsər istəyir. Mən də məmnuniyyətlə yaxından tanıdığım bir şairin təzadlarla dolu həyatından bir neçə səhnəni ağ vərəqlərə köçürməyə başlayıram. Deyirlər qədimdə şairlər bir-biriylə yola getməyib, bir-birinə paxıllıq edib, bir-birinə həcv yazıb, bir-birinə böhtan atıb. Hətta müşkülə düşəndə qələm yoldaşını satıb. Mən bunları görməmişdim. Ağızlardan eşitmişdim, kitablardan oxumuşdum. Ancaq sonralar yaşadığım dövranda öz gözlərimlə gördüm. Doğrusu, çox təəssüf etdim. Məncə şair şairin ayağını çəkməməlidir. Yox! Təəssübünü çəkməlidir. Bəli! Fərəhi ilə fərəhlənməli, qüssəsi ilə qüssələnməlidir. Özü də qələmin xatirinə! Axı qələm müqəddəs şeydir. O şairləri yoldaş yox, qardaş edir! Qardaşlaşmış şairlər bir-birinin qüsurlarını qisasla dolu kinayə ilə yox, nəzakətlə dolu təəssüflə göstərirlər. Bilirlər ki, məhəbbət olan yerdə kin-küdurət ola bilməz.

Vətənin təbiəti sanki neçə-neçə dövran görmüş mehriban anadır. Hər fəsil isə Vətən təbiətinin məhəbbətlə, ünsiyyətlə boya-başa çatdırdığı doğma övladıdır. Yaz yaşıl donlu gözəl qızdır, yay od ürəkli məğrur oğlandır. Payız sarı yollar salan ahıldır, qış ağ kürklü müdrik qocadır. İnsan Vətən ocağının qara köynəkli külünü də, yaylağının ağ köynəkli gülünü də sevməli-



dir. O yaxşı gündə də, yaman gündə də, Vətəndə də, qürbətdə də elə Vətənlə olmalıdır. Vətənsizlik qədirsizlik, dəyərsizlik, hörmətsizlikdir. Vətənlilik insana ağırlıq, vətənsizlik insana yüngüllük gətirir. Vətənli insanın ürəyi dolu, Vətənsiz insanın ürəyi boş olur...

İran İslam İnqilabından bir neçə ay keçirdi. May ayının 2-si idi. Evdə əyləşmişdik. Uşaqlar mehriban-mehriban mənə: – Ay ata, yazın əlvan çağıdır. Bəlkə şəhərin tozlu-qazlı qucağından çıxaq? Havamızı dəyişək. Sənin ki, rayonlarda tanışların, dostların çoxdur – dedilər. Mən fikirləşmədən hərarətlə onlara: – Getdik! – dedim. Uşaqlar sevinc dolu maraqla: – Hara? – dedilər. Mən qətiyyətlə: – Şamaxıya! – dedim. Hazırlaşdıq. Yol müqəddəsdir. Təsadüfi deyil ki, insanlar and içəndə – Yol haqqı! – deyir. Axı məslək də, niyyət də, dilək də yoldur. Ona görə də gərək yolu ayaqla yox, ürəklə gedəsən. Yoxsa yol ayaq altında tapdana-tapdana adiləşər. Adiləşə-adiləşə müqəddəsliyini itirər. Biz yola sanki ayaqla yox, ürəklə çıxdıq. Maşını oğlum Natiq sürürdü. Mən oğlumun yanında, qızlar isə analarıyla arxada əyləşmişdi. Şamaxıya yaxınlaşdıqca doğrudan da havamız dəyişirdi. Yalnız havamızmı? Yox! Yorğun gözlərimizin baxışını təzələyən ecazkar mənzərələr də! Ətalətli ovqatımız da! Geniş çəmənlər boz torpaqların geydiyi yaşıl köynəklərə, rəngbərəng çiçəklər isə yaşıl köynəklərin yaxalarına düzülmüş düymələrə bənzəyirdi. Birdən qarşımıza qırmızı bir ilğım çıxdı. Diqqətlə baxdım. Yox! O ilğım deyildi. Laləlik idi. Özü də elə nəhəng idi ki, nə ucu görünürdü, nə də bucağı. Laləliyə heyrətlə baxdım. Doğrusu, mən heç bir yazda,

heç bir yerdə belə laləlik görməmişdim. Elə təsəvvür yaranırdı ki, yaz günəşi alovlana-alovlana göydən yerə düşmüşdü. Sonra çilik-çilik olub yaşıl çəmənliyə səpələnmişdi. Elə bil, yaşıl çəmənlikdə bayramla matəm bir-birinə qarışmışdı. Sanki günəşin tikələri hələ də yaşıl çəmənlikdə tərpənirdi. Asta-asta yırğalanan qırmızılı-qaralı lalələrin üstündə parlayan şehlər yanan manqala çilənmiş büllur damlaları andırırdı... Göyə baxdım. Gördüm yanılmışam. Günəş göydədir. Buludda gah çıxır, gah batır... Lalələrə baxdım. Sonra dodaqaltı pıçıldadım:

**Güllə dolu yazın oğlan çağında**
**Buludda gah çıxır, gah batır Günəş.**
**Gözün təbiətə heyran çağında**
**Kimə, nəyə görə naz satır Günəş.**

**Lalə mat-mat baxır günəşsiz göyə,**
**Sonrasa yuyunur soyuq tərində.**
**Utanır, qızarır... Deyir mən niyə**
**Bir Günəş olmadım yaylaq yerində.**

**Hüsnünə aldanma allı lalənin,**
**Bayram bir aləmdir, matəm bir aləm.**
**Qırmızı geyinən xallı lalənin**
**Əynində bayramdır, bağrında matəm.**

Daha sonra lalələr səltənətini Şəfiqəyə göstərmək üçün arxaya qanrıldım. Gördüm o gözlərini qıya-qıya lalələrə baxır. Sanki iti baxışlı gözlərini lalələrin möcüzələrlə dolu şəfəqləri qamaşdırır. Soyuq yanaqlarında isə şölələr titrəyir. Mənə elə gəldi ki, lalələrin bir neçəsi çəmənlikdəki tünlükdən təngiyib Şəfiqənin yanaqlarına köçübdür. Amma yox, Şəfiqənin yanaqlarına lalələr köçməmişdi, lalələrin şölələri düşmüşdü. Yadıma haçansa yazdığım kövrək bayatılar düşdü:



**Dilimdə susan muraz**
**Vüsaldan danış bir az.**
**Gecələr yuxuma da**
**Hicran axıdır Araz.**

**Yar yarını itirdi,**
**Kədər kədər gətirdi...**
**Harada vüsal əkdim,**
**Ora hicran bitirdi.**

**Savalan, ey Savalan,**
**Suları ney Savalan!**
**Dünyada səndən deyir**
**İndi hər şey, Savalan.**

Mənə elə gəldi ki, heyran-heyran baxdığım bağrı yanıq lalələr də həsrətdən yana-yana Savalanı anır... Meh altında qucaqlaşa-qucaqlaşa bir-birinə Savalandan danışır.

Biz Şamaxı yolunun üstündəki böyük üzüm sovxozuna çatdıq. Məqsədimiz sovxozun qonaq evində qalmaq idi. Maşını qonaq evinin qabağına sürdürdüm. Yanımızdan keçən adamlardan qonaq evinin müdirini soruşdum. Dedilər evinə gedib. Dalınca adam göndərtdim. Bir də gördüm ki, yerlimiz Abdulla Əmirəli gülə-gülə mənə doğru gəlir. Görüşdük, qucaqlaşdıq, öpüşdük. Sən demə, qonaq evinin müdiri o imiş. (Nədənsə tanışları Abdulla Əmirəliyə Məşdi deyirdilər). Mən

Məşdiyə qonaq evində qalmaq istədiyimizi dedim. O qətiyyətlə mənə: – Yox! Elə şey olar? Mənim evim ola-ola siz niyə qonaq evində qalasınız. Eşidənlər nə deyər? Siz bizim əziz qonaqlarımızsınız. Burdan birbaş bizə gedəcəyik – dedi. Mən etiraz edə bilmədim. Yadıma 1953-cü ilin yayı düşdü. Ailəmlə Şamaxı kəndlərindən birində istirahət edirdim. Arabir Məşdigilə də gəlirdim. Həm döyüş, həm əmək qəhrəmanı Abdulla Əmirəli haqqında poema yazmaq istəyirdim. Ancaq material az olduğuna görə ona "İki cəbhənin qəhrəmanı" adlı bir geniş süjetli şeir həsr etdim. Şeir kitabımda çap edildi. İndi o kitabdan birini özümlə gətirmişdim. Bilirdim ki, Şamaxıda hökmən Məşdi ilə görüşəcəyəm! Onda bu kitabı qəhrəmanın özünə təqdim edərəm. Məşdigildə rahatlandıq. Mənim öz ailəmlə sovxoza gəldiyimi eşidən ADF MK-nın sovxozdakı nümayəndəsi Surət də Məşdigilə gəldi. Hərarətlə görüşdük. Surətlə mən Savalan ətəyində qonşu kəndli idik. Mən qovluğumun içindən kitabımı çıxartdım. Sonra təbəssümlə Məşdiyə: – Sənə yazdığım şeir bu kitabda çıxıb. Kitabı sənə yadigar gətirmişəm. Buyur! – dedim. Məşdi təbəssümlə mənə: – Sağ ol – dedi. Sonra kitabı aldı. Ona yazdığım şeirə baxdı. Ancaq oxumadı. Kitabı büküb kitab dolabına qoydu. Məşdinin həyat yoldaşı geniş süfrə açdı. Yedik. İçdik. Məşdi mənə dedi ki, Məhəmməd Biriya da buradadır. Sovxozda qarovulçu işləyir. Ayda altmış manat maaş alır. Heç kəsin yardımını da qəbul etmir. Ürəyimdən bu misralar keçdi:



**Ürək də tar kimidir,**
**Gah coşar, gah kiriyər.**
**Vüqar da qar kimidir,**
**Gah şişər, gah əriyər.**

Surət dedi ki, o dünən sovxozdakı bayram təntənəsində Hitlerin şəklini gəzdirirdi. Ona dedilər ki, sən niyə Hitlerin şəklini gəzdirirsən? Nə desə yaxşıdır? Dedi ki, Hitlerin şəklini ona görə gəzdirirəm ki, yeni nəsillər onu tanısın. Doğrusu, heç kəs bilmədi ki, şair Məhəmməd Biriyanın bu sözlərindəki məna birbaşlıdır, yoxsa ikibaşlı? Nə gizlədim. Mən də Surətin bu sözlərindən heyrətləndim. Bu sirdən baş aça bilmədim. Ancaq Biriyanın müharibə illərində faşizm əleyhinə yazdığı odlu-alovlu şeirləri xatırladım. Məhrəm söhbətli gecə yarıdan keçdi. Surət qalxıb evinə getdi. Biz də yatdıq. Səhər çay-çörək yedikdən sonra Şamaxıya getməyə hazırlaşdıq. Məşdi bizi hörmətlə yola saldı. Maşınımız Şamaxı yoluyla irəliləyəndə kənarda idman paltarı geymiş ağ saqqalı az qala döşünə qədər uzanan bir qoca kişinin dayanıb uşaqlarla söhbət etdiyini gördük. Kişinin ağ saçları çiyinlərinə tökülmüşdü. Bu görkəmdə o boynuna xaç taxmağı unutmuş başı açıq keşişi andırırdı. Sən demə, cavanlıq insanın yalnız sağlamlığı deyil, həm də yaraşığıymış. Qocalıq insandan təkcə sağlamlığını yox, həm də yaraşığını alır. Bəli! Cavanlıq gözəllik, qocalıq kifirlikdir. Müdriklik, nuranilik, kövrəklik sözləri isə yalnız təsəlli üçün deyilənlərdir. Mən yalnız gözlərinin baxışlarından tanıdım ki, o Biriyadır. Üzümü arxaya döndərmədən Şəfiqəyə dedim ki, o Məhəmməd Biriyadır. Deyəsən, Biriya da uzun illərin ayrılığından sonra məni tanı-

mışdı. Yoxsa, gözlərini diqqətlə mənə zilləməzdi. İndi ağ tüklərin arasından baxan gözlər qar örtmüş meşədə itən budaqları xatırladırdı. Kim bilir o budaqların aynasına hansı görüşümüzün əksi düşürdü? Şəfiqə arxadan pıçıltıyla mənə: – Deyəsən o da səni tanıdı – dedi. Maşınımız sürətlə yoxuşa qalxırdı. Quş xəyalım isə yoxuşdan geriyə uçurdu. 40-cı illərin əvvəllərində doğma kəndimiz Çanaxbulaqda yaşayırdım. Sovet ordusunun Təbrizdə "Vətən yolunda" adlı qəzet buraxdığını eşitmişdim. Sonralar o qəzeti Ərdəbilə gedib qayıdan kəndlilərimizin əllərində gördüm. Qəzet ərəb əlifbası ilə nəşr edilirdi. Savadlı kəndlilər o qəzeti oxuyurdu. Savadsız kəndlilər də qulaq asırdı. Tez-tez M.Biriyanın şeirləri oxunurdu. Mən şeirləri diqqətlə oxuyardım. Əruz vəznində yazılmış satirik şeirlərdə M.Ə.Sabirin müsbət təsiri açıq-aşkar duyulardı. Ciddi şeirlərdə isə mübariz bir şairin hərarətli səsi çağlayardı... Bu mənim Biriya ilə qiyabi tanışlığım idi. Sonra mən Ərdəbildə Xalq Partiyasının komitəsində işləməli oldum. Biz Ərdəbil şairləri şəhərdə "Şairlər məclisi" yaratdıq. "Şairlər məclisi"nin fəal üzvləri bütün İranda tanınmağa başladı. 1945-ci ilin yazında "Vətən yolunda" qəzetinin redaksiyası Ərdəbildəki "Şairlər məclisi"nin fəal üzvlərini Təbrizdəki "Şairlər məclisi"nin adından Təbrizə qonaq çağırdı. Mən də Təbrizə gedən qonaqlar arasında idim. M.Biriya ilə də Təbrizdə "Şairlər məclisi"ndə əyani tanış oldum...

1946-cı ilin yanvarında Milli hökumət məni Ərdəbildən Təbrizə çağırdı. Mən Təbrizdə Maarif Nazirliyində tədris şöbəsinin müdiri vəzifəsində işlədim. Söz yox ki, Maarif naziri olan Biriya ilə də işlə əlaqədar



tez-tez görüşdüm, danışdım. O yaxşı geyinərdi. Bir həftənin içində neçə-neçə kostyum dəyişərdi. Şux görünərdi. Deyib-gülərdi. Biriya haçandı ki, bir tacir qızını istəyirdi. Ancaq qızın razılığını ala bilmirdi. Qız müəllimə idi. Hələ ana bətnində girdələşmiş ağ üzündə narın çillər vardı. Ancaq o çillər qızın üzünə xələl gətirə bilmirdi. Adama elə gəlirdi ki, qızın ağ üzünə kirpiklərinin əksi düşmüşdür. Nədənsə mən həmişə o qızı görəndə yadıma on dörd gecəlik Ay düşürdü. Axı, ayın da üzündə çillər var. Ancaq o çillər də ayın üzünə xələl gətirə bilmir. Dedilər ki, Biriya nazir olandan sonra yenə istədiyi qızın yanına elçilər göndərib. Tapşırıb, qıza deyin ki, mən həm nazir Biriyayam, həm də şair Biriya! Hansına gəlir, gəlsin. Elçilər onun bu sözlərini qıza çatdırır. Qız qəhqəhəylə gülür. Sonra eyhamla: – Nazir Biriyanın taleyinin necə olacağı məlum deyil. Getsəm, şair Biriyaya gedərəm – deyir. Elçilər qayıdıb qızın fikrini Biriyaya çatdırır. O da sevinc içində toya hazırlaşır.

Seyid Cəfər Pişəvəri xalqın vəziyyətini nəzərə alıb Biriyaya dəbdəbəli toy etməyi məsləhət görmür. O isə məsləhətə məhəl qoymur. Yazın əvvəli idi. Təbrizlilər o gül fəslində dəstə-dəstə Biriyanın toy məclisinə axışırdı. Mən də onların arasında idim. Bəli! Nazirim məni də toyuna dəvət etmişdi. Necə deyərlər, Təbrizdə quru qurtarmışdı, yaş da hələ yetişməmişdi. Ancaq Biriyanın zəngin toy süfrəsində bütün nemətlər vardı. Sanki masaların üstü müxtəlif təamlarla yox, əlvan tablolarla bəzədilmişdi. Atalar demişkən, quş südü istəyən olsaydı, o da tapılardı. Nəhayət, təntənə ilə başlanan toy tən-

tənə ilə də qurtardı. Sonralar arada belə bir söhbət gəzirdi ki, guya İran tarixində iki əzəmətli toy olub. Biri Məhəmmədrza şahın, biri də Məhəmməd Biriyanın toyu... Mənim yaşadığım mənzilin yerləşdiyi dərbənd Biriyanın qaynatasının evinin yerləşdiyi dərbəndlə yanaşı idi. Gecələr mən şəhər içindən mənzilə qayıdanda Biriyanın maşınını qaynatasının yaşadığı dərbəndin girəcəyində görərdim. Bilərdim ki, həm nazir, həm də şair Biriya qaynatasının qonağıdır. Başqa şairləri bilmirəm, mən Biriyanın şeir oxuduğu məclislərdə, iclaslarda, mitinqlərdə şeir oxuyanda qısılardım. Sanardım ki, heca vəznində yazdığım şeir onun əruz vəznində yazdığı şeirdən sonra cılızlaşıb dinləyicilərə bütün varlığı ilə çatmayacaq. Nə gizlədək. Əruz vəzninin özündə bir musiqi var. O musiqi əruz vəznində yazılan şeirlərin qüsurunun üstünü öz şaqraq avazilə qapaya bilir. Hətta zəif şeirlərə güc də aşılamağa çalışır. Üstəlik, Biriyanın natiqlik məharəti də vardı. O əruz vəznində yazdığı şeirləri elə şövqlə oxuyurdu ki, heca vəznində yazılan şeirlərdən daha əzəmətlə səslənirdi:

**Sanmayın öz yurdumun əsrarına biganəyəm,**
**Mən onun sevdayi-eşqindən bu cür divanəyəm,**
**Şəmə bənzər, dövrəsində fırlanan pərvanəyəm,**
**Qoymaram əsla qoyulsun minnət Azərbaycana!**

**...Bir gözəldir sevdiyim ki, hüsnünün heyranıyam,**
**Mən ona tərif yazan şairlərin qurbanıyam,**
**Bilmirəm sofipərəstəm, arifəm, ruhaniyəm,**
**Qailəm mənada mən bir qiymət Azərbaycana!**

**Biriya.**



Ancaq son zamanlarda Biriya çox az yazırdı. Bahalı əşyalarla bəzədilmiş kabinetində nazirliyi şairliyinə üstün gəlirdi. Sanki nazir Biriya daha yüksək vəzifəyə çatmaq üçün onun başından basırdı. Demokratik poeziyanın ağır yükü altına cəsarətlə girən iki şairdən biri mən idim. Biriya Mirmehdi Etimada çox sataşardı. Yeri gəldi, gəlmədi, fürsət düşdü, düşmədi, adam oldu, olmadı, qocaman şairə söz atardı. M.Etimad da təvazökarlığına salıb üstünü vurmazdı. Mehriban-mehriban gülərdi. Sanki gülüşünün hərarətilə pərtliyini əritmək istəyərdi. Mən işlə əlaqədar Biriyanın yanına gedəndə o söhbətin istiqamətini dəyişib ədəbi aləmə yönəldirdi. Sonra M.Etimadın mətbuatda təzə çıxan, özü də əruz vəznində yazılan şeirindən bir beyt əzbər deyib məndən soruşardı: – Bilirsən bu şeir hansı şairin təsiri ilə yazılıb? Mən etirafla ona: – Yox! Bilmirəm – deyərdim. M.Biriya o şairin adını çəkərdi. Məlum olardı ki, Etimadın təsirləndiyi şair mərsiyə şairidir. Mən isə öz aləmimdə Mirmehdi Etimadı orjinal şair sanırdım. Həqiqətdə də belə idi. Yoxsa Etimadın yaradıcılığına dərin hörmət bəsləməzdim. Milli hökumətin sürudunun (himninin) mətnini yazmaq böyük məsuliyyət tələb edirdi. M.Etimad bu sınaqdan da uğurla çıxmışdı. Məhəmməd Biriya dəfələrlə mənə deyərdi ki, sən yaxşı şairsən. Ancaq geniş mütaliən, ali təhsilin, dərin biliyin olsa, daha yaxşı şair olarsan. Biriyanın özünün də ali təhsili yox idi.

Milli hökumət mənə Təbrizdə Dövlət filarmoniyası yaratmağı tapşırdı. Kollektivimiz Maarif Nazirliyinə tabe idi. Yenə də işlə əlaqədar M.Biriyanın yanına tez-

tez gedirdim. Bəzən mübahisəmiz düşürdü. Məsələ həll olunmayanda o mənə Salamulla Cavidin yanına getməyi məsləhət görürdü. S.Cavid Azərbaycanın Tehrana namizəd göstərdiyi, Tehranın da Azərbaycanda təsdiq etdiyi vali idi. Seyid Cəfər Pişəvəri isə yenə də Demokrat Firqəsinin sədri idi. Ancaq mən bilirdim ki, Biriyanın Pişəvəri ilə arası sərindir. Ona görə də S.Cavidin yox, S.C.Pişəvərinin yanına gedərdim. Filarmoniyanın işlərinə aid ən çətin məsələləri birlikdə həll edərdik...

Yadıma ataların "dost dosta tən gərək, tən olmasa gen gərək" məsəli düşürdü. Ancaq mən Biriyadan gen olsaydım da Təbriz filarmoniyasından Maarif Nazirliyinə gələn yol məni ona yaxınlaşdıracaqdı. Axı Təbriz filarmoniyası Maarif Nazirliyindən asılı idi. Ancaq sonra yadıma ataların "örtülü bazar dostluğu pozar" məsəli düşürdü. Ona görə də aramızda qızışan bütün mübahisələrdə öz mövqeyimi M.Biriyaya açıq bildirirdim...

Belə günlərin birində Maarif Nazirliyi Maarif İdarəsinə çevrildi. M.Biriya Həmkarlar İttifaqına sədr getdi... O, müəyyən səbəblərə görə Bakıya məndən sonra gəlmişdi. Partiya Məktəbində oxuyurdu. On çap vərəqi həcmində kitabı "Azərnəşr"də çapa hazırlanırdı. Biriya kitabın pulunun yarısını alıb dostlarına-tanışlarına xərcləmişdi. Onun zarafatcıllığı ilə yanaşı ciddiliyi də vardı. Biriya Bakıda yaşayan Cənubi Azərbaycan yazıçılarının ağsaqqalı idi. Bir axşam Səməd Vurğunun tapşırığı ilə Osman Sarıvəllinin yanında toplaşıb hansı məsələnisə müzakirə etməliydik. O zaman S.Vurğun Yazıçılar İttifaqının sədri, O.Sarıvəlli isə katibi idi. Biz



O.Sarıvəllinin yanında toplandıq. Müzakirə başlandı. Bu zaman şair Mirmehdi Çavuşi O.Sarıvəllinin yanında əyləşmişdi. Qıçını da qıçının üstünə aşırmışdı. Əlindəki iri dənəli təsbehi dizinin üstdə qəribə bir həvəslə çevirirdi. Təsbehin dənələri bir-birinə dəyəndə elə şaqqıldayırdı ki, sanki qoz sındırırdılar. Biriya arada bir dəfə təsbehə işarə edib M.Çavuşiyə gözlərini ağartdı. Çavuşi də təsbehin səsini bir qədər azaltdı. Ancaq bir neçə dəqiqədən sonra təsbehi yenidən şaqqıldatdı. Biriya daha özünü saxlaya bilmədi. Hiddətlə Çavuşiyə: – Əşi, o təsbehi az şıqqıldat. Görək nə danışırıq. Bizi güllə atəşinə tutmayacaqsan ki, – dedi. Çavuşi dinmədi. Təsbehi ovuclayıb cibinə qoydu. Məsələ həll olundu. Müzakirə qurtardı. Yazıçılar İttifaqından küçəyə çıxdıq. Yolda Biriyada ciddilikdən əsər-əlamət yox idi. O sanki həsədlə M.Çavuşiyə: – Maşallah səndə də güc varmış ha! O təsbehi çevirmək böyük hünər istəyir – dedi. Sonra da güldü. Söz yox ki, biz də güldük. Elə gülə-gülə də bir-birimizdən ayrıldıq. Daha mən Biriyanı görmədim.

Bir gün nədən ötrüsə Yazıçılar İttifaqına getdim. Pillələrlə yuxarı qalxanda Süleyman Rüstəmlə qarşılaşdım. Salamlaşdıq. O həmişə mənimlə rastlaşanda kefimi soruşa-soruşa yanımdan keçib gedərdi. Ancaq bu dəfə keçib getmədi. Qarşımda dayandı. Təəssüf dolu gözlərilə mənə baxıb: – Biriya niyə elə eləyib? Məgər o "Vətən yolunda" qəzetinin redaksiyasında bizim paltolarımızı tutub asılqandan asan Biriya deyil? – dedi. Doğrusu, pərt oldum. İstədim Biriyanın nə qəbahət etdiyini soruşum. Axı, o mənim yoldaşım idi. Özünün

şəxsiyyəti təzadlı olsa da, sənəti tufanlı döyüş yolu keçmişdi. Bəli! Vətənində neçə-neçə mühüm vəzifə daşımış Biriyanın ləkələnməsi günəşli tariximizin hansı səhifəsinəsə kölgə salırdı. Ancaq Süleyman Rüstəm sözlərini deyib qurtarandan sonra tez-tez pillələrdən enib getdi. Sanki dediyi sözlərdən utanmışdı. Yaxud peşiman olmuşdu. Nə isə. O məndən sürətlə ayrıldı. Pillələri asta-asta qalxdım. Sanki çiyinlərimdə ağır yüklər qaldırırdım. Yazıçılar İttifaqında işimi tələsik görüb yaxın bir dostumun evinə yollandım. Başıma gələn əhvalatı ona danışdım. Dostum riqqətlə mənə dedi ki, Biriya Bakıdakı İran konsulluğuna müraciət edib ki, öz ailəsinin yanına qayıtmaq üçün icazə alsın. O zaman Məhəmməd Biriyanın körpə oğlu hələ dil açmamışdı ki, öz atasını istəyə bilsin. Ancaq Biriya öz oğlunu istəyirdi. Özü də var səsiylə. Qadınını da oğlundan az istəmirdi. Dünyada öz ailəsini istəməyən bir insan tapılarmı? Yox! Biriya da öz ailəsini istədiyi üçün "günah"a batmışdı, "cinayətkar" olmuşdu, cəzalandırılmalı şəxsə dönmüşdü.

Mən doğma diyarımdan Biriyadan da qabaq ayrılmışdım. Əlbəttə, öz xoşuma yox, zorla. Ancaq bir zaman gəzib dolaşdığım, ərsəyə çatdığım, fəaliyyət göstərdiyim yerləri unuda bilmirdim. Hətta yuxuda da xatırlayırdım. Yox! Xatırlamaq nədir? O yerlər özləri mənim yuxuma girib. Gürcülər istiotu yaman xoşlayır. Bir gün bir gürcü Moskvada bir restorana gedir. Xidmətçi qadına başqa yeməklərlə bərabər soyutma yumurta da sifariş verir. Xidmətçi qadın soyutma yumurtaları da bir nimçədə gətirib gürcünün qabağına qoyur. Sonra gürcü



xidmətçi qadından iynə də istəyir. Xidmətçi qadın gürcünün paltarının harasınısa çitəyəcəyini zənn edib müştərisinə iynə də verir, sap da... Sonra gedir. Xidmətçi qadın başqa müştəriyə yemək aparanda gürcünün yanından keçir. Gürcünün iynəylə soyutma yumurtanı deşmək istədiyini görüb maraqlanır. Ayaq saxlayır. Gürcüdən soyutma yumurtanı niyə deşmək istədiyini soruşur. Gürcü deyir ki, soyutma yumurtanı iynəylə deşib içərisinə istiot yeritmək istəyir. Qadını heyrət bürüyür. Daha gürcüyə bir söz deməyib gedir. Bilmirəm bu hadisə doğrudur, yoxsa yalan, həqiqətdir, yoxsa lətifə, bütövdür, yoxsa qurama, ancaq mən də doğma diyarımdan ayrılandan sonra başqa sayaq o gürcünün gününə düşmüşdüm. Elə bir yazım olmazdı ki, oraya doğma diyarıma aid azı bir neçə söz salmaq üçün yer axtarıb tapmayım...

Bir zaman qoca şərqdə yalnız bir Aşıq Qərib vardı. Haqqında dastan yaranmışdı, opera yazılmışdı. Aşıq Qərib tamaşasına ağlaya-ağlaya baxan analar, gəlinlər, qızlar səhnədə son pərdə salınana qədər yaşlı gözlərinin bulaqlarında neçə-neçə yaylıq isladırdılar. İndi bu boyda dünya qərib karvanlarını tutmur. Göz yaşlarını qurutmaq üçünsə analara, gəlinlərə, qızlara yaylıq çatışmır. Əgər bütün ölkələrin toxuculuq fabrikləri gündüz də, gecə də yalnız yaylıq buraxsa, yenə də çatışmaz. Dünya özü dəyişdikcə qucağında nə varsa, hamısını dəyişir. Bəli! Hətta qəribin də adını dəyişib mühacir qoyur. Mühacir sözü isə həm coğrafi, həm də siyasi məna daşıyır. Mühacir sığındığı diyarda öz diyarını gündüzlər yaddaşında xatırlayır, gecələr isə yuxusunda görür. Dünyada ən böyük arzusu öz diyarına qovuşmaq olur.

Qədimdə min dəhşət törətmiş hökmdarların bir yaxşı cəhəti də var idi. Bəlkə də bu yaxşı cəhəti onlar bilməyərəkdən özlərində yaşadırdılar. O yaxşı cəhət nə idi? Qəddar hökmdarlar günahkarların dərilərini soyduranda gözlərini cəzalandırmazdı. Günahkarlar son nəfəsləri qalınca gözləri ətrafındakı mühiti görərdi... Bu tayda siyasi mühacirlər arasında yaşayan Məhəmməd Biriyanın da gözləri cəzalandırılmamışdı. Ətrafındakı mühiti yaxşı görürdü. Ancaq sanki Biriya öz gözləri ilə hesablaşmaq istəmirdi. Dünənki nazirin, bu günkü siyasi mühacirin şəxsiyyəti də təzadlı idi. Belə ki, o həm vətənpərvər, həm də mənsəbpərəst idi. Mənsəb isə insanı çox şeydən məhrum edir... Milli hökumətin süqutundan sonra o tayda yalnız Biriyanın arvad-uşağı qalmamışdı. Yox! O taydan bu taya keçənlərin arxada hər şeyi qalmışdı. Kiminin arvadı, kiminin həm arvadı, həm uşağı, kiminin nişanlısı, kiminin barmağına nişan üzüyü taxmağa macal tapmadığı sevgilisi qalmışdı. Atalar deyib ki, ellə gələn yas da toydur. Palaza bürün, ellə sürün. Özü də məqsədinin hədəfinə doğru sürün! Ancaq unutma ki, məqsədinin hədəfinə doğru sürünəndə sınaqlarla dolu bir körpüdən keçəcəksən. O körpünün adına iradə deyirlər. O körpüdən qürurla keçənlər ləyaqətlərini də özləri ilə bütöv keçirirlər. Bəli! Ləyaqətlərinin parçalanmasına dözə bilmirlər. Biriya isə iradə adlı körpüdən öz ləyaqətini parçalaya-parçalaya keçirdi. Beləliklə, iradə adlı körpü onun gələcək faciələrinin təməlinə çevrilirdi... Nəhayət, Biriyanın arzuladığı, yox, qətiyyətlə istədiyi öz diyarının yolu həbsxanaya gedib-çıxır. Bəli! Qərib şairi tutub damlayırlar.



Atalar deyib ki, kiminin əvvəli, kiminin axırı. Söhbət insandan gedir. Elə insan var ki, əvvəli pis olur, axırı yaxşı. Elə insan da var ki, əvvəli yaxşı olur, axırı pis. Mən insana birinci qisməti diləyərdim. Ona görə ki, hər şeyin axırı yaxşı olmalıdır. Bəli! Əgər bir əsərin axırı güclü olmasa, özündən əvvəlki zəif parçaları öz çiyinlərində qaldıra bilməz.

Aradan illər keçir. Başqa mühacirlərin də hərəsinin başına bir iş gəlir... Şəxsiyyətə pərəstiş ləğv edildikdən sonra Bakıdan Məhəmməd Biriyanın yanına nümayəndələr getdi. Qərib şairi ikinci qəriblikdən, yəni uzaq sürgündən Bakıya gətirdilər. Biriya daha azad idi. Şəhərin ən gözəl küçələrindən birində ona içi dolu mənzil verildi. On çap vərəqi həcmində kitabı yenidən çapa hazırlandı. Ancaq bu tədbirlər də uzun çəkmədi. Dedilər ki, orda-burda Sovet hökumətinin əleyhinə danışır. Bir müddət sonra yenə görünmədi. Məlum oldu ki, sürgündədir. Yenə aradan illər keçdi... Xəbər yayıldı ki, Biriya sürgündən Bakıya qayıdıb. Ancaq Sovet orqanları onun Bakıda yaşamasına icazə vermir. Gərək o Rusiya şəhəri Tambovda yaşasın. M.Biriya Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə şeirlə məktub yazıb deyib ki, "Heydər ağa, Heydər ağa, Təbriz hara? Tambov hara?". Heydər Əliyev də Biriyanın Bakıda yaşamasına icazə verib. Elə o günlərdə dedilər ki, Bakıdan Parisə ədəbi konfransa gedən bir alim qayıdıb. O Məhəmməd Biriyanın oğlundan maraqla danışır. Deyir konfransda yaraşıqlı bir gənc hərarətlə çıxış etdi. Dedi, mən Təbrizdənəm. Ədəbiyyatla məşğulam. Sonra Şəhriyar haqqında danışdı. Şairin ana dilində yazdığı şeir-

lərindən misallar çəkdi. Misraları Təbriz ləhcəsində elə gözəl oxudu ki... Fasilədə mən o gənclə tanış oldum. Sən demə, o gənc M.Biriyanın doğma oğlu imiş. Daha sonra dedilər ki, oğlu atasının vətənə qayıtması üçün əlindən gələni əsirgəməyib. Hətta şikayət dolu səsi BMT-yə də gedib çıxıb.

Biriya isə Bakıda yas yerlərində mollalıq edirdi. Unudulmaz "21 Azər" Nezhətinin mübariz iştirakçılarından biri Z.Şərifi vəfat edəndə mən Bakıda deyildim. O mənim qonşum idi. Elə mehriban, xeyirxah, alicənab yoldaş idi ki... Keçdiyi ömür yolu qısa olsa da uzun dastanlara layiq idi. Bəli! Elə Təbrizdə gördüyü işlər neçə-neçə əsərin mövzusu ola bilərdi... Mən Bakıya qayıdanda eşitdim ki, Z.Şərifi vəfat etdikdən sonra meyidini yumaq üçün Göy məscidə aparıblar. Sən demə, M.Biriya da Göy məscidin həyətində ölüyuyan imiş. Bəli! Məhəmməd Biriya əvvəl şair, sonra nazir, sonra dustaq, daha sonra isə mürdəşir olub. Hansı şair, haçan, harada belə tükürpədən ömür yolu keçib? Bəlkə biz bilmirik? Tarix bilir? Yox! Belə dəhşətli ömür yolu heç tarixin də yadına gəlmir. Gəlsəydi, deyərdi. Biriya Z.Şərifinin meyidini yuya-yuya təəssüflə yalnız: – Şərifi! Axı biz belə deməmişdik – sözlərini pıçıldayır...

Doğrusu, bu dəhşətli əhvalat məni yaman sarsıtdı. Düşündüm ki, bu hadisə bir döyüşdə baş vermiş olsaydı, mən bəlkə də qürurlanardım. Deyərdim ki, bir döyüşçü həlak olmuş döyüşçü yoldaşını dəfn etməzdən əvvəl yuyub daha da qüdsiləşdirir, ülviləşdirir, müqəddəsləşdirir. Bu iş şərəfdir, etibardır, hörmətdir. Ancaq Göy məscidin həyətində dönük talelərin əllərilə yara-



nan acınacaqlı mənzərə yəqin ki, həssas ürəklərdə gileylə dolu təəssüf doğururmuş...

Bakıda yaşayan iranlı siyasi mühacirlər Mirzə İbrahimovun anadan olmasının 60 illiyini təntənə ilə qeyd etmək üçün öz klublarının salonuna toplanmışdılar. Yubilyar haqqında məruzədən sonra çıxışlar başlandı. Mən kürsüyə qalxıb M.İbrahimova həsr etdiyim "Əjdər oğlu" adlı şeirimi oxudum. Salondakılar şeiri hərarətlə dolu sürəkli alqışlarla qarşıladılar... Keçib Rəyasət Heyətində öz yerimdə əyləşdim. Sonra səhnədən təzəcə sakitləşən salona minnətdarlıqla baxdım. Bu zaman salonda əyləşənlərin arasında qara saqqallı bir adam göründü. Deyəsən töyşüyürdü. Sanki gədik aşmışdı. Töyşüdükcə döşündə saqqalı qalxıb-enirdi. Sanki döşünün həyəcanını yatırmaq istəyirdi. O, riqqətlə Rəyasət Heyətinə: – Olar mən də bir şeir oxuyum? – dedi. Sən demə, bu salonda o saqqallı adamı məndən başqa hamı tanıyıbmış. Hətta Rəyasət Heyətində əyləşən Qulam Yəhya da. Ancaq təəccüblü burası idi ki, hamı saqqallı adamı tanıya-tanıya ona heyrətlə baxırdı. Saqqallı adam cibindən dörd qatlanmış əzik bir vərəq çıxartdı. Yanımda əyləşən Qulam Yəhya əlilə salonda kiməsə işarə ilə bildirdi ki, saqqallı adamı eşiyə çıxartsın. Kimsə istədi ki, saqqallı adamı özüylə eşiyə aparsın. Ancaq o, müqavimət göstərdi. Getmək istəmədi. Rəyasət Heyətində əyləşən M.İbrahimov əlini salona uzadıb saqqallı adamı zorla aparmaq istəyən adama dedi ki, ona dəymə, qoy qalsın! Mən heyrətlə gah Mirzə İbrahimova, gah da saqqallı adama baxdım. Sən demə, o saqqallı adam salondakılar üçün Məhəmməd Biriya

imiş, mənim üçünsə novella qəhrəmanı. Axı, hardan biləydim ki, o Biriyadır? Gör neçə ildir ki, bir-birimizi görmürdük. Deyirlər Vətəndə bir-biriləriylə tez-tez görüşənlər, qürbətdə də bir-biriləriylə tez-tez görüşməyə can atırlar. Ancaq bizim nə Vətənimiz Vətən oldu, nə qürbətimiz qürbət... Saqqallı adam şeirinin elə ilk misrasını oxuyanda bildim ki, bu doğrudan da Biriyadır. Yalnız səsindənmi? Yox! Həm də özünəməxsus avazla şeir oxumağından! Şeir yubilyara həsr edilmişdi. Hər bəndin sonunda nəqarətə dönən "Ay Mirzə qardaş!" ifadəsi şeirə xüsusi musiqi aşılayırdı. Mənə elə gəldi ki, bu heç keşməkeşlərlə dolu zamanın dolaşıq yollarından tərəddüdlə keçən Məhəmməd Biriya deyil, Təbrizdə qətiyyətlə şeir oxuyan Biriyadır.

İnsafən, şeir səmimiyyətlə yazılmışdı. Ləyaqətli ithaf idi. Biriya şeiri oxuyub qurtarandan sonra əyləşmədi. Vərəqi də cibinə qoymadı. Yox! İntizarla Mirzə İbrahimova baxdı. Sanki öz töhfəsinin dəyərini bilmək istədi. Ancaq yubilyar şeir haqqında bir söz demədi. Üzünü Biriyaya sarı tutub təəssüflə: – Təbiət sənin ürəyində bir ilham çırağı yandırmışdı. Amma sən onu öz əlinlə söndürdün – dedi. Biriya M.İbrahimova heç nə demədi. Vərəqi cibinə qoyub yerində əyləşdi. İclas qurtarandan sonra nə qədər göz gəzdirdimsə, Biriyanı iclasa gələnlər arasında görə bilmədim.

Sonra dedilər ki, guya o yenə orda-burda Sovet hakimiyyəti əleyhinə danışdığı üçün Bakıda yaşamağı məsləhət görülməyib. Şamaxıdakı üzümçülük sovxozuna göndərilib. Bu sovxozu o taydan gələn mühacirlər yaratmış, sonra da sakinləri olmuşdular. Məhəmməd Biriya sanki öz həmvətənlərinin sərəncamına göndərilmişdi. Bir gün söz çıxdı ki, Biriyaya Vətənə qayıtmaq üçün icazə verilib. O Şamaxıdan Bakıya gəlib. Əlində yalnız bir torba varmış. Torbanın da içində diş fırçası, sabun, beş-altı konfet... Ancaq Biriya gəmiyə mindikdən bir az sonra gəmidən düşürülüb və yenidən Şamaxıya qaytarılıb.



Mən ailəmlə Şamaxını gəzib Bakıya gəldim. Günlər keçdi. Dedilər Biriya Vətənə gedib. Özü də qatarla. Daha bu dəfə onu yolda saxlayan olmayıb. Özümdə şübhə yeri qoymamaq üçün bir qələm dostuma zəng vurdum. Dostum etirafla: – Hə, nəhayət getdi! Biz də pul yığıb ona bir qədər şey-şüy aldıq – dedi.

Bəli! Qatar Culfadan çıxdı. Təbrizə doğru irəlilədi. Ancaq nə Təbriz o Təbriz idi, nə də Biriya o Biriya. Aradan nə az, nə çox, keşməkeşlərlə dolu qırx ildən artıq keçmişdi. Üfüqdə batmaqda olan Günəşin son şəfəqləri vaqonun pəncərəsindən içəri düşürdü. Sanki Günəş batabatda Biriyanı yanındakı sərnişinlərə tanıtmaq, sonra da boynuna minnət qoymaq istəyirdi. Ancaq Günəşin bu təşəbbüsü hədər idi. Biriya daha nə şairə, nə də nazirə bənzəyirdi. Yox! İndi o əsrlər arxasından gələn ağ saçlı, ağ saqqallı kahini xatırladırdı... Bu zaman bir sərnişin vaqonun divarından asılmış radionu səsləndirdi. Radioda "Bulaq" verilişi gedirdi. Diktor yanıqlı-yanıqlı, hansı qərib şairinsə nisgil dolu bayatısını oxuyurdu:

**Kim məslək üstdə gedər,**
**Səsində şəst də gedər.**
**Qürbətə sağlam gələr,**
**Vətənə xəstə gedər...**

Qəribəydi. Radioda bayatı oxuyan diktor Vətəndə ola-ola qürbətdən şikayətlənirdi. Qürbətdən Vətənə gedən Məhəmməd Biriya susurdu...

Bir müddət keçdi. Dedilər Biriyanın Təbrizdə kitabı çıxıb. Özü də təzə şəkli ilə. Nə saçına qayçı dəyib, nə saqqalına. Hər ikisinin də ağlığı öz yerində. Kitabda onun bu tayda başına gələn əhvalatlardan bircə söz də yazılmayıb. Kitab Bakıya da gəlib çıxıb. Ancaq mən o kitabı görmədim.

Yenə günlər keçdi. Bir qələm dostum mənə Qərbi Almaniyada çıxan "Ana dili" qəzetini gətirdi. Dedi Biriya Təbrizdə vəfat edib. "Ana dili"nin bu nömrəsində o haqda yazıblar. Qəzeti alıb baxdım. Bəli! Biriyanın vəfatı haqqında redaksiya qəzetdə yazı buraxmışdı.

Ürəyin qədrini bilmək gərəkdir. Yox! Həm də ürəyi qayğı ilə qorumaq gərəkdir. Axı ürəkdən fədakar, cəfakeş, ecazkar bir varlıq yoxdur. Gündüz də, gecə də ürəyin məqsədi yalnız insanı yaşatmaqdır. Ürəyi gəmi kapitanına bənzədirlər. Gəmi fəlakətə uğrayıb fırtınalı dənizdə qərq olanda kapitan bütün sərnişinlərdən sonra gəmidən düşür. Ürək də insan bədənində bütün üzvlərdən sonra ölür... Məhəmməd Biriyanın ürəyi də bədənindəki bütün üzvlərdən sonra Vətəndə ölmüşdü. Bəli! Qəriblikdən sakinliyə keçən ruhun yeganə təsəllisi bu olmuşdu ki, sahibinin ürəyi məhz Vətəndə ölmüşdü.



Qəzetin məlumatına görə Təbrizdə hakimiyyət başında olan din xadimləri Biriyanı həbs edirlər. Sonra ona deyirlər ki, sən Sovet hökumətinin əleyhinə nə bilirsənsə, danış. Səni buraxaq. Biriya bu təklifi qətiyyətlə rədd edir. Deyir mən hələ Stalinin zamanında işgəncələrə məruz qalanda da Sovet hökumətinin əleyhinə danışmamışam. İndi də danışmaram. Sovet adamlarının bir dırnağını sizin bütün vücudunuza dəyişmərəm. Din xadimləri Biriyanı döyə-döyə kötək altında öldürürlər. Mən yazının bu yerini oxuyanda ixtiyarsız pıçıldadım:

**İnsan ölənəcən sonsuz zaman tək**
**Dünyanın əzabı bitən deyildir.**
**Tarix yazıldıqca nəhəng dastan tək**
**Yaxşı da, yaman da itən deyildir.**

Məhəmməd Biriyanın ömür kitabı da yaxşılı-yamanlı təzadla naxışlanıb. Özü də dönə-dönə... Dedilər Biriyanın məhrəm ailəsi biganələşibmiş. Bəli! Zaman-zaman ailə həsrəti çəkən, onun ucbatından bütün məşəqqətlərə fanatikcəsinə dözən şairin üzünə nə qadını baxıb, nə də oğlu. Bu da qiymət, bu da vəfa, bu da insaf! Haçansa, kimsə – bir yandan bağlayan fələk bir yandan açar – deyib. Ancaq fələk M.Biriyanın üzünə hər yanı bağlayıb. Qürbətdə qəribləşən şair Vətəndə də qəribləşib. Yadımdadır. Hələ yeniyetmə çağımda kəndimizdə əli hər yandan üzülən adama "Əli aşından da olub, Vəli aşından da" deyərdilər. Mənə elə gəldi ki, Biriyanın şirinli-acılı taleyi də əli hər yandan üzülən adamın taleyinə bənzəyir...

Bir axşam telefonumuz səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran Mirqasım Çeşməzər idi. Milli hökumət

zamanı o Azərbaycan Radio Verilişləri Komitəsinin sədri, mən isə Azərbaycan Dövlət Filarmoniyasının müdiri idim. M.Çeşmazər dedi ki, M.Biriya haqqında bir məqalə yazmışam. İstəyirəm sən əvvəl o məqaləni oxuyasan, sonra çapına kömək edəsən. Müsahibimlə razılaşıb dəstəyi yerinə qoydum.

Sabahı Çeşmazərlə evimizin yanında görüşdük. O yazdığı məqaləni mənə verdi. Mən də məqaləni evə gətirib diqqətlə oxudum. M.Çeşmazər M.Biriyanın əzabla dolu həyatından danışan məqalənin adını "Məşəqqətli ömür" qoymuşdu. O Məhəmməd Biriyanın keçdiyi ömür yoluna yaxşı bələd olduğu üçün bu mövzuda qayğıyla qələm çalmışdı. Məqaləsini oxumağımı ona görə məndən xahiş etmişdi ki, mən də az-çox Biriyanın həyatıyla tanış idim. Doğrusu, məqaləni oxuduqca M.Biriya ilə neçə-neçə görüşüm yadıma düşürdü. Sanki gözlərimin qarşısından Milli hökumət zamanı çəkilmiş unudulmaz səhnələrlə dolu kino lentləri keçirdi. Gah sevinirdim, gah kədərlənirdim, gah həyəcanlanırdım, gah qəzəblənirdim. Bəli! Haldan-hala düşürdüm.

M.Çeşmazərin M.Biriya haqqında yazdığı "Məşəqqətli ömür" adlı məqaləsi "Ədəbiyyat və incəsənət" qəzetində çıxdı.

## QƏBRİSTANDA FATİHƏ

Şəfiqə bazara getmişdi. Evə dərin sükut çökmüşdü. Mən divanda uzanıb roman oxuyurdum. Birdən küçədən qarışıq səslər gəldi. Durub eyvana çıxdım. Yaşadığımız binanın qarşısında küçə boyu maşınlar düzülmüş-



dü. Adamlar üçüncü bloka gedirdilər. Eyvanlara çıxan qonşular gah maşınlara, gah da adamlara baxırdılar... Elə bu zaman Şəfiqə bazardan qayıtdı. O kədərlə mənə: – Bu gün İslam Səfərlinin qırxıdır. Qəbr üstə gedəcəklər. Sən də geyin aşağı düş. Sonra gecikərsən – dedi. Mən hüznlə Şəfiqəyə: – Yaxşı, – dedim. Sonra geyinib evdən çıxdım. Maşınların birinə əyləşdim. Maşın karvanı qəbristanın yanında dayandı. Qəbristanın bir adı da qəribstandır. Bəli! Qəbristanda yatanlar sanki öz məskənlərindən ayrılıb qəribliyə düşür. Neçə-neçə həmyerlisinin arasında da qərib olur. Sanki qəbristana ziyarətə gedənlər ona görə gedirlər ki, öz doğma adamlarını yoxlasınlar. Onları qəriblikdə darıxmağa qoymasınlar.

Adamlar maşınlardan düşdülər. Şairin qəbrini dövrəyə aldılar. İslam Səfərlinin qəbri ucalmış kürsüyə bənzəyirdi. Sanki şair indi kürsüyə qalxıb özünəməxsus ilhamla şeir oxuyacaqdı. Ancaq İslam qırx gün idi ki, kürsünün altında susurdu. Düşündüm ki, bir kövrək gülə dönmək öləndən sonra bir tunc heykəl olmaqdan yaxşıdır. Axı gül də canlıdır. Öz rəngi, öz ətri, öz nəfəsi var. Adamdan daha həssasdır. Tunc heykəlin isə quru görkəmindən başqa heç nəyi yoxdur.

Azərbaycanda qəbir müqəddəs sayılır. Deyirlər qədim Alban hökmdarı Cavanşir öləndə vəsiyyət edib ki, məni Vətənin sərhəddində basdırın. Sonra qəbrimin işğalçıların ayaqları altında qalmasını qeyrətlərinə sığışdırmayan oğullarım Vətəni fədakarlıqla qoruyarlar.

Gələnlər özləri ilə gətirdikləri təzətər gül dəstələrini şairin qəbri üstə qoydular. Bayaqkı boş kürsü indi ətirlə dolu gül təpəsini xatırlatdı. Qələm dostları İslam Səfərli haqqında öz ürək sözlərini dedilər... Sonra qəbrin ətrafına ağır bir sükut çökdü. Nə dinən, nə danışan oldu. Heç kim də heç yerə gedə bilmədi. Sanki kimdənsə icazə gözlədi. İcazə verən isə yox idi. Axı müsəlman qəbrinin üstə molla aparardlar. Molla qəbr üstdə əvvəl yasin oxuyar, sonra fatihə verər ki, gələnlər qayıdıb getsin. Bəli! Rəhmətə gedən şəxsə öz bəşəri borcunu verənlər yalnız bundan sonra qəbristandan geriyə dönər. Biz isə özümüzlə qəbr üstə molla aparmamışdıq. Adamlar hələ də şairin qəbrinin ətrafında ayaq üstə dayanmışdılar. Sükuta qərq olmuş canlılar indi cansız heykəllərə dönmüşdülər. Mən sakit-sakit İslamın qəbrinə baxdıqca şairlə çoxsaylı görüşlərimdən bəzi dəqiqələri xatırlayırdım.

Bir dəfə nahar etmək üçün "Köhnə Avropa" restoranına getdim. İçəri girəndə İslam Səfərlini bir mizin kənarında tək əyləşib nahar etdiyini gördüm. Heyrətləndim. Ona görə ki, İslam Səfərli restorana tək getməzdi. Yox! Öz qələm dostları ilə gedərdi. Qəribədir. Şairlər təklikdə yazdıqları üçün təkliyi sevsələr də, İslam təkliyi sevməzdi. Axı təklik sükut deməkdir. Sükut isə qəm mücəssəməsidir. O isə sükut yox, təntənə aşiqi idi. Məni görcək əlini qaldırıb yanına çağırdı. Gedib mizin kənarında qələm yoldaşımla üz-üzə əyləşdim. Bir az ordan-burdan söhbət etdik. Yemək sifariş verdik. Gətirdilər. Yeməyə başlayanda İslam Səfərli aşağıya baxıb ufuldadı. Yandan əyilib İslamın ayaqlarına baxdım. O başını yuxarı qaldırıb məhrəmliklə mənə: – Dost adamın başına baxar, düşmən ayağına. Ancaq sən dostsan, düşmən deyilsən – dedi. Sonra danışdı ki, Mir Cəfər Bağırovun zavalına gəlib. Dördgözün tapşırığı ilə onu işdən çıxarıblar. Əsərlərinin çapını saxlayıblar. Qələm yoldaşları meydandan uzaqlaşdıqlarına görə o daha tək gəzir...



Aradan günlər keçdi. Köhnə qonşumuz Cəlil Abbasov Şəfiqə ilə məni qızının nişanına çağırdı. Getdik. Geniş otaq qonaqlarla dolmuşdu. Ev sahibi hörmətlə bizi yuxarı başda əyləşdirdi. Cəlil özü naxçıvanlı olduğuna görə qonaqların çoxu naxçıvanlı idi. Naxçıvanlı qonaqlar məni yaxşı tanıyırdı. Axı mən o taydan bu taya keçəndə əvvəl Naxçıvan torpağına ayaq basmışdım. Heydər Əliyevi də ilk dəfə o nişan məclisində gördüm. Onda o Respublika Dövlət Təhlükəsizliyi Komitəsində işləyirdi. Məclisdəkilər İslam Səfərlini masabəyi seçdilər. O sanki özü şair olduğu üçün məclisin təntənəsini şeirlə başlamaq istədi. Hərarətlə məclisə: – Söz verilir o taylı şair qardaşımız Əli Tudəyə. O taydan bu taya keçəndə Naxçıvanda yazdığı "Mən nə gətirdim" şeirini oxusun – dedi. Məclisdəki başlar o yan-bu yana çevrildi. Bəli! Gözlər məni axtardı. Yerimdən ayağa qalxıb şeiri oxumağa başladım. Nə görsəm yaxşıdır? Məclisdə məndən başqa da bu şeiri dodaqaltı oxuyanlar var. Sanki mən solo, məclis isə xor oxuyurdu. Təəccüblü bir şey yox idi. O zaman çoxu bu şeiri əzbər bilirdi. Şeiri oxuyub qurtardıqdan sonra yerimdə əyləşdim. Ancaq alqışlar pərvazlanmaqda davam etdi...

Təzə kitabım çıxmışdı. Ancaq qonorarını hələ almamışdım. Gərək kitabdakı şeirlərin təzəliyini-köhnəliyini kitab palatasında yoxlayaydılar. Sonra nəticəni nəşriyyatın mühasibatına göndərəydilər. İş yubanırdı. İşi sürətləndirmək məqsədilə kitab palatasına getdim. Orda işləyən yaraşıqlı bir qız kitablarımı gətirib qarşısına yığdı. Özümə də söz verdi ki, kitabdakı şeirləri tezliklə yoxlayıb qurtaracaq. Bu zaman İslam Səfərli kitab palatasına gəldi. Mehribanlıqla görüşdük. O maraqla qızın qarşısındakı kitablara baxdı. Sonra heyrətlə mənə: – Bu kitabların hamısı sənindir? – dedi. Cavab verməsəm də olardı. Axı kitabların üstündə adım yazılmışdı. Mən qürurla – Bəli! – dedim. O səmimiyyətlə: – Maşallah – dedi. Mən İslamla xudahafizləşib kitab palatasından çıxdım.

Aradan bir neçə gün keçdi. Bir gün nəşriyyatın mühasibatına getdim. Pillələri yuxarı qalxanda İslam Səfərli aşağı düşürdü. Pillələrdə görüşdük. Mən yuxarı səkiyə çatanda dayanıb aşağı baxdım. İslam da necə oldusa aşağı səkiyə çatanda dayanıb yuxarıya baxdı. Gördü dayanıb ona baxıram. O da dayanıb mənə baxdı. Mən səmimiyyətlə dolu təbəssümlə İslama: – Maşallah yaxşı kökəlibsən – dedim. O da səmimiyyət dolu təbəssümlə mənə: – Nə etmək? Sənin kitabların kökəlir, mənim isə görkəmim. O gün kitab palatasında sənə deyəcəkdim, ancaq tez getdin. Sənin "Bakı gecəsi" şeirində ulduz dolu kəhkəşanı göyün yaxasında medal düzümünə bənzətməyin xoşuma gəldi. Gözəl təşbehdir – dedi. Mən təvazökarlıqla: – Tərifinə görə təşəkkür edirəm – dedim.



Sonralar biz Yazıçılar evində İslam Səfərligillə qonşu olduq. Hər gün eyvanda, qapıda, küçədə görüşdük. Şair xəstələnmişdi. Xəstəxanadan təzəcə çıxıb evinə gəlmişdi. İndi yalnız eyvanda görüşürdük. Bir axşam radioda görkəmli bəstəkar Cahangir Cahangirovun İslam Səfərlinin sözlərinə yazdığı mahnıları səsləndirirdilər. Mən bu mahnıları dönə-dönə heyranlıqla dinləmişdim. Ancaq yenə heyranlıqla dinlədim. Üstəlik, Təbrizin Cahangirli günlərini də xatırladım. Nə gizlədim. Həm qürurlandım, həm də kövrəldim. Gecə keçirdi. Lakin duyğular seli məni yatağıma yox, yazı mizimin arxasına apardı. Duyğuları misralara çevirməyə başladım. Nəhayət, çevirib qurtardım. Pəncərədən üfüqə baxdım. Dan yeri təzəcə ağarırdı. Duyğuları misralara çevirsəm də yenə məni qaynadırdılar. Şeiri İslam Səfərliyə oxumaq istəyirdim. Ancaq tez idi. Şair hələ yatmış olardı. Sanki şeiri yazan əlim fikrimlə razılaşmayıb telefona sarı uzandı. Şairin telefon nömrəsini yığdı. Dəstəyi İslamın xanımı götürdü. Mən nəzakətlə: – Sabahınız xeyir. İslam müəllim oyaqdır? – dedim. O nəzakətlə: – Bəli! Çoxdan oyanıb – dedi. Sonra dəstəkdən şairin – Alo! – deyən səsi gəldi. Mən məhrəmliklə ona: – Salam şair! Sabahın xeyir! Bu axşam radioda Cahangir Cahangirovun sənin sözlərinə yazdığı mahnıları səsləndirirdilər. Heyranlıqla dinlədim. Duyğularım elə qaynadı ki, məni səhərə qədər yatmağa qoymadı. "Bəstəkar" adlı bir şeir yazdım. İndi istəyirəm ki, hələ mürəkkəbi qurumamış o şeiri sənə oxuyum – dedim. Şair məmnuniyyətlə: – Oxu qardaş! – dedi. Mən şeiri telefonda hərarətlə oxudum:

Qardaş! Təbrizdəydim mən də bir zaman,
Hava yavaş-yavaş çisəkləyirdi.
Ətəyi islanmış bir dəstə duman
Eynal – Zeynal* üstə iməkləyirdi.

Söyüdlü yolların qıraqlarında
Dostlar bir nəğmədən ilham alırdı.
Yolçular keçirdi, dodaqlarında
"Təbrizim" nəğməsi qanad çalırdı.

Birindən soruşdum o gözəl nəğmə
Sənətdə de, hansı bahadirindir?
O, cavandır dedi, bahadir demə,
Bəstəkar dostumuz Cahangirindir!

Yaxşı yadımdadır o qəmli bahar,
Göz gözlə danışdı, ürək ürəklə!
Təbriz vağzalına toplanan dostlar
Səni yola saldı təzə çiçəklə.

Bir gün unutmadın qan qardaşını
Əsrin nə qışında, nə yayında sən.
Minlərlə nisgilli can sirdaşını
Kövrəltdin "Arazın o tayında"** sən.

Bir kantata yazdın qaynar ilhamla
Baban Füzulinin şərəfinə sən.
Dərin məhəbbətlə, möhkəm inamla
Baş əydin ağsaqqal sələfinə sən.

---

*Təbrizdə qoşa dağdır.

**Cahangir Cahangirovun mənim də şeir parçalarımdan istifadə etdiyi "Arazın o tayında" böyük həcmli musiqi əsəri.



Şairin nəvəsi minlərlə adam
Arzusuna çatdı sanki o səsdə.
Notlar qanadlandı hər səhər-axşam
Dil açdı şairin məzarı üstdə.

"Durnalar" oxunur... Hardasa odur
Təzə zirvələrə qalxırsan, qardaş!
Vaqifin özüylə yanaşı durur,
Durna qatarına baxırsan, qardaş!

Dinir uzaqlarda bəyaz "Buludlar",
Odlu şəfəq içir qızıl qədəhdən.
Deyirlər köynəyi atlaz buludlar
Gah dərddən hönkürür, gah da fərəhdən.

"Ana" əzəmətlə səslənən zaman
Nə qədər ananın köksü qabarır.
O duyğu, o ilham, o səs, o həycan
Anadan anaya salam aparır...

Bəli! O nəğmədə zirvəsi qarlı,
Sinəsi günəşli dağlar görünür.
Qayğılı, tədbirli, ətirli, barlı
Ana saçındakı ağlar görünür.

Sənin musiqində öz sənətilə
Dostlar məclisinə Nəsimi gəldi.
Öz andı, öz eşqi, öz cürətilə
Bütün ehkamların qənimi gəldi.

Nə var o ecazkar nəğmələrində?
Günəş hərarəti, göy dərinliyi!
Nə var o füsunkar nəğmələrində?
Kəpəz əzəməti, Kür şirinliyi!

**Dahi Füzulinin ilhamı qədər**
**Sənin musiqin də rəvan deyilmi?**
**Vətənin səhəri-axşamı qədər**
**Sənin musiqin də əlvan deyilmi?**

**Sənin nəğmələrin bir qartal kimi**
**Kəpəzə bağlıdır, Kürə bağlıdır.**
**Açıb qanadını bir xəyal kimi**
**Göydə dolaşsa da, yerə bağlıdır...**

İslam Səfərli səmimiyyətlə mənə: – Gözəl şeirdir. Səni də, Cahangiri də təbrik edirəm – dedi. Şairə öz təşəkkürümü bildirib dəstəyi yerinə qoydum...

...Mən xəyallar aləmindən ayrılıb İslam Səfərlinin qəbrinə baxdım. Adamları sanki ovsunlamışdılar. Heç kim yerindən tərpənmirdi. Yadıma İranın məşhur alimi Kəsrəvinin ibrət dolu sözləri düşdü. O Allahı inkar edən ateistlərlə mübahisəsində deyirdi ki, mən demirəm hamı yalnız Allaha inansın. Yox! Mən zorun əleyhinəyəm. Ancaq kimsə, nəyəsə inanmalıdır. Yoxsa dünyada nə sakitlik, nə dinclik, nə də arxayınlıq olar. Dünya hərc-mərclik təlatümündə dağılar. İndi mən də şairin qəbrini araya almış adamlara baxa-baxa dodaqaltı pıçıldadım:

**Bir məna duysa da adam hər şeydə,**
**Yarada bilərmi ilham olmasa?**
**Ulduzlar karvana dönərmi göydə,**
**Qızıl cərgəsində nizam olmasa?**

**Kəhkəşan zəmidir! Göydə əkilər,**
**Hüsnünə günəşli gözlər dikilər.**
**Bərəkət təlaşla göyə çəkilər**
**Bir ağzı dualı adam olmasa.**



**Nə ağac əkilər, nə bar yığılar,**
**Nə rübab yaranar, nə söz doğular.**
**Bu cəlallı dünya tamam dağılar**
**Ürəkdə mötəbər inam olmasa.**

Elə bu zaman adamların arasından yaşlı bir kişi qabağa çıxdı. Dua oxumağa başladı. Adamlardan kim duanı bilirdisə o da oxudu. Dua qurtardı. Yaşlı kişi ucadan fatihə dedi. Sonra adamlar maşınlara doğru addımladı. Mən yenə adamlara baxdım. Onlar donu açılmış uğultulu selə bənzəyirdi. Qəribədir. Selin qabağını bircə söz açmışdı. Fatihə! İndi sel axa-axa harasa tələsirdi. Sən demə, fatihənin də özünə görə hökmü varmış! Nə zərər, qoy qəbr üstdə dayanmaqdan yorulan adamları evlərindəki dincliyə aparan fatihələr susmasın. Amma unudulmaz xatirələr nə dəfn olunsun, nə də üstlərində fatihə oxunsun.

## ÖZGƏ MÜNASİBƏTLƏR

Qəribə olsa da, mən Süleyman Rəhimovun yaradıcılığıyla ilk dəfə Mirzə İbrahimovun məqalələr toplusunda tanış olmuşam. M.İbrahimov o topluda S.Rəhimovun əsərlərindəki dialoqların bir neçəsini uzunluğuna görə tənqid etmişdi. Sonralar S.Rəhimovun əsərlərinə maraq göstərsəm də, oxuya bilmədim. Lüzumsuz uzanan təsvirlər, hadisələr, dialoqlar məni yordu. Ancaq buna baxmayaraq, S.Rəhimovun həm şəxsiyyətinə, həm də yaradıcılığına hörmət bəsləyirdim. Harada rastlaşdıq, dayanıb mehriban-mehriban danışır, bir-biri-

mizdən hal-əhval tuturduq. Mən hətta 1950-ci ildə Moskvada Azərbaycan ədəbiyyatı ongünlüyü keçiriləndə S.Rəhimovun yanında olan yazıçılarla necə açıq-saçıq zarafat etdiyini də görmüşdüm.

1954-cü ildə M.İbrahimov Yazıçılar İttifaqının sədrliyindən respublika Ali Soveti Rəyasət Heyətinin sədrliyinə keçdi. S.Rəhimov Yazıçılar İttifaqının sədri oldu. Mənim İçərişəhərdə bir otağım vardı. Özümdən başqa beş baş ailə üzvlərim də bu otaqda yaşayırdı. Bəli! Darısqallıq içində sıxılırdıq. Gündüzlər oxuyur, gecələr isə yaradıcılıqla məşğul olurdum. Axır ki, yorğunluqdan xəstələndim. Əvvəl xəstəxanada, sonra evdə yatdım. Məni yoxlamaq üçün yanıma dostlar, tanışlar gəlib-getdi. Evdəki şərait daha da ağırlaşdı. Bilirdim ki, Yazıçılar İttifaqı Hüsü Hacıyev* küçəsində yazıçılar üçün ev tikdirir. Mən də o binada bir mənzil almaq üçün Süleyman Rəhimovun adına ərizə yazdım. Öz vəziyyətimi də, evimizdəki şəraiti də ərizədə sədrə səmimiyyətlə bildirdim. Sonra ərizəni həyat yoldaşım Şəfiqə ilə S.Rəhimova göndərdim. Şəfiqə gəldi. Mən intizarla Şəfiqəyə: – Necə oldu? – dedim. Şəfiqə təəssüflə: – Mən S.Rəhimovun iş otağının qapısına yaxınlaşanda o otağından çıxdı. Geyinib harasa gedirdi. Sədrə yaxınlaşıb kim olduğumu, nə üçün gəldiyimi qısıla-qısıla dedim. Sonra ərizəni ona uzatdım. O ərizəni almadı. Əlini qaldırıb eh, deyə laqeydliklə havanı yardı. Sonra da çıxıb getdi – dedi. Doğrusu, Şəfiqənin yanında utandım. Sonra Yazıçılar evi tikildi də, bölüşdürüldü də. Mən isə ADF MK-nın vasitəsilə ailəmi sıxıb az qala suyunu çıxaran tək otağımı iki otaqla dəyişdim.

*İndiki Azərbaycan prospekti



Günlər keçdi... Bir gün poçt qutusundan qəzetləri çıxaranda aralarında bir zərf də gördüm. Üstünü oxudum. Nizami adına ədəbiyyat muzeyindən göndərilmişdi. Zərfi açdım. İçindəki kiçik məktubda yazılmışdı ki, muzey üçün şəkil çəkdirməliyəm. Özü də muzeydə.

Sabahı səhər zərfi cibimə qoyub muzeyə getdim. Muzeyin həyətində Bəkir Nəbiyevlə görüşdüm. O muzeyin direktoru idi. Bəkir Nəbiyev o günlərdə S.Rəhimovun yeni romanı haqqında nüfuzlu bir qəzetdə məqalə buraxdırmışdı. Romanı tənqid etmişdi. Mən etirafla Bəkir Nəbiyevə: – Süleyman Rəhimovun yeni romanı haqqında yazdığın məqaləni oxudum. Məqalə tənqidlərlə yüklənsə də səmimi yazılmışdır – dedim. Bəkir Nəbiyev məhrəmliklə: – Mənə o məqaləyə görə bir mühəndis zəng eləmişdi. Heç bilirsən nə dedi? Dedi Bəkir müəllim, siz məndən də axmaq adamsınız. Mən əsəbiləşdim. Dedim nə ixtiyarla siz mənə belə söz deyirsiniz. Mühəndis sakit-sakit: – Ona görə ki, mən axmaq olub o romanı oxumuşam. Siz isə oxuyandan sonra hələ o roman haqqında məqalə də yazıbsınız – dedi. Daha bir söz demədim. Axı düz sözə nə deyəsən? – dedi.

Mənim "Pioner" qəzetinin redaktoru Əmrah Əmrahovla aram açıq idi. O mehriban, həssas, fədakar bir insan idi. Uşaqlar haqqında bir sıra gözəl əsərlər yazmışdı. Bir dəfə zəng edib dedi ki, bu qədər böyüklər üçün əsərlər yazıbsan, doymamısan? Nə olar? Uşaqlar üçün də bir şeir yaz. Mən uşaq şairi deyildim. Həm də

bilirdim ki, uşaqlar üçün yazmaq böyüklər üçün yazmaqdan daha çətindir. Ancaq uzun tərəddüddən sonra uşaqlar üçün bir şeir yazıb redaksiyaya apardım. Əmrah Əmrahov şeiri oxuyub bəyəndi. Sonra üz-üzə əyləşib ədəbiyyatdan söhbət etdik. Bu zaman qapı açıldı. S.Rəhimov otağa daxil oldu. Əvvəl redaktorla, sonra mənimlə görüşüb kənarda qoyulmuş divanda əyləşdi. Nəfəsini dərdikdən sonra yumşaq hiddətlə redaktora: – Gəlmişəm hekayəni aparım – dedi. Redaktor nəzakətlə ona: – Süleyman müəllim! Siz bizə təzə bir hekayə verməyincə, biz bu hekayəni sizə qaytara bilməyəcəyik – dedi. Sonra o dedi, bu dedi. Axır ki, Əmrah Əmrahov hekayəni geriyə qaytarmadı. S.Rəhimov durub getdi. O gedəndən sonra Əmrah Əmrahov gileyli-gileyli mənə: – Bu, uşaqlar üçün uzun bir hekayə yazıb. Adını da qoyub "Buynuzsuz qoçun qisası, buynuzlu qoçda qalmaz". Hekayəni oxudum. Gördüm uşaqlara heç bir dəxli yoxdur. Telefonda özünə də dedim. Sonra hekayəni başqa hekayəylə dəyişməsini də ondan xahiş etdim. O isə əsəbiləşib hekayəni aparmağa gəlib – dedi. Hər kəs öz evinin qibləsini başqalarından daha yaxşı bilər. Ona görə də Əmrah Əmrahova bir söz demədim. Redaktorla bir az da ordan-burdan danışandan sonra ayağa qalxdım. Müsahibimlə xudahafizləşib redaksiyadan çıxdım. Yolda yazıçı Salam Qədirzadə ilə rastlaşdıq. Salamlaşdıq, görüşdük, danışdıq... O "Kirpi" jurnalında katib vəzifəsində işləyirdi. Mən "Pioner" qəzetinin redaksiyasında Süleyman Rəhimovla Əmrah Əmrahov arasında gedən söhbətdən də danışdım. Salam Qədirzadə güldü. Sonra maraqla mənə: – Sən bilirsən ki,



"Kirpi" jurnalı səkkiz səhifədə çıxır? – dedi. Mən etirafla: – Əlbəttə bilirəm – dedim. Salam Qədirzadə istehzayla: – S.Rəhimov "Kirpi" redaksiyasına səkkiz səhifəlik uzun bir hekayə gətirmişdi. Bilmədim neyləyim. Ancaq elədim. Səkkiz səhifəlik hekayədən bir səhifəlik hekayə çıxartdım. Hekayə "Kirpi" jurnalında çıxdı. Deyən başa düşmədi? Yox! Necə başa düşmədi? Yaxşı başa düşdü. Yoxsa hekayəni oxuyandan sonra məmnuniyyətlə mənə: – Gələcək kitablarımın redaktorluğunu sənə tapşıracağam deməzdi – dedi. Sonra mən müsahibimlə xudahafizləşib yoluma davam etdim.

Bir gün "Azərnəşr"in binasının pillələrində Süleyman Rəhimovla qarşılaşdım. Salam-kəlamdan sonra o məndən Cənubi Azərbaycandakı vəziyyəti soruşdu. Mən də bildiklərimdən ona dedim. Eşitdiyimə görə İkinci Dünya müharibəsinin əvvəllərində o Cənubi Azərbaycanda olub. Ona görə ərklə müsahibimə: – Süleyman müəllim, "Şamo" əsərini sizin yaradıcılığınızın zirvəsi sanırlar. Özünüz də bu rəydən məmnun qalırsınız. Ancaq elə bir əsərdə o taylıların iştirak etməməsi böyük kəsirdir – dedim. O etirafla mənə: – Doğru deyirsən. Mən özüm də elə o fikirdəyəm. Səylə çalışıram ki, o boşluğu dolğun surətlərlə dolduram – dedi. Sonra xudahafizləşib ayrıldıq. Sonralar S.Rəhimov nəinki "Şamo" əsərindəki o boşluğu doldurdu, hətta Cənubi Azərbaycan mövzusunda "Mahtaban" adlı ayrıca bir roman da yazdı. Romanı Balaş Azəroğlu ilə Mədinə Gülgünə ithaf etdi. Roman əvvəl ADF MK-nın Balaş Azəroğlunun redaktorluğu ilə ərəb əlifbası ilə nəşr edilən "Azərbaycan" məcəlləsində çıxdı, sonra yerli jurnalda...

Cənub mövzusunda yazıldığına görə canımı dişimə tutub romanı oxudum. Uzun, ağır, təkrar mənzərələr, hadisələr, xüsusilə dialoqlar nəfəsi təngləşdirirdi. Bəli! Sanki adam gədik aşırdı. Romandakı tək-tək uğurlu parçalar küllər içində işaran közləri andırırdı...

Bir gün telefonumuz səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran Mədinə Gülgün idi. O təntənəylə mənə: – Süleyman Rəhimovun "Mahtaban" romanını oxudun? – dedi. Mən sakitcə: – Hə, oxudum – dedim. O maraqla: – Sənə necə təsir etdi? Mən etirafla: – Uzunçuluq təsiri – dedim. O gülə-gülə: – Uzunçuluq heç. Onun üstündən keç. Uzunçuluq S.Rəhimovun bir növ üslubudur. Sən romanın məzmunundan danış – dedi. Mən təəssüflə: – Vallah, uzunçuluq elə uzanıb ki, bu üzündən baxanda o üzündəki tək-tək qaralan uğurlu epizodları da görmək olmur – dedim. Mədinə roman barəsindəki rəyimə heyrət etdi. Axı Balaş Azəroğlu da, Mədinə Gülgün də Süleyman Rəhimova yaxın adamlardan idilər. Sonra Mədinə ərklə mənə: – İki gündən sonra televiziyada mənim haqqımda veriliş gedəcək. Xahiş edirəm diqqətlə baxasan. Sonra rəyini bildirəsən – dedi. Mən hərarətlə: – Yaxşı! – dedim.

İki gündən sonra o verilişə diqqətlə baxdım. Ancaq doğrusu, diqqətimi özünə cəlb edə bilən bir şeir eşitmədim. Aktyorların ekranda oxuduqları şeirlər orta səviyyədən yuxarı qalxa bilmirdi. Mən odla-su arasında qaldım. Düşündüm ki, Mədinə zəng edib şeirlərin səviyyəsini soruşsa, tərifləyə bilməyəcəyəm. Onda da Mədinənin yanında yerim acı olacaq. Mən telefonun çəngəlini qovşağından çıxartdım. Telefon susdu. Ancaq



sabahı səhər Mədinə zəng vurdu. Veriliş haqqında rəyimi soruşdu. Dedim, axşamüstü bir qohumumuzgildə bir hadisə baş verdi. Ora getdik. Verilişə baxa bilmədim. Bəli! Bəzən yalanın özü insanı yalan danışmaqdan qurtarır. O təəssüflə mənə: – Süleyman Rəhimov Sosialist Əməyi Qəhrəmanı adı alanda yanına çox adam getmişdi. Mən Balaşla bir az gec getdim. Biz otağa daxil olanda kişinin gözləri təbəssümlə doldu. Nə desə yaxşıdır? – Cənublu bacım! Cənublu qardaşım! Siz öz gözlərinizlə görürsünüz ki, məni təbrik etmək üçün yanıma nə qədər adam gəlib. Ancaq mənim gözlərim o adamlar arasında sizi axtarırdı – dedi. Sonra Mədinə gileyli-gileyli mənə: – Haqqımda televiziyada gedən veriliş qurtarandan sonra mənə zəng edənlər az olmadı. Ancaq gözlərim gecəyarısına qədər telefonda qaldı. Sənin zəngini gözlədim. Axırda özüm sənə zəng etdim – dedi. Sonra telefonda soyuq-soyuq xudahafizləşdik...

Bu hadisədən iki gün sonra bir hüzr yerinə getdim. Yanımda bir tanınmış alim əyləşmişdi. Mənə birdən-birə Mədinə Gülgün haqqında gedən verilişdən danışdı. Sanki sözləri sinəsində yığılıb qalıbmış. Deməyə adam axtarırmış. İndi o adamı yanında tapmışdı. Alim çəkinmədən yaşlı, təcrübəli, iddialı bir şairin efirdə səslənən şeirlərinin orta səviyyəli olduğunu dəlillərlə sübut edirdi. Mən danışmırdım. Öz aləmimdə idim. Düşünürdüm nə yaxşı ki, yalan danışmaqla yalan danışmaqdan qurtarmışam. Yəni özümü orta səviyyəli şeirləri yalandan tərifləməyə məcbur etməmişəm.

...Bayram Bayramov Süleyman Rəhimovla qohum idi. Mənim qızım Rəna isə Bayramın qızı Yaqutla rəfi-

qə idi. Bir gün Yaqut Rənanı evlərinə dəvət etdi. Rəna da getdi. Qayıdanda dedi ki, S.Rəhimov da Bayram Bayramovgildə idi. O məni Bayrama göstərib bu qəşəng qız kimdir? – deyə soruşdu. Bayram təntənəylə: – Əli Tudənin qızıdır – dedi. Süleyman Rəhimov hərarətlə Bayrama: – Əli Tudə böyük şairdir – dedi. Bayram Bayramov da onun bu sözlərini səmimiyyətlə təsdiq etdi – dedi. Yadıma ev üçün qızımın anasıyla S.Rəhimova göndərdiyim ərizə düşdü. Acı-acı güldüm. Qızım elə bildi ki, qürurdan gülürəm. Ancaq mən Süleyman Rəhimovun bu sözü ilə o işi arasındakı təzada gülürdüm.

Hələ Mehdi Hüseynin sağlığında mən ikiotaqlı mənzilimi Yazıçılar İttifaqının yeni tikdirdiyi binada üç otaqla dəyişmişdim. Qənaətlə pul toplayıb bir maşın almışdım ki, ayaqlarımı yerdən götürsün. Maşını özüm yox, oğlum Natiq sürürdü. Qarajımız yox idi. Natiq maşını şəhərin gah bu başında, gah da o başındakı dayanacaqlarda saxlayırdı. Görürdüm ki, o, dayanacaqlara gedib-gəlməkdən yorulur. Ona görə də maşından ürəyimizcə istifadə edə bilmirdik. S.Rəhimovun oğlu Arifin də evi biz yaşadığımız binada idi. Sən demə Arif, maşını olan bir neçə sakinlə danışıbmış ki, həyətimizdə qaraj tiksinlər. Elə də edirlər. Kooperativ üsulu ilə siyahı tuturlar. Pul yığırlar. Qəribə də olsa, mənə demirlər və binada yeganə olaraq mən siyahıya düşmürəm. Halbuki, maşını adları siyahıya düşən sakinlərin bir neçəsindən əvvəl almışdım. Həyətdə qarajın tikinti işləri gedəndə dözə bilmədim. Axı bu ədalətsizlikdir, dedim. Arifin evinə getdim. Tikinti komissiyasının sədri o idi. Dedim axı mən maşını adları siyahıya düşən sakinlərin bir neçəsindən əvvəl almışam. İndi necə olur? Onlar üçün qaraj düzəlir, mənim üçün yox? Hamının qarajı olsun, tək mənim yox? O min bəhanə gətirdi. Axırda da mənə qəti dedi ki, sizin adınızı təzədən o siyahıya sala bilməyəcəyəm. Mən hiddətlənə-hiddətlənə onun evindən çıxdım.



Sonralar həyətimizdə maşınıma qaraj yeri almaq üçün xeyli əziyyət çəkməli oldum. Axır ki, rayon icraiyyə komitəsinin sədrini başa sala bildim ki, mən iki sahilin şairiyəm. İnqilabçıyam, demokratam, nəhayət siyasi mühacirəm. Dünyanın hər yerində siyasi mühacirlərə hörmət dolu qayğı göstərirlər. Rayon icraiyyə komitəsi qərar çıxartdı ki, mənə qaraj yeri verilsin. Mən dəmir qaraj qurmağa hazırlaşanda məlum oldu ki, rayon icraiyyə komitəsi nəyə görəsə tək mənə yox, bir neçə sakinə də orada dəmir qaraj qoymaq icazəsi verib. Bəli! Hətta qonşu binada yaşayan bir müəllim də orada qaraj qoymağa icazə alıb. Gecənin qaranlığında maşınların işığında dəmir qarajlar quraşdırılırdı. Həyət çəkic səsləri ilə dolmuşdu. Mən müəllimin qaraj qoyacağı yerə baxanda gözlərimə inanmadım. Arif, müəllimin qaraj qoyacağı yerdə özünə qaraj quraşdırırdı. Məni heyrət bürüdü. Əvvəla, bu zorakılıq idi. Sonrası Arifin daş qarajı vardı. Biri dedi Arif bu qarajı qardaşı üçün quraşdırır, biri dedi kürəkəni üçün... Ancaq heç kim Arifi zorakılığına görə qınamadı. O da aradan bir müddət keçəndən sonra bu dəmir qarajı da daş qarajla əvəz etdi. Özü də bir qədər yanındakı qarajın ərazisinə girmək hesabına...

## QƏRİBƏ TƏSADÜFLƏR

Haçandı ki, dəniz kənarında gəzməyə çıxmamışdım. Geyinib dəniz kənarına getdim. Yeraltı keçiddən qalxıb bulvara girəndə kimlə qarşılaşsam yaxşıdır? Məlahətlə! Ancaq onu ilk baxışdan tanıya bilmədim. Dönə-dönə diqqət etdikdən sonra tanıdım. İnsan nə qədər dəyişərmiş! Məlahət sanki bulvara şəhərdən yox, kənddən gəlmişdi. Nə geyimi, nə də davranışı özünə yaraşırdı. Halbuki o, universitetdə mənimlə bir sinifdə oxuyanda geyimiylə nəinki yalnız qızları, hətta oğlanları da heyran qoyardı. Əl-qolunu ölçə-ölçə yanında dondurma yeyən qızına əsəbi-əsəbi nəsə deyirdi. Məlahət arabir gözlərini qızından çəkib bir neçə dəfə mənə baxdısa da, tanımadı. Yoxsa aradan illər keçsə də, o necə deyərlər, reaksiya verərdi. Mən Məlahətin yanından keçib dəniz kənarına getdim. Sırayla düzülmüş uzun oturacaqların birində əyləşib heyran-heyran dənizə baxdım. Sanki dəniz qarşımda açılmış nəhəng dəftər idi. Mavi ləpələr isə dənizin vərəqləri. Ləpələr çağlaya-çağlaya axdıqca dənizi nizamla vərəqləyirdi. Mən dənizə baxdıqca öz sanballı xatirə dəftərim də xəyalımda ləngərlə vərəqləndi. Neçə il əvvəl Şəfiqə ilə avtobusda 3-cü mikrorayonda hansı ünvanasa gedirdik. Natiq də yanımızda idi. Ancaq ünvanı dəqiq bilmirdik. Avtobusda sərnişin çox idi. Biz sərnişinləri yara-yara avtobusun qabaq düşəcəyinə yaxınlaşdıq ki, ünvanı sürücüdən soruşaq. Bu zaman Şəfiqə qarşımızda oturan bir qadından ünvanı soruşdu. Qadın da Şəfiqəni başa saldı. Mən Şəfiqədən bir az kənarda durmuşdum. Ancaq



qadını dərhal tanıdım. O Məlahət idi. Məlahət Şəfiqənin yanında dayanmış Natiqə baxdı. Deyəsən birtəhər oldu. Axı Natiq mənə oxşayırdı. Sanki Məlahət zənnini yoxlamaq üçün Şəfiqənin ətrafına göz gəzdirdi. Məni gördü. Bu ani baxışdan yaman sarsıldı. Ayağa qalxdı. Sən demə, avtobus indicə dayanacaqmış. Nə yaxşı ki, dayanacaqmış. Məlahət avtobusdan düşdü. Biz də düşdük. Şəfiqəyə dedim ki, bu qadın Məlahətdir. Qəribədir. Məlahət yol boyu qısıla-qısıla gedirdi. Sanki ömrünün sevincli-kədərli günlərini ana-ana addımlayırdı. Yox! Sanki o, Şəfiqəyə adi bir ünvan yox, səadətin ünvanını verib özü o ünvandan tez uzaqlaşmağa çalışırdı.

Bu hadisədən bir neçə gün sonra Yazıçılar İttifaqından evə gəlirdim. Yol üstəki paltar mağazalarından birinə girdim. Nə isə almalı idim. Birdən gözlərimə haçansa gördüyüm bir yekəpər adam dəydi. Diqqətlə baxdım. Bəli! Yanılmamışdım. Özü idi. Polkovnik Hacı Məqsəd idi. Əyninə tüklü sırıqlı, ayaqlarına tüklü çəkmələr geymişdi. O indi adamdan daha çox qıllı qabana bənzəyirdi. Özü də iti dişləriylə ömürlərin zəmilərində hələ sütül olan arzuları dibindən biçən əvvəlki qabana! Yanında da qızı yaşında arvadı vardı. Axı Məlahətin anası dünyasını dəyişəndən sonra Hacı Məqsəd evlənmişdi. Hacı Məqsədin yalnız görkəmi yox, vəziyyəti də dəyişmişdi. Mir Cəfər Bağırov həbs olunandan sonra Dövlət Təhlükəsizliyi Nazirliyinə də əl gəzdirilmişdi. M.C.Bağırovun əlaltıları da ya həbs olunmuş, ya da işdən çıxarılmışdı. Hacı Məqsəd də işdən çıxarılmışdı... Bəlkə də bütün xiffətlərini dağıtmaq üçün yekəpər Hacı Məqsəd qızı yaşında incə bir qızla ailə qurmuşdu.

Keçmiş ixtiyar sahibi vəzifəsilə birlikdə ölən qadınına sədaqətini də, qalan övladlarına məhəbbətini də itirmişdi. Bir sözlə, öz əxlaqını özü ifşa etmişdi. İndi Hacı Məqsəd gənc arvadını özündən razı salmaq üçün ona təzə, gözəl, nadir don alırdı. Donu arvadının əynində gah eninə, gah da uzununa yoxlayırdı. Mağazadakı bədənnuma aynanı tamam unutmuşdu. O, arabir yekə, domba, müdhiş gözlərilə mənə baxsa da, məni tanımırdı. Mənim isə gözlərimdə ikrahla nifrət bir-birinə qarışmışdı. Daha mağazada qala bilməyib küçəyə çıxdım...

Dəniz kənarında hava soyuyurdu. Havanın məni də indiki rahat həyatımdan soyudub keçmişdəki narahat həyatıma qaytaracağından çəkinib ayağa qalxdım. İti addımlarla evə yollandım. Məlahət daha həmən yerdə yox idi. Evə gəldim. Zəngi basdım. Qapını Şəfiqə açdı. Qarşımda müasir bir qadın dayanmışdı. Mən Şəfiqənin üzündən öpdüm. O bu gözlənilməz hərəkətimdən heyrətləndi. Ancaq bir söz demədi. Matdım-matdım üzümə baxdı. Mən dəniz kənarında Məlahəti necə gördüyümü Şəfiqəyə danışdım. O mənim heyrət doğuran sözlərimi qayğılı-qayğılı dinlədikcə diqqət dolu gözlərində məhəbbətlə mərhəmət bir-birinə qarışdı.

Bizim kənddə bir ailə vardı. Ata, ana, oğul. Ailənin yeganə ümidi oğul idi. Atalar demişkən, oddan kül, küldən od parlar. Ata bir zaman öz ocağında od olmuşdu. Ancaq od atadan köz yox, kül törəmişdi. Yay çoxdan gəlmişdi. Kəndlilər zəmilərindəki uzun saçaqlı sünbülləri biçib dərz-dərz xırmanlarına daşıyırdı. Ata xəstələndiyinə görə zəmilərindəki adam boyu sarı sünbüllər ayaq üstdə vağamlayırdı. Ata tövsiyəylə oğluna: – Orağı götür, get zəmilərdən birinə. Vağamlayan sünbüllər dənlərini torpaq üstdə səpələməmiş biç! Cəld ol! Onsuz da gecikmişik. Camaat az qalıb xırmanı da döyüb qurtarsın. Biz isə hələ xırmana bir dən də gətirməmişik – deyir. Oğul könülsüz-könülsüz orağı götürüb evdən çıxır. Ancaq heç günorta olmamış sağ qıçından axsaya-axsaya qayıdıb gəlir. Ata qayğıyla oğula: – Nə olub? Niyə axsayırsan? – deyir. Oğul hiddətlə: – Sağ qıçımı oraqla yaralamışam – deyir. Ata daha bir söz demir. Oğul isə gecə yatana qədər evdə axsaya-axsaya gəzir. Oğul yatandan sonra ata ürəyi dözmür. Öz ciyərparasının qıçındakı sarığı açıb yarasına baxmaq istəyir. Ancaq çıraqla nə qədər göz gəzdirsə də, oğlunun sağ qıçında yara görmür. Bir-iki yerdən cızılmış dəri görür. Sən demə, oğul daha zəmi biçməyə getməmək üçün kələk işlətmişdir. Ata yavaş-yavaş oğlunun sağ qıçındakı sarığı açıb sol qıçına bağlayır. Sonra gedib yerində yatır. Səhər yataqdan qalxan oğul sarığı sol qıçında görüb sol qıçından axsamağa başlayır. Ata kinayə ilə oğula: – A bala, sən dünən sağ qıçından axsayırdın, bu gün isə sol qıçından axsayırsan. Bu necə olan işdir? Bəlkə yaralanmış qıçlarını səhv salmısan? – deyir. Oğul görür ki, yalanı çıxıb. Daha deməyə söz tapmır. Susur. Xəstə ata isə orağı götürüb zəmi biçməyə gedir. Mən bu məzəli əhvalatı eşidəndə əvvəl acı-acı güldüm. Sonra dərin-dərin düşündüm. Ömrüm boyu bir dəfə də yalan danışmamağı qət etdim...

Mən o tayda da, bu tayda da öz yaradıcılığıma tələbkarlıqla yanaşmışam. Qələm yoldaşlarımın da əsərlərinin yaxşısına yaxşı, pisinə pis demişəm. Bəli!

Yalan danışa bilməmişəm. Sonralar altını çəksəm də, həqiqəti deyib bozarmağı yalanı deyib qızarmaqdan üstün sanmışam. Hələ uşaqlıqdan yalan danışmaqdan zəhləm gedib. Yalan deməkdən nəinki utanmışam, hətta qorxmuşam. Axı yalançılığın sonu rüsvayçılıqdır.

## ALTMIŞ YAŞIM

Adətən birinin yaşından danışanda filankəsin ömrünün filanıncı baharıdır deyirlər. Mənim isə ömrümün altmışıncı qışı idi. Axı nənəmin dediyinə görə mən qışda anadan olmuşam. Qəribədir. Əsərdəki surətin taleyi şairin əlində olur. O, surət haqqında istədiyini edə bilir. Amma şairin öz taleyi təbiətin əlindədir. Əgər əsərindəki surətin qayğısına qalan şairin öz taleyi də öz əlində olsaydı, o nələr edə bilməzdi? Həm əsərindəki surətin, həm də özünün bütün arzularını yerinə yetirərdi. Mənim başımın üstündə şimşəklər çaxanda ayaqlarım yer üstündə möhkəm dayanıb. Ancaq atalar deyib ki, ağac çox bar gətirəndə öz yükünün altında öz budaqları sınar. Mənim başımda xəyalımın budaqları da söz meyvələrilə dolduqca, ayaqlarım yer üstdə titrəyib. Gənc bir şair yazdı ki, uşaqlarının xətrinə hər bir əzaba dözüb. Mən isə ikiqat əzaba dözməli olmuşam. Həm uşaqlarımın, həm də əsərlərimin xətrinə! Əgər adım əvvəl bir pasportda gəzirdisə, indi beş pasportda gəzir. Bu beş pasport sanki beş barmaqdır. Bir ovucda birləşsə, yumruq olar! Fəxr edirəm ki, bu ovuc mən özüməm! Arabir Şəfiqə deyir: – Kaş odlu-alovlu gəncliyin



geri qayıdaydı. Yox! – deyə həyat yoldaşıma etiraz edirəm. Gəncliyim geri qayıtsa, onda uşaqlarım olmaz, nəvələrim olmaz, şöhrətim olmaz. Gəncliyimin getməsilə ömrümə neçə-neçə gözəl, əziz, şirin ömür gəlib! Bir zaman yalnız özümdə gümrahlıq, çəldlik, möhkəmlik duyduğum üçün gəncliyimə minnətdar idim. İndi isə neçə qızımda, oğlumda, nəvələrimdə sağlamlıq, qaynarlıq, işgüzarlıq, gümrahlıq gördüyüm üçün qocalığıma təşəkkür edirəm. Bir zaman gənc şair idim. Təbrizin gözəllərlə dolu küçələrində qürurla addımlayardım. Ancaq gözəl qızlara heyran-heyran baxardım. Sevgi haqqında dodaqaltı hərarətli misralar pıçıldayardım. İndi də oğlumla şəhərdə gəzməyə çıxıram. Qızlar mənə maraqla baxır. Lakin vərəqlər arasında solan gəncliyimə deyil, dodaqlar içində pardaxlanan şöhrətimə baxır. Mən isə ürəyə sirayət edən baxışların qığılcımları altında boyu boyumdan uca, özü özümdən yaraşıqlı oğluma baxıb utanıram. Yox! Öyünürəm. Gözəl qızlara yenə heyran-heyran baxıram. Oğluma layiq qız axtarıram. Mənim gəncliyim təlatümlə gəlib keçən bahar selinə bənzədi. Mən isə o selin qədrini bilmədim. Ömür mahalımın münbit yerlərini də, şoran yerlərini də geninə-boluna suvardım. İndi qocalığın durula-durula çəkilən həyat çeşməsinin suyunu damcı-damcı işlədirəm. Ehtiyatla, qənaətlə, təlaşla. Gənclik mənə yola çıxmağı əmr etdi. Qocalıq onu necə başa vurmağı məsləhət gördü. Gənclik mənə həyatı qurmağı öyrətdi. Qocalıq ondan zövq almağı. Gənclik mənə dünyaya tamaşa etməyi dedi. Qocalıq isə tənqidçi olmağı. Gənclik mənə gözəl yazmağı tövsiyə etdi. Qocalıq yaxşı oxucu olmağı. Gənclik mənə tələbələr arasında nümunə olmağı öyrətdi. Qocalıq isə yaxşı müəllim olmağı. Gənclik mənə sevgi sə-

adətini tapmağı tapşırdı. Qocalıq isə onu qoruyub saxlamağı... Şairin ürəyi isti, mehriban, doğma bir yuvadır. Bu məhrəm yuvaya quş qanadlı misralar həm tək-tək, həm də qatar-qatar qonur. Xeyirxah, humanist, zəhmətkeş şair bu yuvada o qərib, hürkək, kövrək misralara əbədi məskən verməsə qanadlı qonaqlar başqa səmtə uçub gedə bilər. Şairin iki qayğısı olur. Külfət qayğısı! Sənət qayğısı! Hansı qayğı daha böyükdür? Bəlkə sənət qayğısı? Hə? Axı həyata, güzərana, şəraitə uyğunlaşan külfət təvazökar da ola bilər. Baş alıb gedən tələblərini cilovlaya da bilər. Neçə arzusundan keçə də bilər. Ancaq sənət belə deyil. O həm təvazökar, həm də tələbkardır. O həmişə yeni-yeni zirvələr fəth etmək üçün pərvazlanır. Bu zəhmət əzəmətli siqləti ilə şairin çiyinlərinə düşür. Şair də insandır. Onun da sevinci-kədəri olur. Sevinci qızılgül yarpağına qonmuş səhər şehinə bənzəyir. Ya isti bir küləyin təmasıyla dağılıb quruyur, ya da yanıqlı bir nəfəsin hərarətilə uçub gedir. Kədəri isə həssaslığının ucbatından daha çox olur. Ancaq daha qürurlu, daha əzəmətli görünür. Özü də şairin baxışlarında. Mənim də kədərim sevinclərimdən çox olur. Şəfiqənin iş görməkdən bir qədər sərtləşmiş kiçik əllərinə baxdıqca ürəyim kövrəlib incəlir. Mənə Şəfiqənin əllərinin gəncliyində necə incə olduqlarını xatırladır. Düşünürəm ki, bu əllər mənə neçə-neçə ləzzətli xörək hazırlaya-hazırlaya belə sərtləşib. Təkcə mənəmi? Yox! Ailəmizin başqa üzvləri üçün də. Evimizə gələn qonaq-qara üçün də! Bəlkə bu əllər olmasaydı, neçə-neçə dadlı dünya nemətindən məhrum olardım. Təkcə dünya nemətlərindənmi? Yox! Yoldaş köməyindən də! Şəfiqə mənim yeganə köməyimdir. Bu kömək doğma qardaş köməyindən də başdır. Oğlum mənimlə bir damın altında yaşayır. Ancaq doğma oğlumla aramda təzad var. Mən cibimdə hələ də siyasi mühacir pasportu gəzdirirəm. Oğlum isə Sovet vətəndaşıdır. Sovet pasportu daşıyır. Çünki anası da Sovet vətəndaşıdır. Sovet pasportu daşıyır. Bir zaman qızımın əlindən tutub Bakı küçələrində gəzirdim. Qızıma beləcə Təbriz küçələrində gəzməyi arzulayırdım. Ancaq bu arzum yerinə yetmədi. İndi qızımın qızının əlindən yapışıb yenə Bakı küçələrində gəzirəm. Ancaq bu dəfə qızımın qızının əlindən tutub Təbriz küçələrində gəzməyi arzulayıram.

Bəli! Ömrün altmışıncı qışına çatmışam. Ancaq yeniyetməliyimdə Savalanda gördüyüm günəşli yazları hələ də unuda bilmirəm. Taleyimdə razı qaldığım məziyyətlərdən biri möhkəm yaddaşımdır. Əgər məni bu yaşımda aparıb Savalanın qucağına salsalar, hansı təpənin, hansı çayın, hansı bulağın harda olduğunu göstərə bilərəm. Sanki:

**Vətənim lövhə-lövhə**  
**Gözlərimə dolubdur.**  
**Gözlərim Vətənimin**  
**Xəritəsi olubdur.**

O boyda Savalanın qucağına sığışmayan mən, indi bir mənzildə sakin olmuşam. Gözəl mənzərələrə təbiətin özündə deyil, televiziya ekranında baxıram. Bəli! Canlı mənzərələrin cansız şəkillərinə tamaşa edirəm. Mənə deyirlər ki, sən niyə ekrana çıxıb şeirlərini oxumursan. Sən ki, şeiri yaxşı oxuyursan. Sənin şeir oxuduğun salonlarda gurlayan alqışlar da sənin mahərə-

tini təsdiq edir. Mən isə deyirəm ki, ekranda milyonlarla gözlər məni görsə də, mən o gözləri görə bilmərəm. Onlarçın darıxdığım halda üzümü üzlərinə tutsam da, nəfəslərini üzümdə duya bilmərəm. Bir xalqın məhəbbətilə dolu bir ürək bir ekrana sığa bilməz. İndi televiziyada çıxış etməməyimin səbəbi aydın oldumu?

Mənə qırxa qədər bu taylı, o taylı şair şeir həsr edib. Bu şeirlərin bəziləri mətbuat səhifələrində, bəziləri kitablarda çıxıb. Bu müəlliflər mənə aşiq deyillər. Yox! Sənətimə vurğundurlar. Mən isə bu qələm sahiblərinə öz minnətdarlığımı bildirməyə borcluyam. Yenə də məhsuldar işləyirəm. Ancaq ədəbiyyata mənimlə gələnlərin, hətta məndən sonra gələnlərin ikinci dəfə ikicildlikləri çap olunub. Mənim isə hələ bir dəfə də ikicildliyim nəşr edilməyib. Bu haqda əlaqədar təşkilatlar xəbərdar olsalar da bir nəticə hasil olmayıb...

Şair yüz yaşında da qoca deyil. Dünyada elə şairlər olub ki, ömür xəzinəsinin altıncı qızıl onluğunu xırdalayanda qət edib ki, sənət xəzinəsini yeni-yeni gözəl incilərlə daha da zənginləşdirsin... Mən isə qırx ildir ki, yazıram. Neçə-neçə kitabım çıxıb. Ədəbiyyata mənimlə gələnlərə də, məndən sonra gələnlərə də fəxri adlar verilib, mükafatlar təqdim olunub. Sözün doğrusu, özüm gözləməsəm ailəm də, dostlarım da, oxucularım da belə bir şad xəbərin intizarındadır. Özü də çoxdan! Axı mənim də haqqım var. Necə deyərlər, sənət yolunda bütöv bir ömür qoymuşam. Tələbkar oxucuların rəğbətini qazanmışam. Bu rəğbəti qazanmaq asan məsələ deyil. O, sənətkardan bütöv ömür tələb edir. Mən də bütöv bir ömrümü sənətdən müzayiqə etməmişəm.



Yubileyim yaxınlaşırdı. 1984-cü il yanvarın 31-də qəzetlər haqqımda materiallar dərc edəsiydi. Bir neçə gün əvvəl Yazıçılar İttifaqının birinci katibi mənə zəng vurdu. Anadan olmağımın 60 illiyi münasibətilə təbrik etdi. Sonra dedi ki, Mərkəzi Komitədən sənin haqqında məlumat istəmişdilər. Biz də necə lazımdır, elə də yazıb göndərdik. Sənin həm şəxsiyyətinə, həm də yaradıcılığına dair səmimiyyətlə dolu ürək sözlərimizi dedik... Daha yazıb göndərdiyimiz məlumatın gələcək taleyini bilmirik. Nəticə yuxarıdakılardan asılıdır. Birinci katiblə xudahafizləşdik. Dəstəyi yerinə qoydum. Sən demə, Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi də mənim haqqımda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə yazılı məlumat göndəribmiş. “Kommunist” qəzetinin redaksiyasından zəng vurub haqqımda kimin yazmasını istədiyimi soruşdular. Dedim ki, şair Famil Mehdiyə deyin. O professordur, özü də mənim haqqımda mətbuatda bir neçə hərarətli məqalə yazıb. Bir saatdan sonra F.Mehdi özü mənə zəng vurdu. Haqqımda məmnuniyyətlə yazacağını bildirdi. Kitablarımın adlarını soruşdu. Mən də dedim. Sonra telefonda xudahafizləşdik.

Yanvarın 30-da Famil Mehdi mənə “Kommunist” qəzetinin redaksiyasından zəng vurdu. Dedi ki, məqaləni şöbəyə təhvil verdim. Yoldaşlar bəyəndilər. Sabah qəzetdə çıxacaq. Fəxri fərman da hazırdır. (Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri Fərmanı). Fəxri fərman sözlərini eşidəndə doğrusu pərt oldum. Bunu F.Mehdi də duydu. Şöbə müdiri dəstəyi ondan

alıb mənimlə danışdı. O da pərt olduğumu bildi. Gör mən nə gözləyirdim, yuxarıdakılar nə verib. Şöbə müdiri könlümü almaq üçün sabah qəzetdə haqqımda yazılan məqalə ilə birlikdə çap olunmaq üçün məndən bir şeir istədi. Mən imtina etdim. Telefonda sağollaşdıq. Dəstəyi yerə qoymadım. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin mədəniyyət şöbəsinə zəng vurub gileyləndim. Bölmə müdiri xətrimi çox istəyirdi. Özü də həssas adam idi. Ağı qaradan, yaxşını yamandan, təvazökarı müştəbehdən seçməyi bacarırdı. Bəli! İstedadı həm tanıyırdı, həm də qiymətləndirirdi. Ancaq nə etmək ki, ixtiyar yuxarıdakılarda idi. Bölmə müdiri təsəlli dolu sözlərlə mənim çılğınlaşmış əsəbilərimi sakitləşdirmək istəyirdi. Sən demə, adlar da, təltiflər də, mükafatlar da pillə-pillə qalxdıqları üçün növbə ilə verilirmiş. Mən isə indiyə qədər heç bir fəxri adım, təltifim, mükafatım olmadığı halda əvvəldən başlamalıydım. Özü də nə az, nə çox, altmış yaşında. Yadıma bir məsəl düşdü. "Qırxında öyrənən gorunda çalar". Bəs onda əsl qiymətim nə zaman veriləcək? Bölmə müdirinin dediklərindən elə çıxdı ki, əvvəllər nə Yazıçılar İttifaqı, nə də Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi mənim adımı bu məsələlərlə əlaqədar siyahılara salmayıb. Mən isə bütün ictimai-siyasi tədbirlərdə yaxından iştirak etmişəm. Yaradıcılıq əziyyətlərinə mərdliklə sinə gərmişəm. Sənəti müqəddəs saymışam. Yaxşı yazmağı ləyaqət, pis yazmağı cinayət bilmişəm. Onda bəs niyə mənim haqqım, özü də halalca haqqım tapdanmışdı? Ürəyimdə dedim:



**Keçdiyim yolları andığım zaman**
**Yerimdə heyrətdən quruyuram mən.**
**Yox! Yox! Əməyimə yandığım zaman**
**Özümü özümdən qoruyuram mən.**

Bir xeyli düşündükdən sonra özümə qarşı olan soyuq münasibətlərin səbəbini tapdım. Bəli! Tapdım. Mən öz istedadıma inanırdım. Yaradıcılığımın xalq içərisində necə ləyaqətlə qiymətləndirildiyini də görürdüm. Bu duyğularıma ilham, hünər, cürət aşılayırdı. Mən heç nədən çəkinmədən həqiqəti üzə deyirdim. Nəcib adama hörmət, xəbis adama nifrət bəsləyirdim. Yaxşı əsərə yaxşı, pis əsərə pis deyirdim. Bax! "Günah"ım bu idi. Ona görə də bəzi vəzifəli adamlar məni xoşlamırdı. Yeri gələndə məndən hayıf çıxırdı. Ancaq necə deyərlər, dəyirman bildiyini edirdi, çax-çax isə başını ağrıdırdı. Mən isə öz mövqeyimdə möhkəm dayanırdım. Axı adam özü özündə tərbiyə edib ərsəyə çatdırdığı xasiyyəti tərgitməyə heç qıyarmı? Yox! Ədalət carçısı olan xasiyyəti tərgitmək nəinki insafsızlıqdır, hətta vicdansızlıqdır. Gərək belə xasiyyəti tərgitməyi heç kəs heç kəsə rəva görməsin!

Mən "Fatmanın nağılı"nı hələ uşaqlıqda, nənəm Qəribdən eşitmişdim. Məzlumla İnsaf yoxsul ailədən imişlər. Bir-birilərini sevirmişlər. Onlar ata-analarının xeyir-dualarıyla evlənirlər. Bir qızları olur. Adını Fatma qoyurlar. Ancaq Fatma tezliklə ana nəvazişindən məhrum olur. Anası İnsaf xəstələnib yatağa düşür. Bəli! İnsaf Fatmanı qayğıyla ərsəyə çatdıra bilmir. Dünyada hansı sevinc bütöv olur ki? Yazıq ana dünyadan gedəcəyini duyub yanında hər şeydən xəbərsiz oynayan Fatma-

ya dərdli-dərdli baxa-baxa Məzlumu çağırır. Deyir ürəyimə damıb ki, sağ qalmayacağam. Sən də subay qalmayacaqsan. Axı sənə də, Fatmaya da baxan gərəkdir. Ona görə də səndən xahiş edirəm ki, məni dəfn edəndə qolumun birini kəsib saxlayasan. Alacağın arvad Fatmanı döyəndə mənim əlimlə döyə... Uşaqdı da, günahı ola bilər. Həyatda kimin günahı olmur ki? Məzlumu hıçqırıq boğur. Arvadına heç nə deyə bilmir. İnsafı dəfn edirlər. Ancaq vəsiyyətini də yerinə yetirirlər. Bir qolunu saxlayırlar. Məzlum körpə qızıyla baxımsız qalır. Fatma dözmür. Bir göyərçinə dönüb çırpına-çırpına ana sorağına düşür. Gündüz də ağlayır, gecə də. Ovunmaq bilmir ki, bilmir. Məzlum ehtiyac ucbatından Şövkət adlı bir dul arvadla evlənir. Ona deyir ki, sən mənə qeyrətli ömür yoldaşı, Fatmaya isə şəfqətli ana ol! Şövkət qızı Gözəli də yanına salıb Məzlumun evinə köçür. Gözəlin yalnız adı gözəlmiş, özü çirkin imiş. Bəli! Bəzən çirkinin adını Gözəl, biganənin adını Munis, yoxsulun adını Dövlət, qəddarın adını Mehriban, xəsisin adını Səxavət, nadanın adını Kamal, xudbinin adını Ədalət, nankorun adını Qədir qoyurlar...

Fatma böyüdükcə gözəlləşir. Gözəlləşdikcə Şövkəti heyrətləndirir. Yox! Şövkətin paxıllığı vicdanını çeynəyib udur. O doğma qızına nəsib olmayan gözəlliyin acığını Fatmadan çıxmaq qərarına gəlir. Fatmanı həm gərəkli, həm gərəksiz buyruqlara göndərir. Arada bir şeyi bəhanə edib qızı o ki var, döyür. Özü də İnsafın qoluyla yox, xüsusi dəyənəklə! Gözəl isə Fatmanın dəyənək altında qıvrıldığına istehza ilə baxa-baxa qımışır. Fatma atasının dərdlərinin üstünə bir dərd də artırmasın deyə Məzluma bu haqda heç nə demir. Bir gün Şövkət qalaq-qalaq yunu cəhrənin yanına töküb Fatmaya əmr edir ki, hamısını əyirsin. Qız da əyirir. Birdən külək qalxır. İri bir əlçimi qabağına qatıb aparır. Gözləri Şövkətin amansız cəzasından qorxan Fatma əlçimin dalınca düşür. Qaça-qaça gəlib bir daxmaya çatır. Daxmanın qarşısında əyləşib özünü günə verən bir qarı görür. Əvvəlcə qarıya hörmətlə salam verir. Sonra maraqla əlçimini soruşur. Çiyinlərinə səpələnmiş ağ saçlarının arasında ağ buluda bürünmüş müqəvvanı andıran qarı əprimiş təbəssümlə Fatmaya: – Sən əvvəlcə gəl mənim başıma bax, gör sənin saçların yaxşıdır, yoxsa mənim? – deyir. Sanki qızın narahat ürəyinə nəsə damır. O yalnız əlçimin xətrinə hərəkət edəcəyini qərara alır. Qarının saçlarında qaynaşan bitlərə baxa-baxa gözlərindəki heyrəti dodaqlarındakı təbəssümlə əridir. Təntənəylə müsahibinə: – Qarı nənə! Əlbəttə, sənin saçların yaxşıdır – deyir. Qarı sınağı bir qədər də çətinləşdirir. Həyasızcasına Fatmaya: – Sən gözəlsən, yoxsa mən? – deyir. Qız naçar etirafla: – Qarı nənə! Bu nə sözdür? Əlbəttə sən gözəlsən! – deyir. Qarı hıqqana-hıqqana ayağa qalxır. Gedib daxmadan əlçimi gətirir. Fatma əlçimi alıb getmək istəyəndə qarı sümükləri çıxmış əlini qızın çiyninə qoyub soruşur: – Sən daha da gözəl olmaq istəyirsən? Fatma utanıb başını aşağı salır. Qarı qızın bu sualdan məmnun olduğunu duyub təkidlə: – Onda qulaq as! Gedəndə qarşına əvvəl ağ su çıxacaq. O suda yaxşı-yaxşı çimərsən. Bədənin ağ mərmərə dönər. Sonra qara su görəcəksən. O suda da saçlarını, qaşlarını, kirpiklərini yuyarsan. Hamısı şəvələnər.

Fatma qarıya təşəkkür edib yola düzəlir. Qarşısına çıxan ağ suda çimir. Qara suda saçlarını, qaşlarını, kirpiklərini yuyur. Nadir bir gözəl olur. Fatmanı görən Gözəl də, Şövkət də heyrətdən donur. Yalnız atanın qırışığı açılır. Bəli! Sanki kişi məzlumluqdan çıxıb məğrurlaşır. Öz ciyərparasının daha da gözəlləşməsilə öyünür. Şövkət isə içini yeyir. Fatma başına gələn sirlə dolu hadisəni səmimiyyətlə atasına danışır. Sabahı Şövkət yunu əyirməyi öz qızına tapşırır. Yenə külək qalxır. İri bir əlçimi qabağına qatıb aparır. Gözəl anasından qorxmasa da əlçimin dalınca düşür. Hansı qız gözəlləşmək istəməz? Lap sehrlə olsa da. Gözəl də yalnız adının yox, özünün də gözəl olması xətrinə dərələr keçir, təpələr aşır. Gəlib o daxmaya çatır. Görür ki, bir qarı ağ saçlarını çiyinlərinə səpələyib əyləşib. Gözəl ötkəm-ötkəm: – Qarı, burda əlçim görməmisən? – deyə daxma sahibindən soruşur. Qarı həlim-həlim Gözələ: – Hələ bir nəfəsini dər. Qaça-qaça yol gəlibsən. Sonra da gəl saçlarıma bax. Gör mənim saçlarım yaxşıdır, yoxsa sənin ananın – deyir. Gözəl qarıya yaxınlaşır. Əyilib ağ saçlarına baxır. Saçların arasında qaynaşan bitləri görəndə az qalır ödü ağzına gəlsin. Tez geri çəkilib ikrahla qarıya: – Qadam sənin saçlarına. Əlbəttə, anamın saçları yaxşıdır. Sənin saçlarının bitləri tüklərindən çoxdur. Anamın saçlarısa tər-təmizdir. Gül ətri verir – deyir. Qarı təmkinlə Gözələ: – Mən gözələm, yoxsa anan? – deyir. Gözəl hirsindən titrəyə-titrəyə qarıya: – Əlbəttə, anam gözəldir. Adam səndən qorxur – deyir. Qarı dinməz-söyləməz ayağa qalxır. Gedib daxmadan əlçimi gətirir. Gözəl əlçimi qarının əlindən qa-



pır. Getmək istəyir. Qarı qazanda qaynayıb çıxana bənzəyən arıq əlini Gözəlin çiyninə qoyub eyhamla: – Gözəlləşmək istəyirsən? – deyə qızdan soruşur. Gözəl kirpiklərilə sevincini gözlərində gizlədə-gizlədə: – İstəyirəm – deyir. Qarı da dişindəki istehzasının üstünü dodaqlarıyla örtə-örtə: – Onda qulaq as! – deyir. Gözəl intizarla: – Qulaq asıram! – deyir. Qarı tövsiyəylə Gözələ: – Sən gedəndə qarşına əvvəl qara su çıxacaq. O qara suda yaxşı-yaxşı çimərsən. Sonra ağ su çıxacaq. O ağ suda saçlarını, qaşlarını yuyarsan. Bir gözəl olarsan ki, tayın tapılmaz – deyir. Gözəl tələsik qarıyla xudahafizləşib yola düzəlir. Qarı da arxadan yalanının qurbanına baxıb xısın-xısın gülür. Gözəl qara suda çiməndə bədəni şəvə mərmərə dönür. Saçlarını, qaşlarını, kirpiklərini ağ suda yuyanda qar adamına bənzəyir. Başılovlu evə yollanır. Qızını bu görkəmdə görən anası dəhşətə gəlir... Doğrusu, o zamanlar mən anasız Fatmanın taleinə acıyırdım. Yox! Acımaq azdır. Ağlayırdım. Qızı bir bacı qədər sevirdim. Gözələ isə doğma anasına arxalanıb qürrələndiyinə görə acığım tuturdu. Ancaq mən böyüdükcə dəyişdim. Söz yox ki, həyata münasibətim də təzələndi. Düz söz uğrunda çarpışan mübarizlərlə dostlaşdım, özüm də mübarizləşdim. Düz söz uğrunda hər şeyimdən keçməyə hazır oldum. "Fatmanın nağılı"nı xatırladım. Düz söz uğrunda olan-qalan yaraşığını da itirib eybəcər hala düşən Gözələ haqq qazandırdım. Deyə bilərlər ki, axı Gözəl eybəcər olacağını qabaqcadan bilmirdi. Nə olsun? Məğrur adamlar eybəcər olmağını qabaqcadan bilsə də, düz sözündən dönmür. Bəli! Qətilik mütiliyə baş əymir. Deyə bilərlər ki,

cürət kürəyini arxaya söykəyir. Gözəl də kürəyini anasına söykəmişdi. Nə olsun? Fatma da kürəyini atasına söykəmişdi. İş arxada deyil. Xasiyyətdədir. İnsan arxalı da olsa, düz söz uğrunda qətiyyətlə çarpışmalıdır... Hiss etdim ki, mənə verilən qiymət bölmə müdirini təəssüfləndirib. Ancaq daha olan olub. Bölmə müdirilə xudahafizləşib dəstəyi yerinə qoydum.

Yadıma bir əhvalat düşdü. Süleyman Rəhimovla Süleyman Rüstəmi "Sosialist Əməyi Qəhrəmanı" adı almaq üçün Moskvaya təqdim etmişdilər. Süleyman Rəhimov bu fəxri adı almışdı. AKP MK-nın birinci katibi Heydər Əliyev təntənəli yığıncaqda Süleyman Rəhimovun döşünə Sosialist Əməyi Qəhrəmanının ulduzunu taxmışdı. Ancaq Süleyman Rüstəm hələ gözləyirdi. Özü də həyəcanla gözləyirdi. Moskva Moskvadır. Birdən olmadı elə, oldu belə. Moskva məgər həmişə kiminsə dediyini deyir? Yox! Moskva o qədər verdiyi sözün altından çıxıb ki... Süleyman Rüstəmin intizar dolu həyəcanla Sosialist Əməyi Qəhrəmanı fəxri adını alacağını gözlədiyini qələm yoldaşları da bilirdi. Hətta öz aralarında bu haqda danışırdılar da... Bir axşam Moskvada yaşayan rus şairlərindən biri Süleyman Rüstəmə zəng vurub: – Əziz dostum, sənə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsi haqqında fərmanı qəzetdə oxuyub o qədər sevindim ki, – deyir. Sən demə, rus şairi Süleymanları qarışıq salıbmış. Süleyman Rüstəm şair dostunu başa salır ki, o başqa Süleymandır, mən isə başqa Süleyman... Dostu pərt olur. Süleyman Rüstəm isə nigaran...



Nəhayət bir gün Süleyman Rüstəmə də Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsi haqqında qəzetdə fərman çıxdı. Bir həftə sonra Yazıçılar İttifaqına getmişdim. Qayıdanda dəhlizdə Süleyman Rüstəmlə qarşılaşdım. Yaxasında Sosialist Əməyi Qəhrəmanının ulduzu par-par parlayırdı. Görüşdük. Əlimi yaxasındakı ulduza sarı uzadıb hərarətlə: – Ulduzunuz mübarək! Sizi Sosialist Əməyi Qəhrəmanı fəxri adı almanız münasibətilə təbrik edirəm – dedim. O təbəssümlə: – Sağ ol! – dedi. Sonra əlini yaxasındakı ulduza toxundurub etirafla: – Bu avansdır. Sonralar gör bunun əvəzinə məndən nələr istəyəcəklər – dedi. Yadıma bir atalar məsəli düşdü. Məni gülmək tutdu. Ancaq özümü zorla saxladım. O məsəldə deyilir ki, tülkünün meydanda nə işi var ki, dərisinə qiymət qoysunlar. Şair də elə. Axı o niyə dövlətdən minnətlə ənam diləyir ki, dövlət də sonralar ondan daha çox xidmətlər umsun. Mən eyhamla Süleyman Rüstəmə: – Nigaran qalmayın. Sizə də Süleyman Rüstəm deyərlər. İnşaallah tavan altında qalmazsınız – dedim. Sonra Süleyman Rüstəmlə xudahafizləşib Yazıçılar İttifaqından çıxdım. Yolda düşündüm ki, sənətkar ən yüksək mükafatı belə, dövlətdən əvvəlki sanballı xidmətlərinə görə almalıdır. Sonralar da sanballı xidmətlər göstərib-göstərməyəcəyi özündən asılı olmalıdır. Yox, əgər dövlətdən asılı olarsa, onda sənətkar dövlətin borclusuna çevrilər. Borclu olmaq isə sənətkarı qulağı sırğalı qula çevirər...

Evə gəldim. Paltarımı dəyişib divanda əyləşdim. Təzə qəzetləri gözdən keçirdim. Yazı mizimin üstündəki telefon səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran o tay-

lı qələm yoldaşlarımdan biri idi. O yanğı dolu təəssüflə: – Təbrizdə Milli hökumətin buraxdığı “21 Azər” medalı yadındadır? – dedi. Mən heyrətlə qələm yoldaşıma: – Necə yəni yadımdadır? O medal mənim gözlərimdə elə yerləşib ki, rəssam olmasam da əksini çəkə bilərəm. Milli hökumət o medaldan birini də mənə vermişdi. Təbrizin yaxınlığında qaragüruhçular bizi qarət edəndə o medalı da aparmışdılar – dedim. Qələm yoldaşım müjdəylə mənə: – Bakıdakı İranlı Siyasi Mühacirlər Cəmiyyəti hansı zavoddasa o medaldan bir qədər buraxdırır ki, həm bu taylı, həm də o taylı görkəmli xadimlərə versin. Süleyman Rüstəm də bu məsələni eşidib. Heç bilirsən nə deyib? – dedi. Mən təəccüblə: – Hardan bilim? – dedim. O eyhamla mənə: – Süleyman Rüstəm deyib ki, sinəmi nə qədər hörmətli ulduz, şöhrətli orden, qiymətli medal bəzəsə də, yenə də arzu edərdim ki, o “21 Azər” medalından biri də mənim olsun – dedi. Mən səmimiyyətlə o taylı qələm yoldaşıma: – Sənin eyhamın təqdirəlayiqdir – dedim – axı o medalı Milli hökumət elə adamlara verirdi ki, hünərləri ac olsa da, gözləri tox idi. Bəli! O dağı dağ üstə qoyan adamlar ucaltdıqları ülviyyət abidələrini Vətənə bağışlayırdılar. Əvəzlərində heç kimdən şöhrət istəmirdilər. Bilirdilər ki, şöhrət rezin torbaya bənzəyir. İçinə nə yığsan, o yenə genişlənəcək. Hayıf hələ də elə adamlar var ki, sinələrini şöhrət muzeyinə döndərmək istəyir. O taylı qələm yoldaşım daşı hara atdığımı bildi. Acı-acı güldü. Sonra səmimiyyətlə: – Varam sənin açıq danışmağına – dedi. Sağollaşıb telefon dəstəklərini yerlərinə qoyduq. Sonra eşitdim ki, Süleyman Rüstəm “21 Azər” medalı da alıb. O gecə bu şeiri yazdım:



**Kimlərinsə qohumu, vəzifəsi, tanışı,**
**Mənimsə istedadım durdu arxamda ancaq.**
**Könlümü isitdisə insanların alqışı,**
**Nə orden, nə də ulduz yandı yaxamda ancaq.**

**Mən bir şəhər itirdim gül dolu Təbriz kimi,**
**Qəribliksə yazda da qar ələdi təpəmə.**
**– Hanı doğmalar? – deyə çağladım dəniz kimi,**
**Sahillər qulaq asdı yanğı dolu ləpəmə...**

**Məni qınama şeirim! Uman yerdən küsərlər,**
**Sən də bu həqiqəti möhkəm as yaddaşından.**
**Qəribin də öz halal payı üstə əsərlər,**
**Haqqı batsa, inciyər qardaş da qardaşından.**

Səhəri ADF MK-ya getdim. Daha Mərkəzi Komitənin sədri Qulam Yəhya deyildi. Əmirəli Lahrudi idi. Mən ictimai-ədəbi haqqımın kimlərinsə tərəfindən tapdandığını təzə sədrə dedim. Onsuz da Ə.Lahrudi məni yaxşı tanıyırdı. Mən ADF-nin Ərdəbil təşkilatında işləyəndə o Meşkin təşkilatında işləyirdi. Ərdəbildə tez-tez görüşürdük. Doğrusu, halal haqqımın bərpa olunmasında təzə sədrdən kömək gözləyirdim. Ona görə də Ə.Lahrudi ilə qətiyyətlə danışırdım. Təzə sədrin də haqqımda yuxarıdakılarla danışmağını istəyirdim. Osa dedi ki, biz yuxarıdakılardan yalnız xahiş edə bilərik, tələb yox! Ancaq Ə.Lahrudi bilməmiş deyildi ki, əvvəla haqqı tələb edərlər, xahiş yox! Sonrasa xahiş də var, xahiş də! Elə xahiş var ki, həm məzmununa, həm də məqamına görə tələbdən də təsirli olur. Xahiş tələbdən daha məhrəm, daha doğma, daha munisdir. Bəli! Xahi-

şi elə etmək lazımdır ki, öz məziyyətlərini itirməsin. Xahişdə ərk də var, tələb də, hökm də. Xahişdə yaxınlıq var, tələbdə uzaqlıq. Xahişdə istilik var, tələbdə soyuqluq... Bəlkə ona görə xahiş insanların nəzərində tələbdən daha yüksəkdə durur. Ancaq heç kim xahişi o yüksəklikdən aşağı salmamalıdır. Başa düşməlidir ki, xahiş arzunun ən incəsi, ən zərifi, ən kövrəyidir. O qalxdığı yüksəklikdən aşağı salınsa çilik-çilik olar. Hiddət parçalarına dönər. Nə isə... Təzə sədr mənim yanımda telefonun dəstəyini qaldırıb yuxarılarla danışmadı. Dedi ki, ADF Mərkəzi Komitəsi sənin haqqında lazım olan sənədləri toplayıb yuxarılara göndərib. İş bizdən keçib. İndi yuxarılardan asılıdır. Mən Ə.Lahrudinin otağından sinəmi göynədən acı bir təəssüflə çıxdım.

Bir gün bazardan gələndə blokumuzun birinci mərtəbəsində divardan asılmış poçt qutusunu açıb qəzetlərimizi götürəndə aralarında bir zərf gördüm. Üstünü oxudum. Yerevandan idi. Düşündüm ki, mənim Yerevanda nə tanışım, nə də dostum yoxdur. Bu zərfi Yerevandan kim göndərə bilərdi? Zərfi qəzetlər qarışıq qoltuğuma vurub pilləkanları fikirləşə-fikirləşə qalxdım. Evə çatıb qapının zəngini çaldım. Şəfiqə qapını açdı. Qəzetləri Şəfiqəyə verib zərflə yan otağa keçdim. Zərfi açdım. İçindən bir məktub, bir də iki vərəqdən ibarət bir açıqlama çıxdı. Açıqlamadan mənə tanış bir şəkil baxırdı. Mən əvvəlcə rus dilində yazılmış məktubu oxudum. Ermənistan Yazıçılar İttifaqından göndərilən bu məktubda deyilirdi ki, şair Ohanes Qokasyanın 60 illiyi tamam olur. Sizdən xahiş edirik ki, şairə bir



təbrik teleqramı göndərəsiniz. Axı siz də Təbrizdəki "Şairlər məclisi"nin fəal üzvü olubsunuz. Orda Ohanes Qokasyanla tez-tez görüşübsünüz. Necə deyərlər, çoxdanın tanışısınız. Mən yazı masamın iri siyirməsindən "Şairlər məclisi"nin son toplusunu çıxartdım. Açdım. Ohanes Qokasyanın şəklini tapdım. Açıqlamadakı şəkliylə tutuşdurdum. Bəli! O idi. Şəklinin altında "Cavanşir" adlı poeması da çap olunmuşdu. Poemanı dilimizə Cəfər Xəndan çevirmişdi. Ancaq aradan illər keçsə də Ohanes Qokasyan o qədər dəyişməmişdi. Sonra açıqlamanı oxudum. Sən demə, o bizdən bir qədər sonra ailəsi ilə Təbrizdən köçüb Yerevana gəlib. Özü də güllə yağışı altında yox, icazənamə ilə. Dinclik şəraitində. Hətta ailəsindən başqa istədiyi şeyləri də gətirib. Mən isə güllə yağışı altında iş paltarında Araz üstdəki nəhəng körpünün dəmir qapısını döyüb rus əsgərindən sığınacaq istəyirdim. Sonralar başıma nə gələ, gələ... Açıqlamada Ohanes Qokasyanın Yerevana köçdükdən sonra həyatında baş verən fərəh dolu hadisələrdən təntənə ilə yazılmışdı. Şairin neçə-neçə mükafata layiq görüldüyü, neçə-neçə ordenlə təltif olunduğu, neçə-neçə kitabının çap olunması, seçilmiş əsərlərinin çoxdan buraxılması məmnuniyyətlə göstərilirdi. İndi bildim ki, Ohanes Qokasyan görkəmcə niyə o qədər də dəyişməyib. Sən demə, öz millətinin qayğısı ilə əhatə olunub. Mən isə neçə illərdir ki, öz seçilmiş əsərlərimin ikicildliyini çap etdirə bilmirəm ki, bilmirəm. Burda deyiblər ki, ata övladının ətini yesə də sümüyünü çölə atmaz. Ohanes Qokasyanın atası öz milləti idi. O millətini Təbrizdə itirib Yerevanda tapmışdı. Milləti də

şair övladının arxasında səxavətlə dayanmışdı. Ürəyimdə Ohanes Qokasyanın nə şəxsiyyətinə, nə də yaradıcılığına həsəd apardım. Ancaq niyə gizlədim. Yubilyarın millətindən gördüyü əhatəli qayğıya qibtə etdim. Bəli! Yalnız bu cəhətdən pıçıltıyla Ohanes Qokasyanın sağ əli başıma dedim...

Balaş Azəroğluya Xalq şairi adı veriləndə aramız soyuq idi (1981-ci ildə). Ancaq buna baxmayaraq ona zəng vurub fəxri ad alması münasibətilə təbrik etdim. Sonra Azərbaycan Yazıçılarının VII qurultayında kimsə təklif etdi ki, Azərbaycan Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi yaradılsın. Başqa birisi dedi ki, şöbə yox, o sahə üçün katib seçilsin. Nə isə... Balaşı katib seçdilər. Mən elə qurultayda Balaşı katib seçilməsi münasibətilə təbrik etdim. Ancaq təəssüflər olsun ki, Balaş Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə katib işləyə-işləyə mənim yubileyimlə heç maraqlanmadı. Nəinki fəxri ad almağım üçün təşəbbüs göstərmədi, etikanı unudub telefonla da olsa məni təbrik də etmədi. O özünün iki dəfə ikicildliyi çıxdığı halda mənim bir dəfə də olsun ikicildliyimin çap olunması haqqında səsini də çıxarmadı. Yalnız təəssüflə mənə dedi ki, bilmirəm sənin tək şairin niyə indiyə qədər ikicildliyi çıxmayıb. Mənimki çıxıb, başqalarınınkı çıxıb, ancaq səninki yox! Mən nəzakət xatirinə Balaşa demədim ki, bəs səni Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə niyə katib seçiblər? Ona görə seçiblər ki, sən Cənubi Azərbaycan Yazıçılarının işi ilə məşğul olasan. Bəs sən nəylə məşğul olursan?



Ancaq sən demə, mənim yaradıcılığıma, həm də şəxsiyyətimə hörmət bəsləyən adamlar az deyilmiş. Sanki o adamlar bir məqam gözləyirlərmiş ki, öz ürək sözlərini mənə desinlər. İndi belə bir məqam gəlib çatmışdı. Altmış yaşım tamam olmuşdu. Telefonumuz susmaq bilmirdi. Dostlar, tanışlar, oxucular məni məhəbbət dolu sözlərlə təbrik edirdi. Poçt qutumuz dolub-boşalırdı. Güllərlə naxışlanmış teleqramlar qələm dostlarımın, tanışlarımın, oxucularımın yaz ətirli təbriklərini gətirirdi... Bu səmimiyyətdən yoğrulmuş ürək sözləri mənə ən ülvi mükafat idi. Bəli! İsti sinələrdən qopmuş sənət töhfəsi soyuq vərəqlərdə, dəmirlərdə, bürünclərdə yuvalanmış qiymətdən daha nüfuzlu idi! Xalq şairi Mirvarid Dilbazi mənə göndərdiyi təbrik məktubunda yazırdı: “Əziz, hörmətli Əli Tudə müəllim! Siz xalqınıza, Vətəninizə üz verən o fəlakətli günlərdə Şimali Azərbaycandakı qardaşlarınıza pənah gətirdiyiniz zaman “Bir ürək, bir təmiz vicdan gətirdim” adlı şeirinizlə bizim ürəyimizi şair ilhamınızla fəth etmişdiniz. Əziz qardaşımız! İllər sədaqətli təmizliyin sınaq daşıdır. Siz bu sınaqdan üzü ağ, alnı açıq çıxdınız. O ürək, o təmiz vicdan bu günə qədər ilk vədinə sadiq qaldı. Məhz bunun üçün siz belə yüksək şair rütbəsinə yüksəldiniz. Şəxsiyyətinizdəki bu saflıq, nəciblik üçün sizi çox istəyirəm. Həmişə şeirlərinizi sevə-sevə oxuyuram. Bu nəcib, təvazökar duyğularınızdan yaranan şeirləriniz, poemalarınız, ilhamlı poeziyanız nə qədər ürəkdə yer tutub. Siz buraya qara saçlı, od ürəkli, təmiz vicdanlı bir gənc gəldiniz. İllər saçlarınızın şəvə rəngini dəyişdi. Onu dağ zirvələri tək əbədi

qarlı etdi. Lakin ürəyinizin odunu söndürməyə, vicdanınızın təmizliyinə toxunmağa gücü çatmadı. Əziz ilhamlı şair! Siz öz poeziyanızın bədii qüvvəsilə ürəklərdə yer tutmuş əsil xalq şairisiniz”...

Qulam Yəhyanın arvadı Sitarə xanım da zəng vurub əvvəlcə anadan olmağımın altmış illiyini təbrik etdi. Sonra dəstəyi Qulam Yəhyaya verdi. Danışdıq. O da məni təbrik etdi. Ancaq danışdıqca səsi titrəyirdi. Bu qocalıqdan deyildi, peşimançılıqdan idi. O mənim haqqımda olan haqsızlıqları məndən yaxşı bilirdi. Qulam Yəhya ilə xudahafizləşib dəstəyi yerinə qoydum... Bu zaman qapının zəngi çalındı. Qapını açdım. Poçtalyonla qarşılaşdım. Onu içəri dəvət etdim. Poçtalyon SSRİ Yazıçılar İttifaqının təbrikini gətirmişdi. O getdi. Mən üstündə zərlə “Adres” yazılmış qırmızı cildli təbriki açdım. Qalın cildli “Adres” elə sanballı idi ki... Sən demə, içərisində yazılan teleqram da sanballı imiş. Sağ olsun katiblik. Mənim həm ictimai-siyasi xidmətimə, həm də bədii yaradıcılığıma elə yüksək qiymət vermişdi ki... Sanki katiblik məni necə tanıdığını hərarətlə mənim özümə bildirmişdi. Bu təsəlli deyildi. Yox! Sənətimin layiq olduğu həqiqət nəfəsli dəyər idi...

## UNUDULMUŞ TƏVAZÖKARLAR

Mən poeziya nümunələri ilə yanaşı mənsur şeirlər, hekayələr, povestlər, romanlar, xatirələr, məqalələr də yazıram. Şəfiqə yorulduğumu görüb canıyananlıqla: – Bilirsən atalar nə deyib? – deyir. Mən qürurla: – Eh, sağ olmuş, atalar o qədər söz deyib ki... Mən



nə bilim sən hansını deyirsən? – deyirəm. Şəfiqə mənalı-mənalı: – Atalar deyib ki, bir əldə iki qarpız tutmaq olmaz. Sən isə bir əllə neçə-neçə janrda əsər yazırsan – deyir. Mən təəssüflə: – Atalar qarpız haqqında o məsəli hər şeyin təbii olduğu vaxt deyib. İndi yazıq qarpıza iynəylə elə dərman yeridirlər ki, şişib dama dönür. Sonra süni üsulla böyüdülmüş qarpızın biri heç iki ələ sığışmır. Dadını bilmək istəyəni isə zəhərləyir... Bəli! Pulun ehtirasla dolu tamahı yaşıl qarpızı sarı ilana döndərir. Zavallı insanlar bir-birinə qənim kəsilirlər. Yerdə məhsulu zəhərləyirlər, göydə havanı – deyirəm.

Mən zəif əsərlər oxuyanda əsəbiləşirəm. Müəllifi istər yaşlı olsun, istər yox, istər ustad olsun, istər yox, istər məşhur olsun, istər yox. Qəribə olsa da, belə əsərləri oxuyub son nöqtəsinə çatmağa tələsirəm. Yox! Canımı belə əsərlərdən tez qurtarmağa çalışıram. Son nöqtəyə çatdımmı, yazını bir yana atıb ayağa qalxıram. Sonra da otağı var-gəl etməyə başlayıram. Bu zaman Şəfiqə: – Yenə nə oldu? – deyir. Mən hiddətlə Şəfiqəyə: – Götür o yazını oxu! Onda bilərsən nə oldu. Təəccüb edirəm ki, müəllif niyə belə zəif əsər yazır, naşir niyə belə zəif əsər buraxır? Bu ki, tamam məsuliyyətsizlikdir. Nə özlərinə hörmət edirlər, nə də oxuculara – deyirəm. Şəfiqə təbəssümlə mənə: – Nahaq yerə əsəbiləşirsən. Belə əsərləri yazanlar elə bilirlər ki, şedevr yaradıblar. Axı belə müəlliflərin istedadı ancaq elə əsərlər yaratmağa qadirdir. Bir də unutma ki, həyatda zəif olmasa güclü, çirkin olmasa gözəl, pis olmasa yaxşı bilinməz. Yox! Bilinməz sözü azdır. Bəyənilməz, sevilməz, əzizlənməz. Sonra da müqəddəsləşməz – de-

yir. Düz sözə nə deyəsən? Oxucular tərəfindən sevilmək nə yazmaqladır, nə də nəşr olunmaqla! Yox! Əsl sənət əsəri istedadla, həvəslə, zəhmətlə yaranır... Ancaq təkcə sənət əsəri yaratmaq haqda düşünmək olsaydı, dərd yarı idi. Sən demə, belə zəif əsərlərin meydana çıxmasının başqa səbəbləri də varmış. Şəfiqə təəssüflə mənə: – Bilirsən, belə əsərlərin yaranmasında mənəvi ehtiyacdan çox, maddi ehtiyac rol oynayır. Bəli! Bazarda bahalıq hökm sürdükcə yaşamaq çətinləşir. Ağır xərclərin öhdəsindən gəlmək olmur. Uzağa niyə gedək? Biri elə sən özün! Ailənin ehtiyaclarını heç babat da təmin edə bilmirsən. Halbuki səndən çox yazan yoxdur. Yazdıqlarının da keyfiyyəti uğrunda canını qoyubsan... – deyir. Düz sözə nə deyəsən? Vay o gündən ki, sənət dolanışıq vasitəsi ola. Onda o sənətdən bircə dənə də gözəl nümunə gözləmək olmaz...

Paltarın qəşəng, yaraşıqlı, ürəyəyatan olmasında parça əsas şərtdir. Axı paltar parçadan tikilir. Əsərin gözəl çıxmasında isə mühüm amil dildir. Bəli! Mövzu nə qədər aktual, məzmun nə qədər maraqlı olsa da, əsərin taleyini müəllifinin dili həll edir. Qələm sahibi dililə əsəri oxunaqlı da edə bilər, oxunaqsız da. Əsərdəki hadisələri ətə-qana doldura-doldura zənginləşdirən də öz ustasının dilidir, quruda-quruda yoxsullaşdıran da... Sənətdə mövzu bulağa, hadisələr isə çağlayıb axan sulara bənzəyir. Əlbəttə, o sular nə qədər çox büllurlaşsa, dəyəri bir o qədər artıq olar. Ancaq o sular öz-özünə büllurlaşa bilməz. Bu zəhməti sənətkarın obrazlı dili öz öhdəsinə götürməlidir. O əsərini təzə təşbehlərlə, əlvan ifadələrlə, nadir lövhələrlə naxışlamalıdır.



Bəzi qələm sahibləri, xüsusilə nəsr əsərləri yazanlar dillərini guya "xəlqiləşdirmək" fikrinə düşürlər. Bu məqsədlə cümlə üzvlərinin yerlərini istədikləri tərzdə dəyişdirirlər. Məsələn, xəbəri cümlənin əvvəlində, mübtədanı isə axırında verirlər. Qalan cümlə üzvlərini də hara gəldi səpələyirlər. Bu da savadlı, diqqətli, dözümlü oxucunu əsəbiləşdirir...

Mənim yeniyetməliyim kənddə keçib. O kənddə ki, indi əzəmətlə dolu adı həm həsrətlə, həm də qürurla çəkilən Savalanın ətəyində yerləşir. Yadımdadır. Kəndimizdə də savadsız adamlar danışanda mübtədanı xəbərdən əvvəl deyərdilər. Muğandan gəlib Savalana qalxan karvanlar kəndimizin yanından keçərdi. Sanki o karvanları səfərə təcrübəli sarbanlar yox, məharətli rejissorlar hazırlayardı. Bəli! Hər dəvə, hər yük öz yerində olardı. Mənə elə gəlir ki, bədii əsərin cümlələri də düşünülmüş səliqəylə, sığallanmış nizamla düzülməlidir. Axı o cümlələr də vərəq üstdə sıralanmış yazı karvanlarıdır. Yoxsa cümlə üzvlərinin pərakəndəliyi bədii fikirləri qarışdıra bilər. Nəticədə cümlələr xırmanda yarımçıq döyülmüş həşəmə dönər. Unutmaq olmaz ki, yazıçının yazıları da onun övladlarıdır. Yazıçı öz övladlarının həkimi olmalıdır. Özü də həssas həkimi! Bəli! Yazıçı qələmindən doğulan həm böyük, həm də kiçik cümlələrin sağlamlığının qayğısına qalmalıdır. Yoxsa övladları şikəst ola bilər. Sonrasa müalicələri çətinləşər... Xəlqiliyi cümlə üzvlərinin vəzifələrini əllərindən almaqda yox, xalqın ruhuna, zövqünə, ürəyinə nə qədər yaxın olmasında yoxlamaq gərəkdir...

Mən də bu yolla gedirəm, nə qədər dilim söz tutur, bu yolla da gedəcəyəm. Özü də yazdıqlarıma heç kəsdən, heç zaman əvəz gözləmədən gedəcəyəm. Mən yalnız oxucularımdan, həm də qələm dostlarımdan yazdıqlarıma görə əvəz alıram. Yox! Mən almıram ki... Özləri verirlər. Nədir bu əvəz? Həm oxucularımın, həm də qələm dostlarımın yazdıqlarım haqqında dedikləri səmimiyyətlə dolu razılıq sözləri! Qələm dostlarımdan şair Nəriman Həsənzadə öz əlvan, zəngin, kövrək xatirələrimin ardını yazmağı mənə təkidlə məsləhət görür. Axı şeiri həmişə yazmaq olar. Çünki neçə-neçə şeirin mövzusu da, məzmunu da həyatda mövcud olur. Ancaq xatirəni axtarsan da tapa bilməzsən. O yaddaşda yaşayır. Nəinki indiki nəslə, hətta gələcək nəslə də gərək olacaq qiymətli xatirə ağ vərəqlər üstə ulduz-ulduz parlamasa qığılcım-qığılcım sönüb gedir. Mən qələm dostlarımın qətiyyətli məsləhətini nəzərə alıb, bütün ömrümü həsr etdiyim doğma poeziyama həsrətli günlərimin hesabına unudulmaz xatirələrimin ardını da yazdım. Sanki ağır söz borcundan çətinliklə olsa da çıxa bildim. Ancaq tamamilə yox, qismən! Deyəsən yazılarım uğurlu çıxmışdı. Gələn məktubların arası kəsilmirdi. Telefonum susmaq bilmirdi. Yazıçılar da, oxucular da məni təbrik edirdi. Bir neçə gənc şair xatirələrimi oxuyandan sonra ünvanıma səmimiyyətlə dolu şeir yazdı. Ancaq inqilab nəfəsli, mübariz ruhlu, döyüş bayraqlı xatirələrimin yuxarı dairələrdən əks-sədası gəlmədi...

Deyirlər bir gün Məhəmməd peyğəmbər şəhər içindən piyada keçirmiş. Birdən gözləri mərkəzi meydanda dar ağacından asılmış bir adama sataşır. Dayanıb



ətrafdakı adamlardan asılan şəxsin günahının nə olduğunu soruşur. Ətrafdakı adamlar: – Ya peyğəmbər, bu şəxs oğurluqla məşğul olurdu. Nə öyüdə baxırdı, nə nəsihətə. Axırda malları oğurlanan adamlar bu cinayətkarı tutub dar ağacından asdılar. Vicdanı təmiz deyildi, murdardı – deyir. Məhəmməd peyğəmbər qəti etirazla: – Yox! Bu şəxs cinayətkar deyil. Öz məqsədi uğrunda canından keçən bir fədakardır. Mənə təmiz su gətirin. Dəstəmaz alıb bu adamın ayaqları altında namaz qılacağam – deyir. Ətrafdakı adamlar heyrət içində donur. Ancaq hər buyruğu qanuna dönən Məhəmməd peyğəmbərin bu gözlənilməz buyruğunu da dərhal yerinə yetirirlər. Məhəmməd peyğəmbər təmiz suyla dəstəmaz alıb dar ağacından asılan şəxsin ayaqları altında namaz qılır... Ətrafdakılar isə göz döyədöyə Məhəmməd peyğəmbərə baxır... Mən də öz məqsədi uğrunda canından keçməyə hazır olan bir fədakar deyiləmmi? Ancaq oğurluq məqsədi uğrunda yox, əksinə, oğrularla mübarizə aparmaq məqsədilə! Bu oğrular adi oğrular deyil. Yəni pul, mal, şey oğurlamırlar. Yox! Bu oğrular coşğun istedad, kövrək təvazö, ağır zəhmət oğurlayırlar. Bu oğrular elə qəddardırlar ki, hətta öz insaflarını, vicdanlarını, həyalarını da oğurlayırlar. Mənim də həm döyüş, həm sənət uğurlarımın yuxarılardan alacağı payları belə oğrular qamarlamışlar. Özü də qırmızı paxıllığın yaşıl işığında... Qəribə təzad deyilmi?

Mən şair taleyini düşünəndə öz məsləki uğrunda diri-diri dərisi soyulan İmadəddin Nəsimini xatırlayırdım. Deyirdim ki, özünü şair adlandıran adam Nəsimi əzabına dözməlidir. Bakıda Nəsiminin heykəlinin açılı-

şı olacaqdı. Postament üstündə qoyulmuş heykəl örtüyə bürünmüşdü. Örtük bir neçə yerdən iplə sarınmışdı. Sanki Nəsimini qürbət məmləkətdən oğurlayıb doğma Vətəninə gətirmişdilər. Ancaq hələ də gizlində saxlayırdılar. Günorta televizorda Süleyman Rüstəmin "Durna" musiqili komediyasını göstərirdilər (musiqisi Səid Rüstəmovundur). Mən bu tamaşaya bir neçə dəfə baxmışdım. Yenə də baxdım. Aktyorların çevik oyunları xəyalımda toplanmış ağır kədər buludlarını məharətlə dağıtdı... Durnanın öz valideynlərini necə aldatdığına güldüm. İşində fədakar olan Durna sevgisində də fədakardır. Ancaq ailədə ərköyündür. Çünki valideynlərin madarıdır. Madar həmişə əziz olur. Bir sözünü iki eləmirlər. Durna zaman görmüş doğmalarını sevgisinin günəşlə dolu yolunda azdırmaq istəyir. Axı bəzən zaman görmüş adamlar da aldanırlar. Yox! Həssas valideynlər sevimli övladlarının ərklə dediyi yalanı həqiqət məhəkindən keçirib kələyini duyurlar. Kövrələ-kövrələ xatırlayırlar ki, özləri də səksənə-səksənə, qısıla-qısıla, utana-utana bu sevgi yolundan keçiblər. Bəzən həqiqət nəfəsli sevgilərinin xətrinə valideynlərinə yalan da deyiblər. Qəribə də olsa, yalan arabir həqiqətin xilaskarına dönə bilir...

Tamaşa qurtarandan sonra Süleyman Rüstəmə zəng edib televizorda "Durna"ya yenə maraqla baxdığımı, arabir güldüyümü dedim. O da güldü. Sonra intizarla: – O taydan nə xəbər var? – deyə soruşdu. Mən də təzə eşitdiyim xəbərlərdən Süleyman Rüstəmə dedim. O dedi ki, axşamüstü Nəsiminin heykəlinin açılışı olacaq. Nəsimiyə bir şeir yazmışam. Hələ heç kimə oxumamışam. İstəyirəm sənə oxuyam. Fikrini bilim. Mən hərarətlə: – Oxuyun! – dedim. Şeiri oxudu. Əruz vəznində yazılmışdı. Sanki həm sözdən, həm də musiqidən yoğrulmuşdu. Süleyman Rüstəmə qətiyyətlə: – Əla şeirdir! – dedim. O təvazökarlıqla: – Sözün düzü şeirdən şübhəliydim. Heykəlin açılışında oxumağa ehtiyat edirdim. Deyirdim bəlkə dinləyənlərin xoşuna gəlmədi. Madam ki, xoşuna gəlir, onda şübhəm nahaqdır. Sənin zövqünün gözəlliyini öz şeirlərindən bilirəm. Şeiri heykəlin açılışında oxuyacağam. Sən də gəl. Görək şeir dinləyənlər tərəfindən necə qarşılanır. Mən məmnuniyyətlə: – Gələrəm! – dedim. Sonra dəstəyi yerinə qoydum. Axşamüstü heykəlin açılışına getdim. Meydan adamla dolu idi. Süleyman Rüstəm də gəldi. Görüşdük. Mitinq başlandı. Nəsiminin heykəlinin örtüyü açıldı. Sanki qürbətlə Vətənin arasındakı sərhəd aradan götürüldü. Qərib şair Vətənə qovuşdu. Süleyman Rüstəm də öz alovlu şeirini hərarətlə oxudu. Mən isə Vətənimdən Vətənimə qovuşmaq həsrətilə şeirə bir də qulaq asdım...

AKP MK-nın mədəniyyət şöbəsinin bölmə müdiri mənə təsəlli verib deyirdi ki, 1984-cü ildə SSRİ Yazıçılar İttifaqının yaranmasının 50 illiyi tamam olur. Bu münasibətlə bəzi Azərbaycan yazıçılarına da fəxri adlar veriləcək. Şübhəsiz, o yazıçılardan biri də sən olacaqsan. Doğrusu, mən bir söz demirdim. Sakitcə gözləyirdim. Ancaq bir gün qəzetdə fəxri ad verilən yazıçıların siyahısı çap olundu. Bu adlar arasında Cənubi Azərbaycan şairlərindən Hökümə Billurinin də adı vardı. Mən Hökümə xanıma zəng vurub onu fəxri ad alması münasibətilə təbrik etdim. O təbrikimi sevinclə dinlədi. Son-

ra mənim hələ də fəxri ad almamağıma səmimiyyətlə təəssüfləndi... Günlər keçdi. Mən isə yenə sakitcə gözlədim. Bir gün yenə qəzetdə fəxri ad verilən yazıçıların siyahısı çıxdı. Bu dəfə də fəxri ad alan yazıçıların arasında Cənubi Azərbaycan şairlərindən Mədinə Gülgünün adı vardı...

Yadıma hələ gənliyimdə hikmət dolu şeirlər yazan Sədi Şirazi haqda eşitdiyim bir əhvalat düşdü. Yazılanlara görə şair səyahəti çox sevərmiş. Bir gün də o nökərilə Şərq ölkələrindən birinə gedir. Paytaxtın qəşəng mehmanxanalarından birində sakin olur. Günorta nökəri bazara göndərir ki, bir az yeməli şeylər alıb gətirsin ki, nahar etsinlər. Nökər gedir. Bir qədər keçdikdən sonra əlidolu qayıdır. Ancaq elə gülür... Sədi Şirazi maraqla: – Nəyə gülürsən? – deyə nökərdən soruşur. Nökər gülə-gülə: – Ağa, şəhərə gülürəm – deyir. Şair təəccüblə: – Şəhərə nə olub ki? – deyə nökərdən soruşur. Nökər məmnun-məmnun: – Ağa, yaşamalı şəhərdir! – deyir – xurma da, soğan da, yağ da, düyü də, arpa da, şor da, qaymaq da, ayran da, bal da, sirkə də bir qiymətədir. Sədi Şirazi qaşlarını çatıb xəyala gedir. Nökər narahat olur: – Ağa, niyə xəyala getdiniz? – deyə şairdən soruşur. Şair ciddiyyətlə: – Tez ol! Hazırlaşıb şəhərdən çıxaq – deyir. Nökər heyrətlə: – Axı niyə, ağa? – deyə Sədi Şirazidən soruşur. Şair qətiyyətlə: – Ona görə ki, xatalı şəhərə bənzəyir! – deyir. Ancaq nökər yalvar-yaxarla Sədi Şirazini öz fikrindən daşındırır. Sabahı yenə şair nökərini bazara göndərir ki, nahara gərək olan yeməli şeylər alsın. Nökər gedir. Bu dəfə nədənsə nökər bazarda çox yubanır. Gəlib çıxmaq



bilmir ki, bilmir. Sədi Şirazi bir neçə dəfə otaqdan çıxıb yola baxır. Ancaq nökər görünmür ki, görünmür. Qürub çağı şairin otağının qapısı döyülür. Sədi Şirazi qapını açır. İki məmurla qarşılaşır. Məmurlardan biri tələşla: – Sizin nökərinizi şəhər meydanında dardan asmaq istəyirlər. Əgər özünüzü tez meydana yetirməsəniz o zavallını asacaqlar – deyir. Şair otağının qapısını bağlamadan gələn məmurlarla şəhər meydanına gedir. Yox! Başılovlu qaçır. Meydanda qurulmuş dar ağacının altında boynuna kəndir salınmış nökərini görəndə hiddətlənir. Ancaq öz hiddətini yatıra bilir. Təkəbbürlü hakimə şəhərdə qərib olduqlarını deyir. Sonra da nökərinin bağışlanmağını xahiş edir. Hakim əlini bığına aparıb düşünə-düşünə eşəndə şair xahişinə cavab gözləmədən cibindən bir kisə qızıl çıxarıb ona uzadır. Hakim qızıl kisəsini ikiəlli göydə qapır. Nökəri buraxır. Yolda Sədi Şirazi yenidən hiddətlənir. Hələ də özünə gəlməyən nökərə: – Ay bədbəxt, bu nə işdir başına gəlib? Sənə demədim ki, hazırlaşıb bu şəhərdən çıxaq? – deyir. Nökər peşiman-peşiman danışır... Sən demə, nökər bazarda iki dalaşan adamın yanından keçəndə birdən dalaşanların biri bıçağı o birinin böyrünə soxur. Yaralanmış adam dərhal ölür. Qatil qaçıb aradan çıxır. Nökər isə heyrətlə ölən adama baxır. Elə bu anda özünü məmurların əhatəsində görür. Bəli! Qərib nökəri günahı olmaya-olmaya harasa aparırlar... Sonra da ölümə məhkum edirlər.

Mənim yaşadığım şəhərdə isə yuxarılar lap ağ eləmişdilər. Sədi Şirazinin getdiyi şəhərdə heç olmasa xurma da, soğan da, yağ da, şor da, düyü də, arpa da,

qaymaq da, ayran da, bal da, sirkə də bir qiymətdə idi. Mənim yaşadığım şəhərdəki yuxarılar isə tamam tərsinə eləmişdilər. Soğanı xurmadan, şoru yağdan, arpanı düyüdən, ayranı qaymaqdan, sirkəni baldan üstün tutmuşdular. Bəli! Hələ gəncliyimdə şeirlərini redaktə etdiyim şairlərə fəxri adlar vermişdilər. Mən isə gözləri görə-görə unudulmuşdum.

Qəribə də olsa yadıma gözəl təəssüratlarla dolu əhvalatlar düşdü. Mən evlənib böyük bir ailənin başçısı olandan sonra da nişanlarda, toylarda, ziyafətlərdə mənimlə üz-üzə əyləşən gənc, şux, şən qızlar sanki nəzakətlə mənə xidmət göstərməkdən zövq alırdılar. Mən isə qızların mehrinə heyran qalırdım. Qızların iri gözlərində sevgi çeşməsi çağlayırdı. Sanki büllur damlaları süfrəyə düşəcəkdi. Mən qızlara baxa-baxa ürəyimdə özümü o ki var qınayardım ki, dünyaya niyə tez gəlmişəm. İndi də özümü qınayıram. Ancaq başqa səbəbə görə. Dünyaya gec gəldiyimə görə. Bəli! Sən demə, mən dünyaya gələnə qədər həyatda təmiz adamlar seyrəlibmiş. Mən görəndə azalıbmış. Sonralar nadirləşibmiş. Daha sonralar tükənibmiş...

Bir axşam yazı mizimin üstündəki telefon səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran məslək, döyüş, qürbət yoldaşım Əli Tohidi idi. O narazı-narazı mənə: – Keçən axşam yerli ziyalıların məclisinə düşmüşdüm. Bu taydan da, o taydan da hərarətlə danışırdılar. Bir ziyalı sənin haqqında təəssüf dolu şikayətlə danışdı. Sonra sənin o taydan bu taya keçərkən Naxçıvanda yazdığın "Mən nə gətirdim" şeirindən üç bənd oxudu:



**Mən öz qardaşıma mehman gələndə**
**Bir qələm, bir dəftər, bir can gətirdim.**
**Dağların döşünü toplar dələndə**
**Bir ləkə düşməyən vicdan gətirdim.**

**Mən onu Günəşdən təmiz saxladım,**
**Canımdan, gözümdən əziz saxladım,**
**Bu kiçik qəlbimdə dəniz saxladım,**
**Bir xilqət görmədi, pünhan gətirdim.**

**Ucuz tutmasınlar bu sovqatımı,**
**Hissimi, duyğumu, ehsasatımı...**
**Mən öz varlığımı, öz həyatımı**
**Doğma qardaşıma qurban gətirdim.**

Daha sonra hiddətlə məclisə: – Biz isə Əli Tudənin təmiz vicdandan adlandırdığı dəyərli sovqatını ucuz tutduq – dedi. Məclis riqqətə gəldi. Qədirbilən ziyalılar başlarını ləngərlə yellədilər. Ancaq bilinmədi ki, yellənən başlar yuxarının biganəliyinə etiraz edir, yoxsa ürəklərdə alışan qəzəb odunu söndürmək istəyir. Bəli! Nəinki yalnız ziyalılar, hətta ziyalı olmayanlar da sənin şeirlərini sevir. Ona görə ki, sənin şeirlərin bütün ürəklərin munisinə dönə bilir. Atalar deyib ki, balığı at dəryaya, balıq da bilməsə, xalıq bilər. Sənin xalığın xalqdır. O da səni həm sevir, həm də dəyərləndirir – dedi. Mən təsəlli dolu sözlərinə görə adaşıma təşəkkür etdim. Sonra xudahafizləşdik. Dəstəyi yerinə qoydum.

Günlər keçdi. Mən isə həm sakitcə, həm də təmkinlə gözlədim. Gün o gün oldu ki, Yazıçılar İttifaqında geniş plenum keçirildi. Plenum təşkilat məsələsinə baxdı. Anar Rzayev birinci katib seçildi. Bir müddətdən

sonra İttifaqdan zəng vurub haqqımda bəzi məlumatları bilmək istədilər. Mən də dedim. Sonra maraqlanıb bu məlumatları nə münasibətlə aldıqlarını soruşdum. Dedilər sonra bilərsən. Yenə günlər keçdi... Bir gün səhər oğlum Natiq iş yerindən (Azərbaycan Televiziyasından) zəng vurub dedi ki, qəzetdə fəxri adlar verilən yazıçıların siyahısı çap olunub. Ənvər Məmmədxanlıya xalq yazıçısı, Süleyman Vəliyevlə sənə əməkdar incəsənət xadimi, Manaf Süleymanova isə əməkdar mədəniyyət işçisi fəxri adı verilib. İş yoldaşlarım dedilər ki, səni təbrik edim. Mən də yoldaşlarıma təşəkkür edib dedim ki, atamın şagirdləri bu fəxri adı çoxdan alıb. Atam daha yüksək fəxri adları çoxdan almalıydı. Oğlum düz deyirdi. Düz sözə nə deyəsən. Bir az sonra isə telefon zəngləri başlandı. Sən demə, xalq bu məqamı çoxdan gözləyirmiş. Mən bunu zəng vuran dostların, tanışların, oxucuların təbəssüm işığında dedikləri səmimiyyətlə dolu sözlərindən duydum. Zəng vuranların bəzisi mənə verilən bu fəxri adın iyirmi il gecikdiyini də aşkar deyirdi. Axı daha aşkarlıq zamanı idi. Sonra təbrik teleqramları axıb gəldi. Hətta uzaq rayonlardan da məhəbbətlə dolu məktublar aldım. Hökümə Billuri zəng vurub fəxri ad almağım münasibətilə məni təbrik etdi. Sonra dedi ki, sən daha yüksək ada layiq şairsən. Ancaq nə Balaş, nə də Mədinə məni ad almağım münasibətilə təbrik etmədi.

Anar zəng vurub fəxri ad almağım münasibətilə məni təbrik etdi. Qələm yoldaşıma öz təşəkkürümü bildirdim. Ancaq ürək sözlərimi də dedim. Bu sözlərdə həqiqət də, ərk də, giley də vardı. Mən bildim ki, bu



unudulmuş təvazökar qələm sahiblərinin ünvanlarını Anar "tapıb" ədalət nəfəsli qələmlə ağ qalmış vərəq üstə yazmışdır... Yazıçılar İttifaqının katibi Hüseyn Abbaszadə də zəng vurdu. Ancaq mənimlə açıq ürəklə danışdı. Dedi ki, indiyə qədər sənin cənublu qələm yoldaşların fəxri adlar ala-ala sənin unudulmağın İttifaqın katibliyi üçün vicdan əzabına çevrilmişdi. Doğrusu, biz xəcalət çəkirdik. Axı, sən bu ada çoxdan, həm də çoxlarından qabaq layiq idin. Məni heyrət bürüdü. Dedim, bəs onda katiblik məni niyə yaddan çıxarmışdı. O açıq dedi ki, katiblikdə münasibətlərdən doğan rəylər də az iş görməyirdi. Sədrin rəyi isə əsas idi. Bəli! Bu münasibətlərdən doğan rəylər saxtaçılıqla tərəzinin hansı gözünü əyirmişsə, haqsızlıq da o gözdə yuvalanırmış. Mən katiblərin hamısının yox, bəzilərinin mənim ad məsələmlə əlaqədar xəcalət çəkdiyinə inandım. Əgər o katiblər bu işdə xəcalət çəkməsəydilər, İttifaqa göndərilən "Əmək veteranı" medallarından birini tələsik mənə verməzdilər. Harayını içərisində boğan könlümü ovundurmaq istəməzdilər... Axı mən ki, o katiblərdən "Əmək veteranı" medalı diləməmişdim. Ancaq mən başqa təbiətli adamam. Fikrim də başqadır. Mənə elə gəlir ki, fəxri ad da, təltif də, mükafat da sənətkarı həvəsləndirmək üçün təbliğat vasitəsidir. Sənətkarın əsl qiymətini öz sənəti verir... Həm də bütün zamanların tərəzilərində ölçülə-ölçülə, bütün zövqlərin sınağından çıxa-çıxa, bütün ürəklərin zirvələrini fəth edə-edə... Mənə Əməkdar incəsənət xadimi fəxri adı verildikdən sonra necə oldusa Balaşla zəngləşdik. Söhbət mənə fəxri ad verilməsindən düşdü. Dedi ki, guya mənə

Əməkdar incəsənət xadimi fəxri adı verilməmişdən əvvəl Anar onunla, yəni Balaşla məsləhətləşib. Nəzərində tutub ki, mənə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin. Balaş isə deyib yox, ya Əməkdar incəsənət xadimi fəxri adı verin, ya da heç verməyin. Məni od götürdü. Daha dözə bilmədim. Dedim bu hansı ədalətli qərara sığışar ki, gənclik illərində şeirlərini redaktə etdiyim iki qadın şairə (Hökümə ilə Mədinə) Əməkdar incəsənət xadimi, mənə isə Əməkdar mədəniyyət işçisi fəxri adı verilə. Özü də məndən əvvəl? Balaş susdu. Deməyə söz tapmadı. Ona görə ki, Balaş da bu məsələləri elə mənim qədər bilirdi. Hansı məsələnin hansı kanalla, necə düzəldiyini də unutmamışdı...

## QADIN ETİRAFI

Məmməd Dadaşzadə ilə bu tayda tanış olmuşdum. İkimiz də universitetdə oxuyurduq. Mən filologiya, o isə hüquq fakültəsində. Sonralar dostlaşdıq. O mənim mənzilimə gəlirdi, mən onun mənzilinə gedirdim. Bir yerdə yeyib-içirdik. Bir yerdə gəzirdik. Gözəl gəncliyimizin qaynar günlərini də gözəl keçirmək istəyirdik. Mən Məmmədin yazmağa həvəs göstərdiyini duyurdum. Deyəsən, o bir neçə hekayə də yazmışdı. Bir gün Məmmədi Yazıçılar cəmiyyətinin növbəti iclasına apardım. O öz yazılarını oxudu. İclasdakı o taylı yazıçılar Məmmədin ilk qələm məhsullarını bəyəndi. O gündən Məmməd də Yazıçılar cəmiyyətinin fəal üzvü oldu. Mən evlənəndən sonra da Məmməd bizə gəlib-getdi. Artıq universiteti bi-



tirmişdik. Mən "Azərnəşr"də, o isə "Bakı kommunisti" qəzetinin redaksiyasında işləyirdi. Bir gün yenə Məmməd bizə gəlmişdi. Biz isə qonaq getməyə hazırlaşırdıq. Məmməd maraqla mənə: – Hara belə? – dedi. Mən təbəssümlə: – Şəfiqənin rəfiqəsi bizi Bülbüləyə qonaq çağırıb. Qutab yeməyə gedirik. İstəyirsən səni də aparaq – dedim. Mən Məmmədin qutab sevib-sevmədiyini bilmirdim. Ancaq heç bir sözümü yerə salmadığını bilirdim. Məmməd də təbəssümlə: – Sizin ayağınız dəyən yerə mən baş qoyaram. Madam ki, məsləhət görürsünüz, daha mənim nə ixtiyarım var getməyim? – dedi. Məmmədin sədaqət dolu sözləri məni kövrəltdi. Onu qucaqlayıb hərarətlə üzündən öpdüm. Evdən çıxıb vağzala getdik. Elektrik qatarına mindik. Qatarda adam az idi. Sanki buna görə qatar hələ yola düşmək istəmirdi. Dayanıb sərnişin gözləyirdi. Birdən bəstəboylu, yaraşıqlı bir qız gəlib yanımızdakı oturacaqda əyləşdi. Sonra qatarın pəncərəsindən bayıra baxdı. Elə bil qız onsuz da nəzərimizi cəlb etdiyini duyub bizə sarı baxmırdı. Biz isə heyran-heyran qıza, sonra da məmnun-məmnun bir-birimizə baxırdıq. Sanki qızın xoşumuza gəldiyini elə sözsüz də təsdiq edirdik. Nəhayət, qatar yola düşdü. Sən demə, Məmməd bayaqdan bunu gözləyirmiş. O da yola düşdü. Bəli! Yerindən ayağa qalxdı. Gedib qızın yanında əyləşdi. Bu dəfə mən qıza yox, Məmmədə heyran-heyran baxırdım. Axı, Məmməd tay-tuşları içərisində bəlkə də ən utancaq bir gənc idi. İndi cazibədar gözəllik utancaq bir gənci cəsarətləndirmişdi. Məmməd bir də utanmasın deyə daha nə mən, nə də Şəfiqə ona sarı baxmadıq. Ancaq Məmmədin qızla şirin söhbət etdiyini

eşitdik. Söhbət o qədər astadan gedirdi ki, nədən bəhs etdiyini ayırd etmək olmurdu. Kim bilir, bəlkə də onlar özləri elə pıçıltıyla danışırdılar ki, biz bir şey başa düşməyək. Sevginin pıçıltıyla elan edilməsi, qadının gizlində doğmasına bənzəyir. Doğan qadının üstünə özgə adamın gəlməsi günahdır. Bəs pıçıltıyla elan edilən sevgiyə başqasının qulaq asması necə? O da günahdır. Qatar Bülbüləyə çatanda biz ayağa qalxdıq. Ancaq Məmmədə bir söz demədik. Qatarın qabaq qapısına çatanda Məmmədin də arxamızca gəldiyini gördük. Qatardan düşüb qonaq çağrıldığımız ünvana doğru yanaşı addımladıq. Qız haqqında Məmməddən heç nə soruşmadıq. Şəfiqənin rəfiqəsi Qəmər bizi mehribanlıqla qarşıladı. Sonra məni də, Məmmədi də bacısıyla, yeznəsilə tanış etdi. Keçib istədiyimiz yerdə əyləşdik. Qəmərin yeznəsi qoyun kəsdi. Qəmər bacısı ilə təzə qoyun ətindən qutab bişirdi... Süfrə açıldı. Süfrəyə qutab da, içki də gəldi. Yaraşıqlı nimçələrdə üst-üstə qalanmış qutablar mənə üst-üstə yığılmış şair dəftərlərini xatırlatdı. Sanki o dəftərlərdə ana torpağımızın nadir nemətləri haqqında gözəl nəğmələr yazılmışdı. Yedik. İçdik. Ancaq Məmməd yeyib-içsə də dinib-danışmadı. Bəlkə yenə nədənsə utanırdı. Yox! Deyəsən Məmmədin xəyalı o elektrik qatarının dalınca uçmuşdu. Axşamın həniri duyulanda ayağa qalxdıq. Ev sahiblərinə təşəkkürümüzü bildirib yola düşdük. Yolda yenə o qız haqqında Məmməddən heç nə soruşmadıq. Biz şəhərə çatanda yanan çıraqlar sayrışa-sayrışa göz qamaşdırırdı. Şəhərdə Məmməd bizimlə xudahafizləşib getdi. Biz də evimizə yollandıq. Sonra o qızı unutduq. Məmmədi isə görmədik.



Bir müddətdən sonra Məmməd yenə bizə gəldi. Daimi qonağımızın dodaqları da, gözləri də gülürdü. Yenə o qız haqqında Məmməddən heç nə soruşmadıq. O özü hərarətlə: – Sən demə, o qız bizim redaksiyada işləyirmiş. Adı Nailədir. Bir neçə dəfə redaksiyada görüşüb danışmışıq. Ailə qurmaq fikrinə gəlmişik. Qızın atası da o taylıdır. Ancaq çoxdan Bakıda yaşayır. Səninlə ağsaqqal şairimiz İbrahim Zakiri qızgilə elçi göndərmək istəyirəm – dedi. Mən də, Şəfiqə də bir ağızdan Məmmədə: – Çox mübarəkdir! – dedik. O, bir stəkan çay içəndən sonra getdi.

Aradan iki gün keçdi. Qocaman şairimiz İbrahim Zakirlə Nailəgilə elçiliyə getdim. Ev sahibləri bizi səmimiyyətlə qarşıladılar. Qəribəydi. Nailənin atası da, anası da bəstəboy idilər. Kişi xırda ticarət işində çalışsa da müdrik adam idi. Qanı bizə yaman qaynayırdı. Sanki neçə ilin ayrılığından sonra bizi zorla tapmışdı. Yadımdadır. Onda kişi təəssüflə: – Dünyanın ishala gedən zamanında yaşayırıq – dedi. Ancaq nə o, nə də biz bilməzdik ki, hələ dünyanın şükür zamanıdır. İshala gedən zamanı sonra olacaq. Ömrünü qürbətdə keçirən kişi dönə-dönə: – Amandır, bir-birinizin qədrini bilin. Yoxsa qürbətdə bir-birinizi itirərsiniz. Bəli! Qürbət sizi udar – dedi. Biz nə üçün gəldiyimizin səbəbini kişiyə dedik. O da razılığını bildirdi. Sonra çay gəldi. Çayı şirin edib içdik. Daha çox əyləşməyə ehtiyac yox idi. Məqsədimizə çatmışdıq. Kişiylə xudahafizləşib küçəyə çıxdıq. Yolda İbrahim Zakirdən ayrılıb evə gəldim. Sonra xəstələndiyim üçün Məmmədin toyunda iştirak edə bilmədim. Məmmədgilin sinifi on nəfər o

taylı tələbə idi. Onu da hüquq fakültəsində, bir yerdə oxuyurdu. Hamısı cibində siyasi mühacir pasportu daşıyırdı. Ona görə onu da universiteti bitirdikdən sonra özünə hüquq sahəsində iş tapa bilmədi. İş yox idimi? Vardı. Özü də istənilən qədər. Ancaq siyasi mühacirlərə iş vermirdilər. Diplomu olsa da... Guya inanmırdılar. Çünki həmən on nəfər Kommunist partiyasının üzvü deyildi. Amma Kommunist partiyasının elə üzvləri var idi ki, əldən də kiçik biletin arxasında dəvəni karvanıyla yeyirdi. Heç səsi də çıxmırdı. Məmməd hüquq sahəsindən tarix sahəsinə keçməli oldu. Əvvəl tarix elmləri namizədi, sonra tarix elmləri doktoru alimlik dərəcəsi aldı. Ədəbiyyat sahəsində də qələm çaldı. Hekayələr, povestlər, romanlar yazdı. Bir neçə kitabı çıxdı. Qayğılar başımızı elə qatdı ki, daha bir-birimizin evinə gedib-gələ bilmədik. Yalnız iclasdan-iclasa Yazıçılar cəmiyyətində görüşdük. Aradan illər keçdi. Bir gün Məmməd zəng edib məni Şəfiqə ilə oğlunun toyuna çağırdı. Elə sevindim ki, toyu mübarəkləmək də yadımdan çıxdı. Ancaq şadlana-şadlana: – Mütləq gələrik – dedim. Sabahı Şəfiqə ilə Məmmədin oğlunun toyuna getdim. Məmməd bizi hörmətlə qarşılayıb məclisə apardı. Sən demə, biz gələnə qədər yerlər tutulubmuş. Ancaq Məmməd bizi yuxarı başda boş saxlatdırdığı yerlərdə əyləşdirdi. Qarşımda Qulam Yəhyanın qadını Sitarə xanım oğluyla əyləşmişdi. Qulam Yəhya xəstə olduğuna görə toya gələ bilməmişdi. O daha işdən çıxmışdı. Yalnız öz müalicəsi ilə məşğuldu. Sitarə xanımgildən bir az aşağıda Balaş Azəroğlu qadını Mədinə Gülgünlə əyləşmişdi. Mən ətrafımda



əyləşən tanış adamları başımla salamladım. Məmməd qulağıma: – Nə lazım olsa, məni çağırtdır – deyib getdi. Mən gözucu Balaşla Mədinəyə baxdım. Özlərini sanki məclisdən təcrid etmişdilər. Qaynayıb-qarışmaq istəmirdilər. Balaşa 60 yaşı tamam olmamış xalq şairi, Mədinəyə 60 yaşı tamam olmamış əməkdar incəsənət xadimi fəxri adları verilmişdi. Mənim 60 yaşım tamam olanda isə yuxarıdakılar mənə fəxri fərman verməklə kifayətləndilər. Doğrusu, əsəbiləşdim. Mənim yerimə kim olsaydı nəinki əsəbiləşərdi, hətta haray qoparardı.

Elə həmin vaxt bu şeiri yazdım:

**Dünyada hər şeyə biganə kimi**
**Yüngül yük altından çiyin çəkən kəs**
**Mərdlikdə, dözümdə yeganə kimi**
**Ağır yük altına necə girər bəs?**

**Fərhad külüngünün rəşadətilə**
**Bisutunu yardı duman içində.**
**Mənsə qələmimin cəsarətilə**
**Söz dağını yardım tufan içində.**

**Kim qoruduğunu özgədən sorsa,**
**Deməli o vaqif sərhədçi deyil.**
**Məni tanıtmayan bir misram varsa,**
**Deməli o müdrik bələdçi deyil.**

**Mən əvvəl təsəlli dolu nəğməmlə**
**Sınıq ürəklərə dirək olmuşam.**
**Sonra özüm boyda ilham çeşməmlə**
**Böyük salonlara bəzək olmuşam.**

**Mən nəğmə demişəm əzanlar təki,**
**Bəlkə təntənəylə dinə baxtım da.**
**Gözü götürməyən insanlar təki**
**Paxıllıq edibdir mənə baxtım da.**

**Demə pərdə-pərdə tutub qabağı**
**Gözümü kor edən göz yaşım imiş.**
**Demə nəfəsimi kəsən bıçağı**
**Arxama saplayan yoldaşım imiş.**

**Sanma ağ tellərim hicrandan sonra**
**Sönmüş od üstdəki güllərə bənzər.**
**Yox! Şiddətlə yağan leysandan sonra**
**Ağ çətri parlayan güllərə bənzər.**

**Zirvə istəsə ki, göyə yol aça,**
**Saçına od düşsün, qar dəysin gərək!**
**Sonra miz dalında ağaran saça**
**O dərin hörmətlə baş əysin gərək!**

Fəxri fərman bir il Ali Sovetdə qaldı. Dalınca getmədim. Axırda evə göndərdilər. Ancaq yubiley günlərində məni təbrik edən məktublar, teleqramlar, telefonlar ara vermirdi. Sanki xalq bir fürsət gözləyirmiş ki, öz ürək sözlərini mənə çatdırsın. İlk zəng vurub təbrik edənlərdən biri də Məmməd idi. O mənim pərt olduğumu səsimdən duydu. Sonra ərklə: – Niyə pərtsən? – dedi. Ancaq o mənim xasiyyətimi bilirdi. Bəli! Bilirdi ki, həmişə düzə düz, əyriyə əyri deyənəm. Özü də heç nədən çəkinmədən deyənəm. Mən gileylə Məmmədə: – Pərt olmayım, bəs neyləyim? Məgər görmürsən kimlərə hansı fəxri adları veriblər. Mənim payıma isə



yalnız fəxri fərman düşüb – dedim. Məmməd bu sözlərimdən tutulmadı. Yox! Əksinə açıldı. İçərisində nə vardısa, hamısını eşiyə tökdü. Səmimiyyət dolu hiddətlə: – Məgər bilmirsən o adamlar qondarma fəxri adları hansı yollarla alıblar? Bilirsən. Ancaq sən o yollarla getməyi öz ləyaqətinə yaraşdırmırsan – dedi.

Yadıma bir əhvalat düşdü. Mebelimiz yaman köhnəlmişdi. O vaxtlar mebel tapmaq müşkül iş idi. Yanıma nəinki daxildən, hətta xaricdən də qonaqlar gəlirdi. Bəli! Evdə İrandan, Almaniyadan, Fransadan, İsveçdən, Danimarkadan gələn adamlarla görüşürdüm. Bir gün oğlum dedi ki, ay ata, axı bu mebel tamam köhnəlib. Məgər görmürsən ki, yanına gələn qonaqlar bu mebelə necə baxırlar? Bir ərizə yazıb Yazıçılar İttifaqına ver. Bəlkə bu köhnə mebeli təzələyək. Əlbəttə ki, öz pulumuzla. Düzü, ərizə yazmaq işini bilə-bilə uzatdım. Bir gün də əsəbiləşən oğlum qələm-kağız gətirib qarşıma qoydu. Sonra ərklə mənə: – Ərizəni yaz – dedi. Ərizəni yazdım. Oğlum ərizəni götürüb Yazıçılar İttifaqına getdi. Aradan yarım saat keçməmiş qayıtdı. Məzəmmətlə dedi: – Ərizəni İttifaqın sədrinin katibəsinə verdim. Oxudu. Sonra başını bulaya-bulaya: – Sənin atan nə təhər adamdır? Hər gün bu meşinli qapılardan mini min qılıqla girib çıxır. Amma mən sənin atanı bir dəfə də bu meşinli qapıların birini açan görmədim – dedi.

Mən qətiyyətlə Məmmədə: – Doğru deyirsən. Mən o yollarla getməyi öz ləyaqətimə yaraşdırmaram – dedim. Sonra xudahafizləşdik. İndisə Məmmədin oğlunun toy məclisində idim. Sitarə xanımla ordan-burdan söhbət etdikdən sonra o etirafla: – Qəzetdə sizin qocaman

fədailərimizə həsr etdiyiniz bir şeirinizi oxudum. Çox xoşuma gəldi. Axı o şeirin Qulam Yəhyaya da dəxli var. Axı Qulamın ömrü elə fədailər arasında keçib – dedi. Mən Sitarə xanıma eyhamla dedim ki, Qulam Yəhyanın ömrü fədailər arasında keçsə də təəssüf ki, əsili saxtadan, təmizi murdardan, mərdi namərddən seçib ayıra bilməyib. Bu fərqləri ancaq iş başından gedəndən sonra görüb. Sitarə xanım da başıyla dediklərimi təsdiq etdi. Nəsə demək istədi. Bu zaman tamada məni mikrofon arxasına çağırdı. Qəribədir. Məclisdə məndən yaşlı şair də, yazıçı da, həkim də, müəllim də, mühəndis də ola-ola birinci mən danışmalıydım. Yerimdən qalxıb iri addımlarla mikrofona doğru getdim. Məmməd haqqında bildiklərimi hərarətlə danışdım. Sonra sürəkli alqışların müşayiətilə keçib yerimdə əyləşdim. Sağlıqlar başlandı. Yeməklər yeyildi. Daha Sitarə xanımın mənim bayaqkı sözlərimə cavab verməyinə imkan olmadı. O arada təkidlə mənə: – Gərək bir zəngləşək. Sizə deyəcəyim sözlərim var – dedi. Başa düşdüm ki, Qulam Yəhyanın haqqında üstüörtülü kinayəli sözlər dediyimə görə Sitarə xanım məndən narazı qalıb. Haçansa yazdığım bir şeiri ürəyimdə oxudum:

**Mən Vətəndə böyüyüb,**
**Qürbətdə qocalmışam.**
**Yaxşı ki, həyat dolu**
**Sənətdə ucalmışam.**
**Əgər günahım varsa,**
**Demirəm məni döymə.**
**Yox! Nə istəsən elə,**
**Yalnız ruhuma dəymə!**



**İnan, çıraqla deyil,**
**Günəşlə gəzsən sən də,**
**İynənin ucu boyda**
**Günah tapmazsan məndə.**
**Günahım həqiqəti**
**Üzlərə şax deməkdir.**
**Bəli! Qaraya qara,**
**Ağa da ağ deməkdir!**

Bəylə gəlin "Vağzalı"nın müşayiətilə toyu başa çatdırdı. Qapıda yenə Məmmədlə qarşılaşdıq. O bizi yola salmaq üçün gözləyirmiş. Məmməd səmimiyyətlə dolu zarafatla Şəfiqəyə: – Kişidən muğayat ol. Özün bilirsən də gəncliyində o necə yaraşıqlı idi. Ona baxan bir də baxardı. Dalınca neçə-neçə qız düşərdi – dedi. Bizi əhatəyə alan gənclik yoldaşlarımdan kimsə Məmmədə: – Şükür Allaha, indi nə olub ona? Gəncliyində yaraşıqlı oğlan idi, indi də yaraşıqlı kişidir -dedi. Şəfiqə güldü. Mən də gənclik yoldaşlarımın səmimiyyət dolu ülfətindən məmnun qaldığımı mehriban gülüşümlə bildirdim. Sonra bizi əhatəyə alan bu insanlarla xudahafizləşib ayrıldım. Yolda Şəfiqə qürurla mənə: – Sən o tarixçi alimin çıxışına qulaq asdın? Bilirsən hansını deyirəm? Elmlər akademiyasının müxbir üzvü olanı – dedi. Mən etirafla Şəfiqəyə: – Qulaq asdım. Necə məgər? – dedim. Şəfiqə hərarətlə: – O səni o taylı mühacirlərin vicdanı adlandırdı – dedi. Mən məhrəmliklə Şəfiqəyə: – Bu sözləri bir neçə məclisdə bir neçə natiqin dilindən eşitmişəm. Mənə elə gəlib ki, xalq təkcə yaradıcılığımla yox, həm də şəxsiyyətimlə tanışdır. Xalq nümayəndələrinin mənim haqqımda belə yüksək

fikir demələri isə bir inqilabçı şairə verilən ən qiymətli mükafatdır – dedim.

Sabahı Sitarə xanıma zəng edib mənə deyəcəyi sözlərin nədən ibarət olduğunu bilmək istədim. O şikayətlə: – Qulam Yəhya haçandır ki, xəstədir. Evində xəstəyə qulluq etməyən adam bilməz ki, mən nə çəkirəm. Qulam Yəhyanın yaxşılıq etdiyi adamlar sanki yoxa çıxıblar. Vaxtı ilə qapımızı kandarından çıxaranlar indi heç olmasa bir dəfə onu açıb Qulam Yəhyanı yoxlamırlar – dedi. Sonra susdu. Yadıma:

**Bağda ərik var idi,**
**Salam-əleyk var idi.**
**Bağda ərik qurtardı,**
**Salam-əleyk qurtardı.** – sözləri düşdü.

Özümü gülməkdən güclə saxladım. Sitarə xanım həqarətlə mənə: – Mədinə Gülgün orda-burda oxuduğu mərsiyələrlə camaatı ağlada-ağlada özünə xal yığır. Bir dəfə mənə zəng edib Qulam Yəhyanın vəziyyətini soruşmur – dedi.

Bəli! Qulam Yəhyanın ən çox yaxşılıq etdiyi adamlardan biri də Mədinə Gülgün idi. O bizə gələndə Qulam Yəhyanın dalınca ağzına gələni deyərdi. Sonra birlikdə Qulam Yəhyanın yanına iclasa gedərdik. Mən görmüşdüm ki, rəhbər xadim sənətkar qadının əlindən öpür. Ancaq Mədinə Gülgün bunun əksini edərdi. Özü Qulam Yəhyanın əlindən öpərdi. Məni heyrət bürüyərdi. Düşünərdim ki, o dalca danışmaq nədir, bu əl öpmək nədir? Qulam Yəhyanın irəli çəkdiyi adamlardan biri də Söhrab Tahir idi. İsti yay günlərinin



birində şəhər içində tarix elmləri doktoru Hüseyn Ciddi ilə rastlaşdım. Gözümə dalğın dəydi. Dedim niyə kefin yoxdur? Sanki Hüseyn Ciddinin dərdi açıldı. Dedi: – Əşşi, bağdan gəlirəm. Elektrik qatarında Söhrab Tahirlə rastlaşdım. O da bağdan gəlirdi. Söhrab Tahir bu günə qədər mənimlə təbliğat aparırdı ki, Qulam Yəhyanı müdafiə edim, elektrik qatarında isə yol boyu mənə təbliğat aparıb ki, Qulam Yəhyanı müdafiə etməyim. Bu Söhrab Tahir nə təhər adamdır? Doğrusu, əlim yerdən-göydən üzülüb – dedi.

Daha özümü saxlaya bilmədim. Çılpaq hiddətimə bir az nəzakət bürüyə-bürüyə Sitarə xanıma: – Qulam Yəhya uzun illər boyu yadigar bir təşkilata rəhbərlik etsə də ətrafına yığdığı adamları yaxşı tanımayıb. Xüsusilə də seçdiyi kadrları – dedim. Sitarə xanım qətiyyətlə dolu etirafla mənə: – Səhv olub də – dedi. Mənə də elə Qulam Yəhyanın adam tanımaqda səhv etdiyini Sitarə xanımın dilindən eşitmək gərək idi. Ona görə də bu telefon söhbətini uzatmaq istəmədim. Sitarə xanımla xudahafizləşib dəstəyi yerinə qoydum.

## ARXAYA SƏYAHƏT

Elə musiqi var ki, insanın dərisini üzdən sığallaya-sığallaya keçib gedir. Elə musiqi də var ki, dəridən içəriyə hopub sümüklərin arasında pərçim olmuş ilikləri silkələyib təlatümə gətirir. Şeir də belədir. Elə şeir var ki, söz sənəti ağacının budaqları üstdə gəzir. Elə şeir də var ki, dərinə gedib söz sənəti ağacının kökünü titrədir. Mən nəinki şeirdə, hətta nəsrdə də özümə ikinci təsir

vasitəsini məqsəd bilmişəm. Bu məqsədi ömrüm boyu yaradıcılıq yollarında özümə kompas sanmışam...

Əli Zeynalov Azərbaycan Dövlət Akademik Dram Teatrının* müqtədir aktyorlarından idi. Neçə-neçə tamaşada baş rolda çıxış edən, yaddaqalan surətlər yaradan sənətkar təqaüdə çıxandan sonra səhnə ilə həmişəlik vidalaşmışdı. Arabir gah radioda, gah da televiziyada qiraətlə məşğul olurdu. Bir gün radioda bir jurnalist Əli Zeynalovdan müsahibə alırdı. Müsahibənin sonunda müsahibindən soruşdu ki, təqaüdə çıxandan sonra niyə teatrda qalıb işləmədiniz? Axı gənc aktyorların təcrübənizə, məsləhətinizə, qayğınıza ehtiyacı vardı... Əli Zeynalov dedi ki, Cəfər Cabbarlının "Sevil" əsəri bu teatrda ilk dəfə tamaşaya qoyulanda Sevil rolunda Mərziyə Davudova çıxış edib. Özü də necə? Misilsiz! Sevil hərarətlə qara çadranı başından atanda salonda əyləşən qadınlar da qətiyyətlə qara çadraları başlarından atıblar... Sonralar tamaşaçıların gözlərində Mərziyə xanım Sevil, Sevil isə Mərziyə xanım olub. Ancaq neçə-neçə illər keçəndən, Mərziyə xanım yaşa dolandan sonra "Sevil" yenə də bu teatrda tamaşaya qoyuldu. Mərziyə xanım bu dəfə "Sevil" tamaşasında Sevil rolunda yox, yaşlı bir qadın rolunda çıxış etdi. Beləliklə, o özü tamaşaçıların gözlərindən keçmişdə yaratdığı misilsiz Sevil surətini silib apardı. Axı, mən də bu teatrda neçə-neçə baş rolda çıxış edib gözlərdə əks olunmuş unudulmaz surətlər yaratmışam. İndi bu yaşda teatra qayıtsam yəqin ki, mənə də qapıçı, ya xidmətçi rolu tapşırarlar... Mən də kiçik rollarımla gözlərdə sakinləşən köhnə böyük rollarımın üstünə kölgə salacağam.

*indiki Milli Teatr



Şairlər də belədir. Gəncliyində hərarətli şeirlər yazan şairlər yaşa dolandan sonra sönük şeirlər yazmasınlar deyə ya şairlikdən əl çəkirlər, ya da nəsrə keçirlər. Mən də yaşa dolandan sonra nəsrə keçdim. Ancaq yazacağım şeirlərin sönük çıxacağından qorxub keçmədim. Yox! Yaşadığım, gördüyüm, bildiyim hadisələrin nəinki şeirlər, heç poemalara da sığmayacağına təəssüf edib keçdim. Ancaq nəsri də vəznsiz-qafiyəsiz şeir səviyyəsinə qaldırmağa çalışdım. Bir dəfə küçədə Süleyman Rüstəmlə görüşəndə o etirafla mənə: – Sən şeiri gəncliyində necə hərarətlə yazırdınsa, indi də elə yazırsan – dedi. Mən nəsr də yazandan sonra küçədə jurnalist Tofiq Rüstəmovla görüşəndə o səmimiyyətlə mənə: – Sizin mətbuatda çıxan nəsr əsərlərinizi məmnuniyyətlə oxuyuram. Şeirinizlə nəsriniz arasında yalnız vəzn-qafiyə fərqi var – dedi. Neçə-neçə sanballı roman müəllifi Bayram Bayramov da mənə belə dedi. Sonra nəsr yaradıcılığımı davam etdirməyi xeyirxahlıqla məsləhət gördü. Əgər sənətkarın iki ömrü olsaydı, birini sənətə, birini də özünə həsr edərdi. Ancaq təəssüflər olsun ki, sənətkarın cəmi bir ömrü olur. Onun da hamısını hayıfslanmadan sənətə həsr edir. Özü də bəxtəbəxt... Axı gələcəyi kim görə bilir? Sənətkar ömrü də elə. Şöhrətə dönə, ya dönməyə. Mən isə heç gələcəkdən də şöhrət ummayan bir sənət fədaisiyəm. Bütün ömrümü sənətə həsr etmişəm, edirəm, edəcəyəm...

Yazıçılar evində eyvanımız şair Nəriman Həsənzadənin eyvanı ilə yanaşı olduğundan tez-tez eyvanda görüşürdük. İqtisadiyyatdan da, siyasətdən də, ədəbiyyatdan da danışırdıq. Aşkarlıq təzə-təzə dəb düşmüşdü. Sanki uzun illər boyu özünü qısıb nəfəsini içinə çəkən bir insan azad nəfəs buraxmağı öyrənməyə başlayırdı. Bəli! İnsanın sirlərlə dolu sinəsi daha boşalmaq istəyirdi. Yoxsa partlaya bilərdi. Bir gün yenə Nərimanla eyvanda əyləşib "21 Azər" Nezhəti haqqında söhbət edirdik. Söz Seyid Cəfər Pişəvəridən düşdü. İkimiz də o məşhur inqilabçının müəmmalı ölümünə acıdıq. Ancaq mən S.C.Pişəvərinin ölümü haqqındakı həqiqətləri bilirdim. Elə mənim o taylı qələm yoldaşlarım da bilirdilər. Hətta ADF MK-nın aparatında işləyənlər də o həqiqətləri unutmamışdı. Ancaq nə deməyə, nə də yazmağa cəsarətləri çatmırdı. Bəli! Heç kəs xatirələr ümmanında zaman-zaman donub qalmış buzu sındırmaq istəmirdi. Axı düşər-düşməzi vardı.

Mən Pişəvəri haqqında bildiklərimdən Nərimana danışdım. O unudulmaz insan haqqında bizimkilərin hələ də bir söz yazmadığına təəssüf etdiyimi də bildirdim. Nəriman "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru idi. O səmimiyyətlə dolu qətiyyətlə: – Əli müəllim! Siz S.C.Pişəvəri haqqında ürəyinizdə olanı yazın. Mən öz qəzetimizdə buraxaram – dedi. Elə o axşam yazı mizimin arxasına keçib "Pişəvəri" adlı böyük bir məqalə yazdım. Sonra Nərimana verdim. Oxudu. Məqaləni bəyəndiyini məmnuniyyətlə mənə dedi. Məqalə Pişəvərinin şəkli ilə "Ədəbiyyat və incəsənət" qəzetində (1988-ci il iyunun 17-də) çıxdı. Hələ qəzet yayılıb



qurtarmamış AKP MK-dan bir şöbə müdiri mənə zəng vurdu. O qürur dolu razılıqla uzun illərin sükutundan sonra həqiqəti cəsarətlə car çəkdiyimə görə öz minnətdarlığını bildirdi. Ancaq ADF MK-nın indiki sədrinin Seyid Cəfər Pişəvəri haqqında hələ də bir söz yazmadığına təəssüf etdiyini də gizlətmədi... Axı Pişəvəri haqqında yazılacaq sözlər içərisində ən maraqlısı, həyəcanlısı, yanğılısı o müstəqil düşüncəli firqə rəhbərinin müəmmalı ölümü idi. Düzü, bütün o taylı siyasi mühacirlər o ölümün müəmmasını açmaqdan çəkinirdi. Ancaq mən şeir yazan qələmimlə o ölümün müəmmasını ilk dəfə açdım. Qəribə də olsa, bu taylı qələm yoldaşlarım mənim bu təşəbbüsümü alqışlasalar da, o taylı qələm yoldaşlarımdan bir nəfər də mənə zəng vurub məqalə haqqında öz fikrini bildirmədi. Mən özüm ADF MK-nın aparatına zəng vurub orda işləyən qələm yoldaşlarımdan məqaləni oxuyub-oxumadıqlarını soruşdum. Hərəsi bir bəhanə gətirib guya hələ oxuya bilmədiyini dedi. Yaxşı ki, "Ədəbiyyat və incəsənət" qəzeti xarici ölkələrə də göndərilirdi. Günlər keçdi. İngiltərədən, İsveçdən, Fransadan, Almaniyadan, Belçikadan, Danimarkadan mənim görüşümə gələn o taylı qələm sahibləri evimizdə o məqalədən mənə məmnun-məmnun danışdılar... Məlum oldu ki, Qərbi Avropa ölkələrində yaşayan o taylı azərbaycanlılar məqaləni oralardakı öz mətbuatlarında buraxıb yaymışlar... Sən demə, elə həmin günlərdə Nəriman Şəfiqəyə deyib ki, Dövlət Təhlükəsizliyi Komitəsindən ona zəng vurub deyiblər ki, Əli Tudənin "Pişəvəri" adlı məqaləsində Seyid Cəfər Pişəvərinin müəmmalı ölümü haqqındakı

məlumat düz deyil. Ancaq Nəriman Şəfiqəyə onu da deyib ki, gərək bu zəng məsələsini mən bilməyəm.

Günlər keçdi. Bir gün kitab mağazasında bir kitab gördüm. Kitabın üstündəki qara fonda ağ hərflərlə "Ağ ləkələr" sözləri yazılmışdı. Sonra bir neçə repressiya qurbanı ilə yanaşı S.C.Pişəvərinin də şəkli verilmişdi. Şəklin üstündə mənim, altında onun adı yazılmışdı. Kitabı 1991-ci il noyabr ayının 20-də Qarabağda vertolyot qəzasında həlak olmuş mərhum jurnalist Osman Mirzəyev tərtib etmişdi. Mən o kitabdan bir neçəsini alıb evə gətirdim.

Yenə də günlər keçdi... Bir gün telefonda Tehrandakı yaxın qohumlarımdan biriylə danışanda o kədərlə: – Bir dostumgilə getmişdim. O mənə Bakıdan gətirdiyi "Ağ ləkələr" adlı bir kitab bağışladı. Bu kitabda Seyid Cəfər Pişəvəri haqqında yazdığın məqaləni oxuyandan sonra sənin qürbətdə nələr çəkdiyini daha da dərindən duydum – dedi. Mən telefonda o yaxın qohumumla xudahafizləşəndən sonra dilindən eşitdiklərimi Şəfiqəyə dedim. Şəfiqə isə yalnız indi "Ədəbiyyat və incəsənət" qəzetində o məqalə çıxan gün Dövlət Təhlükəsizliyi Komitəsindən Nərimana o məqaləyə görə zəng vurulduğunu dedi. Mən güldüm. Sonra hərarətlə Şəfiqəyə: – Günəş doğanda göyün buludlu olub-olmamasına baxmır. Bulud həqiqəti pərdələmək, Günəş isə həqiqəti parlatmaq üçün doğulur...

...İranlı siyasi mühacirlər cəmiyyətinin nəşriyyəsi olan "Mühacir" qəzeti oxucuların rəğbətini qazanmışdı. Bir axşam arxivimi araşdırarkən müxtəlif yazıların arasında Milli hökumət dövründə Təbrizdə çıxan "Azərbaycan" qəzetində "Azərbaycan Milli hökumətinin şairlərinə" adlı bir şeir gördüm. Götürüb oxudum. Şeirin məzmunundakı səmimiyyət, formasındakı məharət məni heyran etdi. Müəllif şeirin bir, ya iki misrasında Milli hökumət dövründə yazıb-yaradan şairlərin adını mötərizə içində çəkib hansı məziyyətə malik olduğunu hərarətlə dolu şeiriyyət dili ilə deyir. Qəribədir. Ulağın dalınca düşsən səni ya arpa zəmisinə, ya xırmana aparar. Qartalın qanadında uçsan səni ya zirvəyə, ya da asimana qaldırar. Xəyalın yoldaşı olsan səni ya acı, ya şirin xatirələrlə görüşdürər...

**Dənizlər öz içinə**
**Çəkilsə, bu adətdir.**
**Şairlər öz içinə**
**Çəkilsə, bu dəhşətdir.**
**Kimsə deməsin mənə**
**Yazıların içində,**
**Misralarda düzülən**
**Arzuların içində**
**Keçmişdən yazdıqlarım**
**Bəlkə də daha çoxdur.**
**Keçmişi olmayanın**
**Gələcəyi də yoxdur.**

Məni də xəyal Təbrizə apardı. Gözlərimin qarşısında Tərbiyət xiyabanındakı "Şairlər və yazıçılar" cəmiyyətinin sənət gülüstanına dönmüş əlvan həyəti canlandı. Mən şehli qızılgüllərin, zanbaqların, nərgizlərin yanından ecazkar ətirlər uda-uda keçib geniş aynabəndli yaraşıqlı salona qalxdım. Yarım əsr üzlərini görmədi-

yim qələm dostlarımla görüşdüm. Sadəcə görüşdüm-mü? Yox! Hamısını bir-bir bağrıma basıb öpdüm. Göz yaşlarımız bir-birinə qarışdı. Başımıza gələnləri nisgillə bir-birimizə danışdıq. Bəli! Döyüşlərlə, uğurlarla, ayrılıqlarla keçən ömrümüzün sanballı dastanını qürurla vərəqlədik. Axı biz o şairlər idik ki, heç nəyimizi xalqdan əsirgəməzdik. Hətta şirin canımızı da! Əvəzində isə xalqdan heç nə istəməzdik. Özü də həmişə təzə söz deməyə çalışardıq. Axı, nə qədər gözəl söz vardısa, hamısını klassiklər deyib getmişdi. Daha təzə söz demək çətin idi. Yox! Təzə söz demək həmişə çətin olub. Elə indi də çətindir. Ümmanda inci tapmağa gedən bilir ki, ümmanda inci var. Ancaq o incini tapıb gətirmək üzgüçüdən zəhmətdən yoğrulmuş məharət istəyir. Dəyanətli üzgüçü vardan var gətirir. Amma təzə söz belə deyil. Yəni hazır olmur. Təzə sözü şair özü yaradır. Yoxdan var edir. Şeirin altındakı imzaya baxdım: Məhəmməd Eymən! Bu fəhlə şair nə qədər sadə, mehriban, təvazökar idi. Zəngin sənət məktəbi keçməsə də, müdrik həyat məktəbi keçmişdi. Sahibkarla sahibkar, məmurla məmur, diplomatla diplomat idi. Ancaq hər şeydən əvvəl qeyrətli vətəndaş idi. Milli hökumətin sinəsi məhrəm nəğmələrlə dolu sədaqətli fədaisi idi. Sanki mən Təbrizdə "Şairlər və yazıçılar" cəmiyyətinin füsunkar binasında qələm dostlarımla görüşüb əyləşdikdən sonra Məhəmməd Eymən öz yerindən ayağa qalxdı. "Azərbaycan Milli hökumətinin şairlərinə" adlı şeirini oxudu:



**Taki oldu nuri rüxsarın günəş tək aşikar,**
**Mah üzün tək ey gözəl oldu münəvvər bu diyar.**
**Cilveyi nuri ruxun afaqı yeksər doldurub,**
**Hər kəs ol nuri görüb olmuş mənim tək can nisar.**
**Eşqdə (Kamil), vəfada (Biriya) bəraşiqəm,**
**(Fitrət)i bakimdə nöqsan yoxdur anlar (Huşiyar).**
**(Etimad) yetdim vüsalə (Sabir) oldum hicrə mən,**
**(Şadman) et qəlbimi ey mayeyi əzmi-vüqar!**
**(Məshəfi) rüxsaruvi (Səhhaf) edibdir cüzvəbənd,**
**Qoymayıb paşidə etsin dəstibərdi ruzigar.**
**Kəbeyi vəslin təmənnasıyla hey (Çavuş) tək**
**Eylərəm şuri nəva olsun nəsibim vəsli yar.**
**(Nəcmi) bəxtim oldu taban bir də (Məhzun) olmaram,**
**(Tudə) muqbil yaşar dünyada hər an (Bəxtiyar).**
**Bülbüli (Şeyda) kimi əl çəkmərəm gülzaridən,**
**Sinəmi gər zəxmidar etsə cəfayi nuki xar.**
**Dəhrdə (Firuz) bəxtim indi (Borçalu) eli,**
**Həmnişindir aşiqə gülşən ara ey gülüzar!**
**Gülşən içrə lalə tək (Gülgün) görürsən gül üzün,**
**Əndəlibin qəlbin eylər dərdi həsrət biqərar.**
**Zülfünü rüxsara tökmə (Haşimi) xalın görüm,**
**Etmə xalın tək cahan mülkün gözümdə tiritar!**
**Əşk çeşmim (Kaşif) oldu sirrimi etdim əyan,**
**Bəs ki, hicrində ələndi göz yaşım biixtiyar...**
**(Niknam) oldum əlimdə var (Dirəfş) nüsrətim,**
**Bir də (Azəroğlu) görməz ey cavan hər giz fişar!**
**Bu (Süleyman) mülkünə (Eymən) gəlibdir çox ədib,**
**Sən də yaz bu mətləbi qalsın cahanda yadigar!**

Məni xəyal yenidən Bakıya qaytardı. Bu şeirin möhtərəm oxuculara da maraqlı olacağını nəzərə alıb çap etmək üçün "Mühacir" qəzetinə göndərdim. Deyirlər bir tikəni bilməyən min tikəni də bilməz. Qoy Məhəmməd Eymənin də bu şeiri nadir, məhrəm, halal bir tikəyə dönsün. Oxucunu neçə dağdan aşırsın, neçə dərədən keçirsin. Oxucunu bir ünvana, bir dövrana çatdırsın. Bu şeiri "Mühacir"in səhifəsində oxuyan mənim mühacir yoldaşlarım bir dəqiqə xəyala dalıb həm qayğılı Milli hökumətin özünü, həm də onun ilhamlı şairlərini iftixarla ansınlar. Unutmasınlar ki, insan özü müəyyən zaman içində, xəyal isə həmişə mühacirdir. O qələbə qazanmaq üçün irəlini, təsəlli almaq üçün gerini düşünür. İndi qrov düşmüş qaşları fikir yükü altında gərilən mühacir yoldaşlarım da unudulmaz xatirələrlə dolu geriyə baxsınlar. Sonra qətiyyətlə: – Su gələn arxa bir də su gələr – desinlər. "Mühacir" qəzeti Məhəmməd Eymənin şeirini məmnuniyyətlə çap etdi. Milli hökumətin cəmi bir illik, ancaq zəngin tarixi, yol çəkən gözlərdə yenidən canlandı...

## KÖHNƏ DOST

*Nə demiş ataların*
*Sözlə dolu sinəsi?*
*Hər nemətin təzəsi,*
*Dostun isə köhnəsi.*

Erməni millətçiləri qondarma "Qarabağ problemi"ni ortaya atdıqdan sonra Bakının Azadlıq meydanı təlatümlü ümmana dönmüşdü. Şimali Azərbaycanın kəndləri, qəsəbələri, şəhərləri bulaqlara, arxlara, çaylara çevrilib



bu təlatümlü ümmana axırdı. Ümman getdikcə böyüyürdü. Axı Qarabağ Azərbaycan torpağının gözəl bir parçası idi. Torpaq isə Vətəndir, ruzudur, dayaqdır, qürurdur, namusdur. Həyatda hər şey mümkündür. Qüsur da, axmaqlıq da, qorxaqlıq da, riyakarlıq da, alçaqlıq da. Amma bir şey mümkün deyil. İnsan taleyi ilə oynamaq! Addım atacağın yola diqqətlə bax! Gör hər şey yerindədirmi? Bir də unutma, tale adamın tək özünə məxsusdur. Onu qoparmağa, alçaltmağa, təpikləməyə heç kəsin haqqı yoxdur. Mənim nəzərimdə bir insan var, bir də onun yaşadığı Vətən! İnsanlar özlərini qorumaya bilərlər. Çünki onlar çoxdur. Ancaq Vətən təkdir. Onu qorumamaq olmaz. Erməni millətçiləri isə Qarabağı Azərbaycandan qoparıb Ermənistana qatmaq istəyirdi. İnsan nəfəsli, etiraz dalğalı meydan səhər-axşam gur-gur gurlayırdı. Dili kəsilməyən millətin yolu da kəsilməz. Qəfil fırtınaları ilə yarımdünya gəmiləri belə heyrətə salan Xəzər dənizi sahilindəki bu təlatümlü ümmana heyrətlə baxıb səsini içinə salırdı. O özü indi bu təlatümlü ümmanın sahilində sakit göy çəmənə bənzəyirdi. Arabir şor dodaqlarından qopan şirin pıçıltılarıyla meydanda sutkalarla ayaq üstündə duran vətənpərvərləri yumşaq sinəsində bardaş qurub dincəlməyə çağırırdı. Ancaq dincəlməyə vaxt hardaydı? Meydana toplaşanlar gündüzlər mikrofon dalına keçib nankor qonşunun ünvanına lənətlər yağdırır, gecələr isə yandırdıqları tonqalların işığında qeyrət dərsi keçirdilər. Qəribə olsa da, insanla alov arasında bir xasiyyət oxşarlığı var. Belə ki, insan öləndə ölümə müqavimət göstərir. Alov da söndürüləndə söndürənə müqavimət göstərir. Tonqallardan qopub havada dolaşan qığılcımlar sarı

arılara bənzəyirdi. Kənardan baxanlar elə bilərdi ki, arılar alova gəlib... Yox! Arı alova gəlməz, şirəyə gələr. Ancaq şirəyə gələn arılar da vardı. O arıların qanadları yoxdu. Əlləri vardı. Hamısı da əllərini tonqallara uzatmışdı. Bilinmirdi ki, tonqalların alovunda isinməkmi istəyir, yoxsa indidən hardansa, kimdənsə, nədənsə öz xidmətinə əvəzmi umur? Necə deyərlər, Azadlıq meydanında ara qarışıb, məzhəb itmişdi. İt də yiyəsini tanımırdı... Ancaq bir meydan təlatümə gəlmiş bütün Şimali Azərbaycanı öz sinəsində yerləşdirməyə qadir deyildi. O partlaya bilərdi. Onda nəticəsi daha dəhşətli olardı. Yaxşı ki, meydanı partlatmağa qoymayanlar vardı. Onlardan biri də Bakının keçmiş 26-lar (indiki Səbail) rayonunda Partiya Komitəsinin birinci katibi vəzifəsində işləyən Vəli Məmmədov idi. Ancaq o daha kabinetdə yox, meydanda işləyirdi. Vəli gecələr də evə getmirdi. Tonqalların ətrafında toplaşan həmvətənlərilə görüşürdü, danışırdı, məsləhətləşirdi. Havalar isə gündən-günə soyuyurdu. Payızın zülmətli gecələri tonqalların işığında addımlayıb gedir, ayazlı səhərləri isə tonqalların alovunda isinmək üçün meydana gəlirdi...

Bir axşam yazı mizimin üstündəki telefon səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran qaynım idi. O riqqətlə dolu maraqla mənə: – Bu gün meydana getmişdin? – dedi. Mən təəssüflə qaynıma: – Yox! Elə bu hadisələrə dair təzə yazdığım şeiri tamamlamaq istədiyimə görə gedə bilmədim – dedim. Qaynım da təəssüflə mənə: – Gərək gedəydin! Öz gözlərinlə görəydin ki, Vəli Məmmədov uca tribunadan sənin haqqında necə hərarət dolu səmimiyyətlə danışır. Ondan qabaq Nemət



Pənahov çılğın bir çıxış etdi. Sonra Vəli Məmmədov mikrofonun arxasına keçdi. Üzünü Nemətə tutub dedi ki, şair Əli Tudə Cənubi Azərbaycandan Şimali Azərbaycana gələndə səndən də çılğın idi. İyirmi yaşı tamam olmamış özünü torpaq, həqiqət, azadlıq uğrunda gedən döyüşlərin alovlu bağrına atmışdı. Məsləki yolunda heç kəsdən bir kiçik haq da ummadan böyük nəslini itirmişdi. Sonrakı döyüşlər isə Əli Tudəni müdrikləşdirdi. Müdriklik isə ehtiraslı çılğınlıqdan daha çox təmkinli arifliyi sevir. Sonra Vəli Məmmədov sənin iyirmi iki yaşında o taydan bu taya keçərkən Naxçıvanda yazdığın “Mən nə gətirdim” şeirini əzbərdən oxudu. Özü də elə oxudu ki, sanki meydana toplaşanlara qiraətdən imtahan verirdi. Şeiri dinləyən nəhəng izdiham vüsətlə uğuldadı. Sanki Təbriz adını eşidən Bakı dünyada tək olmadığını qət edib öz gücünü yoxlamaq üçün bir də, bir də, bir də uğuldadı – dedi. Mən telefonda bu hadisəni yeznəsinə qürurla çatdırdığı üçün qaynıma təşəkkür etdim. Sonra xəyalımda qərara aldım ki, Vəliyə zəng edib haqqımda o boyda izdiham qarşısında səmimiyyətlə dolu sözlər dediyinə görə öz minnətdarlığımı bildirim. Dəstəyi yerə qoyanda gözlərim telefon aparatının yanındakı “Gecikmiş vüsal” adlı təzə kitabıma sataşdı. Kitabı götürüb açdım. İlk səhifəsində avtoqraf yazdım ki, Vəliyə göndərim. Axı, mən hər təzə kitabımdan bu köhnə dostuma verərdim. Kitabı yenidən yerinə qoyub oğlumu gözlədim. Bu hadisələr başlanandan o da evdə az-az görünürdü. Bəzən evə gecə yarısı gəlirdi. Axı o Azərbaycan Televiziyasında rejissor işləyirdi. Bütün vaxtını iş yoldaşları ilə meydandakı çəkilişlərdə

keçirirdi. Yenə gecə yarısı evə gəldi. Çörəyini yeyib, çayını içdikdən sonra dincəlmək üçün öz otağına keçdi.

Oğlum səhər işə gedəndə mən kitabımı götürüb hərarətlə ona: – Natiq, bu kitabı iş fasiləsində aparıb raykomda Vəli əmiyə verərsən – dedim. Oğlum kitabı məndən alıb işə getdi. Yenə gecə yarısı gəldi. Mən nigaran-nigaran: – Kitabı Vəli əmiyə verə bildinmi? – deyə ondan soruşdum. O təəssüflə mənə: – Özü raykomda yox idi. Kitabı katibəsinə verdim – dedi. Bir neçə gün dalbadal Vəliyə zəng etdim ki, görüm kitab ona çatıb, ya yox? Doğrusu, mən ləyaqətli bir hədiyyə ilə bir dostumu sevindirə biləndə özüm də sevinirəm. Xoşa gələn kitab da mənim aləmimdə ləyaqətli bir hədiyyədir. Vəlinin telefonu isə cavab vermirdi. Daha dözə bilməyib katibəsinə zəng etdim. Kitabın Vəliyə çatıb-çatmadığını soruşdum. Katibə kitabı Vəlinin özünə verdiyini dedi. Qəribədir, mən həmişə bu həssas dostuma kitab verəndə uzaq başı üç gündən sonra mənə zəng edib kitab haqqında öz ürək sözlərini deyərdi. İndi isə kitabın göndərilməsindən düz iki həftə keçirdi. Demək Vəliyə vaxt çatmırmış. Ona görə də həssas dostumdan qətiyyən incimədim.

Bir axşam Vəlini televiziya ekranında gördüm. O Moskvanın qurultaylar sarayındakı kürsüdən həyəcanla danışırdı. Yox! Sanki Qarabağ torpağı uğrunda erməni millətçiləri ilə əlbəyaxa döyüşürdü. Qəsbkarlıq niyyətinə düşənlərin qərəzli havadarlarını da SSRİ Ali Sovetinin deputatı səlahiyyətilə təmiz rus dilində təkzibedilməz sübutlarla damğalayırdı... Mən isə yerimdən ayağa qalxıb televizoru Vəliqarışıq bağrıma basmaq istəyir-



dim... Sənətkar ən çox nə zaman təlaşa düşür? Ömrü qüruba yaxınlaşanda. Bəli! O qürub yorğun, laqeyd, bezar sənətkarı da silkələyir, həyəcanlandırır, qorxudur. Əlində yarımçıq qalan nə işi varsa, onu tamamlamağa çalışır. Xatirələri tez-tez anıb yaddan çıxmağa qoymamaq da belədir. Hardasa oxumuşam ki, yaşa dolan insan acı xatirələr danışmaqdan başqa bir şey deyil. Yox! Bu bənzətmə ilə razı deyiləm. Axı xatirələr yalnız acılardan ibarət olmur. Şirinləri də var. Yaşa dolan insanın yaddaşının qoşa qanadları tərəzinin iki gözünü andırır. Bir gözə şirin, bir gözə acı xatirələr yığılır. Şirin xatirəli göz ağırlaşanda yaşa dolan insan qürur hissi keçirir. Acı xatirəli göz ağırlaşanda təəssüf hissi. Mənim yaddaşımın qanadları da tərəzinin iki gözünə dönüb. Ancaq həmişə şirin xatirələr yığılmış göz ağır gəlib. Mən də qürur hissi keçirmişəm. Düşünmüşəm ki, ömrünün simfoniyasında şirin xatirələrin notları daha çox olan yaşa dolan insan xoşbəxtdir. O düşdüyü acı günlərin axarında da şirin xatirələrin təsəllisiylə yaşayır...

Yadımdadır, bir dəfə Vəli mənə dedi ki, sən Şimali Azərbaycanın xəritəsinə diqqət veribsənmi? Hansı şairsə onu uzun dimdiyini Xəzər dənizinə uzadan məğrur qartala bənzədib. O şairin bu bənzətməsi inkaredilməz həqiqətdir. Bəs onda Cənubi Azərbaycan nəyə bənzəyir? Zirvəsində məğrur qartal ucaltmış nəhəng qayaya. Demək qartalı qayasız, qayanı qartalsız təsəvvür etmək mümkün deyil. Qartal qayaya, qaya da qartala yaraşır! Vəli düz deyirdi.

Biz tanış olanda mənim iyirmi iki yaşım təzəcə tamamlanmışdı. 1947-ci il idi. BDU-nun filologiya fakül-

təsində bir sinifdə oxuyurduq. Elə ilk dərslərdə suyumuz bir məcrada axmışdı. Sonra dostluq nəğməsi oxuya-oxuya əbədiyyət dənizinə tökülmüşdü. Vəlini mənimlə birləşdirən bir yandan dərs otağı idisə, bir yandan da doğulduğu yer idi. O Şimali Azərbaycanla Cənubi Azərbaycanın sərhəddində yerləşən Yardımlı bölgəsindən idi. Necə deyərlər, qan çəkirdi. Vəli sadə, mehriban, zirək bir gənc idi. Həmişə hərəkətdə olan şüvərək tələbənin sarımtıl uzun telləri də bir yerdə qalmazdı. Elə yel dəyməmiş Vəlinin alnına tökülərdi. Vəli də şıltaq tellərinin xətrinə dəyməzdi. Yalnız arabir, əliylə geriyə darayardı. Onda nadir təşkilatçılıq bacarığı vardı. Vəli həm oxuyur, həm də işləyirdi. Sinifdə tələbələr arasında bir inciklik olanda Vəlinin təşkilatçılıq bacarığı ovsanaya çatırdı. O arada canlı körpüyə dönüb ayrılan dostları yenidən bir-birinə qovuşdurardı. Küsülülüyə dözmürdü. Küsənləri dərhal barışdırırdı. Özü də zarafatla, məzəmmətlə, öyüdlə... Sanki Yardımlıda doğulan Vəli dünyaya insanlara yardım etmək üçün gəlmişdi. Mən Vəlinin xeyirxah davranışına heyran idim. Aramız çox açıq, özümüz çox yaxın idik. Təbiətimizdəki qaynarlıq, təmizlik, mərdlik bizi elə birləşdirirdi ki, iki doğma qardaşa döndərirdi. Mən Vəlidən bir neçə yaş böyük idim. Bəlkə də buna görə bəzən ərk ilə ona buyruq da buyururdum. O isə buyruğumu etirazsız yerinə yetirib ürəyimdəki məhəbbətini daha da böyüdürdü... Elə böyüdürdü ki, artıq hərarətlə dolu ürəyimə sığışmırdı. Gözlərimdə də ulduz-ulduz parlayırdı. Mən o taydan bu taya keçəndə həsrətdən, nisgildən, ümiddən danışan bir silsilə şeir yazmışdım. O şeirlərin arasında "Mən nə gətirdim", "Gözlərin", "Kamança", "Fədainin məzarı", "Bir yaz axşamı" şeirləri də vardı. Əvvəldə adları çəkilən iki şeiri qoşma şəklində yazmışdım. Bir gün Vəli də mənə "Gözlərin" adlı bir şeir oxudu. Qoşma şəklində yazılan bu şeir xoşuma gəldi. Soruşdum ki, bu şeir kimindir? O yarıciddi, yarızarafat dedi ki, özümündür. Məgər mən şeir yaza bilmərəm? Mən qətiyyətlə dedim ki, yaza bilərsən! Həm də əlasından! Maşallah, bilik səndə, həvəs səndə, zövq səndə. Ancaq bilmək istərdim ki, niyə ilk dəfə üzə çıxarıb oxuduğun şeirini gözlərə həsr edibsən? O şəstlə dedi ki, əvvəla, bu "Gözlərin" şeirini bir növ sənin "Gözlərin" şeirinə cavab yazmışam. Sonra da ki, gözlərin nəyə qadir olduğunu bildirmək istəmişəm. Axı gözlərin üstünlüyü yalnız onda deyil ki, onlar insan bədəninin üstündə məskunlaşıb. Yox! Onlar insan bədəninin üzvləri arasında yeganə üzvlərdir ki, hər şeyi görür. Ona görə də insanlar bir-birinə şad xəbər verəndə – "Gözün aydın!" – deyir. Bəli! Birinci olaraq gözü sevindirir. İnsan insanın xahişini məmnuniyyətlə yerinə yetirmək istəyəndə gözüm üstə deyir. Bununla həm o xahişi ülviləşdirir, həm də öz gözünün ülvi olduğunu bir daha bildirir. Sadə adam özünü çəkən adama "Gözü ayağının altını görmür" deyir. Bununla gözün məsuliyyətini ətrafındakılara da xatırladır. Biri birinin faciəsinə acıyanda "Gözüm çıxsın" deyir. Bununla öz səmimiliyini hər şeydən əziz olan gözünün fədakarlığı ilə bəyan edir. Kimsə kimini tərifləyəndə "Göz dəyməsin" deyir. Bununla top dağıda bilməyən cəlalın gözün yıxa biləcəyini gizlətmir... Bəli! Ona görə də keçmişdə göz

bədənin padşahıdır deyiblər. Padşah nədir? Küllü ixtiyar sahibi! Məlumdur ki, bir nədir, hətta bir neçə duru bulaq bulanıq bir dənizə axıb tökülsə, suyu mütləq o dənizin sularına qarışıb bulanacaq. Amma mən qeyri-adi bir bulaqdım. Çoxdan axıb o dənizə tökülsəm də, suyum hələ də bulanıq sulara qarışıb rəngini itirməmişdi. O büllur aynaya dönüb bulanıq suların sinəsində par-par parlayırdı. O hər hansı şimşəklə çiliklənə bilərdi, ancaq büllurluğunu itirməzdi. Qərbdə milyonların arasında yaşayan bir şair heyrətlə yazıb ki, bu qədər adamın arasında bir dostum yoxdur ki, bağrıma basım. Mən də şərqdə milyonların arasında yaşayırdım. Ancaq lovğalıq olmasın, özüm qədər təmiz bir adam tapa bilmirdim ki, bağrıma basım. Təmiz insan yalnız özüm idim. Özümü isə bağrıma basa bilmirdim. Mən özümə bənzər bir insanı Vəlinin surətində tapmışdım. Sanki bizi bir ana doğmuşdu. Əkiz qardaş idik. Ona görə də mənimki Vəliylə tuturdu. İnsan ürəyi bəzən dərin quyuya dönüb öz sirrlərini gizlədir. Bəzən də dənizə dönüb öz sirrini şahə qalxan dalğalarıyla aləmə car çəkir. Ancaq Vəlinin ürəyi nə quyu idi, nə də dəniz. Yox! Sədaqətli dost üzünə açılan məhrəm qapı idi. Özünü qoruya-qoruya yaşamağa məcbur edən insan axırda qoruğa dönür. Qoruğun isə xarici aləmlə əlaqələri tamam kəsilir. Bəli! Qoruq xarici aləmdən təcrid olur. Xalq içində doğulub, xalq içində yaşayan, ucalan ictimai xadim özünü qoruğa döndərə bilməz. Vəli belə ictimai xadim idi.

Azərbaycan Yazıçılar İttifaqı Bakının Üzeyir Hacıbəyov adına küçəsində kooperativ ev tikirdi. İmkan sa-



rıdan adam çatışmadığına görə tikintinin icraçısı Qulamrza Cəmşidi öz həkim dostlarından da bir neçəsinin adını binanın siyahısına salmışdı ki, mənzil ala bilsin. Bir gün qapımız döyüldü. Gələn Qulamrza Cəmşidi ilə Əsəd Qurbanzadə idi. Əsəd həkim idi. Özü də təbrizli idi. Tanış idik. Mehriban-mehriban görüşdük.Mən qəfil gələn qonaqlarımı masa ətrafında əyləşib çay içməyə dəvət etdim. Qulamrza qətiyyətlə mənə: – Sağ ol, əyləşməyəcəyik. Gəlmişik ki, səni Vəlinin yanına aparaq. Maşın qapıdadır – dedi. Mən heyrətlə Qulamrzaya: – Xeyr ola? – dedim. Qulamrza təəssüflə mənə: – Əsədin adını mənzil almaq üçün binanın siyahısına salmışdım. Pulunu da ödəmişdi. İndi nədənsə bəzi etirazlara məruz qalıb. Vəli tikintini qəbul edən komissiyanın sədridir. Ona görə də onun yanına getmək lazımdır. Axı Vəli həm də sənin dostundur – dedi. Mən təbəssümlə Qulamrzaya: – Orası elədir – dedim. Qulamrza ərklə mənə: – Onda geyin, gedək – dedi. Mən geyindim. Küçəyə çıxıb maşına mindik. Maşını Əsəd sürürdü. Bildim ki, maşın Əsədindir. “QAZ-21” Siyasi Maarif evinin qabağında dayandı. Maşından düşüb mərmər pillələrlə qalxıb Vəlinin Siyasi Maarif evindəki iş otağına çatdıq. Töyşümüzü dərdik. Mən qapını yavaşca döydüm. İçəridən Vəlinin şaqraq səsi gəldi: – Buyurun! – Otağa girdim. Arxamca da Qulamrza ilə Əsəd gəldi. Vəli otaqda tək idi. Məni görcək ayağa qalxdı. Mənə sarı gəldi. Bərk-bərk qucaqlaşdıq. Sanki neçə illərdi ki, görüşmürdük. Qulamrza ilə Əsəd bizə heyrətlə baxırdı. Nəhayət, əyləşdik. Mən məsələni Vəliyə açdım. Gerisini isə Qulamrza danışdı.

Vəli söz verdi ki, Əsədə kömək edəcək. Biz də Vəlinin otağından arxayın-arxayın çıxdıq. Sonra Əsəd də o binada adına yazılan mənzili aldı. Bildim ki, Əsədin mənzil almasında Vəlinin həlledici rəyi qəbul edilib.

İnsan ağlı kəsən gündən "izm" lərdən asılı olmayaraq yaxşı yaşamaq istəyib. Yoxsa, necə deyərlər, yas da toyuğun yasıdır, toy da... Dünya xalqlarının arasındakı soyuqluq, biganəlik, əsəbilik ayrı-ayrı ərazilərdə yaşayan ailələrə də sirayət etmişdi. Belə vəziyyətlər neçə-neçə məmləkətdə çəkilib televiziya ekranlarında göstərilən filmlərdə açıq-aydın görünürdü. Elə indi də görünür. Vəlinin ailəsi isə çox mehriban idi. Böyük qardaş ləyaqətilə həm qardaşlarına, həm də bacılarına atalıq edən Vəli ailədə anasının mövqeyini yüksək qiymətləndirirdi. Ana da hələ yeniyetmə çağlarından zəhmətə alışan ilki ilə fəxr edirdi. Həyat keşməkeşlərlə dolu yollardan keçən naşı insanı dözümdə sınaya-sınaya müdrikləşdirir. İnsan cəfakeşliyin, fədakarlığın nə olduğunu mübarizələrdə dərk edir. Təcrübəsi də, məharəti də, biliyi də artır. Belə insanlardan biri də Vəli idi.

Deyirlər ki, dəniz təmizlik sevir. Hətta üstünə qonan zibilləri də dalğalarıyla vurub sahilə çıxarır... Ona görə də həmişə təmiz qalır. Vəlidə də dəniz təbiəti var idi. Yox! Vəli özü elə dəniz kənarında dəniz idi. Bəli! Təmizlikdə də, coşğunluqda da, doğmalıqda da dəniz idi...

Atası Hüseyn kişi vəfat edəndə mən dostuma başsağlığı vermək üçün Vəlinin İçərişəhərdəki evinə getdim. Böyük otaq adamla dolmuşdu. Hüzn məclisində kimlər yox idi? İctimai xadimlər, mədəniyyət işçiləri, kənd zəhmətkeşləri, tələbə dostları, iş yoldaşları. Məclisdəkilər atanın həyatdakı mövqeyindən, nüfuzundan, qayğısından hərarətlə danışırdılar. Sanki ataya minnətdarlıqla dolu söhbətlər mənə ata haqqında bir şeir yaz dedi. Ancaq ata haqqında şeir yazmaq mənə çox çətin idi. Ona görə ki, mən atamı görməmişdim. O, mən dünyaya gələndən bir az sonra dünyadan cavan ikən köçmüşdü. Mən atamın nə mövqeyini, nə nüfuzunu, nə də qayğısını görmüşdüm. Ancaq mövzu dərhal hisslərimi qaynatmağa başladı. Məclis dağılanda mən də ayağa qalxdım. Vəliyə – Son qəmin olsun – deyə başsağlığı verib evə gəldim. Ata görməyə-görməyə ata haqqında bir şeir yazdım. Elə adını da "Ata" qoydum.

Səhər Vəliyə zəng edib ata haqqında bir şeir yazdığımı dedim. O təkidlə mənə: – Oxu! Qulaq asım! – dedi. Şeiri telefonda Vəliyə oxudum. Dostum həm həyəcanlandı, həm də kövrəldi. Sonra boğazı qəhərlənə-qəhərlənə: – Atamın qırxını vermək üçün Yardımlıya gedəcəyəm. Bəlkə sən də mənimlə gedəsən. O şeiri də hüzr yerində oxuyasan – dedi. Mən təəssüflə Vəliyə: – Biz siyasi mühacirlərin sərhəd rayonlarına getməsi müşkül məsələdir. Bizi ya o tərəflərə heç buraxmırlar, ya da buraxılış vərəqəsini elə süründürürlər ki, özün getməkdən imtina etməyə məcbur olursan – dedim. Vəli məni başa düşdü. Sonra məsləhətlə mənə: – Gəl belə edək. Sən o şeirə bir müqəddəmə də yaz. Müqəddəmədə atamın qırxına toplanacaq adamlara öz ürək sözlərini de. Mən gəlib evdə sənin səsini maqnitofona yazım. Sonra Yardımlıda hüzr məclisində səsləndirim – dedi. Razılaşdıq, vədələşdik, xudahafizləşdik.

Sabahı axşam Vəli maqnitofonla bizə gəldi. Diqqətlə maqnitofonu sazladı. Mən əvvəlcə Hüseyn kişinin qırxına toplaşacaq adamlara deyəcəyim sözləri, sonra da ata haqqında yazdığım şeiri oxudum. Vəli də maqnitofona yazdı. Sonra mən susdum, maqnitofon səsləndi. İkimiz də maraqla qulaq asdıq. Mən arada Vəliyə baxdım. Dostumun qayğı dolu gözləri yaşarmışdı. Şeir sona çatandan sonra Vəli maqnitofonu susdurub ayağa qalxdı. Əvvəl mənimlə, sonra da evdəkilərlə xudahafizləşib getdi.

O Yardımlıdan qayıtdıqdan sonra Hüseyn kişinin qırxının necə keçdiyini telefonda təfərrüatı ilə mənə danışdı. Sonra səsim yazılmış maqnitofona məclisdəkilərin necə məmnuniyyətlə qulaq asdığını dedi. Təşəkkür etdi. Mən səmimiyyətlə Vəliyə: – Təşəkkür gərək deyil. Bu mənim borcumdur. O səs tək mənim yox, həm də vicdanımın səsidir – dedim.

Mən hələ gənclik romantikası ilə dolu olan tələbəlik illərində Yardımlının nadir, füsunkar, zəngin təbiətinin tərifini birlikdə oxuduğum Vəlidən eşitmişdim. Doğma Azərbaycan torpağının gözəl guşələrindən birinə uzaqdan-uzağa vurulmuşdum. O səfalı diyarı görmək arzusu başqa gözəl arzularımla yanaşı şair ürəyimdə boy atırdı. 1977-ci il may ayının 6-da Vəli bizə gəldi. Dedi bilirsiniz ki, bir neçə gün bayramdır. İş olmayacaq. Mən də haçandı Yardımlıya getməmişəm. Yığışın, sabah gedək Yardımlıya. Sonra üzünü xüsusi bir tərzdə mənə tutub: – Ordan Savalanı da görərsən – dedi. Doğrusu, Savalanın adını eşidəndə kövrəldim. Ürəyim bir tikə oldu. Axı mənim yeniyetməliyim Savalanda



keçib. Ömür yoldaşım Şəfiqənin üzünə baxdım, o da mənim. Axı biz Vəligilin Yardımlıdakı evlərinə heç getməmişdik. İndi birdən-birə... Vəli çox arif adam idi. Dedi mən sizin eyhamlarınızı başa düşdüm. Heç nə gərək deyil. Siz ancaq hazırlaşın. Sabah səhər mikroavtobus qapınızda dayanacaq. Mən də içində. Sonra gülə-gülə ayağa qalxdı. Gözləri kitab dolabında yanaşı düzülmüş “Azərbaycan nağılları”na sataşdı. Dedi ki, uşaqlar yaman nağılbazdılar. Sağ olmuşlara nə qədər kiçik nağıl kitabları alsam da, yenə məndən əl çəkmirlər. Elə nağıl kitabı istəyirlər. Mən ayağa qalxıb kitab dolabındakı beş clddən ibarət “Azərbaycan nağılları”nı götürdüm, sonra qəzetə büküb bağladım. Vəli məsələni başa düşdü: – Yox! – dedi – Aparmaram. Öz uşaqlarınıza gərək olar. Mən qürurla Vəliyə: – Bizim uşaqlar bu nağıllar dünyasından keçə-keçə daha böyüyüblər. Sən isə öz uşaqlarının nağıllar dünyasından keçə-keçə böyüməsi üçün bu kitabları əmilərindən onlara kiçik hədiyyə apararsan – dedim. Sonra kitab bağlamasını Vəliyə verdim. O getdi.

Sabahı səhər mikroavtobus qapımızda dayandı. İçində Vəlidən başqa yaraşıqlı bir gənc də var idi. Biz mikroavtobusa minəndə Vəli fərəhlə bizə: – Tanış olun, qardaşım Akifdir – dedi. Akifin qucağında bir dəstə təzətər qızılgül vardı. Biz Vəlinin mehriban təbiətli qardaşıyla tanış olduq. Mən Vəlinin yanında əyləşdim. Mikroavtobus yola düşdü.

Yoldayıq. Əlvan mənzərəli Vətən yollarından birində. Sanki bu şəfəqli, ətirli, nəğməli yollar günəşli Azərbaycanın zəngin təbiətli xəritəsinə uzanan əllərdir.

Onlar gələnlərə, gedənlərə ətrafdakı təkrarolunmaz gözəllikləri iftixarla göstərir. Yox! Təkcə göstərməklə kifayətlənmir. Gözlərdə, ürəklərdə, beyinlərdə həkk eləyir. Ancaq insan nə qədər ecazkar mənzərələrə baxsa da sükut içində darıxır. Sanki Vəli də bunu hiss edib mənə öz başına gələn maraqlı hadisələrdən birini danışmağa başladı. Dedi ki: – Əvvəllər mən rüşvətin ifrata vardığını eşidərdim. Amma inanmazdım. Axı sosializm quruluşu hara, rüşvət hara? Sonra öz başıma elə bir əhvalat gəldi ki, rüşvətin ifrata vardığına nəinki inandım, hətta şahid oldum. Qulaq as, o əhvalatı sənə danışım – dedi. Mən maraqla Vəliyə: – Danış! Qulağım səndədir – dedim. Vəli asta-asta: – Bakı Partiya Komitəsində katib vəzifəsində işləyirdim. Bir gün yaman dilxor idim. Ona görə ki, gərəkli təşəbbüslərim yuxarılarda nəinki qiymətləndirilmirdi, əksinə, bəyənilmirdi. Birdən qapı aralandı. Yekəpər bir adam eybəcər başını içəri soxdu. Cımbıldayan gözlərilə ətrafa döyükə-döyükə baxdı. Sonra arxayın-arxayın cır səslə: – Olar? – dedi. Məni gülmək tutdu. Başqa adam olsaydı dilxorçuluğunu gülüşlə əvəz etdiyi üçün bu yekəpər adama öz təşəkkürünü bildirərdi. Mən özümü tox tutub rəsmiyyətlə: – Buyurun! – dedim. O içəriyə girdi. Qoltuğunda qəzetə bükülmüş iri bir bağlama vardı. Yekəpər adam gəlib iş masamın qarşısında mənimlə üzbəüz əyləşdi. Sonra qoltuğundakı bağlamanı da masanın üstünə qoydu. Gözlərini gözlərimə dikib şəstlə: – Vəli müəllim! Deyirlər bir gün çiyni heybəli bir əvam kişi bir pinəçinin yanından keçirmiş. Gözləri pinəçinin böyründəki qəhvəyi rəngli suyla dolu ləyənə sataşır. Elə bilir



doşabdır. Ağzı sulanır. Pinəçidən soruşur bu doşabdır? Pinəçi dərhal kişinin əvamlığını başa düşüb – Bəli, doşabdır – deyir. Kişi çiynindəki heybəni yerə qoyub içindən çörək çıxarır. Çörəyi tikə-tikə ləyəndəki qəhvəyi rəngli suya batırıb yeyir. Çörək qurtardıqdan sonra kişi yola düzələndə pinəçi onun qolundan tutub saxlayır. Bəs çörəyini batırıb yediyin doşabın pulunu vermirsən? – deyir. Kişi cibindən bir qədər pul çıxarıb pinəçinin ovcuna basa-basa: – Al haqqını, amma elə sanma mən avamam. Doşabının heç dadı yox idi – deyir. Mən yekəpər kişinin məsəli bitirməsini təmkinlə gözlədim. Düşündüm ki, yəqin məsəli deyib qurtarandan sonra mətləbə keçər. Amma elə olmadı. O ikinci məsəli deməyə başladı. Dedi bir gün bir lotu kababçı dükanının qarşısından keçirmiş. Qızarmış manqallarda cızhacız bişən kababların nəinki iyi, tüstüsü də adamı məst edirmiş. Kababın iyi lotunun burnunu qıcıqlandırır. Ağzının suyunu axıdır. O cibindən bir parça çörək çıxararaq havada kababın tüstüsündən uda-uda yeyir. Çörək qurtarandan sonra kababçı yerindən qalxıb lotunun qolundan yapışır. Yediyin kababın pulunu ver, – deyir. Lotu əlini cibinə salıb pulları cingildədir. Sonra yoluna düzəlir. Kababçı arxadan çatıb yenə lotunun qolundan yapışır. Yediyin kababın pulunu ver, – deyir. Lotu laqeyd-laqeyd: – Mən sənin haqqını verdim – deyir. Kababçı heyrətlə: – Haçan? – deyə soruşur. Lotu təəssüflə: – Bəs pulların cingiltisini eşitmədin? Kabab tüstüsünü uda-uda çörək yeməyin haqqı pulun özü yox, cingiltisi olar – deyir. Sonra yenidən yoluna düzəlir. Ancaq mən nə avamam, nə də lotuyam. Bakının ərzaq

mağazalarından birində müdirəm. Fələkin beş keçisi var. Gah bunun, gah onun qapısına ötürür. Sanki keçilər ötürüldükləri qapıya buynuzlarında gözəgörünməz dövlət aparır. İndi o keçilər mənim qapıma gəlib. Ancaq gözləri götürməyənlər o keçiləri mənim qapımdan qovmaq istəyirlər. Paxıl müsəlman deyilik? Doğrudur, mağaza böyükdür. Ancaq mənim nəzarətimə söz ola bilməz. Özüm də təmiz adamam. İntəhası, düşmənlərim çoxdur. Elə müsəlmanın da evini yıxan bir-biriylə düşmənçiliyidir. Bəli! Müsəlmana xaricdən düşmən gərək deyil. Elə daxildəki düşmən bəsdir. Məni də düşmənlərim dolaşdırıblar. Sizdən imdad diləməyə gəlmişəm. Bu qəzetə bükülən də puldur. Gətirmişəm cib xərcliyi edəsiniz. Deyilənə görə Süleyman peyğəmbərin heyvanat aləmi ilə məhrəm ünsiyyəti varmış. Bir gün o heyvanlara sifariş göndərir ki, hər heyvan ona bir hədiyyə gətirsin. Hədiyyələrin də qəbul olunacağı günü təyin edir. Həmən gün Süleyman peyğəmbər hündür bir yerdə dayanıb hədiyyə gətirən heyvanlara maraqla baxır. Fil, şir, pələng, bəbir, ayı, qurd çiyinlərindəki ağır hədiyyələrlə Süleyman peyğəmbərin qarşısından keçib hədiyyələrin təhvil verildiyi yerə gedir. Süleyman peyğəmbər birdən görür ki, uzun heyvan qatarının sonunda bir qarışqa bir milçək qanadını çiyninə alıb gəlir. Süleyman peyğəmbər əliylə işarə edib qarışqanı saxlayır. Sonra təbəssümlə: – Ay qarışqa, bu nə hədiyyədir, sən mənə gətiribsən? – deyir. Qarışqa təəssüf dolu etirafla: – Ya peyğəmbər, mənim gücüm buna çatdı. Ona görə də bunu gətirdim – deyib. Süleyman peyğəmbər qarışqanın hədiyyəsini məmnuniyyətlə



qəbul edir. Siz də mənim bu kiçik hədiyyəmi qəbul edin. Yardımınızı məndən əsirgəməyin. Birdən yekəpər adam səsini kəsdi. Bərəlmiş gözlərini əllərimə dikib susdu. Sən demə, hirsimdən əllərim əsirmiş. Fikrim onda olduğu üçün özüm duymayırmışam. Qəzəblə yerimdən ayağa qalxdım. Yekəpər adam da yerindən ayağa qalxdı. Mən iri pul bağlamasını çağrılmamış qonağa göstərib nifrətlə ucadan: – Götür! – dedim. O hürkə-hürkə iri pul bağlamasını götürüb yenidən qoltuğuna vurdu. Hərifin qolundan tutub qapıya doğru apardım. Qapını açıb ona: – Sən ünvanı səhv salıbsan. Get, bir də buralarda görünmə. İt sümüyü yeyəndə sevinər, eşiyə çıxanda gözləri yerindən pırtlayıb qabağına düşər. Haram mal yeyənlər də o itə bənzəyir. İlan hər yerə əyri getsə də öz yuvasına düz gedər. Mən ilan deyiləm. İnsanam! Nə olsun vəzifəm var? Mən hələ ehtiyacın əyri yollarında ilişib qalmamışam. Əzablı yollarla öz müqəddəs əqidəmin təmiz mənzilinə düz getmişəm. Nə qədər nəfəsim var, düz gedəcəyəm – dedim. Yekəpər adam necə gəlmişdisə, elə də getdi. Sonra elə bir gün gəldi ki, özüm də iş yerimdən getməli oldum. Məni Bakı Partiya Komitəsinin katibi vəzifəsindən çıxarıb Siyasi Maarif evinə müdir göndərdilər. Bir gün kabinetdə əyləşib mühazirəçilərin rayonlarda oxuyacaqları mühazirələri yoxlayırdım. Birdən qapı aralandı. İçəriyə dürtülən yekəpər adamın gözləri cumbuldadı. Bu görkəm mənə tanış gəldi. Sanki haçansa yuxuda görmüşəm. Astanadan mənə təkəbbürlə baxan bu adam şəstlə: – Olar? – dedi. Səs də mənə tanış gəldi. Sanki haçansa yuxuda eşitmişdim. Sifəti də, səsi də tanış

gələn yekəpər adama nəzakətlə: – Buyurun – dedim. O gəlib masamın qarşısında mənimlə üzbəüz əyləşdi. Sonra istehza ilə: – Vəli müəllim, məni tanıyırsınızmı? – dedi. Mən onu xatırlamağa çalışa-çalışa qəsdən – Yox! – dedim. Bu sırtıq müsahib əda ilə mənə: – Eybi yoxdur – dedi – Qabaq tanımasanız da indi tanıyarsınız. Mən mağaza müdiriyəm. Düşmənlərim mağazanı yoxlatdırıb məni dolaşdırmışdılar. Mən də sizin yanınıza imdada gəlmişdim. Axı siz böyük yerdə işləyirdiniz. Bakı Partiya Komitəsinin katibi idiniz. Yanınıza əliboş gəlməmişdim. Peşkəşlə gəlmişdim. Atalar deyib ki, əl əli yuyar, əl də üzü. Siz peşkəşi nəinki qəbul etdiniz, hətta qoltuğuma verib özümü də kabinetinizdən qovdunuz. Mən isə ayrı adam tapıb peşkəşi ona verdim. O da mənim işimi düzəltdi. Məşədi İbad nahaq yerə deməyib ki, o olmasın, bu olsun. Təki adamın işi düzəlsin. Mən üzümü bu hayasız mağaza müdirinə tutub səsim gəldikcə: – Dur bu dəqiqə burdan rədd ol! – dedim – Atalar bəlkə də o məsəli təmiz əl-üzlər haqqında deyib. Siz natəmizlər isə o məsələ zorla başqa don geyindiribsiz. Yekəpər adam laqeyd-laqeyd mənə: – Gəldim ki, görüm o boyda vəzifədən çıxarılandan sonra necə dolanırsınız? Bir də sizə deyim ki, bu borc alıb, borc verən həyatda siz bəlkə də öz xeyrindən qaçan yeganə adamsınız. Atalar demişkən, hələ də fil qulağında yatmaqdasız – dedi. Sonra lovğa-lovğa yerindən qalxıb getdi. Mən düşündüm ki, gör necə mühitdə yaşayırıq. Natəmiz təmizə, nahaq haqqa, pis yaxşıya acıq verdiyi bir mühitdə...



Yolumuz uzandıqca uzanırdı. Sonsuz bir misraya dönürdü. Dağlardan qanad çala-çala gələn sərin külək maşının açıq pəncərəsindən üzümə dəydikcə yorğunluğumla bərabər aranın darıxdırıcı istisi də canımdan çıxırdı...

Maşınımız Puşkin* rayonundan keçəndə Şəfiqə məsləhətlə Vəliyə: – Vəli qardaş, bəlkə düşüb yol üstündəki mağazalara baxaq. Axı, Bakıda tapılmayan bəzi şeyləri rayonda tapmaq olur – dedi. Vəli maşını saxlatdırdı. Hamımız maşından düşdük. Rastımıza çıxan ilk mağazaya girdik. Hər kəs maraqlandığı şeyə baxdı. Mənim gözlərim asılqandan asılmış boz rəngli yaxşı bir kostyuma sataşdı. Kostyumu Şəfiqəyə göstərdim. Qəribədir. O kostyumu görəndən sonra mənə yox, Vəliyə baxdı. Dedi ki, kostyum sənə kiçik, Vəli müəllimə isə yaxşı olar. Bəlkə kostyumu Vəli müəllimə geydirib baxaq? – dedi. Sonra Şəfiqə kostyumu Vəliyə göstərib təriflədi. Kostyumun tərifə layiq olduğunu Vəli də təsdiqlədi. Şəfiqə kostyumu asılqandan çıxartdırıb gətirtdi. Ərklə Vəliyə: – Vəli müəllim, sanki sizin əyninizə tikilib. Bakıda belə kostyumu çətin tapmaq olar. Bir geyinin baxaq, – dedi. Vəli gülə-gülə kostyumu geydi. Doğrudan da sanki dərzi kostyumu xəyal dünyasında gördüyü Vəlinin əyninin ölçüsündə tikmişdi. Sən demə, təzə paltar insanın yalnız görkəmini yox, yaşını da, ruhunu da, davranışını da təzələyirmiş. Sanki boz kostyum Vəliyə boz qartal çevikliyi gətirdi. O iri əliylə alnına tökülmüş tellərini geriyə daradı. Bir neçə dəfə

* indiki Biləsuvar

aynada özünə baxdı. Deyəsən kostyum çox xoşuna gəldi. Şəfiqə təkidlə Vəliyə: – Vəli müəllim, kostyum sizə çox yaraşır. Götürün – dedi. Vəli kostyumu əynindən çıxarıb satıcıya bağlatdırdı. Sonra pulunu verib götürdü. Biz maşına minib yola düşdük.

Maşınımız Masallıya yaxınlaşanda orada yaşayan qohumlarımı xatırladım. Masallıda üç əmim qızı vardı, neçə-neçə əmim nəvələri. Haçansa o tayda Savalan ətəyində yerləşən Çanaxbulaq adlı kəndimizə Şahsevənlər hücum etmişdi. Camaatın nəyi varsa, talayıb aparmışdı. Babamın ocağı da dağılmışdı. Beş oğlu, iki qızı didərgin düşmüşdü. Yaşda atamdan böyük olan iki əmim həyat yoldaşlarıyla bu taya gəlmişdi. Masallıda torpaq alıb ev tikmişdi. Bir qədər yaşadıqdan sonra dünyasını dəyişmişdi. Yurdunda övladları qalmışdır. Mən o taydan bu taya keçəndən sonra əmilərimin ciyərparaları Masallıdan gəlib məni Bakıda tapdı. Görüşdük, öpüşdük, ağlaşdıq, sevindik, qürurlandıq. Sonralar əmilərimin uşaqları məni təkidlə tez-tez Masallıya dəvət etdi. Mən isə gedə bilmədim. Masallı sərhəd bölgəsi olduğu üçün məni o tərəfə buraxmırdılar. Bəli! Xüsusi idarələr sovet vətəndaşlarına az-çox inansalar da, siyasi mühacirlərə heç inanmırdılar. Mən də siyasi mühacir idim. Nəhayət, 1967-ci ildə Oktyabr inqilabının 50 illiyini bəhanə edib həm Yazıçılar İttifaqına, həm də Daxili İşlər Nazirliyinə ərizə verib Masallıya yaradıcılıq ezamiyyətinə getmək istədiyimi bildirdim. Mənə icazənamə verdilər. Mən də ailə üzvlərimdən bir neçəsini özümlə götürüb icazənaməmi yol boyu düzülmüş postlarda göstərə-göstərə birtəhər gedib Masallıya çıxdım...



İndi o zamandan düz on il keçirdi. Vəli mənim qohumlarımın Masallıda yaşadığını bilirdi. Bu haqda ona danışmışdım. Masallıdakı qohumlarım da Vəlinin mənim dostum olduğunu bilirdi. Bu haqda onlara demişdim. Üzümü Vəliyə tutub minnətdarlıqla: – Qardaş, sən bizi Yardımlıya aparmaqda savab iş görürsən. Çünki Yardımlıda həsrətdən saralmış çöhrəmə o tayın nəfəsi dəyəcək. Ancaq imkan varkən, yaxşı olardı ki, bu savabı ikiqat eləyəsən – dedim. Vəli təəccüblə mənə: – Necə yəni ikiqat? – dedi. Mən də təəccüblə Vəliyə: – Sənin yadından çıxıb ki, mənim Masallıda bir çətən qohumum var? Onlara dəymək lazımdır – dedim. Vəli yumruğunu asta-asta gicgahına vura-vura mənə: – Doğrudan a, necə olub ki, biz Bakıda sənin Masallıda qohumlarınla görüşəcəyini gündəliyə salmamışıq. Özü də bütün görüşlərdən əvvəl – dedi. Biz Masallıda mikroavtobusu əmim nəvəsi Təhminənin qapısına sürdürdük. Həyətdə mikroavtobusdan düşüb Təhminəni çağırdım. O eyvana çıxdı. Bizi görcək pillələrlə həyətə yüyürüb özünü – Dayı! – deyə mənim üstümə atdı. Mən Təhminəni bağrıma basdım. Elə bu zaman bir düjün uşağın qıçlarıma sarıldıqlarını gördüm. Sən demə, bu mehriban balalar Təhminəninkilər imiş. Mən qarşımda dayanıb matdım-matdım üzümə baxan uşağı yerdən qaldırıb sinəmə sıxdım. Bu, uşaqların ən kiçiyi idi. Bu anda kənarda çıqqıltı səsi eşitdim. Dönüb baxdım. Vəli əlindəki fotoaparatla mənim uşaqla birlikdə şəklimi çəkdi. Aradan beş dəqiqə keçməmiş Təhminəgilin həyəti adamla doldu. Gəldiyimizi eşidən qonşular görüşümüzə gəldi. Təhminənin həyat yoldaşı bizi evə dəvət

etdi. Dedi çay için, çörək yeyin, bir az dincəlin, sonra səfərinizi davam etdirin. Mən Vəli ilə məsləhətləşdim. O dedi ki, bu məsələ qalsın qayıdan başa. İndi isə yola düşməliyik. Bizi Yardımlıda gözləyirlər. Geciksək, nigaran qalarlar. Mən Təhminəyə dedim ki, sən Masallıda, İskəndərlidə, Ərkivanda yaşayan qohumlarımıza çatdır ki, biz üç gündən sonra Yardımlıdan qayıdacayıq. Qoy onlar üç gündən sonra İskəndərlidə böyük əmim qızı Səltənətin evində toplansın, görüşək. Təhminə nəzakətlə mənə: – Baş üstə dayı, mütləq çatdıraram – dedi. Biz mikroavtobusa oturub yola düşdük. Düşündüm ki, iki babam, iki nənəm, iki əmim, iki dayım, iki bibim, beş xalam Cənubi Azərbaycanda, atam, anam, iki əmim, bir dayım Şimali Azərbaycanda dəfn olunub. İndi onların övladları Azərbaycanın həm cənubunda, həm də şimalında yaşayır. Bəli! Başı bəlalı Vətənin yalnız cansız torpaqları yox, canlı insanları da parçalanıb. Vəli mikroavtobusun açıq pəncərəsindən əlini yolumuzun üstündə Yardımlıya doğru uzanıb gedən təpələrə tuşlayıb iftixarla mənə: – Bu təpələri görürsən? – dedi – Novruzda sanki bütün Azərbaycanda bitən novruzgülülər bu təpələrdə toplaşır. Meh həzin-həzin əsdikcə novruzgülüləri də xəfif-xəfif dalğalanır. Sanki təpələrdə nümayişə çıxır. Elə ki, yoruldu, təpələrin geniş sinəsində sərgi açır, novruzgülü sərgisi! Yoldan keçən müsafirlər sanki ayrı bir diyara, novruzgülü diyarına düşür...

Novruzgülü söhbətindən Novruz bayramı söhbəti doğdu. Vəli məhrəm-məhrəm mənə: – Sən bilirsən ki, Şimali Azərbaycanda Novruz bayramını keçirmək qadağan idi. Özü də gizli göstərişlə. Ancaq biz keçirtdik. Elə təntənəylə, əzəmətlə, ehtişamla keçirtdik ki, səsi-sorağı bütün şərqə yayıldı. Novruz bayramının ləyaqətlə keçirilməsində mənim həm nəzəri, həm də əməli cəhətdən nə qədər əziyyət çəkdiyimi bircə Allah bilir. Həyatdı da. Bəzən bir orkestrdə dağa-daşa haray salan qara zurnanın yanında yanıqlı-yanıqlı dinən neyin səsi eşidilmir. Fədakar adam təvazökarlıq xətrinə öz səsini öz içində boğanda bəlkə də bilmir ki, öz səsiylə birlikdə istedadını da, hünərini də, uğurunu da öz içində boğur. Bəli! Təvazökarlıq da Günəşə, Aya, ulduza bənzəyir. Yəni bir üzü görünsə də, o biri üzü görünmür. Deməк, təvazökarlığın bir üzünün görünməsi yaxşı, bir üzünün görünməməsi pisdir. Zənnimcə, gərək nəinki hər bir ağır zəhmət, hətta hər bir yüngül təşəbbüs də hardasa qiymətləndirilməlidir. Yoxsa müdrik bir zəka da küskün bir yetimə dönə bilər. Novruz bayramını əzəmət dolu təntənəylə keçirtdiyimizə görə Şıxəli Qurbanova təbrik teleqramları gələndə mən baş ağrısı çəkirdim. Bəli! Ağrılı başıma buz bağlayırdım. Ona görə ki, yuxarılarda məni sıxıb suyumu çıxarmışdılar. Novruz bayramında yanan ocaqların isinməmiş istisindən, kor olmuşdum tüstüsündən... – dedi. Mən Vəliyə dedim ki, Şıxəli Qurbanovu 1936-cı ildən, beşinci sinifdə oxuduğum zamandan tanıyıram. Biz Bakının 150 nömrəli məktəbində bir sinifdə oxuyurduq. Şıxəligilin evləri 13 nömrəli məktəbin yaxınlığındakı dalanda idi. Mənim də, onun da şeir yazmağımız bizi sinifdə bir-birimizə yaxınlaşdırmışdı. Yolumuzu Bakı pionerlər sarayına salmışdı. Biz sarayda keçirilən ədəbiyyat dərnəyi-

nin məşğələlərinə bir yerdə gedib-gələrdik. Ədəbiyyat dərnəyinin buraxdığı toplularda mənim Heydər Rzazadə, onun isə Şıxəli Qurbanzadə imzasıyla şeirlərimiz çıxardı. Məktəbimizin təntənəli gecələrində qara misralarımızla müəllimlərimizin üzünü ağardardıq. Vaxtıyla atam Ərdəbildən Bakıya gələndə Bakıda özünə pasport almayıb. Bakıdan İrana gedən bir adam öz pasportunu atama verib. Atam da Bakıda o pasportla yaşayıb-işləyib. Sonra da mən o pasportdakı familiya ilə yaşayıb oxumuşam. Adım Əli olduğu halda sənədlərdə Heydər yazılıb. Arabir mən Şıxəligilə də gedərdim. Dərslərimizi bir yerdə hazırlayardıq. Başımız ağırlaşanda təzə yazdığımız şeirlərimizi bir-birimizə oxuyardıq. Kövrək qanadlı misralarımızı dodaqlarımızdan uçura-uçura sanki yorğunluğumuzu unudardıq. Mən şeir yazmağa Şıxəlidən tez başlamışdım. Ona görə şeirin texnikasını Şıxəliyə nisbətən bir qədər yaxşı bilirdim. Şıxəli bəzən təzə yazdığı şeirin redaktəsini mənə həvalə edərdi. Ancaq bu həvalə sonra aramızda mübahisəyə səbəb olardı. Mən bir sözü pozub yerinə başqa söz yazanda o mənimlə razılaşmazdı. Ümumiyyətlə, Şıxəlidə bir xasiyyət vardı. O həmişə öz dediyini yeritməyə çalışardı. Sözü yerinə yetməyəndə əsəbiləşərdi. Onsuz da ağ çöhrəsi daha da ağarardı. İri qara gözləri ağ çöhrəsində daha da parlayardı. Ədəbiyyat dərnəyinin rəhbəri İsmayıl Soltan bizi arabir radioda çıxış etməyə də aparardı. Biz isə şeir yazsaq da hələ şair deyildik. Ancaq şair olmağa çalışırdıq...



1937-ci ildə Şimali Azərbaycanda qeyri-adi bir tufan başladı. Bu tufan cənubluları sürgünə atdı. Kimini Qazaxıstana, kimini Sibirə, kimini İrana.

1947-ci ilin əvvəlləri idi. Məlum səbəblərə görə mən o taydan bu taya təzəcə gəlmişdim. "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi idim. Şeirlərə baxırdım. Bir gün redaksiyaya yaraşıqlı bir gənc gəldi. Nədənsə pencəyinin altından zolaqlı dənizçi köynəyi geymişdi. Gənc ilk baxışda mənə tanış gəldi. Ancaq zənnimdə yanıla biləcəyimi düşünüb susdum. Redaktor harasa getmişdi. Otaqda bir mən idim, bir də o. Gənc nəzakətlə mənə: – Burda şeirə kim baxır? Mən şeir gətirmişəm – dedi. Mən təbəssümlə gəncə: – Verin mənə – dedim. O şeirini cibindən çıxarıb mənə verdi. Mən dörd qatlanmış vərəqi açıb qarşıma qoydum. Gənc isə bir az da yaxınlaşıb başını vərəqin üstünə əydi. Sanki yazdığı şeiri bir də yoxlamaq üçün oxumaq istəyirdi. Mən zənnimin düz olub-olmadığını bilmək üçün şeirin başlığına yox, altındakı müəllif imzasına baxdım. Zənnim məni aldatmamışdı. Şeirin altında Şıxəli Qurbanov yazılmışdı. Mən başımı şeir yazılmış vərəqin üstündən qaldırıb mehribanlıqla gəncə: – Siz Şıxəlisiniz? – dedim. Gənc təbəssümlə mənə: – Bəli! – dedi. Mən heyrətlə: – Bəs məni tanımadınız? – dedim. Şıxəli diqqətlə mənə baxıb etirafla: – Xeyr! – dedi. Mən hərarətlə Şıxəliyə: – Mən Heydər Rzazadəyəm də. Biz neçə il 150 nömrəli məktəbdə oxumuşuq. "Pionerlər sarayı"ndakı ədəbiyyat dərnəyində iştirak etmişik... Şıxəli məni nə sözümü qurtarmağa, nə də masa dalından ayağa durmağa qoydu. Elə əyləşdiyim yerdə qucaqladı. Mən də onu qucaqla-

dım. Qəribədir. Bayaqdan sual-cavabdan doymayan dilimiz susdu. İndi hərəkət edən qollarımız bir də dodaqlarımız idi. O məni öpürdü, mən də onu. Bu zaman otağa girən olsaydı, elə zənn edərdi ki, biz masa dalında süpürləşib dalaşırıq. Nəhayət, Şıxəli stul çəkib yanımda əyləşdi. Şeir yaddan çıxdı. Şıxəli bu tayda başına gələnləri, mən də o tayda başıma gələnləri danışdıq. Sən demə, Şıxəli müharibə illərində hərbi dəniz donanmasında xidmət edirmiş. Əynindəki zolaqlı köynək də dəniz həyatından bir yadigarmış. Şıxəli eyhamla mənə: – Danışılası şeylər çoxdur. İnşaallah, yenə görüşüb danışarıq – dedi. Sonra ayağa qalxıb şeiri haqqında heç nə demədən mənimlə xudahafizləşib getdi. O gedəndən sonra mən şeiri oxudum. Şeir müharibə haqqında yazılmışdı. Müharibəyə saysız-hesabsız şeirlər həsr edilsə də bu şeirin öz orijinallığı vardı. Sabahı şeiri redaktora təqdim etdim. Şeir "Ədəbiyyat qəzeti"ndə çıxdı. Sonra mən "Ədəbiyyat qəzeti" redaksiyasından getdim. BDU-ya daxil oldum. Şıxəli isə Pedaqoji İnstituta girdi. Arabir şəhər içində görüşüb ayaqüstü söhbət edirdik. Mən universiteti qurtarıb "Azərnəşr"ə redaktor getdim. Yaradıcılıqla məşğul oldum. Şıxəli isə hələ institutda tələbə ikən elmi işlərlə yanaşı ictimai işlərdə də fəal çalışırdı. Sonra mahir təşkilatçılığı sayəsində pillə-pillə, ancaq sürətlə yüksək vəzifələrə qalxdı. Əvvəl raykom katibi, sonra MK-da şöbə müdiri, daha sonra MK-katibi oldu. Doğrusu, indi daha yaxından görüşmürdük. Yalnız iclaslarda bir-birimizi görüb başımızla salamlaşırdıq. Bəzən Şıxəli maşınla işə gedəndə məni küçədə görərdi. Maşının şüşəsi arxasından təbəssümlə



mənə salam verərdi. Bu səmimi salamlaşmanı bir neçə dəfə mənim yanımdakı yoldaşlarım da görmüşdü.

Mühiti təbiətinə uyğun olmayan ağac nədir, heç kol da göyərə bilməz. İstedada maraq, qayğı, şərait lazımdır. Təsadüfi deyil ki, laqeydlik içində çırpınan istedadlar haqqında atalar "Yağ yaxşı yağdır, hayıf pis dəridədir" məsəlini yaradıb. Biz siyasi mühacir idik. Ancaq harda? Vətənimiz Azərbaycanın şimal hissəsində! Buna görə də gərək siyasi mühacir olsaq da, qəriblik hiss etməyəydik. Təəssüf ki, qərib idik. Müəyyən təşkilatımız olsa da, həqiqi sahibimiz yox idi. Laqeydlik baş alıb gedirdi. Mən ədəbiyyatda öz ləyaqətimə görə haqqımı ala bilmirdim. Ancaq bu taylı o taylı qələm sahibləri Şıxəlinin yanına gedib işlərini düzəldə bilirdi. Mən ömrümdə heç bir cəzadan qorxmamışam. İstər böyük olsun, istər kiçik. Ona görə ki, hələ məsum körpəlik çağımdan heç bir günahım yox ikən, cəzaya öyrəncəli olmuşam. Allahmı, fələkmi, talemi deyim? Mən hələ bir yaşına çatmamış atamı, beş yaşında ikən anamı əlimdən alıb. Bəli! Tamam yetim qalmışam. Buna xalis yetim də demək olar. Ancaq təzadlı həyatda təzadsız şey yoxdur. Yəni hər şeydə bir mənfi cəhətlə yanaşı bir müsbət cəhət də var. Əgər yetimliyimin mənə əvəzsiz ziyanı dəyibsə, danılmaz xeyiri də olub. O danılmaz xeyir nədir? Hələ bığ yerim tərləməmiş kişi olub təpədən-dırnağa qədər mübarizləşmək! Dövranın, həyatın, cəmiyyətin sonrakı cəzalarından qorxmamaq. Bəli! Sandım ki, islanmışın yağışdan nə qorxusu məsəlini atalar mənim haqqımda deyib. Mən əgər cəzalardan qorxsaydım, bir müti heykələ dönərdim. Bəlkə dünyada mübarizlik-

lə qazandığım az-çox uğurlarıma görə öz yetimliyimə borcluyam, hə? Əsla yox! Yalnız öz iradəmə minnətdaram. İradəm olmasaydı, uğursuzluqların cəzaları məni göz açmağa qoymazdı. Mən o uğursuzluqlardan qorxmasaydım da qoymazdı. Mən bütün ömrümü o taylı, bu taylı Vətənə həsr etmişəm. Yəni o taydan da yazdım, bu taydan da. Axı Vətən siyasətdə iki bölünsə də məhəbbətdə birdir. Ancaq o taydakı rejim mənim əməyimi dəyərləndirmədi. Dedilər ki, mən uzun mühacirətdən sonra daha bu tayın şairi olmuşam. Bu taydan o tayın şairlərinin əməyi dəyərləndiriləndə mənim əməyim yenə dəyərləndirilmədi. Dedilər ki, sən bu tayın şairisən. Amma nədənsə adım bu tayda əməkləri dəyərləndirilən şairlərin siyahısına da düşə bilmədi. Bütün ömrünü iki taylı Vətənə həsr edən bir şairin bu boyda dünyada heç bir Vətəni də olmadı. Məncə cəzanın da özünə görə ləyaqəti olur. Amma qardaş torpağında mənə verilən cəza ləyaqətsiz cəza idi. Sanki atalar Bağdadda xurmadan oldum, Muğanda bulamadan məsəlini də elə mənim haqqımda deyibmişlər. Beləliklə də mənim vicdandan, ilhamdan, zəhmətdən yoğrulmuş sənətim neçə-neçə sənət arasında azmış bir qərib quşa bənzədi. Nə o tayda yuvası oldu, nə də bu tayda... Ancaq həmişə həqiqəti demişəm, deyirəm, deyəcəyəm də! Özlərini qələm sahibi adlandıranlar qələmlərinin ucundan çıxan bütün cızma-qaralarını çap etdirirlər. Bəli! Öz vəzifələrinin, nüfuzlarının, qılıqlarının sayəsində niyyətlərinə çata bilirlər. Belə adamlara deyən yoxdur ki, axı tutalım məscidin qapısı açıqdır, bəs itin həyasına nə gəlib? Əgər mətbuatın başında duranlar sənə



üzgörənlik edib sənətinin cəfəngiyatlarını səxavətlə çap edirlərsə, bəs sənin vicdanın buna necə razı olur? Axı sən əsl qələm sahiblərinin mətbuatda halallıqla tutacaq yeri həyasızcasına zəbt edirsən. Bəli! Buna zəbtdən başqa heç nə demək olmaz. Üstəlik, bu zəbt cinayət də törədir. Müasir tələbkar oxucuların qiymətli vaxtını alıb onlara cəfəngiyatlar sırımaq, onları aldatmaq deməkdir. İnsanları aldatmaq cinayət deyilsə, bəs nədir? Yoldaşlarımın çoxu bilirdi ki, Şıxəli mənim köhnə tanışımdır. Ona görə də mənə təkidlə deyirdilər ki, get Şıxəlinin yanına. Öz vəziyyətini danış. Ancaq mən məktəb, dərnək, qələm yoldaşıma nə bir dəfə zəng etdim, nə də bir dəfə yanına getdim. Açığı, uşaqlıqdan xahişdən zəhləm gedir. Köhnə tanışdan da xahiş etməyi qüruruma sığışdıra bilmədim – dedim. Vəli susurdu, mən dağlara baxırdım. Qəribədir. Dağlar günəşin bərəkətli şəfəqlərində çimirdi. Dərələrdə isə parça-parça duman sürünürdü. Sanki külək əl atıb dağların dumandan toxunmuş örpəyini cırıq-cırıq eləyib dərələrə tökmüşdü. Maşınımız suları çağlayan dərin dərələrin üzərində sinəsi yaşıl körpüyə bənzəyən çəmənlərdən keçdikcə Vəli Yardımlının maraqla dolu keçmişindən danışırdı. Vəlinin atası Hüseyn kişi bütün ömrünü doğma yurdunun dirçəlməsinə, abadlaşmasına, yüksəlməsinə həsr edib. Əhali arasında dərin hörmət qazanan Hüseyn kişi öz mənalı həyatının sonuna qədər həmyerlilərinin müdrik ağsaqqalı olub. O mehriban ömür yoldaşı Mina ana ilə birlikdə səkkiz övladını da əməksevərlik, xeyirxahlıq, vətənpərvərlik ruhunda böyüdüb.

Rayonun girəcəyində yaşıl dağlardan asılı qalmış ağ köpüklü şəlalə Yardımlının darvazasına salınmış büllur payəndazı andırırdı. Yol üstə qonaq qarşılayırdı. Axı azərbaycanlılar doğma vətənin hər yerində əziz qonağın qabağına dadlı, ətirli, şəfalı şərbətlə çıxır. Şəlalə də qonağı şərbət dadan suyuyla, qanad çalan nəğməsiylə, uzun sürən alqışıyla qarşılayır. Biz maşından düşüb şəlaləyə heyran-heyran baxdıq. Şəlalə sanki bizə Yardımlının gələcəyindən fərəh dolu nəğmələr oxudu. Axı onun yaxınlığında qranit qayalar üzərində təzə binalar tikilir. Burda inşaatçılar pavilyon, çayxana, qonaq evi, qəzet-jurnal köşkü, istirahət zonası yaradırlar. Dağlara asta-asta gecə düşürdü. Gecə dağların ağ saçlarını qara boyayırdı. Güllərin, çiçəklərin, otların qaşlarını, kirpiklərini, gözlərini sürmələyirdi. Ancaq məğrur dağlar sanki süni qara rəngi kişiliklərinə sığışdırmayıb ağ saçlarını nümayiş etdirirdilər. Dağların ağ saçları qaranlıqda par-par parlayan büllur çilçıraqlara bənzəyirdi. Qarşını yaxşı görsün deyə bizim maşınımız da öz işıqlarını yandırmışdı. Maşınımız gur işıqlarıyla qaranlıq yolu yalaya-yalaya Yardımlıya doğru irəliləyirdi. Birdən qaranlıqla işıq arasında bir dovşan balasının karıxıb ora-bura qaçdığını gördük. Uşaqlar dovşana maraqla, diqqətlə, həyəcanla baxdı. Axı onlar şəhər yerində belə heyrət doğuran mənzərə ilə qarşılaşmayıblar. Akif maşını saxlatdırdı. Sonra düşüb dovşan balasına doğru getdi. Dovşan balası sanki qaranlıqla işığın təzadı arasında çabalayıb həlak olacağından qorxub Akifə təslim oldu. Qorxaqlıqda ad çıxaran dovşanın balası Akifin sinəsinə sığınıb rahatlandı. Ancaq Akif maşına minəndə dovşan



balasının narahatlığı təzədən başladı. Uşaqlar dovşan balasını dövrəyə alanda o Akifin qucağında çırpınan quşa döndü...

Maşınımız yola düşdü. Yardımlının girəcəyindəki qəbristana çatanda Akif yenə maşını saxlatdırdı. İri qızıl gül dəstəsini götürüb işıq dolu baxışlarıyla qaranlığı yara-yara qəbristanlığa doğru getdi. Mən maraqla Vəliyə: – Akif gül dəstəsiylə hara getdi? – dedim. Vəli məhrəm-məhrəm mənə: – Akif atamın qəbrinin üstünə getdi. Mən həmişə Bakıdan gələndə özümlə bir dəstə təzətər qızılgül gətirirəm. O qızıl gül dəstəsini atamın qəbrinin üstünə qoyub sonra evimizə gedirəm – dedi. Doğrusu, Vəlinin bu ata yanğısıyla dolu şairanə sözləri məni kövrəltdi. Gözlərim doldu. Ancaq Vəli dolan gözlərimi qaranlıqda görmədi. Düşündüm ki, daha ataya məhəbbət necə olar? Mənə elə gəldi ki, Vəlinin atasına bəslədiyi məhəbbəti qoynunda böyüdüyü dağlardan çox-çox ucadır. Başa düşdüm ki, Vəli bizi maşında qoyub Akiflə qəbristana getmək istəməyib. Axı, Vəli dosta məhəbbəti də yüksək qiymətləndirir. Mən ərk dolu məzəmmətlə Vəliyə: – Bəs niyə Akifin hara getdiyini əvvəlcə bizə demədin? Biz də gedib Hüseyn kişinin qəbrini ziyarət edərdik – dedim. Vəli həssaslıqla mənə: – İndi qaranlıqdır, qalsın sonraya – dedi. Akif gəldi. Maşına minib Yardımlıya üz tutduq.

Salam Yardımlı! Maşınımız Hüseyn kişinin evinin qabağında dayandı. Bizi əlləri günəş hərarətli, dodaqları bahar təbəssümlü, gözləri çeşmə baxışlı Mina ana bağrına basdı. Soyunub əl-üzümüzü dağların büllur sularıyla yuduq. Sanki özümüz də büllurlaşdıq. Mina

ana geniş süfrə açdı. Elə süfrə ki, ətrafına bir neçə ailə yığışdı. Sən demə, həmən gecənin səhəri Vəlinin anası Mina xanımın ad günü imiş. Vəli gedib şəhərdə aldığı iri şokolad qutusunu gətirib açdı. Qutunun qapağının altında iri bir qızılgül dəstəsinin əksi vardı. Qapağın kənarında isə divardan asmaq üçün kiçik bir halqa salınmışdı. Biz hamımız qızılgül əksinin arxasına imza qoyduq. Sonra Vəli əksi divardan asıb dedi ki, bu da bizdən anaya yadigar qalsın. Hayıf ki, Xalidə xanım bu əziz məclisdə iştirak etmir. O mühüm işi olduğuna görə gələ bilmədi. Ananı təbrik etməyi mənə tapşırdı. Ancaq bilirəm ki, indi Xalidə xanımın özü burda yoxsa da, ürəyi burdadı. Həyatda hər iş ürəklə görülür... Biz Yardımlının gözəl nemətlərindən yedik, üstündən ətirli çay içdik. Vəli nəzakətlə dolu tövsiyə ilə uşaqlara: – Zənnimcə dovşan balasıyla kifayət qədər əyləndiniz. Unutmayın ki, indi də dovşanın anası öz balasıyla əylənmək istəyir. Qoy biz də dovşan balasını buraxaq. Gedib azadlıqda öz anasına qovuşsun – dedi. Akif dovşan balasını hərarətli əlləriylə tumarlaya-tumarlaya həyətə çıxartdı. Sonra qırışları açılmış dovşan balasını qara məxmər donlu yaz gecəsinin dərin qoynuna buraxdı...

Bakının toza-tüstüyə bulanmış havasından çıxan uşaqlar ömürlərində ilk dəfə uzaq yol gəlib yorulmuşdular. İndi büllur qədər təmiz dağ havasını udduqca xumarlanırdılar. Necə deyərlər, yuxu gözlərindən tökülürdü. Həssas baxışlı Mina xanım bir neçə dəst acar yorğan-döşək gətirdi. Ancaq yataqların necə salınması haqqında fikirləşəndə çətinliyə düşdü. Bu zaman Vəli anasının dadına çatdı. – Ay ana! Qoy yataqların necə salınacağını



qonaqlar özləri həll etsinlər. Özgə deyillər ki, – dedi. Ancaq biz başa düşdük ki, Mina ana hörmətli qonaqlarına gözəl xidmət etməkdən həzz aldığı üçün daha münasib vasitələr axtarırdı. Biz yatmaq istəsək də səhəri xalılar üstə söhbət edə-edə açdıq. Səhər yenə Mina ana geniş süfrə açdı. Yedik. İçdik. Sonra Vəli gedəcəyimiz yerlərin proqramına baxdı. Rayon zəhmətkeşləriylə görüşümüz qəsəbədə təzəcə tikilib istifadəyə verilən Nizami adına böyük kinoteatrda başladı. Biz kinoteatrın geniş salonunda Yardımlı əhalisiylə görüşən ilk qələm sahibləri idik. Yardımlılar dünyaya göz açandan təbiətin şeiriyyətə qanad verən nadir gözəllikləri qoynunda ömür sürmüşlər. Ona görə də şeiri dərin məhəbbətlə sevirlər. Vəli əllərinin birini kürsünün sağına, birini soluna qoyanda qanadlarını açmış dağ qartalına bənzəyirdi. O Azərbaycan ədəbiyyatında yaranmış bir sıra təzə əsərlərin uğurlarından söz açmaqla dinləyicilərin məlumatlarını daha da zənginləşdirirdi. Sonra mən kinoteatrın adını daşıdığı dahi Nizami haqqında danışdım. Əvvəl o şairlər babasına həsr etdiyim şeiri, sonra da başqa şeirləri oxudum. Görüş qurtardı. Biz maşın karvanıyla Savalanı görmək həsrətilə Perimbelə doğru getdik.

Həssas ürəkli Vəli bu səfəri proqramının başında birinci yazmışdı. Sən demə, qarabaxt dağlara çıxdı, dağları duman aldı, ifadəsi yerində deyilibmiş. Biz yüksəkliyə qalxdıqca, duman da üstümüzə endi. Elə oldu ki, zirvələrə çatanda nəinki Savalanı, hətta bir-birimizi də görə bilmədik. Deyirlər təbiət səhv etmir. Yox! Məncə edir. Özü də böyük səhv edir. Axı təbiət böyük, insan isə kiçikdir. Ona görə də təbiətin səhvi

insanın səhvindən daha böyük olur. Ancaq indi təbiət səhv yox, qəsd edirdi. Özü də mənə qəsd edirdi. Təbiət məgər görmürdü ki, mən neçə-neçə diyarı basa-basa, dostumu zəhmətə sala-sala gəlmişəm ki, yarım əsrə yaxın həsrətini çəkdiyim Savalanı görəm? Bəs niyə o günəşin insanı yandırdığı bir zamanda yeri-göyü dumanla pərdələyirdi? Bəlkə təbiət məni Vətənimi tərk etməkdə günahlandırırdı? Özü də qəzəbdən alışıb yanırdı? Soyuq tüstü buraxırdı ki, mən bir daha Savalanı görməyim. Eləsə, vay mənim halıma. Nə isə... Duman suya dönüb saçımıza, qaşımıza, kirpiyimizə qondu. Biz də suyumuz süzülə-süzülə geri qayıtdıq. Ancaq maşın karvanımız gəldiyi yolla çətinliklə geri döndü. Yadıma on il əvvəl Astaraya getdiyimiz gün düşdü. Onda Yazıçılar İttifaqının vasitəsilə OVİR*-dən birtəhər icazənamə alıb ailəmin bir neçə üzvüylə Masallıya getdim ki, uzun illər boyu üzünü görmədiyim qohumlarımla görüşüm. Sonra düşündüm ki, Masallıya gəlmişkən, elə Astaraya da dəyim. Axı, deyirlər Savalan Astaradan da görünür. Səhər rayonun rəhbərlərindən biri öz maşınını məmnuniyyətlə mənə verdi. Sürücüsünə də tapşırdı ki, Astarada bizi istədiyimiz yerə aparsın. Biz Astaraya getdik. Sürücü maşını lap sərhəddə dayadı. Ancaq nə xeyri? Sərhəddi qol-budaqlı ağaclarla elə hörmüşdülər ki, o taydan bu taya heç iynənin ucu boyda işıq da düşmürdü. Biz kor-peşman Masallıya qayıtdıq. Mən indi də Savalanı gözlərimlə yox, duyğularımla görməli oldum. Bəli! Xəyalımda necə vardısa, elə də gördüm.

*DİN-in viza və icazə şöbəsi



Yolumuzun üstündə duman əlçim-əlçim dolaşırdı. Sanki dağlar ağ yun darayıb, gələn yazda da çəmən-çəmən əlvan xalılar toxumağa indidən hazırlaşırdı. Maşın karvanımız dumanı yara-yara irəliləyirdi. Yolumuzun hər iki tərəfində təzətər lalələr qızarırdı... Şəfəqli kəndinin çeşmələri təmiz, şirin, sərin suları ilə məşhurdur. Necə deyərlər, hər daşın dibindən bir dərdin dərmanı qaynayıb çıxırdı. Bu kənddə yaşayanların ömrü şirinliyi, vicdanı, təmizliyi o nadir sulardan alır. Elə çeşmə ətrafındakı yaşıl çəməndə şeir məclisi başlandı. Mən şeir oxuduqca səsim dağların yorulmaz nəğməkarı çeşmənin havasına qarışırdı. Dağlılar əlvan nemətlərlə dolu süfrə açdılar. Sonra manqallardakı kababların tüstüsü dumana qarışdı. Ancaq duman acılaşmadı. Əksinə, ətirləndi. Mən də ətirlənmiş dumanı acgözlüklə parça-parça uddum. Zarafat deyil, axı haçaqdı dağlara yolum düşməmişdi. Mən dönüb yana baxanda yuxa bişirən sacların altındakı alovlarla şam-şam yanan lalələrin sanki yarışdığını gördüm. İsti kabab, isti yuxa, isti məhəbbət ola, daha soyuq duman kimə neyliyə bilər? Zəhmətkeş dağlıların süfrəsi mənim nəzərimdə dünyanın ən bahalı restoranlarından daha dəyərli, daha təmaslı idi. Ona görə də doyunca yedik, içdik. Sonra süfrə sahibləriylə xudahafizləşib maşınlara əyləşdik ki, qəsəbəyə qayıdaq. Maşında düşündüm ki, zəhmətkeş dağlılar bizə Vəliyə görə hörmət etmişlər. Yolda isə duman get-gedə sıxlaşırdı. Adam yanındakı adamı görə bilmirdi. Maşınlar həm qabaqdakı, həm də daldakı işıqlarını yandırmışdılar. Sanki hər iki tərəfə qoşa dağ lalələri taxmışdılar. İsti lalələr soyuq lalələrə göz vura-vura birtə-

hər qəsəbəyə doğru irəliləyirdi. Nəhayət, Hüseyn kişinin evinə çatdıq. Mina ana bizi mehribanlıqla qarşıladı. Soyunduq. Çay içdik. Dincəldik. Sabah səhər üzüm plantasiyalarına getməyi qərarlaşdırdıq. Bu yerlərdə uzun müddət tədqiqat aparan alimlər öyrənmişdilər ki, rayon ərazisi bol üzüm yetişdirməyə həm yararlı, həm də qadirdir. Axı Yardımlı ilə yaxın qonşu olan Cəlilabad öz üzüm bağlarının zəngin nemətlərilə respublikada əzəmətli şöhrət qazanıb. Bu iki rayonun torpaqlarının xarakterində isə oxşar cəhətlər çoxdur.

Biz sabah səhər maşına minib üzüm plantasiyalarına yola düşdük. Orda bizi qızlar əhatəyə aldılar. Onlar dağların yaşıl məxmər ətəyində təbiətin yeni sakinləri olan təzətər meynələri əzizləyə-əzizləyə becərirdilər. Qızlar dodaqları altında nəsə pıçıldayırdılar. Sanki tənəklərin yaşıl budaqlarına uğur olsun deyirdilər. Onların təbəssümlə dolu gözlərinin şəvə bəbəkləri sabahkı dolu salxımların qara gilələrini xatırladırdı. Vəli məni qızlara təqdim etdi. Mən də qızların əhatəsini şeir məclisinə döndərdim. Gənclik ruhunda yazılmış bir neçə şeir oxudum. Qızların təbəssümlərindən duydum ki, oxuduğum şeirlər ürəklərinə yatıb. Amma heç kim bilmədi ki, mən özüm bu anlarda nə haldayam. Axı üzüm plantasiyaları sərhəddə yerləşmişdi. Sərhəddin bu yanından o yanına baxanda göz işlədikcə uzanan şumlanmış torpaqlardan başqa heç nə görünmürdü. Ancaq mən çox şeyləri görürdüm. İtirdiyim Vətənimi də, gəncliyimi də, səadətimi də görürdüm. Gördükcə kövrəlirdim. Dərindən nəfəs alırdım ki, sərhəddin o yanındakı havanı da uda bilim. Biz qızlara uğurlar diləyib



maşına mindik. Mən maşının pəncərəsindən üzüm plantasiyalarında cərgə ilə işləyən qızlara baxdım. Yamacların sinəsindəki əlvan boyunbağını andırırdılar. Ancaq tezliklə özləri yamacların boynuna göz qamaşdıran büllur salxımlar düzəcəkdilər. Maşınımız yola düşdü. Qəsəbəyə qayıtdıq. Mənim ürəyim isə sanki Vətənə daha yaxın olmaq üçün üzüm plantasiyalarında qaldı.

Sabahı dağların ətəyində təravətlə dolu bir may səhəri açılmışdı. Bu səhər rayon mərkəzinə özüylə bərabər dağların saf havasını, çiçəklərin xoş rayihəsini, insanların sıx ülfətini gətirmişdi. Yardımlılar qələbə günü münasibətilə Vətən uğrunda canlarından keçən qəhrəmanların əziz xatirəsinə ucaldılmış abidənin qarşısına bahar ətirli əklillər qoymağa tələsirdi. Uşaqlar da, cavanlar da, qocalar da öz doğma, isti, kövrək duyğularını əllərindəki təzətər çiçəklərə büküb dərin ehtiramla abidənin önünə qoyurdular. Kiminin gözləri yaşarır, kiminin qaşları çatılır, kiminin xatirələri oyanırdı... Vəli mənə danışdı ki, o zaman Qələbə gününü rayonun bütün zəhmətkeşləri səbirsizliklə gözləyirdi. Obaşdan çağı haradansa həyəcanlı, əzəmətli, fərəhli bir qışqırıq uzun narahatlıqdan sonra zorla mürgüləyən dağları diksindirdi. Tələsik geyinib eşiyə çıxan adamlar səs gələn tərəfə baxdılar. Qışqıran rayon hərbi komissarlığının təpədə yerləşən eyvanında avtomatdan göyə atəş açan bir əsgər idi. O – Camaat, Qələbə! Qələbə! – deyə dalbadal qışqırıb yardımlıları da öz sevincinə şərik olmağa çağırırdı. Bu təntənədə təkcə insanlar deyil, dağlar da şadlanırdı. Həm təbiətin, həm həyatın ağır nisgilləri ilə karvan-karvan yüklənmiş səyyar buludlar müjdəçi dö-

yüşçünün havaya boşaltdığı avtomata əks-səda verdi. Göydə çaxan şimşəklər leysana səbəb oldu. Sanki göy də sevincdən ağlayırdı. İnsanlar leysanın iri damlalarının altında qucaqlaşır, öpüşür, bayramlaşırdı. Leysan dağlardan, çəmənlərdən, güllərdən hicran yanğısını, evlərdən, ürəklərdən, baxışlardan intizar yorğunluğunu yuyub aparırdı...

Sabahı səhər biz Vəlinin anasıgillə xudahafizləşib maşına mindik. Əvvəllər ataların diliylə yolçu yolda gərək deyirdik. İndi işçi işdə gərək sözlərini də ataların sözlərinə əlavə etmək zəruridir. Axı zamanımız iş zamanıdır. Vəli də bizimlə Bakıya qayıdası idi. Mən Mina ananın neçə gündə bizə göstərdiyi hörməti qiymətləndirmək üçün layiqli söz tapmadım. O dəyanətli qadınla elə-belə, ana-bala qaydasıyla xudahafizləşdim. Ancaq xəyalımda qərara aldım ki, Yardımlı haqqında yazacağım silsilə şeirlər arasında ona xüsusi bir şeir həsr edim. Mina anaya deyəcəyim sözləri də şeir diliylə deyim. Maşınımız qəsəbədən çıxdı. Qəbristanlığın yanından keçəndə Vəli maşını saxlatdırdı. Maşından düşdük. O bizi atası Hüseyn kişinin qəbrinin üstə apardı. Biz qəbri araya alıb bir dəqiqə düşüncəyə daldıq. Yox! Sanki bu bir dəqiqədə dünyanı eninə də, uzununa da ölçdük. Bu boyda dünyanın sonunun cəmi iki arşın soyuq torpaqdan ibarət olduğunu bir daha qət etdik. Hüseyn kişinin ruhu diksinməsin deyə dodaqlarımızın altında yanıqlı bir pıçıltıyla fatihə oxuduq. Qəbri nurla dolsun dedik. Sonra maşına minib yola düzəldik. Mən yenə Vəlinin yanında əyləşdim. Şəlalə ilə ikinci dəfə görüşdük... Vəli bir şəlaləyə, bir də mənə diqqətlə baxdı. Sanki şəlaləni də, məni də sınaqdan keçirmək istəyirdi. Halbuki Vəli şəlaləni də, məni də dönə-dönə görmüşdü. Ancaq indi sanki Vəlinin ürəyinə dammışdı ki, biz bir daha birlikdə bu şəlalənin şaqraq nəğməsinə qulaq asa bilməyəcəyik. Vəli ərklə mənə: – Gəlsənə bir şəlalənin başına çıxaq. Şəlaləyə yuxarıdan aşağı baxaq. Görək yuxarıdan necə görünür – dedi. Mən yoxlayıcı nəzərlərlə şəlaləyə baxdım. Sanki şəlalə yarandığı gündən qayanın saçına dönüb dərəyə sallanmışdı. Qaya zaman-zaman saçını daramaq istəmişdir. Ancaq qayanın saçı ağarsa da daranıb qurtarmamışdır. Mən şəlaləyə baxa-baxa Savalanı xatırladım. Yadıma düşdü ki, biz Savalan yaylaqlarında dincələndə Savalanın başına qalxardıq. Sonra Savalanın bu üzündən o üzünə baxardıq. Gözlərimizin qarşısında sıldırım qayalar, dərin dərələr uzanıb gedərdi. Doğrusu, o zəhmli mənzərələrə baxanda adamı vahimə basardı. Amma biz qorxmazdıq. Aradan otuz beş il keçirdi. Necə deyərlər, bir igidin ömrü... İndi isə bu şəlalənin başına qalxmaq üçün özümdə təpər duymurdum. Ürəyimdən keçirdi ki, kaş məndə nadir alpinist hünəri olaydı. Elə bu şəlalənin özündən yapışıb başına qalxa biləydim. Ancaq mən şəlalədən yox, Vəli məndən yapışdı. Mən xəyaldan ayrıldım. Vəli mənə: – Gəl, yavaş-yavaş qalxaq – dedi. Biz çiyin-çiyinə şəlalənin başına doğru addımladıq. Nə gizlədim, yarı yolda yoruldum. Vəli əlimdən tutub diqqətlə, ehtiyatla, qayğıyla şəlalənin başına doğru çəkdi. Sanki gənc qardaş zirvədən enmiş yaşlı qardaşı yenidən zirvəyə qaldırdı. Şəlalə ayaqlarımızın altında qaldı. Aşağıdan bizə baxan olsaydı elə bilərdi ki, nəhəng

gümüş postament üstə çiyin-çiyinə dayanan iki heykəlik. Biz şəlalənin başından enəndə də Vəli diqqətlə, ehtiyatla, qayğıyla əlimdən yapışdı. Axı mən sürüşə bilərdim...

Maşına minib yola düşdük. Dönüb maşının pəncərəsindən şəlaləyə bir də baxdım. O bu dəfə yüksək xitabət kürsüsündən ehtirasla danışan coşqun bir natiqi xatırladırdı. O şəffaf baxışlı natiqin gül ətirli nəfəsində söz ilə vədə bir-birinə qarışıb çağlayırdı. Sanki inamla bizə deyirdi: – Yardımlıya yenə gəlin! Ürəklərdə qürura, gözlərdə sevincə, dodaqlarda nəğməyə dönmüş həqiqəti görmək üçün gəlin!

Sürücümüz bilirdi ki, Bakıya qayıdanda İskəndərliyə gedəcəyik. Ona görə də Masallıya çatanda maşını İskəndərliyə sürdü. Təhminə mənim tapşırığımı ədəbərkanla yerinə yetirmişdi. Böyük əmim qızı Səltənətin həyəti adamla dolu idi. Hamısı da gənc. Maşallah nə qədər törəmə olar? Gözlərində təbəssüm çağlayan körpələr ömür bağındakı pöhrələrə bənzəyirdi. Mən maşından düşüb əmim qızlarına doğru getdim. Daha yaşa dolmuş əmim qızlarını qucaqlayıb o üzündən bu üzündən dönə-dönə öpdüm. Sonra körpələri öpdüm. Daha sonra gəncləri öpdüm. Dönüb Vəliyə baxdım. Gördüm o da mənə baxır. Bilmədim dostum sevinir, yoxsa kövrəlir. Dedim Vəli, sənin qazandığın savab ikiqat yox, bəlkə də yüzqat oldu. Yaxşı ki, bu savabları sən özün də öz gözlərinlə görürsən. Qəribədir, Vəlinin yaşarmış gözləri parlayırdı. Sanki o həm gülürdü, həm də ağlayırdı. Evə qalxdıq. Qohumlarım böyük otaqda masaları



baş-başa düzüb geniş süfrə açmışdı. Hamımız süfrə başında əyləşdik. Vəlini masabəyi seçdik. Yadıma Prişib düşdü. Maşınımız Bakıdan çıxıb Yardımlıya doğru şütüyürdü. Prişibdən keçəndə Vəli maşınımızı bir qapının önündə saxlatdırdı. Sən demə, Vəlinin bacısı Roza xanım burada yaşayırmış. Vəli bir gün əvvəl Roza xanıma zəng edib bizim Yardımlıya gedəcəyimizi deyib. Roza xanım da qonaqlar üçün hazırlıq görüb. Sonra da bizi intizarla gözləyib. O bizi mehribanlıqla dolu təbəssümlə qarşıladı. Sonra evə dəvət etdi. Biz otağa daxil olanda masanın üstünü yaraşıqlı nimçələrdəki gözəl nemətlərlə bəzədilmiş gördük. Hamımız masa ətrafında əyləşdik. Nahar etdik. Sən demə, həyətdə limon ağacları varmış. Ona görə də otaqdan limon ətri gəlirdi. Çayımızı təzə dərilmiş limonlarla içdik. Sonra limon ağacları ilə maraqlandıq. Həyətə çıxdıq. Limon ağaclarına heyrətlə baxdıq. Sanki hər limon ağacı göyün yerə düşmüş bir parçası idi. Qoynundakı sarı limonlar qızıl ulduzları andırırdı. Biz daha evə qayıtmadıq. Roza xanım da maşına mindi. Yardımlıya yola düşdük.

İndi masa arxasında ayağa qalxan Vəli bu taydan da, o taydan da hərarətlə danışırdı. O yumoru çox sevirdi. Adamların kədərlənməsini qətiyyən istəmirdi. Bir də görürdün həsrətdən danışıb masa başına toplaşanları yandırıb-yaxdığı yerdə zarafata keçdi. Masa başına toplaşanlar da uğunub getdi. Vəli həm bu taydakı, həm də o taydakı qohumların, dostların, tanışların ünvanlarına məhəbbət dolu sağlıqlar deyirdi. Ona görə də masabəyinin dediyi sağlıqlar hamının ürəyindən olurdu. Atalar

deyib, şəfa piyalənin dibində olur. Mən məclisin axırında ayağa qalxıb Vəlidən söz istədim. Sonra məclisdəkilərə üz tutub hərarətlə: – Qədəhlərinizi doldurun! – dedim. Məclisdəkilər qədəhlərini doldurdular. Mən Vəliylə ilk tanışlığımızdan başlamış bu günədək uzun yol gələn səmimiyyətlə dolu ülfətimizdən danışdım. Sanki indi mən dastan deyən sazsız bir aşıq idim, Vəli isə dastanın qəhrəmanı. Qohumlarım  danışdığım dastanda Vəlini daha da yaxından tanıdılar. Sonra badələrini mənim Vəlinin sağlığına qaldırdığım badəyə vurdular. Sanki badələrin səsi adi cingilti deyildi. Yox! Mərdliyin, təmizliyin, sədaqətin lirik nəğməsi idi. Məmnuniyyətlə Vəlinin sağlığına içildi. Sonra biz yolçu yolda gərək deyib, ayağa qalxdıq. Məclisdəkilərlə xudahafizləşib Bakıya yola düşdük.

Mən Yardımlıdan Bakıya qayıdandan sonra bir qədər özümlə gətirdiyim qeydlər üzərində düşündüm. Başqa mövzular məni öz arxalarınca çəksələr də, getmədim. Özümə söz verdim ki, Yardımlı haqqında silsilə şeirlər yazım. Axı, indiyə qədər Yardımlı haqqında silsilə şeir yazan olmamışdı. Yardımlı haqqında silsilə şeirləri mən yazdım. Özü də o tayın bu taya, bu tayın o taya həsrət yanğısını duya-duya yazdım. Yaza-yaza çalışdım ki, bu yanğı Yardımlının təravət dolu əzəmətini əridə bilməsin. Yox! Daha da şeiriyyət dolu ulular diyarına döndərsin. Mən hər şeiri yazandan sonra Vəliyə oxudum. O bəyənəndən sonra davamını yazdım. Beləliklə, bu şeirlərin sayı on ikiyə çatdı. O silsilə şeirlər içərisində "Beşinci oğul" şeirini Mina anaya həsr etmişdim. Mən sonra Yardımlı şeirlərini ayrıca başlıq altında "Nəğməli gecələr" kitabıma saldım. Kitab çıxdı. Kitabdan birini avtoqrafla Vəliyə bağışladım. Birini də avtoqrafla ona verdim ki, Yardımlının yenicə açılmış ölkəşünaslıq muzeyinə göndərsin. O da göndərdi. Sonralar yardımlılar mənə: – Sizin bir kitabınızı Yardımlının ölkəşünaslıq muzeyində gördük. Orda Yardımlı haqqında səmimiyyətlə dolu şeirlər var – deyərdilər. Mən də məmnun-məmnun: – O kitabda yardımlıların da payı var – deyərdim.



Haçandı bizim evdə ilk övladımız Rənanın toyuna hazırlıq işləri görülürdü. Toya iki gün qalmış mən o taylı, bu taylı dostlarımı qızımın toy məclisinə dəvət etdim. Vəliyə də zəng edib dostumu toya çağırdım. Qızımın toy məclisi çox təntənəli keçdi. Məclis sanki Vahid Azərbaycanın bir parçası idi. Bəli! Toy adilikdən çıxmışdı. Hərarətlə dolu ictimai, siyasi, ədəbi məclisə çevrilmişdi. Ehtiyat da, tərəddüd də, yasaq da hərarət içində əriyib getmişdi. Natiqlər Vahid Azərbaycanın arzu olunan gələcəyi haqqında öz ürək sözlərini açıq deyirdilər. Bəzən oxumaq da, oynamaq da yaddan çıxırdı... Toy qurtarandan sonra da onun əks-sədası o taydan gəlirdi. Hətta Tehranda çıxan "İnqilab yolunda" məcəlləsi də bu barədə yazırdı. O toy məclisində o taylı, bu taylı qonaqların həsrətdən necə yana-yana şikayət etdiklərindən danışırdı. Ancaq Vəli toya gəlməmişdi. Əlbəttə, mən köhnə dostumun qızımın toy məclisinə gəlmədiyinə çox təəssüfləndim. Lakin niyə gəlmədiyini də başa düşdüm. O zamanlar vəzifəli şəxslərin hətta toylara getdiklərini də söz eləyirdilər. Vəli isə əvvəl-

ki vəzifəsində deyildi. Başqa vəzifəyə keçirilmişdi. Atalar nahaq deməyib ki, ilan vuran ala çatıdan qorxar. Mən daha Vəliyə nə zəng etdim, nə də toy haqqında bir söz dedim. O da mənə zəng etmədi. Bildim ki, utanır. Günlər keçdi...

Bir gün Vəli bizə gəldi. Görüşdük də, qucaqlaşdıq da, öpüşdük də. Ancaq toy haqqında nə mən bir söz dedim, nə də o. Çay içə-içə tamam başqa şeylərdən danışdıq. Vəli ayağa qalxıb gedəndə üzünü əvvəl mənə, sonra Şəfiqəyə tutub utana-utana: – Gəlmişəm sizi Akifin toyuna dəvət edim – dedi. Mən ağzımı açmamış Şəfiqə ürək açıqlığı ilə: – Allah mübarək eləsin, Vəli müəllim! – dedi. Mən də gülə-gülə: – Allah xoşbəxt eləsin! Mütləq gələrik! – dedim. Vəli bizimlə görüşüb evdən çıxdı. Mən də dostumun dalınca çıxıb pillələrin üstündə dayandım. Vəli bir neçə pillə düşüb ayaq saxladı. Üzünü mənə çevirib yarıciddi, yarızarafat: – Ümidvaram ki, məndən qisas almayacaqsan – dedi. Mən də yarıciddi, yarızarafat: – Əgər sən məni yaxşı tanıyıbsansa, ümidinə inana bilərsən – dedim. Vəli səmimiyyətlə dolu etirafla: – Yaxşı azdır, lap əla tanıyıram – dedi. Mən də səmimiyyətlə dolu hərarətlə: – Xoş gəldin! – dedim. Toyda görüşənədək. Vəli pillələri arxayın-arxayın düşüb getdi.

Vəlinin atası Hüseyn kişi daha həyatda yoxdu. İndi o ailədə qardaşlarına, bacılarına ata yerində idi. Onların xeyir işlərinə sevinirdi. Uğurları ilə ruhlanırdı. Bəli! İki gündən sonra isə kiçik qardaşı Akifin toyu idi. Toy axşamı Şəfiqə ilə Vəlinin dediyi ünvana getdik. Vəli məni toy məclisinin girəcəyində gülə-gülə qarşıladı. Elə qu-



caqlaşıb-öpüşdük ki, ətrafımızdakı adamlar heyrətə düşdü. Sanki indicə o taydan gəlmişdim. Vəli də bu gəlişimdən həddən artıq məmnun olmuşdu. Məclisdəki adamların çoxu məni tanısa da, Vəli məni təntənəli izahatla məclisə təqdim etdi. Məclisi aparan ilk sözü mənə verdi. Mən də indiyə qədər Vəli haqqında demək istədiyim, amma deyə bilmədiyim sözləri deyib ürəyimi boşaltdım. Vəli məni təzədən qucaqladı. O məni öpdü, mən də onu. Keçib yerimdə əyləşdim. Məclis davam etdi. Sanki Vəlinin tələbə dostları, iş yoldaşları onun haqqında öz ürək sözlərini demək üçün məqam gözləyirmişlər. İndi o məqam gəlmişdi. Vaxt isə çatışmırdı. Natiqlər biri-birinin çıxışını tamamlamalı olurdular. Toy məclisində tanış ziyalılar da, fəhlələr də, kəndlilər də Vəli haqqında hərarətlə danışırdılar. Bəylə gəlin isə qürur hissi keçirirdi. Toy məclisi dağılanda fotoqraf mənə bir dəstə şəkil verdi. Evdə şəkillərə baxanda gördüm ki, mahir fotoqraf Vəlinin məni qucaqlayıb öpdüyü anı da əbədiləşdirib. Sabahı Vəli zəng edib toy haqqında təəssüratımı soruşdu. Mən toyun ləyaqətlə təşkil olunmasından məmnun-məmnun danışdım. Sonra fotoqrafın bizim qucaqlaşıb öpüşdüyümüz anı da əbədiləşdirdiyini sevinclə dedim. Vəli dedi ki, hələ o nədir? Dilsiz, hərəkətsiz bir şəkil! O anı da, başqa anları da lentlərə köçürüblər. Özü də əla çıxıb. İnşaallah vaxt tapıb bir yerdə baxarıq.

Ancaq o lentlərə bir yerdə baxmaq bizə qismət olmadı...

## SƏNƏTKAR İNTİHARI

1946-cı ilin yanvar ayı idi. Təbrizə gəldiyim bir həftə olardı. Ancaq Milli hökumətin yaşının bir ayı da tamam deyildi. Bu mənim Təbrizə ikinci gəlişim idi. Ancaq həm birinci, həm də ikinci gəlişim öz istəyimlə olmamışdı. Məni çağırmışdılar. Birinci səfərimdə Təbrizdə çıxan "Vətən yolunda" qəzetinin redaksiya heyəti, ikinci səfərimdə isə Milli hökumət çağırmışdı. Birinci gəlişimdə "Vətən yolunda" qəzeti redaksiyasının qonağı idim. İkinci gəlişimdə isə Milli hökumətin fəalı idim. Qəribədir. Yanvarın quru şaxtası özünün qəti sakitlik hökmünü evlərin təmiz, hamar, soyuq pəncərələrində əyri-üyrü xətlərlə yazsa da Təbrizdə sulu qar yağırdı. Sanki yeni dövranı alqışlayan dodaqları təbəssümlü insanların gözlərindən axan sevinc yaşları yağan qara hopurdu. Qar da sulanırdı. Kim bilir, bəlkə o da sevincdən ağlayırdı. Mən düşdüyüm mehmanxanadan çıxıb Tərbiyət xiyabanında yaraşıqlı bir "imarətdə yerləşən" "Yazıçılar cəmiyyəti"nə yollandım. Həbib Sahir yeni şeirlərini oxuyacaqdı. Mən Həbib Sahirlə hələ Təbrizə ilk gəlişimdə tanış olmuşdum. O Təbrizdə dünyaya göz açmışdı. Orta məktəbi Təbrizdə bitirdikdən sonra İstanbula getmişdi. Orada darülfünün coğrafiya fakültəsini bitirmişdi. Sonra Vətənə qayıdıb Zəncanda, Qəzvində, Təbrizdə müəllimlik etmişdi. İndisə Təbriz məktəblərində coğrafiyadan dərs deyirdi. Həbib Sahir lirik şeirlər yazardı. Misralarını siyasi mülahizələrlə yükləməzdi. Günəş şəfəqiylə, gül ətrilə, sevgi duyğusuyla yoğurardı. Çalışardı ki, misralarında nadir gözəlliklər sərgi açsın, kövrək xatirələr danışsın, səmimi



ülfətlər körpüləşsin. O toxucu qızdan yazanda da insanı yoran dəzgahdan söz açmazdı. Onda möcüzələr yaradan qızdan danışardı. Bəli! Həbib Sahir onsuz da əsəbləri gərginləşən insanların zövqünü oxşamaq istəyərdi...

Mən qələm sahiblərilə dolu geniş otağa daxil olanda gecikdiyim üçün sədrdən üzr istədim. Sədr daha heç kimin gəlməyəcəyini bilib məclisi açıq elan etdi. Sonra öz şeirlərini oxumaq üçün Həbib Sahirə söz verdi. Şair cibindən ağ yaylığını çıxarıb qalın sağanaqlı eynəyini bir neçə dəfə sildi. Sonra yenidən gözlərinə taxdı. Məclisdəki qələm sahibləri isə gözlərini Həbib Sahirin xəfif-xəfif titrəyən dodaqlarına dikdi... Şair şeirlərini yalnız özünə xas olan bir ahənglə oxudu. Qələm dostları Həbib Sahirin yeni yaradıcılıq uğurlarını alqışladı. Ancaq xırda-xuruş kəsirlərini düzəltməyi də məsləhət bildi. Məclis dağılanda mən şair dostumun əlini sıxıb onu bir daha gözəl şeirlər yazdığı üçün təbrik etdim...

Sonralar yenə Həbib Sahirlə ədəbi-bədii yığıncaqlarda görüşürdük. Bu görüşlərdə o, qələm dostlarının yazılarına qulaq asırdı. Şair müəllimlik sənətini də davam etdirirdi. Mən isə Təbriz Dövlət filarmoniyasında müdir vəzifəsində işləyirdim. Milli hökumət Şah qoşunlarının tüfənglərinin nizələrilə dağılanda mən də başqa ictimai-siyasi xadimlərlə Şimali Azərbaycana keçdim. Bir gün ərəb əlifbası ilə çıxan "Azərbaycan" jurnalında Mehdi Hüseynin Həbib Sahir haqqında yazdığı məqaləni gördüm. Maraqla oxudum. Mehdi Hüseyn əvvəl Həbib Sahirin şeirlərinin məziyyətlərindən danışırdı. Sonra şeirlərdə ictimai-siyasi notların azlığından narazı qaldığını deyirdi. Mən o jurnalı özüm-

də saxladım. Axı məqalə mənim Vətəndə qoyub gəldiyim məslək, döyüş, sənət dostum haqqında müdrik qardaş sözləri idi. Vətəndən isə hər gün dəhşətli xəbərlər gəlirdi. Bir gün də eşitdim ki, Həbib Sahiri də ailəsi ilə birlikdə İranın cənubundakı cəhənnəm mühitli bir mahala sürgün ediblər. Şair yalnız cəzasını çəkib qurtarandan sonra geriyə qayıda bilib. Ancaq Təbrizdə yox, Tehranda yaşamalı olub. İslam inqilabından sonra Həbib Sahir də mətbuat səhifələrində öz yazılarıyla çıxış edib. Kitabını buraxdırıb. Mehdi Hüseynin məqaləsini də müqəddəmə əvəzinə kitabının ilk vərəqlərinə salıb. Özü də tərif hissəsini, tənqid hissəsini yox. Ancaq yeni yazdığı şeirlərdə Mehdi Hüseynin narazılığını nəzərə alıb ictimai-siyasi notları həm artırıb, həm də tündləşdirib... Sanki sürgün Əlhəd daşına dönüb. Həbib Sahirin başı o Əlhəd daşına elə dəyib ki, bütün bədəni silkələnib. Şair ətaləti də, tərəddüdü də, qorxunu da canından yerə töküb ayaqlayıb... Mən qələm dostlarımın Vətəndən mənə göndərdikləri kitablarda, jurnallarda, qəzetlərdə Həbib Sahirin şeirlərinə tez-tez rast gəlirdim. Məmnuniyyətlə oxuyurdum... Arabir həyəcandan titrəyən əllərimə baxırdım. Bir zaman sənət uğuruna görə şairin əllərini sıxan sütül əllərimin üstü indi qırış-qırışdı. Sanki əllərim kiçik qarmona dönüb uzun illər boyu yazdığı şeirləri nəğmələşdirib müxtəlif havalarda çalmaq istəyirdi... Sonra daha o taydan gələn mətbuat səhifələrində Həbib Sahirin yazılarını görmədim. Eşitdim ki, şair intihar edib.

Aradan bir müddət keçdi. Soyuq payız axşamlarının birində qapımız döyüldü. Qapını açdım. Qarşımda çiyni meşin çantalı dolğun bədənli bir gənc dayanmışdı. O təbəssümlə mənə: – Sizə Təbrizdən qonaq gəlmişəm – dedi – qəbul edirsinizmi? Mən hərarətlə gəncə: – Təbrizə də qurban olum – dedim – qonağına da! Sonra qapının ağzından yana çəkilib gənci içəriyə dəvət etdim. İçəridə əl verib mehriban-mehriban görüşdük. Qonağım plaşını çıxarıb asılqandan asdı. Keçib otaqdakı masa ətrafında üzbəüz əyləşdik. Çay içə-içə o taydan da, bu taydan da söhbət etdik. Mən ondan Həbib Sahiri soruşdum. O bir an xəyala daldı. Sanki gördüklərini, bildiklərini, oxuduqlarını yaddaşında cəmləmək istəyirdi. Qonağım nisgilli-nisgilli: – Həbib Sahirin ömür dastanı faciəylə bitdi – dedi. Sonra kövrələ-kövrələ: – Onu dövlət məmurları çağırıb dedi ki, indiki dövlət sisteminin gözəl işləri haqqında niyə şeirlər yazmırsan? Get, yaz, gətir! Bir həftə sənə vaxt veririk. Yoxsa ölümün haqqında fərman yazılacaq. Həbib Sahir istehzayla dövlət məmurlarına: – Bir gün bir adam məşhur bir papaqçının dükanına bir quzu dərisi gətirir. Usta, bu quzu dərisindən mənə iki papaq tik! – deyir. Usta nəzakətlə: – Baş üstə! – deyir – iki gündən sonra gəlib apara bilərsiniz. Dəri sahibi gedir. Bir tin keçməmiş fikri dəyişir. Deyir yəqin o dəridən dörd papaq çıxarmış, mən isə cəmi ikisini sifariş verdim. Dəri sahibi tez geriyə qayıdıb: – Usta! Zəhmət olmasa papaqların sayını dörd eləyin – deyir – ikisini qardaşım uşaqlarına hədiyyə vermək istəyirəm. Usta heyrətlə: – Baş üstə! – deyir – dörd gündən sonra gəlib apara bilərsiniz. Dəri sahibi dörd gündən sonra papaqçı dükanına gedir. Usta dəri sahibinin qabağına dörd dənə yumruq boyda papaq

qoyur. Dəri sahibi əsəbləşir. Haray salmaq istəyir. Usta təmkinlə: – Haray salmayın! – deyir – Özünüz dediniz ki, dəridən dörd papaq tikin! Mən də tikdim. Günah özünüzdədir. Dəri sahibi yumruq boyda papaqları götürüb kor-peşman evinə aparır... İlham da o quzu dərisinə bənzəyir. Mövzu meyarına uyğun olanda mayasından sanballı əsər biçib meydana qoyur. Mövzu meyarına uyğun olmayanda isə ortalığa cılız şeylər çıxarır – deyir. Dövlət məmurları hiddətlə: – Deməli, bizim mövzumuz sənin ilhamının meyarına uyğun deyil? – deyir. Həbib Sahir cəsarətlə: – Bəli! – deyir. Sonra evinə gedir. Ailəsinə bu barədə heç nə demir. Əlyazmalarını bir qovluğa yığıb qohumugilə yollanır. Qohumuna məhrəm-məhrəm: – Bəlkə bizi axtardılar – deyir – əlyazmalarım sizdə qalsa yaxşıdır. Sonra qayıdıb evinə gəlir. Ailəsindən gizli başına gələn əhvalatı bir məktubda yazır. Sonra məktubu masasının siyirməsinə qoyur. Gecə sakitcə yatağından qalxıb yan otağa gedir. Kəndiri boğazına keçirir. Sanki şairin zaman-zaman qürurla, hünərlə, dözümlə keçdiyi, əzabla, qorxuyla, mübarizəylə dolu həyat yolu adi bir kəndirə dönüb boynuna dolanır. Utana-utana cəfakeş sənətkardan üzr istəyir. Ancaq heç nədən, heç kimdən insaf, qayğı, yardım ummayan Həbib Sahir adi kəndirə dönmüş keşməkeşlə dolu həyat yolunu boğazında getdikcə daraldır, sıxır, gərginləşdirir. Adi kəndir isə məşhur şairi özüylə çəkib bu dünyadan o dünyaya aparır... Bəli! Bütün ömrü boyu düşmənlər içində əyilə-əyilə yox, dik gəzən sənətkar son nəfəsində də öz məramı qarşısında suala deyil, nidaya dönür – dedi.



Ürəyimə dolan qəhər yuxarı qalxıb düyünüylə boğazımı elə qovuşdurdu ki, nəfəsim təngidi. Az qaldı havalı otaqda boğulam. Qonağım ağır-ağır nəfəs almağımdan təlaşa düşüb söhbəti dəyişdi. Mənə öz işlərindən danışdı. Bir qədər də əyləşdikdən sonra xudahafizləşib getdi. Mən isə yaman dolmuşdum. Yazı mizimin arxasına keçib qələm-kağız götürdüm. Sanki dodaqlarımdan yana-yana qopan misralar da ağır-ağır nəfəs alıb ağ kağız üstdə alt-alta düzüldü. Şeiri tamamlayıb yazı mizimin siyirməsinə qoydum. Gecə yata bilmədim. 1946-cı ildəki Təbrizi bu başdan-o başa, o başdan-bu başa gəzdim...

Səhər geyinib evdən çıxdım. Yaxınlıqdakı İran kitabları satılan mağazaya getdim. Rəflərdə səliqə ilə düzülmüş əlvan cildli kitablara diqqətlə baxdım. Dedim bəlkə Həbib Sahirin də kitabı bu kitablar arasındadır. Birini alıb oxuyaram. Heç olmasa keçmiş qələm yoldaşımla kitab səhifələrində görüşərəm. Ancaq onun kitabı kitablar arasında yox idi. Mağazaya gələn adamlar yanımdan keçib kitablara baxırdılar, sonra da çıxıb gedirdilər. Mən isə hələ də kitablar arasında Həbib Sahirin kitabını axtarırdım. Sanki itigim itmişdi. Mən də sorağına düşmüşdüm. Ancaq bu soraqda da Həbib Sahirin kitabını tapmadım. Satıcını tapdım. O arıq, qaraşin, ciddi bir gənc idi. Başının üstündən Şəhriyarın şəklini asmışdı. Qarşısındakı piştaxtanın üstündə Şəhriyarın kitablarını qoymuşdu. Mən satıcıdan nəzakətlə: – Sizdə Həbib Sahirin kitabı varmı? – deyə soruşdum. Satıcı əvvəl heyrətlə bir mənə, bir də Şəhriyarın kitablarına baxdı. Sonra qətiyyətlə: – Yoxdur! – dedi. Mən məlul-məlul mağazadan çıxdım.

Yolda xəyal məni Təbrizdən gələn şairlərlə görüşdüyüm günlərə apardı. Möhtərəm qonaqlarım gileyli-gileyli mənə: – Niyə burda elə Şəhriyarı təbliğ edirlər? Bəzən təbliğ vasitələrində ifrata da varırlar. Axı Cənubi Azərbaycan ədəbiyyatı yalnız Şəhriyardan ibarət deyil. Başqaları da var – deyirdilər. Mən isə möhtərəm qonaqlarıma yarıciddi-yarızarafat: – Burda adət belədir. Bir sənətkar dəbə düşəndə elə ondan danışırlar. Başqalarını unudurlar. Unutmağa nə var ki? İnsanlar nəinki dəyəri, insaf, vicdanı unudurlar. Hətta bəzən Allahın özünü də unudurlar – deyirdim. Möhtərəm qonaqlarım isə daha danışmayırdılar. Sükut içində mat-mat üzümə baxırdılar. Mən isə möhtərəm qonaqlarıma təsəlliylə deyirdim: – Göyün yaraşığı təkcə Ay olsaydı bu qədər füsunkar görünməzdi. Göy həm də ulduzlarla zənginləşir. Ulduzlar olmasaydı yalqız Ayın özü də cılızlaşardı. Böyüklüyü bilinməzdi. Qayalar da, ağaclar da, heykəllər də yalqız olanda cılız görünür. Dağ dağa söykənməsə silsilə yarana bilməz. Silsilə isə dəyanət, əzəmət, ülviyyət deməkdir. Bahara ona görə əlvan deyirlər ki, hər gülünün öz rəngi, hər otunun öz ətri, hər suyunun öz dadı, hər küləyinin öz sığalı, hər şimşəyinin öz səsi olur... Sənət də göyə, silsiləyə, bahara bənzəyir. Sənətdə hər sənətkarın öz yeri var. İstər böyük olsun, istər kiçik, istər məğrur olsun, istər sadə, istər mötəbər olsun, istər kövrək. Dünya yaranandan zövqlər də insanlar qədər müxtəlif olub. İndi də müxtəlifdir. Deyirlər qızılgül güllərin tacıdır. Ancaq elə gül həvəskarı var ki, o zanbağı sevir. Axı zanbaq öz ətrini özündə daha çox



yaşadır – deyirdim. Bu zaman möhtərəm qonaqlarımın xiffətlə dolu gözlərində təbəssüm işartıları parlayırdı...

Evə gəldim. 1946-cı ildə Təbrizdə çıxan "Şairlər məclisi" toplusunu yazı mizimin siyirməsindən çıxarıb açdım. Həbib Sahirin şəklini tapdım. Şair mənə iri sağanaqlı gözlüyünün arxasından mehriban-mehriban baxdı. Sanki sevinclə dolu iri gözləri bir qədər də iriləndi. Mənə elə gəldi ki, 1946-cı ildir. Biz Təbrizdə görüşürük. Sonra Həbib Sahirin şeirlərini oxudum. Özü də yeni nəzərlə, yeni təmasla, yeni meyarla. Şeirlərdə Təbriz təravəti, Səhənd dəyanəti vardı. Bu zaman yazı mizimin üstündəki telefon səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran təbrizli jurnalist idi. O nəzakətlə mənə: – Axşam Təbrizə yola düşürəm – dedi – bəlkə bir sözünüz var? Mən qürurla: – Həbib Sahirə bir şeir həsr etmişəm. Yaxşı olardı ki, onu şairin ailəsinə çatdırasınız – dedim. Təbrizli jurnalist təəssüflə mənə: – Ustad! Vaxtım az olduğuna görə sizinlə bir də görüşməyə imkanım yoxdur. İstəyirsiniz şeiri telefonda oxuyun, mən də dəftərimə yazım. Təbrizdə Həbib Sahirin ailəsinə çatdırım – dedi. Mən razılıqla: – Yaxşı! – dedim. Sonra şeiri aramla misra-misra oxudum:

**Deməsinlər həyatda**
**İntihar da günahdır.**
**Yox! Sanki intihar da**
**Döyüşən bir silahdır.**
**Qəzəblə dolu səsi**
**Alovlu bir üsyandır.**
**Əfsus ki, ayaqları**
**Buxovlu bir üsyandır.**

**Ancaq zaman gələcək**
**Qalib bayraqlarıyla,**
**O üsyan yeriyəcək**
**Möhkəm ayaqlarıyla.**
**Ədalət kürsüsündə**
**Deyəcək sözlərini.**
**Neçə cinayətkarsa**
**Döyəcək gözlərini.**
**Xalq görəcək intihar**
**Nə becə, nə hədərdir.**
**Ölümsüz intihar da**
**Zülm üstdə zəfərdir.**

Təbrizli jurnalist şeiri dəftərinə yazdı. Sonra düz yazıb-yazmadığını yoxlamaq üçün aramla misra-misra oxudu. Mən ona minnətdarlıqla: – Sağ olun! – dedim – misraların hamısını düz yazıbsınız. O səmimiyyətlə: – Ustad! Siz sağ olun ki, Həbib Sahirə belə hərarətli şeir həsr edibsiniz. Şeirdə sənət, döyüş, qürur duyğuları məharətlə bir-birinə calaqlanıb. Siz Həbib Sahirin mübariz ruhunu küsdürən mühiti yaman damğalayıbsınız. Ümdəsi isə şair iradəsinin əyilməzliyini düzgün qiymətləndiribsiniz. Sizin bu şeirinizi məmnuniyyətlə Təbrizdə Həbib Sahirin ailəsinə çatdıracağam. Bir daha sağ olun! – dedi. Mən təbrizli jurnalistə hərarətlə: – Sizə yaxşı yol! Xudahafiz! – dedim. Sonra telefonun dəstəyini yerinə qoydum. Yadıma Məhəmməd peyğəmbərin sözləri düşdü. Məhəmməd peyğəmbər buyurub ki, alimin ölümü aləmin ölümü deməkdir. Bəs görəsən şairin ölümü nədir?



# İKİLİKDƏ SÖHBƏT

Mən Sönməzin şeirlərini həm o tayın, həm də bu tayın mətbuatında məmnun-məmnun oxuyardım. Bu şeirlər sözçülükdən uzaq idi. Obrazlı desək, şeirlərdə su yox, şirə vardı. Ona görə də Sönməzin şeirləri yeni nəfəsilə başqa qələm yoldaşlarının şeirlərindən dərhal seçilirdi. Misralar fikirlə yüklənmiş söz karvanını andırırdı. Şairin “İsanın şamı” adlı bir poema yazdığını da eşitmişdim. Bu poema çap olunandan sonra o taylı, bu taylı oxucuların dərin rəğbətini qazanmışdı. Mən də bu poemanı oxumaq istəyirdim. Ancaq əsər bu tayda çap olunmamışdı. Bir gün bu poemanı hardan, necə tapa biləcəyim haqqında mühacir qələm yoldaşlarımdan birilə danışdım. O dedi ki, qardaşım poemanı o taydan mənə göndərib. Sabah işə gətirərəm. Uşaq göndərərsən gəlib aparar. Sabahı nahar zamanı qələm yoldaşıma zəng vurub poemanı gətirmək üçün uşaq göndərmək istədiyimi dedim. Qələm yoldaşım təəssüflə: – Poemanı gətirmişdim. Ancaq otaqdan çıxanda bilmirəm kim aparıb – dedi. Beləliklə, poema bir parça əppək olub itdi. Mən də oxuya bilmədim. Poemanın yoxa çıxması başqalarında da maraq oyatmasına dəlalət edirdi.

Bir gün harasa getmişdim. Evə qayıdanda Şəfiqə dedi ki, bir nəfər sənə zəng vurmuşdu. Elə nəzakətlə danışdı ki... Deyəsən o taydan gəlib. Bəlkə qohumlarındandır? – dedi. Mən qürurla Şəfiqəyə: – Eh, sağ olmuş. Elə o taylıların hamısı mənim qohumlarım kimidir. Məgər bir diyarın övladları deyilik? – dedim. Şəfiqə etirafla: – Yox! O demədi o taydan gəlmişəm. Dedi Əli müəllim lazımdır. Mən də dedim Əli müəllim evdə

yoxdur. İstəyirsiniz telefon nömrənizi deyin. Gələndə sizə zəng vursun. O mehriban-mehriban: – Əli müəllimə zəhmət olar xanım, sonra özüm ona zəng vuraram – dedi. Doğrusu, nigaran qaldım. Görəsən zəng vuran kim imiş? Şəfiqə məni inandırmağa çalışdı ki, nigarançılığa lüzum yoxdur. O kimdirsə, mütləq yenə zəng vuracaq. Axşam telefon zəng vurdu. Şəfiqə dəstəyi qaldırdı. Bəli! – dedi. Sonra baxışıyla məni çağırdı. Dəstəyin mikrofonunu bir əlilə saxlayıb pıçıltıyla mənə: – Həmən adamdır – dedi. Səni istəyir. Dəstəyi Şəfiqədən alıb qulağıma söykədim. Sonra: – Alo! Eşidirəm – dedim. Dəstəkdən həm gümrah, həm doğma bir səs gəldi: – Salam, Əli müəllim, axşamınız xeyir, sizinlə danışan Sönməzdir. Vətəndən gəlmişəm – dedi. Mən sevinclə Sönməzə: – Mənim üçün Vətənin özü də, Sönməzi də əzizdir. Xoş gəlib, səfa gətiribsiniz – dedim. Dərhal düşündüm ki, Sönməzi mütləq evə dəvət etmək lazımdır. Axı, o qonaqdır. Qonağa hörmət etmək qədim adətimizdir. Mən o taydan gəlib mənə zəng vuran qələm sahiblərinin əksəriyyətini evə dəvət etmişdim. Axı mehmanxana şəraiti hara, ev şəraiti hara? Evdəki təmas, hörmət, qayğı mehmanxanada ola bilməz. Evdəki sərbəstlik hər azad davranışa imkan yaradır. Sönməz nəzakətlə: – Biz necə görüşə bilərik? – dedi. Mən maraqla: – Hardan danışırsınız? – dedim. Sönməz məhrəm-məhrəm: – Mehmanxanadan danışıram – dedi. Mən ərklə Sönməzə: – Onda oğlum sabah maşınla gəlib sizi bizə gətirsin, əməlli-başlı görüşək – dedim. Sönməz dinmədi. Deyəsən nəsə fikirləşdi. Sonra üzrlə: – Sabah Gəncəyə gedəcəyik – dedi. Gələndə yenə sizə zəng vuraram. Olar? Mən mehriban-



mehriban: – Niyə olmur? İstədiyiniz zaman zəng edə bilərsiniz – dedim. Sonra telefonda xudahafizləşdik. Aradan bir gün keçdi. Axşam telefonumuz zəng vurdu. Dəstəyi qaldırdım. Zəng vuran Sönməz idi. Salamlaşdıq. Ondan Gəncə səfərinin necə keçdiyini soruşdum. O səyahətdən məmnun qaldığını bildirdi. Sonra şəstlə mənə: – Yaxşı, biz necə görüşək? – dedi. Mən yenə ərklə: – Oğlumu indi maşınla göndərim gəlsin. Sizi mehmanxanadan bizə gətirsin. Evdə yaxşı-yaxşı görüşək də, öpüşək də, danışaq da – dedim. Sönməz bir məsəl çəkdi. Məsəldən bu məna çıxırdı ki, dağlar da təpələri görmək üçün başlarını təpələrə doğru əyirlər. Mən onu başa düşdüm. Şairin ürəyində alovlanan həsrət şəxsiyyətindəki qüruru əridə bilməmişdi. Məsələ gəldikdə isə nə mən dağ idim, nə Sönməz təpə idi. Mən də, o da bir gülüstanın ayrı düşmüş iki bülbülü idik. Mən hərarətlə Sönməzə: – Gözləyin! Gəlirəm! – dedim. Dəstəyi yerinə qoyub geyindim. Axşam qara qanadlarını şəhərin üstündə çoxdan açmışdı. Qara qanadlar gərildikcə rəngləri də tündləşirdi. Göydə sayrışan ulduzlar qara qanadlarda parlayan sarı xallara bənzəyirdi. Yolda dodaqaltı oxudum:

**Ağac bar verəndə başı əyilir,**
**İnsan bar verəndə beli əyilir,**
**Barlar ya yeyilir, ya da geyilir,**
**Ancaq hamısına nemət deyilir.**

**Vətən! Doğma diyar, müqəddəs ana!**
**Zəngindən zəngindir torpağın sənin.**
**Min nadir nemətin qalsın bir yana,**
**Şairlər yetirir qucağın sənin.**

**Bəli! Şairlərin bənnalar kimi**
**Daş qoyur səadət sarayına da.**
**Oğlu darda qalan analar kimi**
**Səs verir dünyanın harayına da.**

**Sənət yollarında hər səhər-axşam**
**Şair keçməyirsə özü özünü,**
**Bu gündən sabaha dəyərli ənam**
**Apara bilərmi neçə sözünü?**

**Qoy söz zəhmətinin mirvari təri**
**Açıq alnımızda parlasın, Vətən!**
**O tayın, bu tayın çağlayan şeiri**
**Hər iki sahildə gurlasın, Vətən!**

**Şeirimizin səsi dünyadan gəlsin,**
**Hikməti də olsun, ünsiyyəti də!**
**O susmasın! Yox! Yox! Dəryadan gəlsin**
**Bəstəsi, zamini, ləyaqəti də...**

Mən mehmanxanaya Sönməzin düşdüyü otağa girəndə üç nəfərlə qarşılaşdım. İkisini tanıdım. Mənimlə o taydan bu taya gəlmiş qələm yoldaşlarım idi. Üçüncü adamı da tanıdım. Bəli! Görməyə-görməyə tanıdım. Bildim ki, bu, Sönməzdir! Qucaqlaşıb öpüşdük. Sonra Sönməzin yanına gəlmiş o biri iki nəfərlə də görüşdüm. Kiçik masanın dövrəsində sıxlaşıb əyləşdik. Mən masanın üstündə ərəb əlifbası ilə yazılmış bir neçə vərəq gördüm. Sən demə, Sönməz o taylı qələm yoldaşlarımla birgə ərəb əlifbasını "azərbaycanlaşdırmaq" üçün hərflər üzərində əməliyyat aparırmış. O taylı qələm yoldaşlarım əvvəl Sönməzlə, sonra mənimlə xudahafizləşib getdilər. Biz isə aramızda söhbət körpüsü salmaq üçün çətinlik çəkmədik. Həsrətə nə demişəm. O özü söhbət körpüsünü saldı da, yaşıl işığını yandırdı da. İkilikdə ürəyimizdə yığılıb qalan sözləri dilimizə gətirməyə başladıq. Qəribədir. Ədəbiyyatçı ola-ola yalnız siyasətdən danışdıq. Sən demə, Sönməz Milli hökumət zamanı Təbrizdə cavanlar təşkilatının üzvü imiş. Milli hökumət süqut etdikdən sonra bir müddət Demokrat Firqəsinin üzvü olub. Sonra isə heç bir siyasi təşkilatın üzvü olmayıb. Universitetin hüquq fakültəsini bitirib. Həm öz peşəsində işləyib, həm də bədii yaradıcılıqla məşğul olub. Biz Milli hökumətin süqutundan sakit təəssüflə yox, təlatümlü həyəcanla danışırdıq. Təbrizin o zamankı həyatını iftixarla xatırlayırdıq. Unudulmaz dostları hörmətlə yada salırdıq. Atalar deyib ki, yıxılan ağaca balta vuran çox olar. Milli hökumət yıxılandan sonra haqqında silsilə məqalələr, hətta bütöv kitablar da yazıldı. Ancaq Milli hökumətin bir illik fəaliyyətini hərə öz arşını ilə ölçdü. Kimi təriflədi, kimi pislədi. Ancaq tərifləyən pisləyəndən çox oldu. Axı Milli hökumət milyonlarla insanın həqiqətə dönmüş arzusu idi. Həqiqəti danmaq isə ən azı vicdansızlıqdır. Milli hökumət elə ağaclardandı ki, yıxılanda səsi çıxmamışdı. Amma bitirdiyi meyvələr ətrafına səpələnib qalmışdı. Elə ona görə də Avropanın, Asiyanın, Amerikanın nüfuzlu qəzetləri də Milli hökumətin bir ildə yüz ilin işini gördüyünü öz səhifələrində açıq-aşkar etiraf etməyə məcbur oldu.

İnqilabdan doğulan dövlətin siyasəti, iqtisadiyyatı, mədəniyyəti müstəqil olmalıdır. O xeyirini, zərərini,

gəlirini, çıxarını, uğurunu, nöqsanını bilməlidir. Özünün hərbi dəyanəti olmalıdır. Bəli! Hərbi texnikadan əvvəl hərbi dəyanəti olmalıdır. Tarixin bütün sınaqlarında o dövlət başqa dövlətə yox, özünə arxalanmalıdır. Atalar bəlkə də siyasətin hələ dil açmasından əvvəl deyiblər ki, əkiz yaranmış gözlərin də bu birindən o birinə işıq düşmür. Mən bu fikirlər haqqında öz sözlərimi dönə-dönə həm demişdim, həm də yazmışdım. İndi Sönməz də bu fikirlərin karvana dönüb aydınladığı yolda mənimlə birləşirdi. Sanki hərəmiz bir kitab idi. Mən onu oxuyurdum, o da məni. Gecə keçirdi. Bilirdim ki, Sönməz Şimali Azərbaycanda yorulunca gəzir. Axı, görməli yerlər çox, vaxt isə azdır. Sönməzə isə istirahət də lazımdır. Ayağa qalxıb özümlə yadigar gətirdiyim kitablarımı Sönməzə verdim. Sonra şair qardaşımı yenidən qucaqlayıb öpdüm. Arzu etdim ki, ikinci dəfə Təbrizdə görüşək. Sönməz sadə ürəklə: – Amin! – dedi. Mən mehmanxanadan çıxanda şəhər sıx yanan işıqlarını seyrəldə-seyrəldə yatmağa hazırlaşırdı... Mən də evə gəlib yatdım. Gecə yuxuda Vətəni gördüm. Özü də necə görmüşdüm, elə! Səhər yataqdan qalxıb "Yuxuda görüş" şeirini yazdım:

**Kim şirin Vətəndə acı barın da**
**Qədrini bilməsə, Vətəni yoxdur!**
**Zirvədə ağaran peşmək qarın da**
**Ətrini bilməsə, Vətəni yoxdur!**

**Şimşəkli səsimlə töhmətlədim mən**
**Vicdanı qınında yatıranları.**
**Vəfalı şeirimlə lənətlədim mən**
**Duz yeyib duzlağı batıranları.**



**Mən yuxuda gördüm intizar kimi**
**Gəzirəm dostların ünvanlarında.**
**Şeir oxuyuram nəğməkar kimi**
**Vətənin vüsətli meydanlarında:**

**Mən odlu yaş olub gözümə dolan**
**Vətənin üzünü görməyə gəldim.**
**Dilimdə bir baba ömrüycə qalan**
**Oğul salamını verməyə gəldim.**

**Bulandım, duruldum dəryalar təki,**
**Vətən məni andı röyalar təki,**
**Qabaran köksümü qayalar təki**
**Bütün müşküllərə gərməyə gəldim.**

**Bayramdır! Üfüqü əydirim deyə,**
**Günəşə qapılar döydürüm deyə,**
**Öz ilham pərimə geydirim deyə**
**İpəyə, məxmərə, tirməyə gəldim.**

**Gündüzlər xət çəkib nisgillərə mən,**
**Gecələr söz qoşdum sahillərə mən,**
**Yolumu gözləyən mənzillərə mən**
**Sevinə-sevinə girməyə gəldim.**

**Vətən başdan-başa ehtizaz kimi,**
**Mehriban qayğısı imtiyaz kimi,**
**Neçə kitabımı payəndaz kimi**
**Ayağı altına sərməyə gəldim.**

**Dövran uda-uda ağrı-acını,**
**Təpəsinə çırpdı şahın tacını.**
**Mənsə Savalanın qarlı saçını**
**Odlu misralarla hörməyə gəldim.**

**Könlüm çırpındıqca həsrət içində,**
**Elə – Təbriz! – dedim söhbət içində,**
**Gülüstan bağından riqqət içində**
**Çox yox, bircə çiçək dərməyə gəldim.**

**Dağıtdı dərd, nisgil, yalan, ömrümü,**
**Girəvə silahlı talan, ömrümü.**
**Çarpışa-çarpışa qalan ömrümü**
**Vətənin mehriylə sürməyə gəldim.**

**Yuxudan ayılıb gördüm yenə mən**
**Həsrətlə qol-boyun yatağımdayam.**
**Xəyalımda günəş, gözlərimdə çən,**
**Arzular yığnağı otağımdayam...**

Günlər keçdi... Bakıda Sönməzin "Qaranquş yazı gözlər" adlı şeirlər kitabı çapdan çıxdı. Birnəfəsə oxudum. Kitabda gedən "İsanın şamı" poemasının məna dolğunluğuna heyran qaldım. Ürəyimdə qələm yoldaşımın böyük uğuruna sevindim. Sonra kitab haqqındakı səmimiyyətlə dolu fikirlərimi bu tayda yaşayan o taylı qələm yoldaşlarıma da dedim... Mənə elə gəlir ki, heyrət doğurmayan sənət adilik çərçivəsinə qısılıb qalan sənətdir. Belə sənət səcdəsinə o qədər də pərəstişkar gətirə bilməz. Sönməzin sənəti isə heyrət doğuran sənətdir. Sönməz gözəl təxəllüsdür. Ancaq Sönməz olmaq hələ oxuculara ümid vermək deməkdir. Ümidin isə borcu Sönməzi daha da parlatmaqdır. Mən elə indidən Sönməzin gələcəkdə yaradacağı əsərlərin gur işığını görürəm. Sönməzin daha da parlayacağına inanıram...



## ŞƏHRİYARIN YADİGARI

Bir axşam diktor televizorda Şəhriyarın oğlu Hadinin Bakıya gəldiyini dedi. Aradan bir neçə gün keçdi. Bir gün günorta çağı telefonumuz cingiltiylə səsləndi. Dəstəyi qaldırıb: – Bəli! – dedim. Xəttin o başındakı adam nəzakət dolu hərarətlə: – Əli müəllim! Mən "Ədəbiyyat" qəzetinin keçmiş əməkdaşı Umudam. Şəhriyarın oğlu Hadi Bakıya gəlib. Onu şəhərlə tanış edirəm. O sizi görmək istəyir – dedi. Evdə yır-yığış edirdilər. Belə vəziyyətdə Hadini evə dəvət edə bilməzdim. Ona görə maraqla müsahibimə: – Hadi Vətənə haçan qayıdacaq? – dedim. Müsahibim arxayın-arxayın: – Hələ burdadır – dedi. Mən səmimiyyətlə dolu təntənəylə: – Onda bir də zəng vurarsınız. Əməlli-başlı görüşərik – dedim. Dəstəyi yerinə sakit qoysam da özüm sakit ola bilmədim. Nə gizlədim. Evdə yır-yığış edənləri də məzəmmətlədim. Axı, Hadinin mənimlə görüşmək istədiyini bilcək onu evə dəvət etməliydim. Bir neçə gün keçdi. Yenə bir gün günorta çağı telefonumuz cingiltiylə səsləndi. Dəstəyi qaldırıb: – Bəli! – dedim. Xəttin o başındakı adam mehriban-mehriban: – Əli müəllim! Sizinlə danışan Umuddur. Hadi sabah Vətənə gedir. Ancaq getməzdən əvvəl sizinlə görüşmək istəyir – dedi. Dərhal müsahibimə ünvanımızı bildirdim. Sonra fərəhlə: – Buyurub gəlin! Gözləyirəm! – dedim. Bir qədər sonra qapımızın zəngi çalındı. Qapını özüm açdım. Qapıda iki gəncin nigaran-nigaran yanaşı dayandığını gördüm. Boyu uzun, bədəni arıq, üzü solğun gənc qabağa keçib məni qucaqladı. Bildim ki, Hadi budur. Mən də onu qucaqladım. Sanki Təbrizin ətrini Hadidən aldım. Gülüstan bağında da gəzdim, Göy məs-

cidə də baxdım, Ərk qalasına da qalxdım... Sonra o biri gənclə görüşdüm. Qonaqları qonaq otağına dəvət etdim. Üçümüz də masa ətrafında əyləşdik. Umud məhrəm-məhrəm mənə: – Hadi Bakıya qeyri-rəsmi gəlib. Yalnız iki adamla görüşməyi nəzərdə tutub. Biri ilə görüşüb. Görüşdüyü ikinci adamsınız. Sabah Vətənə yola düşür. Ancaq sizi görmədən getmək istəmir – dedi. Nə gizlədim. Hadinin bu arzusundan qürurlandım. Ancaq görüşdüyü birinci adamla maraqlanmadım. Mən hərarətlə Şəhriyarın yadigarına: – Sən bizim bu sadə evimizə xoş gəlib, səfa gətiribsən. Mən o tayda Şəhriyarın adını eşitməmişdim. Sən demə, biz Təbrizdə olanda Şəhriyar Tehranda imiş. Biz bu taya keçəndən çox sonralar, 50-ci illərin axırlarında "Ədəbiyyat" qəzetində Həmid Məmmədzadənin məqaləsinin müşayiətilə Şəhriyarın "Heydər babaya salam" poeması çap olundu. Oxucular arasında geniş yayıldı. Sonralar mən "Şəhriyara məktub" adlı bir şeir yazıb "Ulduz" jurnalının redaksiyasına təqdim etdim. Bir neçə gün keçdi. "Ulduz" jurnalının şeir şöbəsinin müdiri şair Tofiq Bayrama zəng edib şeirin taleyinin nə vəziyyətdə olduğunu soruşdum. O riqqətlə mənə: – Əli müəllim! Şeir elə əlimdədir. Sanki mürəkkəblə yox, alovla yazılıb. Adamın əlini yandırır. İş yoldaşlarıma oxuyanda siz zəng vurdunuz. Şeir "Ulduz"un gələn nömrəsində gedir – dedi. Şeir çıxdı. Sonra mən Şəhriyara "Görüş həsrəti" adlı ikinci şeir həsr etdim. "Ədəbiyyat" qəzetinin redaksiyasına verdim. O zaman Yazıçılar İttifaqının qarşısında taxta lövhə vardı. "Ədəbiyyat" qəzetinin hər təzə nömrəsini o lövhəyə yapışdırardılar ki, qarşısından keçənlər oxusunlar. Bir gün Yazıçılar İttifaqına



getdim. Taxta lövhənin qarşısında xeyli adam dayandığını gördüm. Şair Zeynal Xəlil də o adamların arasında idi. Deyəsən qəzetdə hansı yazınısa oxuyub qurtarmışdı. Başını yana döndərəndə məni gördü. Salamsız-kəlamsız mənə: – Şəhriyar haqqında yazdığın şeiri oxuyurdum. Misraların hər biri bir görüş körpüsünü xatırladır. Hayıf ki, hələ bu körpülərin üstündən nə gələn var, nə də gedən – dedi. Mən inamla Zeynal Xəlilə: – İnşaallah gələn də olar, gedən də – dedim. Sonra o şeirlər kitablarımda da çıxdı – dedim.

Qonaqlarım mənə ikinci dəfə zəng vursalar da yenə gəlişləri qəfil gəliş idi. Şəfiqə xudmani bir çay süfrəsi açdı. Sonra tanrının verdiyi nemətlərlə çay süfrəsini bir qədər zənginləşdirdi. Biz söhbət edə-edə çay içdik, şirniyyat yedik, meyvə daddıq... Umud etirafla mənə: – Əli müəllim! Siz öz güzəranınıza baxmayın. Millət yoxsulluq sarıdan əzab çəkir. Heç olmasa babat güzəran həsrətilə yaşayır – dedi. Mən heyrətlə qonağa: – Əvvəla, siz nə bilirsiniz biz necə yaşayırıq? İkinci, əgər bu süfrəni misal göstərmək istəyirsinizsə, onda millətimizin gözəl bir adətini unudursunuz. Axı millətimiz həmişə qonağa əlindən gələn hörməti edir. Mən də millətimin oğluyam. Ancaq millətimin bəzi qeyrətsiz, insafsız, vicdansız oğullarından gileyliyəm. Millətin çörəyini yeyib, suyunu içən həmən oğullar istər arxada, istər cəbhədə elə xatalar törədirlər ki, adam inana bilmir. Onların məsləki nə Vətəndir, nə də millət. Bəs nədir? Yalnız pul! Bəli! O nankorlar Vətəni də, milləti də pula qurban verir. Millət onların ucbatından yaxşı yaşaya bilmir. Bizim o tayda yaratdığımız bir

illik azadlıq dövranı xalq ümmanını andırırdı. O ümman o qədər təmiz, o qədər parlaq idi ki, sanki özü boyda ayna idi. Qoynuna düşən kiçik bir ləkəni də nəinki yalnız faş edirdi, həm də dünyaya car çəkirdi. İnsanlar zaman-zaman aclıq çəksələr də könülləri-gözləri tox idi. Mən o taydan çoxdan gəlmişəm. Bilmirəm indi o tayda insanların əxlaqları necədir. Ancaq nə gizlədim. Bu taydakı bəzi tamahkar insanların əxlaqına təəssüf edirəm – dedim. Sonra Hadiyə baxdım. O qürurla mənə baxırdı. Umud sanki hayıfsına-hayıfsına dediyim həqiqət dolu sözlərə ərklə düzəliş vermək istədi. Etirazla mənə: – Yox! Əli müəllim! Elə bu tayda da, o tayda da sizin arzuladığınız adamlar çoxdur – dedi. Mən məmnun-məmnun qonağa: – Nə deyirəm. Təki elə olsun! Kor nə istər? İki göz! – dedim. Sonra səmimiyyətlə Hadiyə: – Şəhriyar ustad şairdir. O qədər hikmət dolu yanğılı şeirləri var ki... Ancaq Tehran televiziyasının göstərdiyi lentlərin hamısında Şəhriyar yalnız mərsiyə şeirləri oxuyur. Bunun səbəbi nədir? – dedim. Hadi etirafla: – Düz deyirsiniz. Elədir. Ancaq o lentlərə sizin dediyiniz şeirlərindən də oxuyub. Təəssüf ki, efirə buraxılmayıb. Atamı bir neçə dəfə televiziyaya çağırıb yalnız mərsiyə şeirləri oxumasını təkid etdikdə o televiziyanı tərk edib – dedi. Mən bir daha ürəyimdə öz fikrimi təsdiqlədim ki, İran İslam Respublikasının yuxarı dairələri sürüşkən siyasətin dibigörünməz uçurumu üstdə Şəhriyarın yaradıcılığını ümiddən tikilmiş körpüyə döndərmişlər. O cənabların nəzərinə görə bu körpünün ən nadir naxışları elə dini şeirlərdir.



Sonra mən Umudun işləri ilə maraqlandım. İkilikdə söhbət etdik. Arada qulaqlarıma öz döyüşkən misralarımın doğma səsləri gəldi. Bəli! Hadi dodaqaltı mənim misralarımı pıçıldayırdı...

Qonaqlarımız getmək üçün ayağa qalxdılar. Qapının astanasında bir də Hadini qucaqlayıb o üzündən, bu üzündən öpdüm. Bəli! Yanğılı nəfəsimi Hadinin yanaqlarına hopdurdum. Ürəyimdə Hadinin özüylə mənim məhrəm nəfəsimi də aparıb Təbrizin gül ətirli nəfəsinə qatacağını arzuladım.

## VƏTƏN SULARI

Şair Nəriman Həsənzadənin bir müddət nə evindən səsi gəldi, nə də eyvanda özü göründü. Sən demə, qonşum Azərbaycan Respublikası mədəniyyət xadimlərilə İran İslam Respublikasına gedibmiş. Bir gün eyvana çıxanda Nərimanı da öz eyvanında gördüm. Salamlaşdıq. Maraqla qonşuma: – Görünmürdün, haradaydın? – dedim. Nəriman fərəhlə: – İrana getmişdim. Nəhayət, zaman-zaman həsrətini çəkdiyim Təbrizi də gördüm – dedi. Doğrusu, Təbriz sözünü eşitcək ürəyimdə həm qürurlu, həm də nisgilli hisslər keçirdim. Bir anlıq gözlərim yol çəkdi. Nəriman nəzakətlə: – Əli müəllim, gözləyin, gəlirəm – deyib evə getdi. Sonra bir stəkan büllur suyla qayıtdı. O büllur su dolu stəkanı aramızda bir az yuxarı qaldırdı. Daha sonra stəkandakı büllur suya razı-razı baxa-baxa mənə: – Əli müəllim, bu stəkandakı büllur su Təbriz suyudur. Bu suyu Təbrizdən gətirmişəm. Bütün səfər yoldaşlarım yollarda İrandan

aldıqları şeyləri qoruya-qoruya gətirəndə mən də termosa doldurduğum Təbriz suyunu sizə sağ-salamat gətirməyə çalışmışam – dedi. Sanki stəkandakı büllur sudan iki damcı sıçrayıb gözlərimə qondu. Gözlərim yaşardı. Mən büllur su dolu stəkanı dərhal minnətdarlıqla Nərimandan alıb evə gətirdim. Təbriz suyunu iki yerə böldüm. Çoxunu özüm götürdüm. Azını Şəfiqəyə verdim. Sonra ikimiz birlikdə Təbrizin büllur suyunu qurtum-qurtum içdik. Təbrizin ətrini duya-duya içdik. Ürəyimizdəki Təbriz yanğısını sərinlətmək üçün içdik. Sonra mən elə o axşam "Təbriz suyu" adlı bir şeir yazıb Nəriman Həsənzadəyə həsr etdim:

**Mənə gətirdiyin Təbriz suyunu,**
**Göz yaşından təmiz kəhriz suyunu**
**Qurtum-qurtum içdim, birnəfəsə yox,**
**Sanma ki gəlmədim mən həvəsə, yox.**
**Qədimdən bir nəcib adətimiz var,**
**Hansı dəyərlənmiş nemətimiz var,**
**Az-az işlədirik təbərrik kimi,**
**Sandım ki bir dəstə üzərrik kimi**
**Sən məni Təbrizə aparmasan da,**
**Sinəmdən nisgili qoparmasan da,**
**Təbrizi gətirdin mənim yanıma.**
**O su yayıldıqca quru canıma,**
**Təzədən dirçəlib cavanlaşdım mən,**
**Yenidən tanınıb ünvanlaşdım mən.**
**Səhra ürəyimdə solan diləklər,**
**Ləçəyə tamarzı qalan çiçəklər**
**Ömrün payızında çətirləndilər,**
**Baharın ətriylə ətirləndilər...**



**Sən də bilirsən ki qırx dörd il tamam**
**Təbriz! – deyib yandım hər səhər-axşam.**
**Dilimə dəymədi Təbrizin suyu,**
**Dünyada əzizdən əzizin suyu.**
**Sənin o bayraqlar salan şəhərdən,**
**Odlu cavanlığım qalan şəhərdən**
**Qoruya-qoruya gətirdiyin su,**
**Doğmadan doğmaya yetirdiyin su**
**Ən böyük, ən əziz töhfədir mənə,**
**Qardaşım! Təşəkkür edirəm sənə.**
**Nə qəmli ev olsun, nə dalğın qonşu!**
**Atalar deyiblər bir yaxın qonşu**
**Min uzaq qohumdan daha əfzəldir.**
**Arzu şirinsə də, əməl gözəldir!**
**Sən mənə qonşu yox, sirdaş olubsan,**
**Fikir yollarında yoldaş olubsan.**
**Deyirlər savabdır su yer üzündə,**
**Su yox, həyatdır o təşnə gözündə.**
**Mən isə vüsalın öz təşnəsiyəm,**
**Bir təsəlli dolu söz təşnəsiyəm.**
**Təbrizin suyunu bir daha içdim,**
**Sanki bulaq dolu Səhənddən keçdim.**
**Tarixin gözləri yol çəkə-çəkə,**
**Bundan böyük savab görməmiş bəlkə.**
**Su həm də aydınlıq sayılır, qardaş!**
**Yatmışlar suyla da ayılır, qardaş!**
**Gün o gün olsun ki, yollarda yatan,**
**Küləkli illərin tozuna batan**
**Vüsal da ayılsın su avazıyla,**
**Yurdumuz barışsın öz Arazıyla...**

**Bu taydan o taya gedən yollara,**
**Tozu əlçim-əlçim didən yollara**
**Bakı da su səpsin, Təbriz də, qardaş,**
**Ayrılıq qərq olsun dənizdə, qardaş!..**

Səhər şeiri Nərimana oxudum. Məmnun oldu. Şeir "Azərbaycan gəncləri" qəzetində çıxdı.

Günlər keçdi... Bir axşam telefonumuz səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran əmim nəvəsi Adilə idi. Masallıdan danışırdı. Bir-birimizin əhvalını soruşandan sonra Adilə hörmətlə mənə: – Dayı, o taya, qohumlarımızı görməyə gedirəm. Bəlkə çatdıracaq bir sözün, yaxud bir sifarişin var. Xahiş edirəm deyəsiniz. Canla-başla yerinə yetirməyə hazıram – dedi. Mən riqqətlə Adiləyə: – Qızım, bütün qohumlara salam-dua aparar-san. Sifarişə gəldikdə isə heç nə gərək deyil. Sənə yaxşı yol! – dedim. Sonra xudahafizləşdik. Dəstəyi yerinə qoydum. Adilənin atası bizim kəndli idi. Bu tayda əmim qızı Səltənətlə evlənmişdi. O, hələ Adilə körpəykən müharibəyə getmiş, bir daha geriyə qayıtmamışdı. Adilənin bizim kənddə bir əmisi vardı. Mən yeniyetmə çağımda Adilənin əmisini tez-tez görərdim. Pəhləvan cüssəli bir kişi idi. İndi Adilə öz əmisini görməyə gedirdi...

Yenə günlər keçdi... Bir gün Şəfiqə məhrəmliklə mənə: – Adilə indi o taydan qayıtmış olar. Gəlsənə yığışıb Masallıya gedək – dedi. Mən hərarətlə: – Gedək! – dedim. Sabahı Natiq bizi maşınla Masallıya apardı. Yadıma neçə il qabaq Savalanı görmək həsrətilə Astaraya qədər getdiyim, lakin Savalanı görə bilməməyim, elə Astarada yazdığım "Astara yolu" şeirim düşdü:



**İri addımlarla gələn baharın**
**Ətir dolu nuru süzülür yola.**
**Hər yana baxıram...**
**Sanki Səttarın**
**Gözəl lövhələri düzülür yola.**

**Sanki insanları salama gəlir**
**O taylı, bu taylı sərv ağacları.**
**Sanki bahar deyə ilhama gəlir**
**Dərə meşələri, dağ yamacları.**

**Göydə çarpazlaşan budaqlar üstə**
**Təzə qanad açmış quşlar oxuyur.**
**Sinəsi məxmərli torpaqlar üstə**
**Qayalar oxuyur, daşlar oxuyur.**

**Yoldayam...**
**Mindiyim maşınla birgə**
**Dərə də, yamac da, budaq da gedir.**
**Kim bacarar məni geriyə çəkə?**
**Xəyalım özümdən qabaqda gedir.**

**Sol yana baxıram. Kölgələr düzü**
**Uzanır dalğalı dənizə qədər.**
**Təkcə kölgələrmi? Xeyr! Yol özü**
**Sahildən uzanır Təbrizə qədər.**

**Bəlkə həqiqətdə gözəldir deyə**
**Sevilir, seçilir, xoşlanır bu yol.**
**Sirrimi de niyə gizlədim, niyə?**
**Mənim ürəyimdən başlanır bu yol.**

**Gündə neçə dəfə şair xəyalım**
**Bu yolla Təbrizə dəyib qayıdır.**
**Müqəddəs diləyim nədir? Xəyalım**
**O doğma şəhərə deyib qayıdır.**

**Deyirəm dünyanın nə qədər yolu**
**Beləcə axarlı-baxarlı olsun!**
**Ancaq nə sinəsi hicranla dolu,**
**Nə də ki, qarşısı hasarlı olsun!**

**Deyirəm insanlar biri-birinə**
**Daim qonaq getsin əziz dost kimi.**
**Günəşin nurunu qədəh yerinə**
**Əlində qaldırıb içsin tost kimi.**

**Deyirəm baxdıqca öz növrağına**
**Nisgil kəlməsini pozsun insanlar.**
**Könül dəftərinin ağ varağına**
**Yol xatirələri yazsın insanlar...**

Adiləgilin həyətində maşından düşdük. Adilə bizi görcək üstümüzə yüyürdü. Mən maşından aralanıb iti addımlarla Adiləyə sarı getdim. Biz dayı bacıqızı hərarətilə qucaqlaşdıq. Sonra mən yanğılı səslə Adiləyə: – Qoy o doğma yerlərin də, adamların da ətirlərini səndən alım – dedim. Sanki o məhrəm ətirləri yaxşı duyum deyə Adilə məni daha möhkəm qucaqladı. Sonra pillələrlə yuxarıya qalxıb işıq dolu geniş otağa daxil olduq. Keçib böyük mizin ətrafında əyləşdik. Adilə gah kövrələ-kövrələ, gah da sevinə-sevinə Vətəndə görüşdüyü qohumlardan danışdı. Gəzdiyi yerlərin zəngin, əlvan, nadir mənzərələrindən söz açdı. Həyətdə ocaq qalandı. Qazan asıldı. Bir qədər sonra



Adilə geniş süfrə açdı. Süfrəyə ləziz xörəklər gətirildi, dadlı nemətlər qoyuldu. Plovun ətri otağı doldurdu. Yeməyin arasında Adilədən su istədim. O yan otağa gedib durna boğazlı bir kuzə ilə qayıtdı. Mən Adilənin əlindəki nəfis naxışlı kuzəni görüb həyəcanlandım. Axı adətən kuzədə şərab saxlayarlar. Ürəyimdə dedim ki, yəqin Adilə məni səhv başa düşüb. Elə bilib ki, su yox, içki istəyirəm. Ancaq Adilə kuzənin başını büllur stəkana əyəndə gördüm ki, Adilə yox, mən səhv etmişəm. Büllur stəkana şərab yox, büllur su tökülür. Adilə əlindəki büllur suyla dolu büllur stəkanı mənə göstərib nisgillə dedi: – Dayı, bu sənin illər uzunu içdiyin sudandır. Bəli! Bu suyu doğma kəndimiz Çanaxbulağın bulağından gətirmişəm – dedi. Nə gizlədim. Kövrəldim. Gözlərim doldu. Dönüb ətrafıma baxdım. Dedim görüm bu mənzərə başqalarına necə təsir edib? Gördüm elə bil hamının üstünə Çanaxbulaq bulağının suyu ələnib... Mən halal süfrə üstə çökmüş ağır qəm sükutunu dağıtmaq üçün əlimi uzadıb büllur suyla dolu büllur stəkanı Adilədən aldım. Qəribədir. Bir zamanlar doyana qədər birnəfəsə içdiyim buz nəfəsli suyu indi qurtum-qurtum içdim. Halbuki bu su o qədər də soyuq deyildi. Ancaq qurtum-qurtum içdiyim su soyuq olmasa da mənim yaddaşımda uyuyan xatirələri bir-bir diksindirib oyada bildi. Çanaxbulağın özü də, bulağı da, çayı da, bağları da gözlərimin qarşısında lövhə-lövhə canlandı. Özü də yaşadığım günlərlə. Nəhayət, büllur stəkandakı büllur suyu içib qurtardım. Sonra məmnun-məmnun Adiləyə: – Sağ ol, bacı qızı. Bu büllur su mənim üçün ən dəyərli sovqat oldu. Hələlik kəndimizə gedə bilməsəm də, sanki sən kəndimizi mənimlə görüşə gətirdin – dedim. Bu səmimiyyət dolu sözlərimdən

sonra sanki süfrə üstə çökmüş sükut əridi. Qaşların düyü-nü, dodaqların kilidi, əllərin yolu açıldı. Plovlar yeyildi, şərbətlər içildi, meyvələr dadıldı. Çay gəldi. O da içildi. Sonra yenə o taydan danışıldı. Gecə yarıdan keçəndə durub yatağımıza girdik. Ancaq mən səhərə qədər yata bilmədim. Sanki Masallının İskəndərli kəndində yox, Ərdəbilin Çanaxbulaq kəndində idim. Bəli! Çanaxbulaqda yaşadığım günləri təzədən yaşayırdım. Səhər yatağımdan qalxıb əl-üzümü yuyanda Adilənin verdiyi Çanaxbulaq suyu yadıma düşdü. Əl-üzümü qurulayıb meşin qovluğumdan qələm-dəftər çıxartdım. Bu misraları yazdım:

**Sağ ol Adiləcan, öz əllərinlə,**
**Dayın minnətdardır həmişə sənə.**
**Qırx altı il sonra sən əllərinlə**
**Çanaxbulağ suyu içirtdin mənə.**

**Mən sevdim kəndimin nadir suyunu,**
**Amma qismətimə xətt çəkdi fəraq.**
**Məğrur Savalanın nadir suyunu**
**Mən yuxuda içdim, yuxuda ancaq.**

**Savablar çox olur, niyə az yazım?**
**Heç bir savabı da qınamıram mən.**
**Ancaq savabların içində qızım,**
**Bundan böyük savab tanımıram mən.**

Ancaq qəribə də olsa şeiri Adiləyə oxumadım. Dedim mətbuatda çap etdirərəm, o da oxuyar. Biz Bakıya qayıtdıq. Şeiri "Çanaxbulaq suyu" adıyla "Azərbaycan müəllimi" qəzetində çap etdirdim. Adilə də oxudu...



## 20 YANVAR

Zaman-zaman ülfət yox, həsrətlə yaşayan neçə-neçə nəslin ömrü qədər ayrılıq çəkən Azərbaycan xalqının şimaldakı hissəsi 1989-cu il dekabrın sonunda SSRİ ilə İran arasındakı Araz boyu sərhəddə nişanlı dirəkləri yerdən qoparıb atdı. Tikanlı məftilləri qırıb tökdü. Soyuq dalğaların arasından üzə-üzə keçib cənub sahildə qatarla dayanıb intizarla gözləyən doğmalarıyla görüşdü, qucaqlaşdı, öpüşdü. Bu xəbər nəinki yalnız Şərqə, hətta Qərbə də yayıldı. Berlində yaşayıb gözlərilə Berlin divarının söküldüyünü görən azərbaycanlılar belə bir günün öz vətənlərinə də gəlməsini çoxdan gözlədikləri üçün ilk dəfə ürəkdən sevindilər. Ancaq sevinməyənlər də oldu. Moskva da, Tehran da yaman təlaşa düşdü... Ermənilər xaricdəki havadarlarına arxalanıb Qarabağda azərbaycanlılara meydan oxuyurdu. Bakıdakı dövlət xadimləri Moskvadakı dövlət xadimlərindən çəkinib Qarabağdakı ermənilər haqqında ciddi bir ölçü götürə bilmirdi. Ona görə ki, SSRİ MK-nın Baş katibi M.S.Qorbaçov Rusiyada yaşayan erməni lobbisinin təsiri altına düşmüşdü. Məsləhətçisi də erməni idi. Bakıdakı hakim dairələr qəzəblənmiş xalq hərəkatının qarşısında gündən-günə acizləşirdi. Rəhbərlik iddiasına düşən adamlar gərək görəcəyi işləri öz imkanlarının çərçivələrinə sığışdıra biləcəyini qabaqcadan düşünsün. Bəli! On pud taxıl tutan çuvala iyirmi pud taxıl yığılsa o partlayar. Hakimiyyət dəbdə olan paltara bənzəyər. Xalq o paltarı geyər də, çıxarıb atar da...

Bakının Azadlıq meydanında hər gün izdihamlı mitinq olurdu. Mitinqə toplaşanlar AKP MK-nın birinci

katibi Əbdürrəhman Vəzirovdan istefa verməsini tələb edirdi. O isə MK-nın binasından eşiyə çıxmırdı. Ə.Vəzirovun yanında Moskvadan gəlmiş iki böyük vəzifəli nümayəndə vardı. Şəhərdə söhbət gəzirdi ki, Moskva "asayişi müdafiə etmək" üçün Bakıya ordu yeridəcək. Ona görə şəhər sakinləri yaman narahat idi. Sən demə, Bakıdakı yüksək vəzifəli dövlət xadimləri öz hakimiyyətlərini qorumaq üçün Moskvadan hərbi yardım istəyibmişlər. Ancaq Moskvadan gələn nümayəndələr MK-nın binasından çıxıb mitinq iştirakçılarına təntənəylə bildirdilər ki, Moskvadan Bakıya heç bir ordu gəlməyəcək. Sən demə, bu vəd yalan imiş.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Moskvanın Bakıya göndərdiyi sovet ordusu şəhərə daxil oldu. Ağır hərbi texnika Bakının küçələrində hara gəldi, atəş açdı. Yollarda, keçidlərdə, meydanlarda qəfil güllələrlə yerə sərilən silahsız insanlar ağaclardan vaxtsız tökülən yarpaqları andırırdı. Hətta uca, nəhəng, möhkəm binaların pəncərələrindən içəriyə keçən güllələrin qurbanları da oldu. Şəhərin yaşıl sinəsində püskürən vulkanlar qırmızı dilləri ilə qaranlıq göyü də yaladı. Sanki Bakının üstünə də qan çilədi. Bəli! Qışın oğlan çağında şəhərdə yer də, göy də isti lalələr açdı. Qəribə olsa da şəhidlərin sayı gizlədildi.

Natiq səhər tezdən iş yoldaşlarıyla görüşmək üçün Azərbaycan Televiziyasına getdi. Günorta küçədən ağır hərbi maşınların gurultulu səsləri gəldi. Mən küçəyə çıxan eyvana yüyürdüm. Ağır yük maşınları sovet əsgərləri ilə dolu idi. Eyvanımızın qarşısından keçən maşındakı sovet əsgərləri əllərindəki avtomatları hər ehtimala qarşı hazır tuta-tuta dönüb mənə baxdılar. Mən qəzəblə sağ əlimi irəli uzadıb çağrılmamış qonaqlara yumruğumu



silkələdim. Bəli! Bir zaman Ərdəbildə tərkibində olan azərbaycanlı əsgərləri qızılgül dəstəsiylə qarşıladığım, Təbrizdə qızılgül dəstəsiylə yola saldığım, şərəfinə şeir, poema, xatirə yazdığım sovet əsgərlərinə indi yumruq göstərirdim. Bu anda arxadan: – Sən neynəyirsən? Məgər bilmirsən bunlar atəş açmağa bəhanə axtarırlar. Yoxsa bizi başsız qoymaq istəyirsən? – deyən Şəfiqə qolumdan tutub məni evə çəkdi. Nə gizlədim. Mən heç təsəvvürümə gətirə bilməzdim ki, özünü azadlıq, xoşbaxtlıq, əmin-amanlıq ordusu adlandıran Sovet ordusu öz günahsız həmvətənlərini qıra bilər. Sanki yalnız indi mənə elə gəldi ki, Azərbaycan xalqı təkcə solo oxumağa öyrənibdir. Xor oxumağa yox! Amma yeri gələndə xor da oxumalıdır. Yoxsa Azərbaycanda yaşayan insanlar özləri də bir-birinin səsini eşitməz. Bəli! Azərbaycan xalqı xor oxuya bilməsə, haray dolu ağısı dünyanın başqa xalqlarının qulaqlarına çatmaz. Azərbaycan xalqı 20 yanvar dəhşətlərinin xəbərlərini var səsiylə bütün dünyaya yaymalı idi. Mən isə bir neçə gündən sonra "İstiqlal şəhidləri" şeirimi yazdım:

**Dünyanın bir üzü ağ,**
**Bir üzüsə qaradır.**
**Bəli! O gah səadət,**
**Gah fəlakət yaradır.**
**Mən çağlayan duyğumu**
**Qurutmamışam hələ.**
**Saç-saqqal ağartsam da**
**Unutmamışam hələ**
**Ürəyi səksəkəli**
**Təbriz gecələrini.**

Doğmaykən ögeyləşən
Təbriz küçələrini.
Onda bir illik cəlal
İtirirdi ömrünü.
Min doqquz yüz qırxaltı
Bitirirdi ömrünü.
Şah qoşunu tanklarla
Dolacaqdı şəhərə.
Ay nigaran batsa da
Çox qalırdı səhərə.
Qaranlıqda bu tindən
O tinə ötməyə də,
Arzuların doğulan
Evinə getməyə də
Mötəbər buraxılış
Vərəqəsi gərəkdi.
İcazəsiz dolaşan
Yalnız soyuq küləkdi.
Mənsə hələ gənc idim,
Həyatdan doymamışdım.
Yanğı dolu həsrətin
Dadını duymamışdım.
Dedim məndə qırğına
Baxmağa hanı dözüm?
Təhlükəli yurdumdan
Zorla ayrıldım özüm.
– Əlvida! – deyib Xoya,
Urmiyaya, Makuya,
Qayıtmaq üçün keçdim
Mən Təbrizdən Bakıya.



...Daha illər keçmişdi,
Min doqquz yüz doxsandı.
Hələ iyirmi yanvar
Yazılmamış dastandı.
Gecə göydən sallanan
Qara bayraq kimiydi.
Yox! Qaynar şəhər üstə
Enən qapaq kimiydi.
Dünənki şirin həyat
Necə də ləzzətliydi.
Bəli! Yalnız gündüz yox,
Gecə də ləzzətliydi...
Birdən güllə oduyla
Alışıb qızardı dan.
Yanvarda qar yağmadı,
Qan yağdı Bakıya, qan...
O ulduzsuz gecədə
Ulduzlaşdı güllələr.
Yox! Ulaya-ulaya
Quduzlaşdı güllələr.
Güllələr biçib-tökdü
Qocanı da, gənci də.
Bəli! Yanaşı yıxdı
Yorğunu da, dinci də...
Güllələr qadını da,
Uşağı da odladı.
Tanklar meyidlər üstdən
İrəliyə adladı.

Qatillərin ayağı
Altından qaçdı torpaq.
Qış günü qara xallı
Lalələr açdı torpaq.
Şəhidlər lənətləyib
Dəhşətli bir ordunu,
Son dəfə qucaqladı
Qana batmış yurdunu.
Bir var sənə özgəsi
Qəfildən güllə ata,
Bir də var özününkü
Səni gülləyə tuta.
Hansı ağır zərbədir,
Zamanın özü desin.
Kim yazmaq istəməsə
Tarixin sözü desin...
Xanimanlarda söndü
Büllur-büllur çıraqlar.
Eyvanlardan sallanan
Qara-qara bayraqlar
Buz nəfəsli havada
Çırpındı yarpaq kimi.
Şəhidlərin taleyi
Yazılmış varaq kimi.
Dəfn günü daha da
Məğrurlaşan şəhərin,
Şəhidlərə baxdıqca
Cəsurlaşan şəhərin
Pəpə yeyənləri də,
Məmə deyənləri də,



Kirpik döyənləri də,
Yumruq düyənləri də
Şəhərə sığışmayan
İzdihama qarışdı.
Yollarda qərənfillər
Məşəl-məşəl alışdı.
Qərənfil tapmasaydı
Hər qız da, hər gəlin də
Ürəyini çıxarıb
Tutacaqdı əlində.
Adamları boşaldı
Dolu-dolu evlərin.
İzdihama yönəldi
Məhrəm yolu evlərin.
Oğrular da yas tutdu
Şəhidlər matəmində.
Sanki oğruluğunu
Unutdu aləmində.
Birlikdə çəksin deyə
Bu dərdi torpaq üstdə,
Rəqiblər də birləşdi
Müqəddəs ocaq üstdə.
Haqq uğrunda nə qədər
Qurban vermişdi Bakı.
Ancaq belə izdiham
Hardan görmüşdü Bakı?
Yox! Belə izdihamı
Dünyada görməmişdi.
Ömrü boyu yatan da
Röyada görməmişdi.

**İzdiham aram-aram**
**Dağüstü parka qalxdı.**
**Dünən donan günəşsə**
**Bu gün yandırıb-yaxdı**
**Gözlərdə damla-damla**
**Büllurlaşan yaşı da,**
**Qərənfil rayihəli**
**Torpağı da, daşı da...**
**Dedi mənə mat qalmaz**
**Müdrik qocalar daha,**
**Məndən də yüksək olar,**
**Ölməz, ucalar daha.**
**Bəli! Sanki şəhidlər**
**Yerə basdırılmadı.**
**Adlar başlar üstündə**
**Daşdan asdırılmadı.**
**Özləri zirvələndi**
**İstiqlal şəhidləri.**
**Heyrətdən heykəlləşdi**
**Ülviyyət şahidləri.**
**Məzarların üstünə**
**Qərənfillər düzənlər,**
**Yaşa dönmüş hissləri**
**Gözlərindən süzənlər**
**Dağüstü parkın üstdə**
**Gül dağı yaratdılar.**
**Dərin sükutlarıyla**
**Dünyanı oyatdılar.**



**O qərənfil dağısa**
**Od çiləyə-çiləyə,**
**Bakının sinəsində**
**Döndü yanar ürəyə...**

Təəssüf ki, qanlı yanvar hadisələrindən sonra Bakıdakı dövlət xadimləri yenə də Moskvadan əl çəkmirdilər. Atalar demişkən, it motaldan əl çəkdi, motal itdən əl çəkmədi.

## DİDƏRGİN AZƏRBAYCANLILAR

Vahid Azərbaycanın xəritəsinə baxanda insanın gözləri qarşısında şeiriyyətlə dolu ecazkar bir mənzərə yaranır. Adama elə gəlir ki, Cənubi Azərbaycan özü boyda möhtəşəm bir qaya, Şimali Azərbaycan isə o möhtəşəm qaya üstündə uçuşa hazır dayanmış məğrur qartaldır. İnsan o şeiriyyət dolu ecazkar mənzərəyə baxdıqca sinəsi o möhtəşəm qayaya, xəyalı o məğrur qartala dönür. Sonra qürur hissi keçirir. Öz əzəmətli Vətəninə, öz təravətli torpağına, öz hərarətli ocağına daha da möhkəm bağlanır.

Bir gün respublika radiosunun Cənubi Azərbaycan redaksiyasında təzə hazırlanmış "Körpü" verilişi efirə çıxdı. Verilişin dinləyicilərinin sayı gündən-günə artdı. Azərbaycanın həm şimalından, həm də cənubundan "Körpü"yə məktublar gəlməyə başladı. Adətən sel körpünün altından axar. Bəli! Çayın məcrasında dalğalara qarışıb gedər. Ancaq məktub seli bu körpünün üstündən axdı. Bu taydakılar o taydakı qohumlarını, o taydakılar bu taydakı qohumlarını soraqladılar. Yox! Var səsləriylə harayladılar.

Neçə-neçə qohum bir-birini "Körpü"də tapdı. Bəli! Bir "Körpü" bir millətin görüş yerinə çevrildi. Bir "Körpü"də həm məlum, həm də naməlum ünvanlar birləşdi...

Çox keçmədi ki, respublika radiosunun Cənubi Azərbaycan redaksiyasından zəng vurub dedilər ki, xahiş edirik siz "Körpü" verilişi haqqında radioda danışasınız. Yaxşı olar, bu mövzuda bir şeir də yazıb mikrofonda oxuyasınız. Redaksiyanın bu xahişini məmnuniyyətlə qəbul etdim. Ona görə ki, bu mövzu mənə doğma, yaxın, məhrəm idi. Elə o axşam "Ünsiyyət körpüsü" adlı bir şeir yazıb verilişi hazırlayan qələm yoldaşım Aqşin Babayevə ithaf etdim:

**Keşməkeşlərlə dolu**
**Bir ömür sürmüşəm mən.**
**Dərin uçrumlar üstdə**
**Körpülər görmüşəm mən.**

**Bəzən içi zülmətli**
**Uçrumda azmışam mən.**
**Bir körpü həsrətilə**
**Şeir də yazmışam mən.**

**İnsanlar hər körpüdə**
**Daim bir məna duyur.**
**Təhlükəsiz yola da**
**Söhbətdən körpü qoyur.**

**Körpülərin üstündən**
**Nə qədər karvan keçib.**
**Dünya boyda yük altda**
**Töyşüyən zaman keçib.**



**Sənin körpün zamanın**
**Başı üstdə uzandı.**
**İki munis sahildə**
**Bir məhəbbət qazandı.**

**O körpüdə bu tay da,**
**O tay da addımladı,**
**Boğazlarda boğulan**
**Haray da addımladı...**

**O körpüdə Təbrizim**
**Bakımla salamlaşdı.**
**Bərdəm Xoyumla, Gəncəm**
**Makumla salamlaşdı.**

**O körpüdə Urmiyəm**
**Qubamla qucaqlaşdı.**
**Elim elimlə, obam**
**Obamla qucaqlaşdı...**

**O körpüdə ünvanlar**
**Parladı ülkər kimi.**
**İtənlər tapıldılar**
**Soraqsız əsər kimi.**

**O körpüdə ot basmış**
**Daşlar da zirvələndi.**
**İntizardan ağarmış**
**Başlar da zirvələndi.**

**O körpüdə yanıqlı**
**Bayatı da çağladı,**
**Şikəstə də, segah da,**
**Heyratı da çağladı...**

**O körpüdə baxtından**
**Küsən qüssə də güldü.**
**İllərlə dodaqlarda**
**Donan busə də güldü.**

**Nə yaxşı ki, körpü var,**
**Müdrik ata yerinə –**
**Ayrılmış övladları**
**Bağlayır bir-birinə.**

**Yoxsa Vətən körpüsüz**
**Pərən-pərən olardı.**
**Daha nə qardaş, nə də**
**Bacı görən olardı.**

**Sənin körpün dünyada**
**Ədalət körpüsüdür.**
**Ünsiyyət körpüsüdür,**
**Əzəmət körpüsüdür.**

**O körpüdə bir torpaq,**
**Bir millət bütövləşir,**
**Həm arzu, həm etibar,**
**Həm qüdrət bütövləşir.**



**Qoy Gültəkin bacıyla**
**Muxtar qardaş ilhamla,**
**"Körpü" sətirlərini**
**Oxusunlar nizamla...**

**Gün də o gün olsun ki,**
**Ünsiyyət yaşa dolsun.**
**"Körpü" gediş-gəlişli**
**Vüsal körpüsü olsun!**

Radioda əvvəl "Körpü" verilişi haqqında danışdım. Sonra şeirimi oxudum...

Respublikada söhbət gedirdi ki, dünyaya səpələnmiş azərbaycanlıların Bakıda həmrəylik konfransı keçirilsin. Hazırda yer üzündə əlli milyona yaxın azərbaycanlı yaşayır. Dünyanın elə bir qitəsi yoxdur ki, orada azərbaycanlı olmasın. Atalar deyib ki, birlik dirlikdir. Bəli! Neçə-neçə yerə bölünən bir odun istisinə qızınmaq olmaz. Hətta bütün kainatı isidən Günəş də yerə düşüb çiliklənsə hənirinə qızınmaq olmaz. Respublika radiosunun Cənubi Azərbaycan redaksiyasından zəng edib dedilər ki, bu mövzuda bir məqalə yazım. Mən də yazıb redaksiyaya göndərdim...

Mən azərbaycanlılar anadangəlmə vətənpərəstdirlər desəm, bu həqiqət dolu ifadə kimdəsə heyrət doğurmamalıdır. Atalar deyib ki, aşıq gördüyünü çağırar. Mən də içərisində doğulub ərsəyə çatdığım xalqımın mehriban təmaslı təbiətinə yaxşı bələdəm. Mənim könlü-gözü tox xalqım heç zaman heç bir qonşu torpağına qəsbkarlıq niyyətiylə nəzər salmayıb. Yalnız öz doğma, halal, məhrəm torpağına bağlanıb qalıb. Kim bilir, bəlkə

xalqımdakı vəfa, etibar, sədaqət duyğuları da elə Vətənə məhəbbətdən başlayıb. Vətəndən bir günlük də olsa ayrılmaq istəməyən azərbaycanlılar bir-birindən də ayrılmaq istəməyib. Onların arasına ilk böyük ayrılığı salan 1813-cü ildə "Gülüstan", 1823-cü ildə isə "Türkmənçay" müqavilələri oldu. Rusiya imperiyası ilə İran şahlığı arasında bağlanan ikinci müqaviləyə əsasən Araz çayı sərhəd olmaqla Azərbaycan iki yerə parçalandı... Doğrudur, bu parçalanmaya qədər də azərbaycanlılar arasında kiçik ayrılıqlar olurdu. Biri səyahətə, biri ticarətə, biri müalicəyə görə özgə torpaqlara gedirdi. Sonra gedənlərdən qayıdanları da olurdu, qayıtmayanları da. Ancaq dəhşətli Türkmənçay müqaviləsi Azərbaycanı elə şikəst etdi ki, o bir daha ayağa qalxa bilməsin. Azərbaycan isə öz yenilməz iradəsinə söykənib dəfələrlə ayağa qalxdı. Əfsuslar olsun ki, yanlardan atılan badalağlar Azərbaycanı öz istədiyi yolla möhkəm-möhkəm addımlamağa qoymadı. Arazın hər iki sahilində yaşayan sadə, nəcib, təvazökar azərbaycanlılar isə dərdlərini bu günahsız çaya deməklə, dolu ürəklərini boşaltdılar. Bəli! Hələ şairlər Arazın sərhəd boyu çırpınan dalğalarına yanğılı şeirlər yazmaq üçün qələmə sarılmazdan əvvəl analar, gəlinlər, qızlar bu talesiz çayın o tayındakı Köşki-balaban adlanan yerə gələrdilər. Sonra Arazın hıçqıra-hıçqıra axan dalğalarına baxa-baxa oxuyardılar:

**Köşki-balaban Araza baxar,**
**Arazın suyu gözlərdən axar...**

Öz məhrəm səslərini bu taydakı əzizlərinə eşitdirən analar, gəlinlər, qızlar onların doğma səslərini də eşitmək



istəyirdilər. Sonralar şairlər Araza o qədər şeir yazdılar ki, Arazın özü boyda nisgilli bir dastan yarandı. Bəlkə elə ona görə Araz haqqında yazılan əsərlər Azərbaycan ədəbiyyatında ən yanğılı, ən həsrətli səhifələri təşkil edir! Bəli! Araz haqqında həm bu tayda, həm də o tayda yaranan əsərləri bir yerə toplasalar nəhəng bir kitabxananı dolduran cild-cild qəmli kitab olar. Doğrudur, ayrılıq haqqında Türkmənçay müqaviləsindən əvvəllər də şeirlər, dastanlar, nağıllar yaranıb. Ancaq bu yalnız subyektiv səciyyələr daşıyır. Yəni bir atanın, bir ananın, bir qardaşın, bir dostun, bir yarın ayrılığından danışır. Türkmənçay müqaviləsindən sonra yaranan bədii əsərlər böyük bir xalqın övladlarının bir-birindən ayrıldıqlarını bütün dünyaya car çəkdi. Axı, car mütləq çəkilməliydi. Ona görə ki, möhtəşəm bir xalq elə parçalandı ki, ata bir tayda, qız bir tayda, qardaş bir tayda, bacı bir tayda, ər bir tayda, qadın bir tayda qaldı. Bu müsibət daha yazılı ədəbiyyata sığışmadı. Analar bu müsibəti yanğı dolu bayatılara döndərib Arazın həm bu tayında, həm də o tayında hönkürə-hönkürə oxudu...

Mənim xalqımın o qədər gözəl adəti var ki... Elə götürək qonağa münasibətini. O, necə deyərlər, qonağa gözlərinin yağını da yedirdir. Ancaq niyə gizlədim. Xalqımın öz içində gözügötürməzlik də var. Bəli! Qəribədir. Özgələrində gözləri olmayan bu doğma adamlar bəzən paxıllıqdanmı, nədənmi, bir-birini görmək istəmir. Ancaq elə ki, ayrı düşür, bir-birləri üçün burunlarının ucu göynəyir. Mən elə səhnələri hələ gənclik çağlarımda İranın ayrı-ayrı şəhərlərində görmüşəm. Hansı şəhərdə başqa millətlər içərisində yaşayan bir azərbaycanlı ilə rastlaşmışamsa, sanki qəriblik mücəssəməsiylə qarşılaşmışam. Ürəyi Vətən həsrətilə dolu

olan o qəriblik mücəssəməsi səsimdən, sözümdən, səriştəmdən biləndə ki, mən də azərbaycanlıyam, məni elə bərk-bərk qucaqlayıb bağrına basıb ki, az qalıb qabırğalarım qırılsın. Sonra Vətən üçün ucu göynəyən burnunu sinəmə söykəyib məni iyləyib. Qoy Azərbaycanın ətrini səndən alım deyib. Mənsə düşünmüşəm ki, bizim oxumamış filosof babalarımız:

**Əzizim Vətən yaxşı,**
**Geyməyə kətan yaxşı,**
**Gəzməyə qərib ölkə,**
**Ölməyə Vətən yaxşı.**

deməkdə necə də haqlı imişlər. Sonra öz xəyalımda bu məşhur bayatıya əlavə edərdim.

**Hanı elə bir alov**
**Ürəyə axa bilsin?**
**Vətən həsrəti qədər**
**Yandırıb-yaxa bilsin?**

Sonra da o boyda qəriblik mücəssəməsi kövrək qanadlı bir pərvanəyə dönüb başıma hərlənib. Qürbətdə məndən ayrılmaq istəməyib. Bütün varlıqların nəhəng anası sayılan təbiət qürbət doğmayıb. Heç bir məmləkətin torpağı nə qədər münbit olsa da öz qoynunda qürbət bitirməyib. Qürbəti hər hansı bir məmləkətə gedən adam özü əkib. Qürbətdən isə həsrət göyərib. Qürbət özü yalnız bir sözdən ibarət olsa da adamı qürbətə aparan səbəb çoxdur. Kimi bir parça çörək sorağıyla, kimi dözə bilmədiyi quruluşdan can qurtarmaq xəyalıyla, kimi cəmiyyətdəki məqamını tapmaq arzusuyla qürbətə yollanır. Qürbətdə ömür sürənlər arasında müharibə-



lərdə əsir düşənlər də olur. Onlar qürbətə üz tutub Vətənə arxa çevirmir. Yox! Vətəndə cəza alacağından qorxub geriyə qayıda bilmir. Mən doğma diyarımı könülsüz tərk etdikdən sonra da dünyanın ayrı-ayrı millətlər yaşayan bir sıra böyük şəhərlərində qərib azərbaycanlılara rast gəlmişəm. Onlar məni görəndə sanki vətənləri Azərbaycanın bir parçasını tapıblar. Özlərini tamam unudub mənim qayğılarımla məşğul olublar. Uzaq Baltik dənizinin sahilində mənimlə çiyin-çiyinə dayanıb bir-birinə nəsə paçıldayan dalğalara baxan qərib həmyerlim də pıçıltıyla mənə – deyəsən bu dalğalar da bizim burda qərib olduğumuzdan danışırlar – deyib sonra doğma Xəzərin şahə qalxan dalğalarından söz açıb...

İndi dünyanın elə bir qitəsi yoxdur ki, oraya azərbaycanlı kölgəsi düşməsin. Müxtəlif səbəblər üzündən başqa-başqa məmləkətlərə səpələnən azərbaycanlıların sayı o qədər artıb ki, dövlətlərin də nəzərini özünə çəkə bilib. İndi qürbətə düşən azərbaycanlılar onları sıxan qəriblik çərçivəsini dağıdıb, mühacirlik mövqeyinə keçiblər. Bu mühacirlər daha təklik xiffəti çəkmir. Yox! Yaşadıqları məmləkətlərdə işgüzar cəmiyyətlər yaradıb ruznamələr, məcəllələr, kitablar çıxarırlar. Yerli radio-televiziya verilişlərində iştirak edirlər. Bütün səmərəli fəaliyyətlərinin isə məqsədi birdir. Doğma Azərbaycana canla-başla xidmət etmək! Bu isə adicə bir arzu deyil. Borcun, vicdanın, qeyrətin tələbidir. Ermənilər xaricdə yaşayan imkanlı havadarlarına arxalanıb Qarabağ torpağına od yağdıranda dünyaya səpələnmiş azərbaycanlıların qeyrət dənizi təlatümə gəldi. Burdaca deyək ki, onların əksəriyyəti Arazın o tayından

xarici ölkələrə köçənlər idilər. O dəyanətli vətənpərvərlər öhdələrindəki bütün informasiya vasitələri ilə nankor ermənilərin törətdiyi cinayətləri nifrətlə lənətlədilər. Daşnakların ərazi iddialarını tarixi sənədlərlə ifşa edən kitablar buraxdılar. Nə gizlədək, yalanla, hiyləylə püxtələşmiş ermənilərin informasiya mühasirəsində qalan Şimali azərbaycanlılar xaricdəki dili bir, dini bir qardaşlarının vətəndaşlıq fəaliyyətindən dönə-dönə qürurlandılar. Fransadan, Danimarkadan, Almaniyadan, İsveçdən, Norveçdən Bakıya mənim yanıma gələn o taylı qələm qardaşlarım yaşadıqları yerlərdə neçə Azərbaycan ruhlu fədakar cəmiyyətlər yaratdıqlarından danışdıqca elə mən özüm də dönə-dönə qürurlandım. Dost dostdur, yoldaş yoldaşdır, qardaş da qardaşdır! Dostu da, yoldaşı da tapmaq olar. Qardaşı tapmaq isə çətindir. Bütün azərbaycanlılar isə bir anadan olan doğma qardaşlardır. Ona görə də qürbətdə, yəni özgə diyarlarda yaşayan azərbaycanlılar orda da dinclik tapa bilmədilər. Əllərindən gələn yardımlarla özlərini Şimali Azərbaycana yetirdilər. Sonra Bakının dağüstü parkındakı Şəhidlər xiyabanına qalxıb doğma torpaqlarının istiqlaliyyəti uğrunda şəhid olan igidlərin əziz məzarları qarşısında hörmətlə baş əyib üzərinə təzətər qırmızı qərənfillər düzdülər. Sanki həyəcanla qalxıb-enən sinələrindən odlu ürəklərini çıxarıb məzarlar üstünə qoydular. Doğmalar qürbətə qayıtdıqdan sonra da məzarlar üstdə qalmış ürəkləri gecələr sayrışa-sayrışa yandı. Beləliklə də, dünya azərbaycanlılarının böyük həmrəylik yoluna ilkin cığırlar uzandı. Ona görə də hər ilin son ayı olan dekabrın 31-i dünya azərbaycanlılarının həm-



rəylik günü elan edildi. Bəli! Daha dünya azərbaycanlılarının böyük həmrəylik yolu uçrumlar üstdə salınmış dar həsrət körpüsündən keçib göy qədər geniş görüş meydanına çıxır. Mən şairəm. Şair mətin, mübariz, müdrik olduğu qədər də sadə, kövrək, həssasdır. Mən dünyaya səpələnmiş həmyerlilərimi düşünəndə həm kədərlənirəm, həm də sevinirəm. Kədərlənirəm ki, onlar doğma ata-baba ocaqlarından könülsüz uzaq düşüblər. Yalnız yerin yox, göyün də hansı tərəfinə getsə, Vətən yenə Vətəndir. Sevinirəm ki, dünyanın gözü olan Azərbaycanı getdikləri məmləkətlərdə bacardıqları qədər tanıtdıra biliblər. Axı, ana təbiətin də, xeyirxah taleyin də həyata gərək olan nemətlərin əksəriyyətini bəxş etdikləri bərəkətli Azərbaycan torpağını niyə yaxınlar da, uzaqlar da yaxşı tanımasınlar? Nə üçün sərtlikdə torpaqları da özlərinə bənzəyən ermənilər sırtıla-sırtıla bütün millətlərin gözlərinə soxula bilirlər, amma biz həya pərdəsinə bürünə-bürünə həm iqtisadiyyatdakı, həm də mədəniyyətdəki mövqeyimizin dəyərini bir millətə də əməlli-başlı bildirməyə çalışmırıq? Bəli! Ləyaqətimizin əvəzinə nəzakətimizi nümayiş etdiririk. Doğrudur, nəzakət insan xasiyyətinin yaraşığıdır. Ancaq unutmaq olmaz ki, ləyaqət də insan şəxsiyyətinin təcəssümüdür. İllah daki qədim, məğrur, nəcib bir xalqın ləyaqəti ola... Bax! Neçə-neçə dərdi həzm edən şair bu dərdi həzm edə bilmir. Hər şeyi həm görən, həm də dəyərləndirən qadir Allah da elə bunun üçün səndən hərəkət, məndən bərəkət deyib. Yuxarıda dedim ki, mən şairəm. Ona görə də bədii ədəbiyyatla daha çox maraqlanıram. Gördüyümə, bildiyimə, eşitdi-

yimə görə xarici dövlətlərdə yaşayan həmyerlilərimiz siyasi ədəbiyyatla yanaşı bədii ədəbiyyat da yaradıblar. Bu ədəbiyyata mühacir ədəbiyyatı deyirlər. Dünyaya səpələnən azərbaycanlıların hər birinin keşməkeşlərlə dolu həyatı özü özlüyündə qapalı bir kitabdır. Hələlik o kitablardan heç biri oxunmayıb. Ümidvarıq ki, yaxın zamanlarda Şimali Azərbaycanda çağrılacaq dünya azərbaycanlılarının həmrəylik qurultayı o qapalı kitabların açılıb oxunmasına imkan yaradacaq. Bəli! Onda həmrəylik qurultayı dünya azərbaycanlılarının mütəşəkkil birliyinə çevriləcək. Obrazlı desək, ayrı-ayrı çalğı alətlərini özündə cəmləşdirən məhrəm, nəhəng, mahir orkestr öz gur səsiylə hansı nəğməni çaldığını, nəyə qadir olduğunu təntənə ilə bildirib bütün dünyanın diqqətini özünə cəlb edəcək. Biz o səbirsizliklə gözlədiyimiz həmrəylik qurultayına böyük uğurlar diləyirik.

Bir gün sonra redaksiya mənim bu yazımı efirdə riqqət dolu hərarətlə səsləndirdi...

Aradan iki gün keçdi. Alim dostum, filologiya elmləri doktoru Teymur Əhmədov mənə zəng vurub dedi ki, "Vətən həsrəti" adlı təzə qəzet çıxarırıq. Respublikanın bir neçə görkəmli söz ustasının "Vətən həsrəti" haqqında arzusunu bildirən yazılarını qəzetdə dərc edəcəyik. Yaxşı olar ki, sən də bu mövzuda bir neçə söz yazasan. Bir şeir də əlavə etsən lap əla olar. Dostuma söz verdim ki, bu mövzunu həm nəsrdə, həm şeirdə həsrətin öz alovuyla işıqlandırmağa çalışaram. Sabahı qəzetin bir nömrəsi ilə tanış olub həm baş redaktora müraciətlə qələmə aldığım nəsr parçasını, həm də yeni yazdığım "Vətən həsrəti" şeirimi alim dostuma göndərdim:



Hörmətli baş redaktor! Mən "Vətən həsrəti" qəzetini həm diqqətlə, həm də riqqətlə oxudum. Onun nədən, necə yazdığı ilə maraqlandım. "Vətən həsrəti" ifadəsi mənə çox məhrəmdir. Axı mən əsrin yarısını Vətənsiz, ancaq Vətən həsrətilə yaşamışam. Bu yaxınlarda Cənubi Azərbaycandan gələn o taylı qələm dostum, görkəmli ədəbiyyatşünas Məmmədəli Fərzanə Təbrizdə keçirdiyimiz gənclik çağlarını mənə xatırladıb dedi ki, səni Cənubi Azərbaycanda həsrət şairi adlandırırlar. Bu mənim üçün böyük iftixardır. Demək, yazılarımla mən də Vahid Vətən dərdi çəkənlərin yanğılarına şərik ola bilmişəm. Ancaq siz bu mövzuda qarşınıza daha böyük məqsədlər qoymusunuz. Ona görə də yalnız o taylı, bu taylı azərbaycanlıların deyil, həm də amansız taleyin hökmüylə dünyanın ayrı-ayrı məmləkətlərinə səpələnə-səpələnə qəribləşən azərbaycanlıların da Vətən həsrətindən yazırsınız. Sanki bu boyda həsrət hələ az imiş. Siz Vətəndə ola-ola Vətən həsrəti çəkənlərdən də danışırsınız. Bəli! Doğma Qarabağın didərgin övladları sizi dərindən düşündürməyə bilmir. Doğrudur, həsrət sözünün özündə bir nisgil, bir kədər, bir sükut var. Ancaq həsrət heç zaman nəyəsə uyğunlaşmağa, qane olmağa çevrilməməlidir. Yoxsa həsrət uzandıqca zilləti də uzanacaq. Bunu çoxları bilməsə də mən bilirəm. Nahaq deməyiblər ki, başına gələn başmaqçı olar. Arzum budur ki, sizin qəzet bütün dünyadakı azərbaycanlıların Vətən həsrətinə coşqun mübarizə, qəti inam, əbədi vüsal duyğuları aşılayıb onu Vahid Azərbaycanın özü boyda bir möhtəşəm əzəmətə çevirsin! Vətənin sədaqətli övladları Vətən həsrətindən bir-

dəfəlik qurtarsın. Vətən həsrəti yaman şeydir. Mən Vətən həsrətindən çox yazmışam. Ancaq ürəyim yenə də soyumayıb. Ona görə də Vətən həsrəti haqqında yazdığım təzə şeirimi sizə təqdim edirəm.

**Həsrət çəkməyən bilməz**
**Həsrət nədir dünyada.**
**Xiffət çəkməyən bilməz**
**Xiffət nədir dünyada.**
**Həsrət var, beş günlükdür,**
**Həsrət var, on günlükdür.**
**Həsrətə dönən illər**
**Nə təhərdir? Tünlükdür!**
**Həsrət var, təqsirindən**
**Bir qədər keçmək olar.**
**Sevdin, sevmədin, təzə**
**Bir yar da seçmək olar.**
**Bəs Vətən? Sanbalından**
**Nə təhər keçmək olar?**
**Onu nə təzələmək,**
**Nə də ki, seçmək olar.**
**İnsana nə var? Onun**
**Özü də dəyişilər.**
**Təması, məhəbbəti,**
**Sözü də dəyişilər.**
**Vətən dəyişilməz! O**
**Özü də əbədidir.**
**Təması, məhəbbəti,**
**Sözü də əbədidir!**
**Vay ondan, təşnə həsrət**
**Nə dil bilə, nə məqam.**



**İnadla, ovuc-ovuc,**
**Həm səhər, həm də axşam**
**Dəniz boyda yaddaşı**
**İçə-içə quruda.**
**İnsan ayaq açdığı**
**Yerləri də unuda.**
**O dalsa da Vətənin**
**Gözəllik sərgisinə,**
**Bir gül əksi düşməyə**
**Gözünün güzgüsünə.**
**Sonra başda ağ yumaq,**
**Üzdə çatıq qaş həsrət,**
**Tarda sarı sim ola,**
**Gözdə büllur yaş həsrət...**
**Hanı elə bir alov**
**Ürəyə axa bilə?**
**Vətən həsrəti qədər**
**Yandırıb-yaxa bilə?**
**Vətənin həsrətinə**
**Ömürlük dözən insan,**
**Fərmansız, möhürsüz də**
**Bir qəhrəmandır, inan!**
**Mən də belə insanam,**
**Bilir sevdiyim torpaq.**
**Öz ömrümü heç kimə**
**Rəva görmərəm ancaq.**
**Bəli! Mərd ömrümdəki**
**Hər hadisə, hər səhnə,**
**Zəngin tarixə dönən**
**Həyat olsa da, yenə**

**O ömrü düşmənə də**
**Rəva görməz ürəyim.**
**Köçəri quşlara da**
**Sakinlikdir diləyim.**
**Həsrət yaxşı olsaydı,**
**Ömürlər talanmazdı.**
**Ay Günəşin dalınca**
**Aramsız dolanmazdı.**

Baş redaktora göndərdiyim yazı "Vətən həsrəti" qəzetində çıxdı. Ancaq Vətən həsrəti elə ağır dərddir ki, nə deməklə, nə də yazmaqla qurtaran deyil.

## MƏNDƏN SONRA

48 il idi ki, doğma kəndimiz Çanaxbulaqdan çıxmışdım. Yaxın qohumlarımın üzünə həsrət qalmışdım. Təkcə yaxın qohumlarımınmı? Yox! Doğma kəndimizin arxasında qürurla ucalıb qəhrəmanlıq abidəsini andıran ağ çalmalı Savalana da tamarzı qalmışdım. Daha Savalanın məxmər çəmənliklərinin südlü yemliklərindən yemirdim. Buz bulaqlarının büllur sularından içmirdim. Qranit qayalarının kölgəsində dincəlib zümrüd kəvərlərinin ətrini udmurdum. İndi Savalanda keçirdiyim günləri yalnız xəyalımda yaşadırdım.

**Gəl bir qucaqlaşaq ana bala tək,**
**Sakitcə dayanma gendə, Savalan!**
**Amansız tufanlar döymüş qala tək**
**Sən də dəyişibsən, mən də, Savalan!**

**Alovlu inqilab döyüşlərində,**
**Şimşəyə dönəndə gülüşlərində,**
**Silahın, qələmin yürüşlərində**
**Mən öndə getmişəm, öndə, Savalan!**



**Buz paltar geyəndə bənd də, bərə də,**
**Ruhdan düşməmişəm mən bir kərə də.**
**Odlu nəfəsimlə dağda-dərədə**
**Duman da əriyib, çən də, Savalan!**

**Təmkin də tanışdır, təlaş da mənə,**
**Həyat da əzizdir, sirdaş da mənə,**
**Min həycanla dolu savaşda mənə**
**Mərd arxa olubsan sən də, Savalan!**

**Şamı xonçasında alışan toyda,**
**Çəpik də isidib havanı, qıy da.**
**Qürurla dönübsən sən özün boyda**
**Sehirli bir kəllə qəndə, Savalan!**

**Səni salamlayıb bir təzə əyyam,**
**Bir ildə min növraq yaradıb ilham...**
**Təbrizdən danışıb hər səhər-axşam**
**Misir də, İraq da, Çin də, Savalan!**

**Sonrasa araya boş yarğan düşüb,**
**Dünyada ən uzun bir hicran düşüb...**
**Özüm də bilmirəm nə zaman düşüb**
**Qara tellərimə dən də, Savalan!**

**Gəl bir qucaqlaşaq! Qol-boyun olaq!**
**Daha nə ayrılaq, nə fikrə dalaq...**
**Daim vüsal dolu bir nəğmə çalaq,**
**O müdrik də olsun, şən də, Savalan!**

Mən iki il Ərdəbildə ictimai-siyasi-ədəbi işlərdə çalışmışdım. Sonra Milli hökumət zamanı Təbrizdə Maarif Nazirliyində şöbə müdiri, sonra isə Təbriz Dövlət Filarmoniyasının müdiri vəzifəsində işləmişdim.

Daha sonra isə ayrılığın təlatümlü ümmanının nəhəng dalğaları məni Arazın o tayından bu tayına atmışdı.

**Daha öpüşmürük dodaq-dodağa,**
**Səndən nigaranam, Neştəri çayı!**
**Mən soyuq hicran yox, başdan-ayağa**
**Odlu həyəcanam, Neştəri çayı!**

**Başının üstündən kölgə keçəndə**
**Yaralanar deyə, üzünü gözlə!**
**Müasir "şimşəklər" dağı biçəndə**
**Sən də qurumaqdan özünü gözlə!**

**Yox! Gərək mehriban köksündə qalan**
**Mənim əksimi də qoruyasan sən!**
**Nə edim? Yanında olsaydı balan,**
**Yanardı... Qoymazdı quruyasan sən.**

**Sanma ki, unudub sərin suyunu**
**Zamanın özüylə döyüşmərəm mən.**
**Sənin büllurlaşan şirin suyunu**
**Duzlu okeana dəyişmərəm mən!**

**Deyirlər dürr sinən qabarır-enir,**
**Sənin də çağlayan həyəcanın var!**
**Neçin dalğaların təlaşla dinir?**
**Sənin ki, arxanda Savalanın var!**

**O qürurla baxır uzun boyuna,**
**İstəyir dərdlərə yarıyasan sən!**
**O göz yaşlarını qatar suyuna,**
**Dözməz susa-susa quruyasan sən!**



**Unuda bilmərəm ana torpağın**
**Mən nə çörəyini, nə də duzunu.**
**Sahibi olsam da neçə növrağın,**
**Mən nəyə çalışdım ömrüm uzunu?**

**Göz yaşı qurusun! Dağ baxıb dağla**
**Öyünsün fərəhli yoldaşı kimi.**
**Sən göz yaşı deyil, çaysan, ax, çağla,**
**Amandır, quruma göz yaşı kimi.**

Mən yalnız İranda "Bəhmən inqilabı" başlananda əmim oğlu Cavadın səsini telefonda eşitdim. Sonra da həm onun özüylə, həm də oğlu Hacı Əliylə hər həftə zəngləşib danışdım. Üzünü görmədiyim, adımı daşıyan Hacı Əliyə "Doğruçu inam" adlı bir şeir də həsr etdim.

**Mənim əziz balam! Sən doğulanda,**
**Mən axar-baxarlı Vətəndə yoxdum.**
**Şehdən güllər üstdə dürr yoğrulanda,**
**Mən dürr xəzinəli çəməndə yoxdum.**

**Təzəcə işaran söz ülkərimlə**
**Doğma kəndimizdən uzaqda idim.**
**Hələ qönçə yaşlı ilk əsərimlə**
**Mən də neçə-neçə dodaqda idim.**

**İllərin dalınca illər keçdisə,**
**Sizdən bir xəbər də tuta bilmədim.**
**Yellərin dalınca yellər keçdisə,**
**Vətənin ətrini uda bilmədim.**

**Sanki kimlər isə hər yerdə, hər an,**
**Azad yelləri də yoxlayırdılar.**
**Sanki icazəsiz qızaranda dan,**
**Günəşi zindanda saxlayırdılar.**

Xatirələr nədir? Yorğun dalğalar!
Təzə sahillərə dəyib qayıdır.
Saçları ağarmış vurğun dalğalar
Sözünü nəyəsə deyib qayıdır.

Oğul! İndi mənim varım-yoxum da
Yalnız şirin-acı xatirələrdir!
Sənət dünyasında azım-çoxum da
İlhamımın tacı xatirələrdir!

Sən ağzı dualı mərd baban kimi
İbadətlə dəydin müqəddəslərə.
Gah kövrək, gah daki sərt baban kimi
Hörmətlə baş əydin müqəddəslərə.

Gəzdinsə Vətənin sən harasında,
Özünlə gəzdirdin niyazını da.
Arabir sən iki daş arasında
Etiqadla qıldın namazını da.

Mənəsə zirvəni vəd etdi dövran,
Bilmədim zirvənin tək ağ donu var.
Görmədi dünyaya bələd bir insan,
Zirvə ucalsa da göydə sonu var.

Düşünürəm... Yenə bilmirəm, inan,
İnanmadığıma necə inandım.
Dedilər üfüqü bassa da duman,
Günəşlə doludur gecə, inandım.

Ancaq bir parça yox, tamam ömrümü
Dumanla döyüşə həsr elədim mən.
Bəli! Soyutduqca inam ömrümü,
Yoluna könlümdən od çilədim mən.



Odum şimşəkləşdi! Hər şimşəkdənsə
Yolum ağarmadı mehmanın olum.
Yaşımıza görə mən deməkdənsə,
Sən mənə deyirsən qurbanın olum.

Sən mənə tamarzı, mən də ki, sənə,
Yaman istəyirsən deyəsən məni.
Telfonda təmkinlə dinsək də, yenə
Az qalır tələsik yeyəsən məni.

Sənin alov dolu nigaran səsin
Tufanı mərdliklə qarşılar, oğlum!
Sənin qayğı dolu mehriban səsin
Mənə gəncliyimi aşılar, oğlum!

Kim bilmir bulağın suyu gözündə,
Şairin şeiri cibində olur.
Atalar nə deyib müdrik sözündə?
Şəfa piyalənin dibində olur.

Neçə nemət dolu fəslin içində
Müxtəlif olsa da çəkimiz indi,
Bir qədim şöhrətli nəslin içində
Bir ad daşıyırıq ikimiz indi.

Adımı Vətəndə daşıdığınçın
Sənə minnətdaram doğmam, sənə, mən.
Baba torpağında yaşadığınçın
Sanıram o yurdda varam yenə mən!

Mən daha nə yazım? Keçənlər keçib,
Təki axırımız yaxşı olaydı!
Müxtəlif nəsillər vahid yol seçib
Doğruçu inamla yaşa dolaydı!..

Cavad hər danışıqda mənimlə görüşmək istədiyini nisgillə deyirdi. Mən isə Cavada təsəlli verib tezliklə görüşəcəyimizi bildirirdim. Sanki ürəyimə dammışdı ki, biz görüşəcəyik. Yox! Ürəyə dammaq nədir? Qəti bilirdim ki, bu uzunluqda həsrət yolu axır görüş yerinə gedib çatmalıdır. Bəli! Gün o gün oldu ki, zülmlə ayrılmış xalq özü sərhəd dirəklərini yıxdı. Tikanlı məftilləri qırdı... Bizə də görüş imkanı yaratdı. Mən Cavada dəvətnamə göndərdim.

Bir gün Cavad Tehrandan zəng vurub dedi ki, iki gündən sonra xanımımla sənin görüşünə gəlirik. O taydakı Astarada bizi qarşıla. Mən Cavada sevinclə: – Baş üstə! – dedim – Sən bu taydakı Astaraya keçəndən sonra mütləq gözləyərsən. Günorta saat 2-də orda olacağam. Bilirsən də, Bakıdan bu taydakı Astaraya bir xeyli yol var. Cavad qətiyyətlə: – Mütləq gözləyərəm – dedi. Xudahafizləşdik. İki gündən sonra Cavadın xanımıyla gələcəyini eşidən qohumlar bizə yığışdılar. Möhkəm soyuqladığım üçün Cavadı qarşılamağa gedə bilmədim. Qonaqları qarşılamağa oğlumla kürəkənim getdi. Cavanlara dedim ki, maşını həm növbəylə, həm də ehtiyatla sürün. Günorta saat 2-də oğlum Astaradan zəng vurub dedi ki, Cavad əmigili tapa bilmirəm. Hər yeri axtarmışam. Soraq verən yoxdur. Məni heyrət bürüdü. Sonra heyrət həyəcana dönüb içərimə doldu. Bədənimi təlatümə gətirdi. Oğlum məyus-məyus: – İndi nə edim? – deyə soruşdu. Xəyalım min cür mülahizə ölçüb-biçdiyindən susdum. Cavab verə bilmədim. Dəstəkdə yenə: – İndi mən nə edim? – deyən oğlumun səsi məni xəyaldan ayırdı. Nigaran-nigaran: – Daha nə edəcəksən? – Bir az



da gözlə, gəl evə – dedim. Ancaq özüm də, həyat yoldaşım da, qohumlarım da narahat fikirlər burulğanında aram ola bilmədik. Düşündüm ki, bu nə işdi başıma gəldi? Bəlkə doğmalarım bu qarışıq zamanda yolda tələyə düşüb? Barı salamat olaydılar. Bircə Allah bildi ki, biz nə çəkdik. Arada inzibati orqanlara zəng vurub hadisəni demək istədim. Ancaq evdəkilər mənə bir qədər də səbr etməyi məsləhət gördülər. Mən də səbr etdim. Ancaq qulaqlarım səksəkədə idi. Birdən telefon səsləndi. Dərhal dəstəyi qaldırdım. Zəng vuran oğlum idi. Astaradan danışırdı. Deyirdi ki, avtobus vağzalına gedin. Gömrük işçiləri deyir ki, Tehrandan gələn qonaqlar heç kimi gözləməyib tez avtobusa minib Bakıya gediblər. Mən oğluma: – Yaxşı! Gedərik! Sən də daha orda qalma. Qayıt evə – dedim. Mən avtobus vağzalına getmək üçün geyinmək istəyəndə qızımla ortancıl kürəkənim məni getməyə qoymadılar. Özləri geyinib avtobus vağzalına getdilər. Ancaq bir qədər sonra qızım zəng vurub dedi ki, Astara avtobusu da, Lənkəran avtobusu da gəldi. Lakin qohumlarımız gəlmədi. Mən qızıma: – Daha neyləmək? Gəlin evə – dedim. Qızımla kürəkənim evə gəldilər. İntizar bizi nehrəyə döndərdi. O ki var, çalxaladı. Ancaq nə yağı yağ üstünə, nə də ayranı ayran üstünə gəldi. Birdən küçədən qarışıq səslər ucaldı. Sonra qapımız döyüldü. Qızım qapını açdı. Qapını döyən adam: – Mən sürücüyəm – dedi – görün bu ünvan sizinkidir. Tehrandan gələnləri gətirmişəm. İki nəfərdir. Maşında əyləşiblər. Qızım tələsik ünvana baxıb riqqətlə: – Hə, bizim ünvandır – dedi. Daha evə qayıtmadı. Pillələri tez-tez enib küçəyə çıxdı. Kürəkənim də qızımın dalınca küçəyə yü-

yürdü. Mən Cavadla pillələr üstdə görüşdüm. Yox! Görüşmək nədir? Bir-birimizə möhkəm-möhkəm sarıldıq. Sanki payızın soyuq havasında pillələr üstə iki sarmaşıq bir-birinə sarılmışdı. Zarafat deyildi. 48 il idi ki, bir-birimizdən ayrılmışdıq. Əgər qınayan olmasaydı, 48 il də pillələr üstə bir-birimizə sarılmış vəziyyətdə qalardıq. Yox! Qınayan olmasaydı da daha buna ömür çatmazdı. Birdən Cavadın tək gəlmədiyini xatırladım. Əmim oğlunu istər-istəməz buraxıb mehriban gəlinimizi bağrıma basdım. Axı biz bir ocaqda ərsəyə çatmışdıq. Baba ocağında. Evə gəldik. Qohumlar qohumlarla görüşdü. Ancaq necə? Sanki göyün əlçatmaz ulduzları yerə enib əlvan güllərlə görüşürdü. Evin bu başından o başına qədər uzanan masanın dövrəsində əyləşmişdik. Mən sevinc dolu gileylə Cavada: – Əmioğlu! Bu möcüzəylə dolu görüş öz yerində. Ancaq xəbərin var ki, sənin intizarını çəkməkdən daha bizdə ürək qalmayıb. Axı telefonda şərtləşdik ki, o taydakı Astaradan bu taydakı Astaraya keçəndən sonra bizi gözləyəsən. Biz də gəlib səni öz maşınımızla Bakıya gətirək – dedim. Cavad səmimiyyət dolu günahla: – Əmioğlu! Doğrusu dözə bilmədim. Bəli! 48 il dözdüyüm həsrətə bir dəqiqə də artıq dözə bilmədim. Özüm maşın tutdum. Xanımı da mindirib gəldim görüşə. Axı bu adi görüş deyil. Nadir görüşdür. Belə görüşü heç tarixin özü də görməyib. Sonra Cavad mənim o tayda haçansa yazdığım bir şeirdən bir bənd dedi:

**Könül! Sən nə yorul, nə bez, nə əyil,**
**Mehdə titrəyən gül dözümlü gülmü?**
**İnsan ölənədək qurtaran deyil**
**Yaşı bilinməyən dünyanın zülmü.**



Qəribədir. Hiss edirdim ki, Cavad söhbət zamanı mənə diqqətlə baxır. Mənim həddən artıq dəyişməyimə heyrətlənir. Ancaq üzümə vurmur. Axı Cavad özü də dəyişmişdi. Mən gördüyüm Cavad bu Cavadın nəvəsi yerində idi...

Yemək-içməkdən sonra süfrə yığıldı. Görüşə gələn qohumlardan gedəni də oldu, qalanı da. Qalanlar başqa otağa keçib bizi təkbətək buraxdılar. Mən nisgil dolu maraqla Cavada: – Hə, qardaş, indi danış! Telefonda mənə deyə bilmədiklərini de! De görüm biz Təbrizdən çıxandan sonra kənddə vəziyyət necə oldu? – dedim. O xəfifcə öskürdü. Sanki qəhərlənmiş boğazının yolunu arıtladı. Zarafat deyildi. Əmimoğlu doğma kəndimizin əlvan dastanının məndən sonra yazılmış neçə-neçə vərəqini çevirəcəkdi. Cavad düşünə-düşünə mənə: – Demokratların Təbrizdən çıxmasını hələ kənddə heç kim bilmirdi. Sən demə, Təbrizdə yaman qarışıqlıqmış. İt yiyəsini tanımırmış. Səhər Ərdəbilə gedən qəssab Ağababa günorta kəndə qayıtdı. Dedi ki, demokratlar Ərdəbildən qaçıblar. Kənd demokratlarının başçısı dayım Xudakərəm dərhal Ağababanı bir otağa saldırıb qapısını qıfılladı. Dedi ki, Ağababa yalan deyir. Kəndə çaxnaşma salmaq istəyir. Axı, dayım Xudakərəm Milli hökumətin özünə də, hünərinə də, vədəsinə də inanırdı. Bir qədər sonra Yeycə kəndindən gələn yolda tozanaq qalxır. Dayım Xudakərəm bir dəstə atlının Çanaxbulaq kəndinə gəldiyini görür. Dəstənin önündə at çapan saqqal Vəlini tanıyır. Bəli! Vəlinin şəvə saqqalını yolun tozu ağartsa da dayım Xudakərəm onu tanıyır. Saqqal Vəligil dayım Xudakərəmin həyətində atdan düşürlər. Atları tərləri so-

yuyana qədər həyətdə qoyub özləri evə keçirlər. Saqqal Vəli dayım Xudakərəmə qətiyyətlə: – Biz gedirik – deyir – Sən də bizimlə gedəcəksən. Dayım Xudakərəm heyrətə düşür. Deyirlər iki nəfər höcətləşirmiş. Biri o birinə deyib ki, tutaram qulağından, səni bu dağlarda dolandıraram. O biri deyir, neynək, dolandır. Ancaq sən də mənimlə dolanacaqsan, ya yox? Saqqal Vəli dayım Xudakərəmlə höcətləşmirdi. Ancaq onu hardasa dolandırmaq istəyirdi. Bəlkə həmən dəqiqələrdə xəyalına gətirmirmiş ki, özü də hardasa dayım Xudakərəmlə dolanacaq. Dayım Xudakərəm isə ürəyində fikirləşir ki, cəhənnəmə gedən özünə yoldaş axtarar. Bəlkə saqqal Vəli də məni cəhənnəmə aparır? Ancaq kənddə qalıb kəndin keçmiş kattası Səyədullanın təkəbbürlə dolu ədalarını həzm edə bilməyəcəyini düşünəndə saqqal Vəlinin dəstəsinə qoşulmağı qət edir. Əgər dayım Xudakərəm bilsəydi ki, saqqal Vəli də, onun kiçik qardaşı da dünyasını qürbət diyarda dəyişəcək, ayağını kənddən qırağa qoymazdı. Əgər dayım Xudakərəm bilsəydi ki, saqqal Vəlinin qardaşı Məcid ömrünün son dəqiqələrində məşhur bayatının yanğılı misralarını oxuyacaq, üzünü kənddən kənara çevirməzdi. Nə deyirdi o bayatı?

**Əzizim Vətən yaxşı,**
**Geyməyə kətan yaxşı.**
**Gəzməyə qərib ölkə,**
**Ölməyə Vətən yaxşı.**

Əgər dayım Xudakərəm bilsəydi ki, özünə əbədi yoldaş saydığı üç qardaşdan sonra özü qürbət diyarda həyatdan köçəcək, onda o üç qardaşdan dönə-dönə üzr



istəyib kənddə qalardı. Nə olardı, olardı... Atalar deyib ölü bu gün, şüvəni bu gün. Sonra saqqal Vəli dayım Xudakərəmdən məhrəmliklə: – Qatığınız var? – deyə soruşur. Dayım Xudakərəm arxayınlıqla: – Var – deyir. Sonra arvadından qatıq istəyir. Arvad kasanı camış qatığı ilə doldurub gətirir. Saqqal Vəli qatığı içir. Sonra dayım Xudakərəmin arvadına deyir ki, qatıq qazanını bura gətirin. O da qatıq qazanını gətirir. Saqqal Vəli üzünü yoldaşlarına tutub deyir: – Bu qatıqdan doyunca için! Daha belə qatıq içə bilməyəcəksiniz.

Bəli! Sanki dünənki kömbə bu günə qalıb fətirləşir. Adamların gözlərində daha içə bilməyəcəkləri qatıq nadirləşir, təbərrikləşir, müqəddəsləşir. Əl çatmayacaq günəşə, aya, ulduza dönür...

Saqqal Vəlinin yoldaşları qatığın hamısını içirlər. Dəllək İsmayılın arvadı Hürü tövşüyə-tövşüyə bizə gəldi. Dedi ki, bayaq dayın Xudakərəmgilə bir dəstə atlı gəldi. Get, gör nə məsələdir? Mən tələsik əynimi dəyişib dayım Xudakərəmgilə qaçdım. Qapı açıq idi. Evə girdim. İlk olaraq saqqal Vəlini gördüm. Görüşdük. Sonra da saqqal Vəlinin yoldaşlarıyla salamlaşdıq. Bəs dayım hanı? – deyə soruşdum. Saqqal Vəli riqqətlə: – Pəyədə atını yəhərləyir, – dedi – indi gələr. Doğrudan da dayım Xudakərəm gəldi. Ancaq necə? Gəmiləri fırtınada batmış adam surətində! Bir gün əvvəl gözlərində parlayan sevinc boz buludlar içində itmiş günəşə bənzəyirdi... Saqqal Vəli yoldaşlarıyla ərklə dolu fərmanla: – Haydı! Atlara minin, gedək – dedi. Dəstə yenidən atlandı. Dayım Xudakərəm də atını pəyədən həyətə çıxarıb mindi. Atlar Ərdəbil yoluna doğru yönəldi. Piyada kənd sakinləri də atlıların ya-

nıyca yeridi. Qəribədir. Qaçan da Allahı çağırır, qovan da. Saqqal Vəli də atlıların qabağına düşüb qətiyyətlə: – Ya Allah! Getdik! – dedi.

Atalar deyib ki, duran öküz yatan öküzün başına batırar. Allah isə deyib ki, səndən hərəkət, məndən bərəkət. Ancaq heç kim saqqal Vəliyə qaçırsınız? – deyə bilməzdi. Saqqal Vəli o dəqiqə at üstdə geri qanrılıb tapancasına doldurduğu güllələrin hamısını hərifin qarnına boşaldardı. Onsuz da saqqal Vəli atını yola çıxarmamış geri qanrıldı. Əvvəl kənd sakinlərinə sakit-sakit, məhrəm-məhrəm, fikirli-fikirli bir xeyli baxdı. Sonra hərarətlə dolu eyhamla: – Camaat! – dedi – biz gedirik. Ancaq həmişəlik yox, qayıtmaq üçün gedirik. Siz də bir-birinizdən muğayat olun! Sabah biz qayıdanda heç kimdən şikayət eşitməyək. Yoxsa müqəssirlər cəzalanacaqdır. Kimsə, haçansa saqqalım yoxdur, sözüm ötmür deyib. Ancaq saqqal Vəlinin saqqalı vardı. Gərək sözü ötəydi. Lakin sonra belə olmadı... Mən dayım Xudakərəmin atının cilovundan yapışıb kövrələ-kövrələ: – Dayı, bizi kimə tapşırıb gedirsən – dedim. Axı dayım Xudakərəm yaxşı bilirdi ki, kənddə bizim düşmənimiz çoxdur. O gedəndən sonra düşmənlərimiz bizim üstümüzə düşəcəklər. Ancaq dayım Xudakərəm dinmədi. Mən isə su meymunun boğazına çıxanda balasını ayağının altına alar məsəlini xatırladım. Halbuki, insanın canı daha əzizdir. Sonra atın cilovunu buraxdım. Çünki o biri atlılar bir az aralıda dayım Xudakərəmi narahat-narahat gözləyirdi. Saqqal Vəli atının cilovunu buraxdı. At əvvəl şahə qalxdı. Sonra Ərdəbilə doğru götürüldü. Dalınca gedən atlar da dördnala çapdı. Mən



ağır addımlarla kəndə qayıdanda yolun altından qaynaya-qaynaya çıxan “Buzlu” bulağa baxdım. Sanki həmişə “Söyüdlü dərə”yə səs sala-sala axan sular da həzinləşmişdi. Gedənlər üçün vida nəğməsi oxuyurdu...

Birdən qapı döyüldü. Qızım gedib qapını açdı. Gələn oğlumla kürəkənim idi. Astaradan boş qayıdırdılar. Oğlum başını uzadıb otağa baxanda Cavadın divanda mənimlə üzbəüz əyləşib söhbət etdiyini gördü. Papağını, plaşını, ayaqqabısını soyunmadan içəriyə cumdu. Cavadla qucaqlaşıb öpüşdü. Sonra da kürəkənim soyunub otağa keçdi. Qonaqla görüşdü. Cavad Bakıya yola düşüb Astarada gözləyə bilmədiyi üçün gənclərin hər ikisindən ağsaqqal nəzakətilə üzr istədi. Mən Cavadın söhbət kələfinin harda qırıldığını unudacağından qorxaraq üzümü yenidən ona çevirdim. Sonra nigaran-nigaran: – Danış, əmioğlu! Danış görək həyəcan dolu hadisələrin gerisi necə oldu? – dedim. O yenə xəfifcə öskürdü. Sanki bu dəfə sinəsində donub qalan xatirələri yanğılı dilinin üstünə gətirib əritmək istədi. Cavad məhrəm-məhrəm: – Mən gedənləri ötürüb kəndə doğru addımlayanda səni, İsrafili, Gəlinxanımı düşünürdüm. Gəlinxanımın qucağındakı 6 aylıq Südeyfi anırdım. Deyirdim görəsən indi bu doğmalarım Təbrizdə neyləyirlər? Orda qohum yox, qardaş yox... Axı İsrafil sənin də, mənim də bibimiz oğludur. Həyat yoldaşı Gəlinxanım isə sənin xalandır. Onları Təbrizə sən apartdırmışdın... Dönüb Savalana baxdım. Savalan ağzı üstə çevrilmiş nəhəng ürəyə bənzəyirdi. Sanki o gələcək çarpışmalara davam gətirmək üçün ağzını torpağa

söykəyib enerji əmirdi. Yenə səni düşündüm. Haçansa, kiməsə yazdığın misraları dodaqaltı pıçıldadım:

**Ulduzlar arasında**
**Düzdür, o yalqız idi.**
**Ancaq ən iri, ən saf,**
**Ən parlaq ulduz idi.**
**O xırda ulduzları**
**Əridirdi oduyla.**
**Mötəbər bir ünvana**
**Dönürdü mərd adıyla.**
**Yox! Qayğını duyandan**
**O yerə-göyə aşiq,**
**Xırda ulduzlara da**
**İşıq verərdi, işıq!**
**O nə xələt, nə dövlət,**
**Nə də şöhrət bilərdi.**
**Yox! Şöhrət özü onun**
**Arxasınca gələrdi.**

Mənə elə gəldi ki, bu səmimiyyətdən yoğrulmuş şeir ən çox sənin özünə yaraşır. Sonra fikirləşdim ki, yəqin bu qatarı işıqlı, əzmi təpərli, nəfəsi şəfqətli sözlərin müəllifinin özü Təbrizin harasındasa tənhalıq məngənəsində çabalayır. İndi şöhrət nədir? Ona fürsət gərəkdir ki, o məngənədən çıxa bilsin. Gözlərim doldu. İki damla odlu yaş yanaqlarımı yandıra-yandıra sinəmə düşdü... Sonra atam usta Qulamı düşündüm. Axı, o da rəiyyəti olduğumuz Əbişağa ilə ümid doğruldacaq mübarizə aparmaq üçün ömrünün ahıl çağında silah götürüb fədailərə qoşulmuşdu. Daha evə gəlmirdi. Ərdəbil-



də yaşayırdı. O gecə səhərə qədər səksəkəli yatdıq. Səhər kənd nəhəng arı şanına döndü. Sanki, kimsə nəhəng arı şanına barmaq uzatdı. Arılar uçub getdi. Nəhəng şanın balını da özüylə apardı. Kəndin həyatı acılaşdı. Yalnız demokratlar getmədi, yox! Demokratların qohumları da, dostları da, pərəstişkarları da kənddən çıxdı. Sən demə, saqqal Vəli başının dəstəsiylə Astara yolundakı çayxanalardan birində əyləşib çay içəndə tələyə düşübmüş. Demokratlar rahat-rahat çay içəndə bir nəfər him-cimlə saqqal Vəlini başa salır ki, sizi mühasirəyə alıblar. Hamınızı tutacaqlar. Saqqal Vəli də him-cimlə yoldaşlarına çatdırır ki: – Tez olun! Qalxın! Gedək! Demokratlar dərhal ayağa qalxıb çayxanadan çıxırlar. Qapıda ağaclara bağlanmış atlara minib havaya bir neçə güllə atırlar. Sonra atlarını dördnala Astaraya çapırlar...

Dayım Xudakərəm kənddən getdikdən cəmi bir gün sonra demokratlar hakimiyyət başına gələndə kəndin kattalığından çıxarılan Səyədulla yenidən kəndin kattası oldu... Belə zamanda deyiblər, nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım. İndi kənd sakinləri dəstə-dəstə dükanlara yığılır. görüşür, danışır, yalnız bu yolla həm bir-birindən, həm də həyəcanla dolu hadisələrdən xəbər tuturdu. Mən də durub dükana getdim. Dükan adamla dolu idi. Yuxarı başda məxmər döşəkçə üstündə rahat əyləşən Səyədulla adamlar arasında vüqarla dayanan Niftalıya həqarətlə: – Tez ol! Tüfəngi gətir! Yoxsa dərini boğazından qopartdıraram – deyirdi. Niftalı isə Səyədullaya qətiyyətlə: – Məndə tüfəng

yoxdur, – deyirdi – onu şəhərdə təhvil verib gəlmişəm. Sən demə, fədailər Ərdəbildə dağılanda Niftalı da tüfəngini çiyninə salıb kəndə gəlir. Kənd içində dolaşan qəssab Ağababa onun çiynindən asılmış tüfəngi görür. Sonra qaçıb Səyədullaya xəbər verir. Niftalı isə tüfəngi təndirin küfləsində gizlədir. Səyədulla daha Niftalıya heç nə demədi. Üzünü iki gəncə tutub ötkəm-ötkəm:
– Gedin bunun gəlinini gətirin – dedi. Bu zaman Niftalının üzü ağappaq ağardı. Sanki kişinin üzünə bir parça ağ kətan yapışdırdılar. Axı, o, cəmi üç ay əvvəl oğluna toy edib gəlinini təntənəylə gətirmişdi. Niftalı qəzəbdən titrəyə-titrəyə Səyədullaya: – Yox! Yox! Onlar getməsinlər. Mən özüm gedib tüfəngi gətirərəm – dedi. Səyədulla təkəbbürlə Niftalıya: – Yaxşı! Get! Gətir!
– dedi. Niftalı gedib tüfəngi gətirdi. Qəribədir. Səyədulla tüfəngə baxa bilmirdi. Sanki tüfəngin lüləsinin parıltısı gözlərini qamaşdırırdı. Yox! Sanki ehtiyatlanırdı ki, birdən tüfəng öz-özünə də açıla bilər. Onda yalnız bircə güllə də Səyədullanın buz bağlamış ürəyinə dəyib alışsa nəinki kattalığı əlindən çıxar, hətta ömür kitabı da bağlanar. Tüfəngi o gənclərdən biri götürüb çiyninə saldı. Daha dükanda qala bilmədim. Evə getdim. Biz xırman vaxtı kəndin varlı adamlarından bir qədər taxıl yığmışdıq ki, yoxsullara paylayaq. Mən özlüyümdə qəti qərara gəldim ki, yığılan taxılları sahiblərinə qaytarmaq gərəkdir. Yoxsa Səyədulla öz yerini varlıların yanında şirin salmaq üçün taxılları bizdən təkidlə tələb eləyəcək. Hələ bəlkə təhqirə də keçəcək. Elə də etdik. Yığdığımız taxılları sahiblərinə qaytardıq. Gecə ayaqqabılarımı çıxarıb evin küncünə qoyanda atamın geydiyi fədai ayaqqabılarını gördüm. Atam yadıma düşdü. İnsanın xatirəsi elə sərgidir ki, yazdığı – bitdiyi həmişə üstündədir. Görkəmində nə qədər əl gəzdirsən nizamı pozulmaz. Sən ki, atamı tanıyırdın. Alicənab, xeyirxah, zəhmətkeş bir insan idi. Ancaq yaman məğrur idi. İnadından dönməzdi. O, mahalda məşhur dərzi ola-ola çiyninə tüfəng salıb ahıl yaşında fədai oldu. Ona görə ki, Əbişağa kişinin zəhləsini tökmüşdü. Amma bəzən mərhəməti inadını üstələyirdi. Bilirsən ki, anam dünyasını dəyişəndən sonra o uzun müddət evlənmədi. Sonra biz kişinin üstünə düşüb özümüz ona evlən – dedik. Kişini üzdən-gözdən apardıq. O da boz atını minib qonşu kəndləri dolaşdı. İndi atam nə Leylisini axtaran Məcnun, nə də arşın malı satan Əsgər idi. Yox! Dörd övlad böyüdən müdrik ata idi. Kişi evə qayıtdıqdan sonra mənə dedi ki, Yeycə kəndində bir qadın görmüşəm, daha doğrusu, mənə göstəriblər. Kürəkən Əvəzlə gedib o qadına baxın, xoşunuza gəlsə, mənə alın. Əvəzlə Yeycə kəndinə getdim. Bizə bir qadın göstərib dedilər ki, bu usta Qulamın gördüyü qadındır. Qadına diqqətlə baxdım. Sözün doğrusu, bir o qədər də xoşuma gəlmədi. Ancaq düşündüm ki, madam atamın öz xoşuna gəlib, daha araya başqa niyyət girə bilməz. Çanaxbulağa qayıtdıq. Bir həftədən sonra mən bir qədər təzə paltarla qadını gətirmək üçün Yeycə kəndinə getdim. Onu geyindirdilər. Xeyir-duasını verib, tərkimə mindirdilər. Mən də atın başını Çanaxbulağa döndərib sürdüm... Atam yeni arvadıyla çox soyuq davranırdı. Az

baxışırdı, az danışırdı, az maraqlanırdı. Qadının bizə gəldiyi gündən heç bir ay da keçməmişdi. Bir gün hardansa evə gələndə atamın yeni arvadıyla danışdığını eşitdim. Geri qayıdıb dükana getdim. Bir qədər keçəndən sonra evə qayıtdım. Gözlərimə inanmadım. Qadın öz evinə qayıtmaq üçün yır-yığış eləyirdi. Atam isə danışmırdı. Elə paltartikən maşının çarxını hərləyirdi. Qadın yır-yığışını qurtardı. Sonra utana-utana mənə: – Zəhmət olmasa məni Yeycə kəndinə apar – dedi. Heyrət məni öz yerimdə dondursa da səsimi çıxarmadım. Atı yəhərlədim. Qadını tərkimə alıb Yeycə kəndinə apardım. Qayıdanda atam məni həyətdə qarşıladı. Atın yəhərini özü götürdü. Sonra pəyəyə aparıb yerində bağladı. Qabağına ot tökdü. Kişi sanki yük altından çıxmışdı. Yüngülləşmişdi. Evə qalxdıq. Atam paltartikən maşının arxasına keçdi. Sonra təəssüf dolu etirafla mənə: – Bu qadın mən gördüyüm qadın deyildi – dedi. Sən demə, Yeycə kəndində bizi aldadıblarmış. Mənə göstərilən qadın atama göstərilən qadın deyilmiş. Mənsə qadını tanımadan evimizə gətirmişəm. Atam da utanıb məsələnin üstünü vurmayıb. Bəli! Mərhəməti inadına qalib gəlib. Qadını geriyə qaytarmayıb. Neçə gündən sonra onu evinə qayıtmağa razı salıb...

Atalar deyib, söz sözü çəkib gətirər. Bəli! Sözdən qədim, mahir, ötkəm sarban yoxdur. Mənim danışdığım hadisələrin biri o birini itələyib qabağa keçsə, məni bağışda.

Mən hörmət dolu təkidlə Cavada: – Buyur, əmioğlu! Necə istəyirsən, elə də danış – dedim.



Cavad dalğın-dalğın: – Səhəri əmniyyələr kəndə doldu. Atalar deyib, ağanın malı gedər, muzdurun canı çıxar. Əmniyyələr də şahın inanılmış muzdurları idi. Sanki onlar zahirdə şahın hakimiyyətini müdafiə edirdilər. Özü də kimdən? Silahsız zəhmətkeş insanlardan! Batində isə qəddar əmniyyələrin heç zalım şaha da yazığı gəlmirdi. Bəli! Yalnız zəhmətkeş insanlardan özlərinə sərvət toplamaq üçün dəridən-qabıqdan çıxırdılar. Həm də necə? – siz şahın üzünə ağ olubsunuz. Qanunu pozubsunuz. Növrağını dağıdıbsınız. Dindən çıxıbsınız. Allahın yerdəki kölgəsini ayaqlayıbsınız – deyə zəhmətkeş insanları tuta-tuta, döyə-döyə, söyə-söyə təhqir edirdilər. Bəli! Əmniyyələr də öz aləmlərində ağa olmaq istəyirdilər. Ancaq köhnə cilddə yox, təzə cilddə. Onlar təmaslarının da, müsahibələrinin də, diləklərinin də növünü dəyişmək istəyirdilər. Guya, camaat elə bilsin ki, bu cənablar yeni tipli dövlət xadimləridir.

Yaxşı yadımdadır. Bir zaman sən hələ gənc olsan da müdrikcəsinə deyərdin ki, siyasətin üç silahı var. Birinci fərasət, ikinci cəsarət, üçüncü rəşadətdir. Bu üçündən biri çatışmasa siyasət hökmən məğlubiyyətə uğrayacaq. Ancaq deyəsən Milli hökumətin siyasətində bu üç silahın üçü də çatışmayıb. Sonra bu çatışmazlıq yalnız adi məğlubiyyətlə yox, nadir fəlakətlə nəticələnib. Şahidi olduğum hadisələrdən sənə söz açmazdan əvvəl eşitdiyim bir rəvayəti danışmaq istəyirəm. Deyirlər bir gün bir kişi öz dostugilə qonaq gedir. Həmən axşam evin sahibəsi qonaq üçün küftə bişirir. Qonaq da yeyir. Sabahı qonaq gözləyir ki, yəqin ev sahibəsi ax-

şama plov bişirəcək. Axı, plov şərq xörəklərinin tacı sayılır. Ancaq qonağın arzusu gözündə qalır. Ev sahibəsi axşam qonağın qabağına yarpaq dolması qoyur. Qonaq əlindəki çəngəli nimçədə qalaqlanmış dolmalardan birinə vurub yarpağını soyur. Sonra məzəli-məzəli yarpağı soyulmuş dolmaya: – Sən məni xam sayma, sən dünənki küftəsən, bu gün yarpağa bükülüb gəlibsən – deyir. Ev sahibləri heyrətlə bir-birinin üzünə baxır. Ancaq heç kim daha danışmır. İran dövlətinin Cənubi Azərbaycanı yenidən istila edib özününküləşdirməsi də qonağın dolmaya dediyi sözləri xatırladırdı... İlan harda nə qədər əyri gəzsə də öz yuvasına düz gedir. Ancaq Səyədulla öz yuvasına düz getmirdi. Yox! Ətrafını sanca-sanca, vura-vura, çala-çala gedirdi... Günortaya qədər kənd içinə çıxmadım. Əmniyyələrin gözlərinə görünmək istəmədim. Günorta dayım Bəhram bizə gəldi. Yaman tutqun idi. Mən nigaran-nigaran: – Nə olub? – deyə soruşdum. O hirsli-hirsli: – Səyədulla əmniyyələrə deyib ki, səndə yaxşı fədai ayaqqabıları var. Əmniyyələr də məni göndərdi ki, ayaqqabıları aparım – dedi. Atalar deyib it itlə savaşdı, dilənçiyə girəvə düşdü. Başa düşdüm ki, əmniyyələr kənd sakinlərinin arasındakı ədavətdən də öz mənafeləri üçün istifadə edir. Bu zaman qonşu evdən bağırtı səsi gəldi. Mən heyrət içində eşiyə çıxmaq istəyəndə dayım Bəhram qoymadı. Hiddətlə mənə: – Getmə – dedi – əmniyyələr Meyxoşu döyürlər. Axı, onda da fədai ayaqqabıları var. Mən səssiz-səmirsiz durub fədai ayaqqabılarını gətirdim. Sonra qəzəblə: – Al, apar bu ayaqqabıları çırp Səyədullanın başına – dedim. Dayım fədai ayaqqabılarını götürüb getdi. O gedib Səyədullanın evinin damına çıxır. Bacadan içəriyə baxır. Görür əmniyyələr xalça üstdə bardaş qurub əyləşiblər. Şahsevənli Qılınc bəy də yuxarı başda əyləşib aşağı başda əyləşən Səyədullaya nəsə deyir. Dayım Bəhram fədai ayaqqabılarını düz Səyədullanın qabağına atıb lovğa kattaya istehzayla: – Səyədulla, bu ayaqqabıları Cavad göndərdi. Götür. Gey ayaqlarına. Ancaq daha əzazillikdən əl çək – deyir. Sonra evlərinə gedir. Özünü təhqir olunmuş sanan Qılınc bəy Səyədulladan soruşur ki, Cavad sənə neynəyib? Səyədulla tutula-tutula: – Heç nə! – deyir. Qılınc bəy acıqla Səyədullaya: – Onda bəs soğan yeməyibsən, için niyə göynəyir? – deyir. Sonra daha Səyədullanın mənimlə işi olmadı.



Bir gün Çanaxbulağa xəbər yayıldı ki, İsrafil ailəsilə Təbrizdən İmiççə kəndinə gəlib. Bilirsən də, İmiççə kəndinin yarısı nənən Qəribin qohumları idi. Səyədulla bir dəstə əmniyyə ilə İmiççə kəndinə getdi. Mən də getdim. Səyədullanın İsrafillə əvvəldən ədavəti vardı. İsrafilin ictimai fəaliyyətindən doğan şöhrətini Səyədullanın gözü götürmürdü. Atalar deyib ki, iki qoçun başı bir qazanda qaynamaz. Səyədulla kinayəylə İsrafilə Sovet İttifaqı nəhəng nağaraya bənzəyir. Nağaranın səsi uzaqdan xoş gələr. Yaxına getsən görərsən ki, nağara bir dəridir, bir də sağanaq – deyirdi. Halbuki, Sovet İttifaqının İsrafilə heç bir dəxli yox idi. O Cənubi Azərbaycan vətəndaşı idi. Həmişə öz vətəninin təəssübünü çəkirdi. Səyədulla bu sözləri onu əsəbiləşdirmək

üçün deyirdi. Səyədulla əmniyyələrə təpindi ki, ölüləri bir-bir yuyarlar. Əvvəl Gəlinxanımı tutun! O ərindən də fədakar inqilabçıdır. Əmniyyələr Gəlinxanımın üstünə hücum edəndə qucağındakı altı aylıq Südeyf qışqırdı. Bu zaman İmiççə kəndinin ağsaqqalı Məşədi Fərman dik sinəsilə əmniyyələrin qarşısını kəsib qətiyyətlə Səyədullaya: – Gəlinxanım mənim qohumumdur. Onu heç kim tuta bilməz! – dedi. Əmniyyələr İsrafili tutub Ərdəbilə apardılar. O altı ay zindanda yatdıqdan sonra İmiççə kəndindən Gəlinxanımı da körpəsilə götürüb Çanaxbulağa gəldi. Əli, sən Təbrizdən çıxanda içi dolu mənzilin qalmışdı. İsrafil içindəkiləri də, mənzilini də satıb əlində sərmayə etdi. Qazancı o qədər artdı ki, kişinin boynuna həcc gətirdi. İsrafil Məkkəyə gedib Hacı İsrafil oldu. Səyədullanı kattalıqdan çıxartdılar. Deyirlər su səhəngi suda sınar. Səyədullanın isə yalnız ruhu sınmışdı. Başqa yeri yox! Qış qarı yazda əriyər. Ancaq Səyədullanın dövləti elə qışda əridi. İş o yerə çatdı ki, Səyədulla ehtiyac üzündən İsrafilə əl açmalı oldu. Bir gün dükana getmişdim. İsrafil çay içirdi. Keyfimi xəbər aldı. Sonra atamdan bir soraq tutub-tutmadığımı soruşdu. Dedim hələ bir soraq yoxdur. Bu zaman Səyədulla dükana girdi. Əlini uzadıb İsrafildən bir tümən pul istədi. Mən ataların şahın da qaraçıya işi düşərmiş məsəlini xatırladım. İsrafil isə hər şeyi unudaraq cibindən çıxartdığı bir tümənliyi iki barmağı arasında adamlar içində qızara-qızara pul gözləyən Səyədullaya uzatdı. Qaya gövdəli keçmiş katta sudan çıxmış cücəyə dönüb büzüşə-büzüşə dükandan çıxdı...



Bir gün soraq tutduq ki, atam da fədailərlə o taya keçib. İndi Gəncədədir. Bildim ki, daha atamın paltartikən maşını işləməyəcək. Maddi cəhətdən korluq çəkəcəyik. Evdə qadınlar xalça toxumaq üçün iplər hazırladılar. Mən də aparıb Ərdəbildə satdım. O ili qış ağır keçdi. Sanki insanların dərd yükü yüngül imiş, bir qədər də qış ağırlaşdırdı. Bir gecə elə qar yağdı ki, sanki göy yerə ağ zanbaqlar səpələdi. Ancaq o ağ zanbaqlar yerdə nəinki açılmadı, əksinə, yolları bağladı... Gecə yarısı qonşu evdə yaşayan Meyxoş həyətə çıxır. Birdən tufana qarışa-qarışa ətrafa yayılan bir haray eşidir. Ancaq Meyxoş harayın hardan gəldiyini dəqiqləşdirə bilmir. Qayıdıb evə girir. Mən xalça iplərini xurcunun gözlərinə doldurub Ərdəbilə yollandım. Bir qədər getdikdən sonra yolda ağ qarın üstdə səpilmiş saman gördüm. Sanki ağ kəfən üstdə sarı qızıllar sərmişdilər. Məni heyrət bürüdü. Axı, bu qarlı havada yola niyə saman səpilsin? Ləngərli addımlarla samanın izilə getdim. Başımın üstdə yavaş-yavaş hava ağardı. Birdən bir daş üstdə əyləşən dalı səbətli adamın gülə-gülə mənə baxdığını gördüm. Ay Allah! Bu ki, Çervon Əlidir! – deyə qışqırmaq istədim. Ancaq kəndlimin diksinəcəyindən qorxub səsimi içimə saldım. Sən demə, gecə Meyxoşun eşitdiyi harayı Çervon Əli çəkirmiş. Çervon Əli Sovet Azərbaycanında repressiyaya uğramışdı. Cənubi Azərbaycana sürgün olunmuşdu. Sonra vətənində inqilab ocağı alovlanmışdı. O da ürəyinin odunu həmən alova qatmışdı. Azadlıq yolunda döyüşən fədailərin ön cərgələrində addımlamışdı. Fədailər doğma məskənlərini könülsüz tərk edəndə o kənddə qalmışdı. Çervon Əli yenə kəndliləri şahın zülmünə qarşı döyüşə

çağırırdı. Bir gün Ərdəbildən kəndə bir dəstə atlı əmniyyə gəldi. Çervon Əlini tutub soyundurdular. Sonra üzüqoylu yerə yıxdılar. Açıq kürəyinə şallaq döşəməyə başladılar. Bəli! Zülmün ağır yükləri altında yağır olmuş kürəyinə məlhəm əvəzinə şallaq döşədilər. Əmniyyəbaşı itaətində duran əmniyyələrə lovğa-lovğa: – Vurun bu nankoru! Qoy görsün ki, zülm necə olur! Sonra yaşadığı günlərin qədrini bilsin – deyir. Şallaqlar Çervon Əlinin açıq ürəyinə dəydikcə zolaq-zolaq yeri qalırdı. Yox! Sanki şallaqların özləri onun açıq kürəyinə yapışıb qalırdı. Həmişəlik məskən salırdı. Sanki açıq kürəyinə daha şallaq dəyməsin deyə onu çəpərə alırdı. Şallaqlar isə açıq kürəyi döyəcləməkdə davam edirdi. Sonralar Çervon Əli ümumi hamama getməyə utanardı. Yeridikcə özü hiss etmədən belini əyərdi. Dostları kişini danlayardı ki, sən hələ o qədər qocalmamısan, belini niyə əyirsən? O istehzayla gülüb deyərdi: – Dəvəyə dedilər boynun niyə əyridir? Dedi haram düzdür ki, boynum da düz ola? Ancaq mən deyirəm ki, insanın özünün hər yeri əyri ola bilər, təki taleyinin heç yeri əyri olmaya. Yükü ağırlaşmaya, beli əyilməyə, yerişi dəyişməyə... Sonralar kəndin zəhmli hampalarından sayılan molla Mərdalı Çervon Əlini insan yerinə də, heyvan yerinə də işlədirdi...

Doğrusu, mən biləndə ki, dişləri ağaran Çervon Əli qış gecəsinin qar təlatümündə donub, bir qədər vahimələndim. Kimsə, haçansa deyib, səni istəyirəm, ancaq özümü səndən də çox istəyirəm. Görünür o sözləri deyən namərd adammış. Axı mərd adam başqasının taleyini öz taleyində də uğurlu istər. Mən Çervon Əliyə yaxınlaşıb qarşısında dayandım. Buz heykələ dönmüş



insana baxdım, baxdım... Gözlərim doldu. Hönkür-hönkür ağladım. Çervon Əli isə elə gülürdü. Məni heyrət bürüdü. Dedim mən ağlayıram, bəs bu nəyə gülür? Birdən mənə elə gəldi ki, Çervon Əli indi repressiya zamanı düşdüyü zillətə də, inqilab ocağında çəkdiyi zəhmətə də, nalayiq adamlardan aldığı töhmətə də gülür. Elə gülür ki, daha ağzını yummaq mümkün olmasın. Daha Ərdəbilə gedəsi olmadım. Kəndə qayıtdım.

Deyirlər keçmişdə bir oğru gecə yarısı bir dükanın qapısına söykənib qıfılla əlləşir. Oğru nə təhər olursa-olsun dükanı yarmaq istəyir. Axı səhərə az qalırmış. Bu zaman dükanın yanından ötən bir yolçu bir nəfərin dükanın qapısına söykəndiyini görüb dayanır. Maraqla: – Sən bu gecə yarısı orda neyləyirsən? – deyə soruşur. Oğru öz təhri-tövrünü heç pozmadan: – Kamança çalıram – deyir. Yolçu heyrətlə oğruya: – Bəs səsi niyə çıxmır? – deyə soruşur. Oğru istehzayla: – Səsi sabah çıxacaq – deyir. Sadəlövh yolçu daha bir söz deməyib yoluna davam edir...

Molla Mərdalı da oğru idi. Düzdür, o dükan yarmamışdı. Ancaq Çervon Əlinin zillətlə dolu əməyini oğurlamışdı. Ancaq oğurluğunun üstü bu sabah açılmışdı. Yox! Özü açılmamışdı. Onu qara kürklü gecənin qışqıra-qışqıra doğduğu ağ bələkli sabahın tufanlı nəfəsi açmışdı. Özü də ətrafa yanğılı kaman səsi yaya-yaya.... Axı həqiqət susa bilməz. Ancaq yanar. Özü də yalanla mübahisəyə girəndə. Sənin həqiqət haqqında yazdığın hərarət dolu misraları xatırladım:

**Həqiqət insanla bir yaranmışdır,**
**Ancaq zaman-zaman çox aranmışdır...**
**Yox! Yox!**
**O özü də qərinələrlə**
**Döş-döşə gəlmişdir biganələrlə.**
**Arxası həmişə insan olmuşdur,**
**Diləyi ən gözəl dövran olmuşdur...**
**Yanğınlar söndürmüş dodaqlarıyla,**
**Zindanlar uçurmuş dırnaqlarıyla...**
**O qətran qanadlı zülmətə düşmüş,**
**Pusquya, uçruma, zillətə düşmüş,**
**Daim öyünmüşdür təmiz adıyla!**
**İri gözlərinin yanar oduyla**
**Qaranlığa yazmış:**
**– Mən həqiqətəm!**
**Mən mübarizəyəm, mən ədalətəm!**
**O suda batmamış, odda yanmamış,**
**Nə məslək, nə ilqar, nə and danmamış...**
**Başına cəlladlar toplananda da,**
**Köksünə qılınclar saplananda da,**
**Var səsiylə demiş:**
**– Mən həqiqətəm!**
**Mən firavanlığam! Mən səadətəm!**
**Vurulmuş, yıxılmış üzü üstə o,**
**Durmuş, iməkləmiş dizi üstə o!**
**Sonra mətanətlə qalxmış ayağa,**
**Qabağa getmişdir, daim qabağa...**
**Dağlı sinəsinin yaralarını,**
**Odlu ürəyinin paralarını**



**Düşmənə göstərmiş:**
**– Mən həqiqətəm!**
**Mən qəhrəmanlığam, mən ülviyyətəm!**
**Yerə basdırsanız, yarıb çıxaram,**
**Pərdəyə büksəniz, cırıb çıxaram.**
**Zindana salsanız, daşı dələrəm,**
**Sürgünə atsanız, yenə gələrəm.**
**Ağzımı yumsanız, ürəyim dinər,**
**Özümü assanız, diləyim dinər...**
**Nə qorxum, nə suçum, nə bəzəyim var,**
**Lakin min dostum var, min köməyim var!**
**Bəli!**
**Əvvəl-axır mənimdir zəfər,**
**Mənim gözlərimdən doğacaq səhər!**
**...Anamız Təbrizin azadlığı da,**
**Bayramı, büsatı, abadlığı da**
**Günəş təbəssümlü bir həqiqətdir,**
**Həm mərdlik,**
**həm vüqar,**
**həm səadətdir.**

Mən Çervon Əlinin gecə kənddən bir az aralıda əyləşdiyi daş üstdə donduğunu ailəsinə xəbər verdim. Bütün kənd Çervon Əlinin buz heykəlini gətirmək üçün şəhər yoluna çıxdı. Məlum oldu ki, molla Mərdalı Çervon Əlinin dalındakı səbətdə Ərdəbildə yaşayan qohumuna yumurta göndəribmiş. Yazıq kəndə qayıdanda yolda qara düşüb. Sonra da gecənin qaranlığında kəndin yaxınlığında azıb. Dəhşət!.. Çervon Əlinin buz heykəlini qaynar suyla yuyub yumşaldandan sonra təbii

meyid şəklinə saldılar. Sonra kəndin kənarındakı köhnə qəbristanlıqda dəfn etdilər. Mən daha kənddə qala bilmədim. Ailəmlə Tehrana köçdüm...

Cavad Tehrandan Bakıya qədər uzun bir yol qət etmişdi. Yorğun idi. Məndən sonra doğma kəndimizdə baş verən hadisələri birnəfəsə danışa bilməzdi. Özü də necə hadisələr? Polad relslərdən möhkəm əsəbləri də sarsıda bilən hadisələr! Mən kədər dolu qayğıyla Cavada: – İran islam inqilabının alovları yenicə səngimişdi. Bir gün küçədə qonşu kəndlim Məmmədə rast gəldim. O bu taydan o taya İran inqilabçılarına mənəvi kömək etməyə getmişdi. Məmməd "21 Azər" inqilabının fəal iştirakçılarından idi. Bəli! O azadlıq döyüşlərində böyük bir fədai dəstəsinin mahir başçısı olmuşdu. Görüşdük. Mən həsədlə Məmmədə: – Xoşbaxt adamsan, qardaş! Gedib Vətəni görüb gəldin. Qoy Vətənin ətrini səndən alım – dedim. Sonra yanımızdan keçən adamların heyrət dolu baxışları altında Məmmədi qucaqlayıb iylədim. Maraqla Məmmədə: – Doğma kəndin Sümərinə də getdinmi? – dedim. Məmməd qürurla: – Bəli! Sümərinə də getdim. Sizin kəndiniz Çanaxbulaqda da oldum. Ərdəbildə də qaldım – dedi – Bilirsən bizdən sonra o yerlərdə nələr olub? Sənin tanıdığın lotuların, bıçaqçıların, oğruların çoxu milyonçu olub. İndi daha lotu Gülümsər yox, milyonçu Gülümsər deyirlər. Bıçaqçı Bəbir yox, milyonçu Bəbir deyirlər. Oğru Pünhan yox, milyonçu Pünhan deyirlər. Şah belə adamlara imkan yaradıb ki, var-yoxu talanmış "21 Azər" döyüş-



çülərinin hesabına dövlətlənsinlər. Atalar burda deyib, kiminin əvvəli, kiminin axırı. Sən demə, doğrudan da birini öldürüb, birini dirildən dünyada səadətlər fəlakətlər üzərində yaranırmış...

Cavad etirafla mənə: – Düz deyib. Kim ki, yaltaqlığı, əyriliyi, satqınlığı bacardı, yüksək vəzifəlilər arasında özünə arxa tapdı. Sonra xalqın başında turp əkdi – dedi. Mən qürurla Cavada: – Bir dəfə Məhəmməd peyğəmbər bir dəstə adamla qəbristanlığın yanından keçirmiş – dedim. – Birdən yanındakı adamlardan ayrılıb qəbristanlığa doğru addımlayır. Bir qəbrin yanında dayanıb dərin düşüncələrə dalır. Günəşlə dolu gözlərindən qəm buludları keçir. Bunu görən adamlar Məhəmməd peyğəmbəri əhatəyə alıb qəbrin kimin olduğunu soruşurlar. Məhəmməd peyğəmbər nisgillə: – Qəbir anamındır – deyir. Adamlar heyrətlə: – Sənə qurban olaq, bəs onda ananızın qəbrinə niyə səcdə etmədiniz? – deyir. Məhəmməd peyğəmbər: – Anam müsəlman deyildi. Mən isə yalnız öz məsləkimə səcdə edirəm – deyir. Bəli! Məhəmməd peyğəmbərin nəzərində məslək anadan da əzizmiş. Mən də ömrümdə yalnız öz məsləkimə səcdə etdim. Hər şeyimi məsləkimə qurban verdim. Bəs məsləkim özü nədir? Vətənin azadlığı, xalqın səadəti! Mən bu məsləkə səcdə etdim, edirəm, edəcəyəm...

Gecə keçirdi. Mən məhrəmliklə Cavada: – Sən yorğunsan – dedim – gerisini sabah danışarsan. Get, yat, dincəl! Cavad nəzakətlə: – Gecən xeyrə qalsın! – deyib yataq otağına keçdi...

## ACI HƏQİQƏT

Mənim atamın da, anamın da əcdadları Savalan dağının ətəyində yerləşən Çanaxbulaq kəndində dünyaya gəliblər. İkinci dünya müharibəsi ərəfəsində bu kənddə 300-ə yaxın ev vardı. İndi bu evlər bir neçə dəfə artıb. Bəli! Neçə-neçə ailənin Ərdəbilə, Astaraya, Tehrana köçməsinə baxmayaraq Çanaxbulaq böyümək arzusuyla məhrəm qanadlarını doğma çöllər üstdə ərklə açıb. Boş çöllər həm yaraşıqlı evlərlə bəzənib, həm də zəhmətkeş insanların mehriban nəfəsləri ilə isinib. Çanaxbulaqda bir neçə tayfa yaşayırdı. Abağdılar, tarovlular, xandılılar, nəzərlilər, dostəhmədlilər, qazaxlılar... Deyilənə görə qazaxlılar Şimali Azərbaycanın Qazax rayonundan gəlmələrdi. Haçansa çar hökuməti Qazax gənclərini əsgər aparmaq istəyib. Onlar çar hökumətinin istəyinə qiyamla etiraz edib doğma ocaqlarından ayrılıblar. Baş götürüb Arazın bu tayına adlayıblar. Sonra da neçə-neçə şəhərdən, qəsəbədən, kənddən keçib Çanaxbulağa gəlib çıxıblar. Mən kənddə həmişə qazaxlılar haqqında düşünəndə nədənsə ölməz şair Əfzələddin Xaqanini xatırlayardım. Axı, o da Azərbaycanın şimalından köçüb cənubuna gəlmişdi. Sonra da səmimiyyətlə dolu etirafla yazmışdı:

**Atadan küsərsə bir uşaq bəlli**
**Ana qucağında tapar təsəlli...**

Yox! O zaman başqa idi, bu zaman başqadır. Hər zamanın öz hökmü, öz faciəsi, öz nisgili olur. Hər səhvin nəticəsi dərhal bilinirmi? Yenə də yox! Elə səhvlər



olur ki, nəticələri çox-çox sonralar aşkara çıxır. Əfzələddin Xaqani hökmdarlardan üz çevirib Şirvandan Təbrizə gəlmişdi. Qazaxlılar isə əsgər gedib hərb sənətini öyrənməkdən boyun qaçırmışdılar. Sonra da Qazaxdan Çanaxbulağa pənah gətirmişdilər. Mən nənəmdən eşitmişdim ki, çar hökuməti müsəlmanlara inanmadığı üçün azərbaycanlılardan əsgər aparmırmış. Bu həqiqət idi. Ancaq qazaxlıların əsgər getmək istəməyib Azərbaycanın o tayından bu tayına köçmələri də həqiqət idi. Deyirlər həqiqət nə qədər şirin olsa da yenə acı dadır. Bu həqiqətin də acılığı çox-çox sonralar bilindi. Mən isə çox-çox əvvəl yazmışdım:

**Sabahı sabah yox, bu gün dərk edən**
**Sonra nə pərt, nə də peşiman olar.**
**Doğma diyarını laqeyd tərk edən**
**Özgə yerdə çətin qəhrəman olar.**

Qazaxlılar Çanaxbulaqda özlərini yaman ərköyün aparırdılar. Öz ədaları ilə adamın yadına ataların yersiz gəldi, yerli qaç məsəlini salırdılar. Hər kiçik ixtilafı böyük qovğaya çevirən qazaxlıların başında sanki ulularının vaxtilə Qazaxda çar hökuməti əleyhinə qaldırdıqları qiyamın havası vardı. Hətta məhərrəmlikdə məsciddə sinə vurarkən başqa gənclərdən seçilmək iddiasına düşən gənc qazaxlılar şuluqluq salmaq üçün bəhanə axtarırdılar. Bununla belə onlar kənddə yaşayan başqa tayfalara qaynayıb-qarışmışdılar. Biri-birlərinə qız verib, qız almışdılar.

Bir gün də qazaxlılar yalnız Çanaxbulaqda deyil, ətraf kəndlərdə də dərziliyi ilə şöhrət qazanmış əmim

usta Qulamın qapısına elçiliyə gəldilər. Əmimin yeganə qızı Həvvanı qazaxlıların seçmə gənclərindən sayılan Əvəzə nişanladılar. Sonra da toy oldu. Mən də nənəmin adını daşıyan əmiqızımın toy plovunu yedim. Qol götürüb qara zurnanın müşayiətilə oynadım. Aradan ağlı-qaralı günlər karvan-karvan keçdi. Mən Çanaxbulaqdan Ərdəbilə gəldim. Ərdəbildə Vilayət Partiya Komitəsində işlədim. Həm ictimai işlə, həm də bədii yaradıcılıqla məşğul oldum. Söz yox ki, doğma kəndimizi unutmadım. Eşidəndə, biləndə ki, Çanaxbulaqdan kimsə şəhərə gəlib, o boyda Ərdəbili ələk-vələk edib, o adamı axtarıb tapırdım. Kənddəki yenilikləri müsahibimdən öyrənirdim...

Sonra bütün Azərbaycanda "21 Azər" Nezhəti alovlandı. Elə alovlandı ki, ucqar şəhərlərə də, qəsəbələrə də, kəndlərə də işıq saldı. Ancaq Çanaxbulaq Ərdəbilin gözləri qabağında idi. Aralarındakı məsafə cəmi iki ağac yarım idi. "21 Azər" Nezhəti qələbəylə başa çatdıqdan sonra Milli hökumət məni Təbrizə çağırdı. Mən də getdim. Milli hökumət məni əvvəl Maarif Vəzirliyində tədris şöbəsinin rəisi, sonra Təbriz dövlət filarmoniyasının müdiri təyin etdi... Yenə doğma kəndimizi unutmadım. Öyrəndim ki, qazaxlılar da "21 Azər" Nezhətində fəal iştirak ediblər. Nezhətin yolunda nəinki mallarını, hətta canlarını da əsirgəməyiblər. Bəli! Qazaxlılar da silah götürüb Savalanın buzlaşmış səngərlərinə sinə gərə-gərə şah sərbazları ilə döyüşmüşlər. Axı, hər il şah qoşununda xidmət etmək üçün Çanaxbulaqdan da sərbaz aparırdılar. Sərbaz gedənlər arasında qazaxlı gənclər də olurdu. Ona görə də qazaxlılar Savalan ətəyindəki döyüşlərdə yağılara ot yoldururlarmış. Burda təəccüblü şey yoxdur. Yaralanıb çəmənə yıxılan döyüşçü ağrıdan dişlərini qıcaya-qıcaya ot da yolur, üstəlik daş da əzir... Savalan ətəyi yağılardan təmizləndikdən sonra Çanaxbulaqdakı bütün tayfalar bir yerə yığışıb Şah hökumətinin təyin etdiyi kattanı vəzifəsindən kənar edib Əvəzi katta (kəndxuda) seçibmiş... Şah hökuməti Milli hökumətlə bağladığı bütün müqavilələri tapdalayıb 1946-cı ilin 12-dekabrında Cənubi Azərbaycana qoşun yeridəndə mən ələ keçməyib gələcəkdə də Vətənin səadəti naminə çalışmaq üçün Şimali Azərbaycana keçdim. 1947-ci ilin 1-sentyabrında Azərbaycan Dövlət Universitetinə (indiki BDU-ya) daxil oldum. Burda özümə yeni dostlar tapdım. Bu dostların arasında Qazax rayonundan Bakıya ali təhsil almağa gələn mehriban gənclər də vardı. Kimisi şair, kimisi nasir, kimisi tənqidçi idi. Birlikdə filologiya fakültəsində oxuyurduq. Mən qazaxlı dostlarıma danışdım ki, bizim Çanaxbulaq kəndində bir neçə tayfa yaşayır. Tayfalardan birinə qazaxlılar deyirlər. O tayfa haçansa sizin Qazaxdan köçüb Çanaxbulağa gedib. Köçmələrinin səbəbini də dedim. Qazaxlı dostlarım bu sözlərimi maraqla dinləyib güldülər. Deyəsən hadisənin reallığına inanan da oldu, inanmayan da... Zaman gəldi. Universiteti bitirdik. Ailə də qurduq. Mən qazaxlı dostlarımla səmimiyyət dolu ülfəti davam etdirdim. Sonralar dəfələrlə Gürcüstana gedəndə Qazaxdan keçməli oldum. Qazaxı eninə də gəzdim, uzununa da... Şairlər gülüstanının ecazkar ətrindən doyunca uddum. Yenə zaman gəldi. Ermənilər qondarma "Qarabağ problemi"ni meydana atdılar. Son-

ra Azərbaycanla elan olunmayan müharibəyə başladılar. Sən demə, ermənilər bu müharibəyə çoxdan hazırlaşırmışlar. Bəli! Həm nizamlı ordu yaratmış, həm də hərbi texnikanın sirlərini mükəmməl öyrənmişdilər. Onlar qazaxlılara da göz verib, işıq vermirdilər. Acgöz quldurlar Qazaxın bir neçə kəndini yandırıb, mal-qarasını aparmışdı. Əhalisini yerindən-yurdundan didərgin salmışdı. Qazax gəncləri hərbi texnikanın dilini yaxşı bilmirdi. Ona görə də səngərlərdə daha geniş əl-qol açmaq imkanından məhrum idilər. Əyninə əsgər paltarı geyib kişilərlə çiyin-çiyinə yağıların səngərlərinə od yağdıran Qazaxın igid qızı Qaratel mühasirəyə düşəndə özünü itirməmişdi. O təkbaşına neçə-neçə yağını güllə leysanına tutub məhv etdikdən sonra ələ keçməməkçin son gülləsini min arzuyla döyünən öz ürəyinə çaxmışdı. Bu qeyrət mücəssəməsinin cəsurluğu haqqında neçə-neçə nisgillə dolu nəğmə yaranmışdı. Aşıqlar diyarı sayılan Qazaxda aşıqlar bu nəğmələri sazda yana-yana çalırdı. Ancaq sazda qara tel olmadığı üçün sarı simdə çalırdılar. Doğrusu, Qazaxdakı uğursuzluqlar məni yaman sarsıtmışdı. Bir ovuc dığanın hərbi texnika sayəsində Azərbaycanın gözəl guşələrindən birini xarabalıqlara çevirmək niyyəti mənə ağır gəlirdi. Qəribədir. Millətin belə ağır vəziyyətə düşdüyü zamanda respublikanın “siyasi xadimləri” arasında vəzifə davası gedir. Bəli! Kreslo üstündəki çəkişmələr-didişmələr qurtarmaq bilmir. Atalar keçi can hayında, qəssab piy axtarır məsəlini sanki Şimali Azərbaycanın indiki təzadlarla dolu həyatı haqqında deyibdir.



Bir zaman tələbəlik yoldaşım, indi isə qonşum olan qazaxlı yazıçı dostuma zəng edib Qazaxdakı döyüş hadisələrindən pərişan olduğumu ona dedim. Bu uğursuzluğa dözə bilmədiyimi də yazıçı dostumdan gizlətmədim. O ermənilərin arxalı olmasından danışdı. Ermənilərin arxalı olduğunu yalnız yazıçı dostum deyil, mən də bilirdim. Hətta bu arxadan bütün dünya xəbərdar idi. Ancaq mən ermənilərin uğur qazanmaqlarını arxalı olmaqlarında görmürdüm. Yox! Mən dünyanı görə-görə yaşa dolmuşam. Bilirəm ki, dünyada elə ölkələr var ki, özündən neçə dəfə böyük ölkənin qoşununu hünəri, iradəsi, məharətilə öz ərazisindən çıxarıb milli istiqlalını bərpa edib. Bəli! Məsələ arxalı olmaqda deyil, başqa şeydə idi. O başqa şey nə idi? Hərbin sirrlərini öz ürəyinin sirrlərindən də yaxşı bilmək! Sən demə, Sovet ordusu sıralarına çağrılan Qazax gəncləri ön xətdə yox, arxa xətdə xidmət etmiş, ona görə də döyüş qaydalarını tamam öyrənməyiblər. Yadıma haçansa əsgər getmək dərdindən Qazaxdan kəndimizə köçən qazaxlılar düşdü. Ancaq bu haqda yazıçı dostuma bir söz deməmdim. Çünki hələ universitetdə oxuyanda bu haqda ona danışmışdım. İndi isə qəzəbimi öz içimdə boğub telefon dəstəyini yerinə qoydum. Aradan heç on dəqiqə keçməmiş telefonumuz səsləndi. Dəstəyi yenidən qaldırdım. Xalam oğlu Südeyf Tehranda yaşayan əmim oğlu Hacı Cavadın evindən zəng vurmuşdu. Bu həmin Südeyf idi ki, mən Təbrizdən çıxanda o anasının qucağında altı aylıq, tarix isə 1946-cı ilin 11-dekabrı idi. Təbrizdə Milli hökumət süqut edirdi. Şəhər qarışıqlıq olduğundan Milli hökumətin kadrları baş götürüb Ayı

batmış gecədə Təbrizdən çıxırdı. Mən də işdən evə gəlib Təbrizdən çıxmazdan əvvəl xalamla görüşmək istədim. Həyətə girəndə xalamı həyətdə gördüm. O soyuq havada Südeyfi yorğançaya büküb qucağında gəzdirə-gəzdirə intizarla məni gözləyirdi. Mən elə bu gecə Təbrizdən çıxacağımı xalama dedim. O kövrəldi. Ancaq məni kədərləndirməsin deyə ağlamadı. Xalamın təkidinə baxmayaraq yuxarı qalxıb evdən özümə bir dəst dəyişəcək də götürmədim. Əvvəl xalamın o üzündən, bu üzündən öpdüm. Sonra Südeyfi yorğança qarışıq xalamın qucağından aldım. Pəncərədən həyətə düşən işığın altında iki əlimlə göyə qaldırdım. Çanaxbulaq çeşmələrindən daha duru olan məsum gözlərinə bir də məmnuniyyətlə baxdım. Sanki bu parlaq gözlərdən mənim qaranlıq yollarıma işıq salmasını dilədim. Elə Vətənin gələcəyini də bu parlaq gözlərə tapşırdım. Sonra Südeyfin də o üzündən, bu üzündən öpüb həyətdən çıxdım. Aradan nəinki günlər, aylar, illər keçdi. Hətta on illər keçdi. Daha böyüyüb ərsəyə çatan Südeyfdən mənə həsrət dolu məktublar gəlməyə başladı. Sanki o məktublar durna qatarı idi. Hardasa qatardan ayrılıb itkin düşən bir durnanı axtarırdı. Mən də öz ünvanımı bir qərib durnanın qanadlarında Südeyfə göndərirdim... İndi budur, ilk dəfə Südeyfin doğma, məhrəm, həyan səsini eşidirdim. Südeyf hərarət dolu həsrətlə: – Salam, hər vaxtın xeyir, xala oğlu! Gözlərin aydın, nəhayət yollar açıldı. Mən də sənədlərimi düzəltmişəm. İnşaallah, bir həftəyə yanındayam – dedi. Gözlərimdə bir an içində Təbrizdən çıxdığım son gecə, həyətdə qucağı qundağlı xalamla son görüşüm canlandı. Qəhərin yum-



ruğu boğazıma tıxandı. Gözlərimdən boğazıma düşən iki damla yaş sonra boğazımın yolunu açdı. Mən mehriban-mehriban Südeyfə: – Sən bilirsən ki, mən səni altı aylığında ananın qucağında Təbrizdə qoyub gəlmişəm – dedim. Südeyf yanğı dolu etirafla: – Bilirəm, xala oğlu – dedi – yazdıqlarının hamısını oxumuşam. Hər şeyi öyrənmişəm. Mən maraqla Südeyfə: – Sənin indi neçə yaşın var? – dedim. Südeyf qürurla: – 46 – dedi. Biz telefonda bir qədər də başqa söhbətlər etdikdən sonra xudahafizləşdik. Doğrudan da aradan bir həftə keçəndən sonra qapımızın zəngi çalındı. Evdə tək idim. Həyat yoldaşım bazar-dükana getmişdi. Gözlükdən baxdım. Gördüm zəngi çalan yaraşıqlı bir gəncdir. Özü də o tayın gənclərinə bənzəyir. Məsum baxışlı gəncin nəzakəti zəng çalan barmaqlarının hərəkətində də duyulur. Gəncə bir də diqqətlə baxanda tanıdım. Südeyf idi. Bizdə Südeyfin irili-xırdalı o qədər şəkli var ki... Bunların arasında rəngliləri də var, rəngsizləri də. Qapını dərhal açdım. Özü də hələ indiyə qədər keçirmədiyim, yalnız arzuladığım böyük sevinc hissləri ilə... Elə astanada bir-birimizə sarmaşdıq. Bir xeyli müddət bu vəziyyətdə qaldıq. Birdən gözlərim Südeyfin çiyninin üstündən qucağında bir oğlan uşağı tutmuş utancaq gənc qadına sataşdı. Bildim ki, o, Südeyfin xanımıdır. Demək, bizim də gəlinimizdir. Uşaq mənə elə heyrətlə baxırdı ki, sanki yolu kəsdiyimə görə məndən şikayətlənirdi. Atalar deyib ki, yol böyüyün, su kiçiyindir. Ancaq məncə yol da kiçiyin olmalıdır. Özü də yolu böyük kiçiyə verməlidir. Həm də xeyir-duasıyla! Bəli! Madam ki, böyük kiçiyə yol göstərəndir, onda yol da verməlidir.

Mən Südeyfi buraxıb gəlini uşaq qarışıq bağrıma basdım. Sanki bu evə nabələd uşaq da elə bayaqdan bunu gözləyirmiş. Ona görə də yad adamdan nəinki qorxub ağladı, heç cınqırını da çıxarmadı. Qəribə də olsa, mən gəlini uşaq qarışıq elə qucağımda kandardan evə keçirtdim. Südeyf də bizim arxamızca evə daxil oldu. Qayıdıb qapını örtdüm. Evdə bir də qucaqlaşıb öpüşdük. Sonra masa kənarında Südeyflə üzbəüz əyləşdim. Gəlin də uşaqla yan tərəfdəki divanda əyləşdi. Söhbətimiz dağ başından çağlaya-çağlaya tökülən selə bənzəyirdi. Özüylə həm şirin, həm acı xatirələr gətirirdi. Mən üzümü gəlinə tutub ərklə Südeyfə: – Gəlinimiz kimlərdəndir? – dedim – adı nədir? Gəlinin ağ yanaqları bir az qızardı. Başını aşağı saldı. Südeyf utana-utana: – Qazaxlılardandır. Əvəzin qardaşı Bəhlulun qızıdır. Adı da Yasəməndir – dedi. Mən başımı tərpədə-tərpədə: – Belə de! Ay Allah, illər nə yaman tez keçir. Əvvəllər şairlər deyərdilər ki, zaman sanki sudur. Axdıqca axır. İndi mənə elə gəlir ki, su axışı zamandan öyrənir. Bəhlul sarıbəniz şüvərək bir oğlandı. Həmişə özündən böyük qardaşı Əvəzə hörmət edərdi – dedim. Südeyf nisgillə mənə: – Əvəz də dünyasını dəyişdi – dedi. Gözlərimdə gilələnən iki damla yaş yanaqlarımı yandıra-yandıra sinəmə düşdü. Bəli! Mən əmim qızı Həvvanın canlara dəyən həyat yoldaşının dünyasını tez dəyişməsinə hayıfsılandım.

Bu zaman qapının zəngi çalındı. Cibimdəki yaylığımı çıxarıb gözlərimin nəmini qurutdum. Sonra gedib qapını açdım. Zəngi çalan üzbəüz qonşumuz idi. O əlilə mənə qapının kənarındakı iri bağlamaları, çantaları,



torbaları göstərib maraqla: – Bu şeylər sizindir? – dedi. Mən heyrətlə şeylərə baxıb çiyinlərimi çəkdim. Qonşuya heç nə deyə bilmədim. Susdum. Bu zaman Südeyf evdən çıxıb bizim yanımıza gəldi. Sən demə, uzun illərin həsrət dolu görüşü bizi elə karıxdırıb ki, Südeyfin o taydan bu taya sovqat gətirdiyi şeylər yaddan çıxıb qapının kəndarında qalıb. Məni gülmək tutdu. Nə gizlədim. Güldüm. Doğrusu, ömrümdə bu sayaq çox az gülmüşdüm. Bilməmişdim ki, həsrət insanı ağladar da, güldürər də. Südeyf də mənə qoşulub güldü. Qonşu bizə heyrətlə baxdı. Mən Südeyfin kim olduğunu, hardan gəldiyini, özümün qohumlarımdan necə ayrıldığımı, nə qədər görüş həsrəti çəkdiyimi qısaca olaraq qonşuya danışdım. Danışmağıma da peşman oldum. Qonşunun gözlərində büllurlaşan yaş damlaları qabarmışdı. Bəli! Qonşu elə kövrəlmişdi ki, heç şeylərin yaddan çıxıb qapı kəndarında qalmasına da gülmədi. Mən Südeyflə şeyləri evə apardım. Bu zaman həyat yoldaşım Şəfiqə də bazardan gəldi. Əziz qonaqlarımızı görəndə sevinci yerə-göyə sığmadı. O Südeyflə görüşəndən sonra Yasəməni bağrına basıb dönə-dönə öpdü. Kiçik Davərlə tez dostlaşdı. Çay-çörək hazırlamaq üçün mətbəxə keçdi. Yasəmənlə Davəri də özüylə apardı ki, öz mətbəx işlərilə tanış etsin. Mən isə telefon dəstəyini qaldırıb Azərbaycan Televiziyasında rejissor işləyən oğlum Natiqə zəng vurub o taydan əzizlərimizin gəldiyini dedim. Oğlum gəldi. Südeyf onu dönə-dönə qucaqlayıb öpdü. O da kiçik Davəri dönə-dönə qucaqlayıb öpdü. Yasəmənlə görüşdü. Sonra bacılarının evlərinə zəng vurdu. O taydan doğmalarımızın gəldiyini dedi. Onlar-

dan başqa bu boyda Bakıda kimimiz vardı ki? Allah heç kəsi adamsız eləməsin! Qızlarımın üçü də həyat yoldaşlarıyla, uşaqlarıyla gəldilər. Mən kürəkənlərimi xalam oğluyla tanış etdim. Qızlar Yasəməni, uşaqlar isə Davəri əhatəyə alıb görüşdülər. Həyat yoldaşım Allahın verdiyindən süfrə açdı. Yedik. İçdik. Axşam düşdü. Televizoru açdım ki, görək döyüş bölgələrində nə dəyişiklik olub. Cəbhə xəbərlərinin arasında Qazaxın yandırılmış kəndləri göstərildi. Bu kəndləri ermənilər yandırmışdı. Bəli! Ermənilər bir zaman çörəyini yeyib, suyunu içdikləri kəndləri sönüb qaralmış ocaqlara döndərmişdi. Qaralmış ocaqlar arasında ağsaçlı bir ana çiyninə avtomat salıb döyüşə gedən oğluna deyirdi:

**Gözümün nuru oğlum,**
**Bu yurdu qoru, oğlum,**
**Qorumasan od tutar**
**Atanın goru, oğlum.**

Bu adi tapşırıq deyildi. Yox! Bir bayatıya yüklənmiş ana qeyrəti, ana hiddəti, ana niyyəti idi...

Yasəmən bu dəhşət dolu kadrlara baxdıqca gözlərinin yaşı qurumaq bilməyirdi. Sanki sellənən göz yaşları yandırılmış kəndlərin küllərini yuyub aparmaq istəyirdi. Sən demə, Yasəmən öz ulularının Qazaxdan Çanaxbulağa köçdüyünü, həm də niyə köçdüyünü bilmirmiş. Yaşlı nəsil dünyadan köçəndə həqiqətlə dolu xatirələri də özüylə aparmış, gənc nəslin yaddaşında heç nə qalmamışdır. Mən hadisəni necə var, eləcə də Yasəmənə danışdım. Yasəmənin göz yaşlarının arxasında sanki bir od yandı. Sonra şöləlləndi. Göz yaşı şimşəkli leysana



döndü. Sanki şimşək Yasəmənin xəyalını işıqlandırır, leysan isə ulularının haralı olduğunu üzünə yazırdı. Axı, kosmosa ucalan insan da ulularının harda, hansı mağarada dünyaya gəldiyini bilsə yaxşıdır. Həyat yoldaşım Yasəməni ovundursun deyə yan otağa apardı. Mən Südeyfə baxdım. O mənə baxırdı. Ancaq yaman xəyala dalmışdı. Sən demə, Südeyf də danışdığım hadisəni heç kimin dilindən eşitməyibmiş. Əvvəl bu hadisəni Yasəmənə danışmağıma peşman oldum. Sonra düşündüm ki, yox, yaxşı eləyib danışmışam. Sonrakı peşmançılıq əvvəlki peşmançılıqdan daha əzablı olur. Necə ki, qazaxlılar ermənilərlə döyüşdəki uğursuzluqları hərbi texnikaya dərindən bələd olmadıqlarında görüb indi peşman olublar. Mən Azərbaycan Respublikasının döyüşçülərinə yazdığım “Sən döyüş” şeirimi əziz qonaqlarıma oxudum:

**Sən elə danış ki, dünya eşitsin,**
**Nəsə pıçıldama dodaq altında.**
**Dağ, meşə, səhra, bağ, dərya eşitsin,**
**Torpağın qalıbdır tapdaq altında.**

**Torpağının üstdə at çapır yağı,**
**Mürgülü gözündən tük qapır yağı,**
**Büllur suyunda da dürr tapır yağı,**
**Baban nigarandır torpaq altında.**

**Babana cəbhələr oylaq olanda,**
**Tufanlı səngərlər yataq olanda,**
**Mərdlər bir-birinə dayaq olanda,**
**Torpaq titrəməmiş ayaq altında.**

**Danlaq yaman şeydir! Qızışan zaman**
**Doğmanı ögeydən ayırmır, inan!**
**Hardasa dəyişik düşəndə ünvan,**
**Qaya da əriyir danlaq altında...**

**Unutma tarixin ibrətini sən,**
**Dinlə keçmişinin töhmətini sən,**
**Babanın daşlaşmış qeyrətini sən**
**Bir sırğaya döndər qulaq altında.**

**Meyvəni yetirən nə olur? Torpaq!**
**O əbədiyyətdir, sən isə qonaq...**
**Torpaq ağuşuna çəkirsə haçaq –**
**Meyvə gizlənməyir yarpaq altında.**

**Ağac yenə yaşar, yarpaq tökülsə,**
**Kitab yenə qalar, varaq tökülsə,**
**Üstünə bir aləm yaraq tökülsə,**
**Hünər əsir olmaz yaraq altında!**

**Sanki həyat çaşıb yolu azan tək,**
**Marşı da yandırıb-yaxır əzan tək...**
**Dünyasa qaynayır nəhəng qazan tək,**
**Kim bilir, nə bişir qapaq altında?**

**Bəli! Başdan-başa dünya qovğadır,**
**Müharibə dəniz, hücum dalğadır.**
**Təbriz yaman gündə sənə arxadır,**
**Könlü intizardır qaysaq altında.**

**Dünyaya səpilən yurddaşların da –**
**Hicranı əridib göz yaşlarında,**
**Bura güvənirlər... Sıx qaşlarında**
**Ümid sətirlənir maraq altında...**



**Fəlakət gətirir yağı özüylə,**
**Sən döyüş yağının neçə yüzüylə...**
**Qoy lovğa erməni görsün gözüylə,**
**Necə oğullar var papaq altında.**

**Sən istər bürküdə, istər sazaqda,**
**Məhrəm silahınla yürü qabaqda.**
**Yadında saxla ki, cansız varaq da**
**İstəməz ki, qalsın varaq altında.**

**Ağıl burulğanı tez görəndədir,**
**Sudan yox, düz anddan yol hörəndədir.**
**İş atda deyildir, iş sürəndədir,**
**Köhlən də büdrəyər maymaq altında.**

**Sübhün qapısında Ay olsa kilid,**
**Üzünə bağlansa hər yol, hər keçid,**
**Başına od yağsa, mərd durar igid**
**Şəstlə qaldırdığı bayraq altında!**

**Döyüş! Daha bıçaq sümüyə çatıb,**
**Körpə istiqlalın ilk addım atıb.**
**Barmağına çöp yox, mərmilər batıb,**
**Qoyma ət çürüyə dırnaq altında.**

**Döyüş! Gözündən od saçan ananın,**
**Damı təpəsinə uçan ananın,**
**Naməlum ünvana qaçan ananın**
**Dizləri əsməsin qundaq altında!**

**Döyüş! Uzanmasın yolun kəsəsi,**
**Dərdlərlə dolmasın qəlbin kisəsi!**
**Nişanlı qızların sakin busəsi**
**Qəribə dönməsin yaşmaq altında!**

**Döyüş! Sakit günlər qayıtsın yenə!**
**Azadlıq karvanı düşməsin çənə!**
**Sən də döyüşlərdən söhbət aç mənə,**
**Göydə səf-səf yanan çıraq altında...**

Mehribanlarım şeiri gözləri yaşara-yaşara dinlədi. Sonra məni Vətən, millət, istiqlal təəssübüylə yazdığım hərarətli misralara görə təqdir etdilər. Bəli! O taydan gəlmiş sevimli qohumlarım da öz səslərini mənim səsimə qatıb Azərbaycan Respublikasının döyüşçülərinə uğurlar dilədilər...

46 ilin ayrılığından sonra doğmalarımız Bakıda bir həftədən artıq qala bilmədi. Axı necə qalaydılar? Hər gün Qarabağ cəbhəsindən, Qazaxdan, Ağdamdan, Zəngilandan, Tovuzdan, Gədəbəydən, Füzulidən, Cəbrayıldan qəm dolu xəbərlər gəlirdi. Əzizlərimizin ürəkləri açılmırdı, gözləri gülmürdü. Südeyf də, Yasəmən də İran ilə İraq arasındakı 10 illik müharibənin ağır yüklərini kövrək çiyinlərində daşımışdılar. Daha ağır yük daşımaqdan döyənək olmuş çiyinlərdə salamat yer yox idi.

Biz əzizlərimizi Vətənə yola salanda mən Yasəmənin dalğın gözlərinə bir də baxdım. O gözlərdə daha yaş görmədim. Yox! Yalnız od gördüm. Bu, o axşam televiziya ekranında Qazaxın ermənilərin atəşilə yanmış kəndlərinə baxa-baxa haçansa əsgər getməkdən boyun qaçırıb Çanaxbulağa köçən qazaxlılar haqqında da danışdığım zaman alışan od idi. Mənə elə gəldi ki, Yasəmənin gözlərində yanan od Çanaxbulaqda daha da şölələnib ulularının başına gələn hadisələri kifayət



qədər işıqlandıracaq. Gənc nəsil həm keçmişdəki, həm də indiki peşmançılıqdan ibrət dərsi alacaq.

Əzizlərimiz yola düşdü. Biz isə arxalarıyca bir dolça büllur su atdıq...

## DƏHŞƏTLİ XƏBƏR

Payızdı. Toylu günlər arxada qalmışdı. Soyuq sazaqda nəhəng çətirli ağacların sarı yarpaqları əyilib-düzələn budaqlardan qopub nəmli torpaqlar üstə tökülürdü. Sanki tezliklə böyük bir təhlükə olacağını duyan ahıl analar xınalı saçını çəngə-çəngə yolub ətrafına səpələyirdi. Axı erməni millətçilərinin xaricdəki imkandayaqlarına arxalanıb Ermənistana qatmaq istədikləri Dağlıq Qarabağda odlu-alovlu döyüşlər gedirdi... Yaşı bilinməyən dünya çox qıtlıq, kasadlıq, bahalıq görüb. Ancaq dərman qiymətlərinin həddən artıq şişirdilməsi üzündən xəstələrin həyəcana düşməsi az olub. Xeyratın xərcinin talana düşməsi ucbatından ölümün ailələrə sarsıdıcı vahimə gətirəcəyi təsəvvürə gəlməyib. Şimali Azərbaycanda qıtlıq, kasadlıq, bahalıq sarıdan korluq çəkən insanlar yaman sinsiyirdi. Haçansa bəzi iradəsiz adamlar çətinə düşəndə öz şirin həyatlarından da bezib özlərinə ucuz ölüm arzulayıblar. İndi hər şeyin qızıl qiymətinə qalxdığını görüb nə xəstəlik, nə də ölmək istəyirdilər. Bəli! Müdrik insanlar nə xəstəliyi ilə, nə də ölümü ilə öz ailəsini ağır xərclə quru yurdda qoymaq istəmirdi. Bəli! XX-əsr münaqişələr, döyüşlər, inqilablar, xəstəliklər, dəmanlar əsridir.

Vəli Məmmədov dəfələrlə Qarabağa getmişdi. Neçə-neçə müzakirələrdə, mübahisələrdə, mübarizələrdə iştirak etmişdi. Sanki öz taleyini Qarabağın taleyinə bağlamışdı. Vəlinin cib dəftəri mühüm qeydlərlə dolmuşdu. O qeydlərdə uğurlar da, qüsurlar da müdrikliklə göstərilmişdi. Hayıf, o qeydlərlə hələlik hesablaşan yox idi.

1991-ci il noyabrın 20-si idi. Axşam televiziyanı açıb respublika xəbərlərilə tanış olmaq istədim. Həmişə ekrandan tamaşaçılara təbəssümlə baxan diktorun gözlərinə sanki Qarabağın buludları dolmuşdu. Ekranda sakit dayanmışdı. Sanki lal idi. Danışa bilmirdi. O handan-hana dindi. Kaş heç dinməyəydi. Dedi ki, Qarabağa danışıqlar üçün gedən nümayəndə heyətimizin mindiyi vertolyot* qəzaya uğrayıb. Vertolyot yanıb. İçindəki nümayəndə heyəti də həlak olub. (Sən demə, vertolyot xaincəsinə vurulub. Düzgün məlumatsa nə səbəbdənsə xalqdan gizlədilib). Sonra diktor həlak olanların adlarını oxudu – Vəli Məmmədov deyəndə mən dəhşətli xəbərdən sarsıldım. Sanki ürəyim sinəmdən qopub ayaqlarımın altına düşdü. Bir neçə gün özümə gələ bilmədim. Bütün dünya gözümdən düşdü. Yanan vertolyotda həlak olan müsafirlərin içərisində Azərbaycan Televiziyasının işıqçısı, iyirmi bir yaşlı Arif də var idi. Bəli! Hələ dünyanın istisini, soyuğunu doyunca dadmayan gənc Arif də atası yaşda yoldaşlarıyla Qarabağa gedirmiş. O son zamanlar çəkilişlə əlaqədar müxtəlif döyüş yerlərinə tez-tez səfər edirmiş. Həmişə səfərə çıxanda anası dalınca su atırmış. Bu dəfə anası Arifdən qabaq durub işə gedir. İşdən qayıdanda yenə də Arifin harasa getdiyini eşidir. Evdəkilərdən onun dalınca su atılıb-atılmadığını soruşur. Deyirlər ki, Arifin dalınca su atan olmayıb. Nədənsə, ananın ürəyi gizli bir uğursuzluqla sızıldayır. Həlak olanların adları televizorda oxunanda Arifin adı çəkilmir. Atası da, anası da elə bilir ki, övladları Qarabağa yox, başqa yerə gedib. Gecə yarısı Arifgilin qapısı döyülür. Ata gedib qapını açır. Qapını döyən adam həyəcanla atadan: – Arif burda olur? – deyə soruşur. Qəribədir. Sanki qapıda dayanan adamın həyəcanı ataya da keçir. O, dəhşətli sual qarşısında özünü tamam itirib çaş-baş qalır. Yox! Sanki taleyini müsibət dolu faciə gözlədiyini duyur. Ancaq bu faciəni özünə yaxınlaşmağa qoymaq istəmir. Ona görə də tanımadığı adama – Yox! – deyir. Bu zaman Arifin anası arxadan fəryadla ərinə: – A kişi, necə yox? Arif sənin oğlun deyil? – deyir. Ata yalnız indi özünə gəlir. Ancaq gec olur. Arxadan nə qədər qışqırırsa, qapıya gələn adam eşitmir. Heyrət içində çıxıb gedir. Səhər tezdən Arifin böyük qardaşı AzTv-yə gedir ki, qardaşından bir xəbər tutsun. O Arifin şəklini də vertolyotda şəhid olmuş nümayəndələrin şəkilləri arasında görüb sarsılır. Bəli! Erməni faşistləri azərbaycanlı qurbanları arasında yaşlı ilə cavana fərq qoymurlar...

Vertolyotun vurulmasından iki gün keçirdi. Evdə bir mən idim, bir də Şəfiqə. Masa arxasında əyləşib çay içirdik. Amansız faciə sanki özü boyda müsibətlə dilimizdən asılmışdı. Dinib-danışmırdıq. Sanki bu yaşda bir-

*helekopter

birimizdən küsmüşdük. Birdən Şəfiqə əlindəki stəkanı nəlbəkiyə qoyub gözlərini gözlərimə zillədi. Sonra həzin-həzin mənə: – Niyə Vəlinin haqqında şeir yazmırsan? – dedi. Mən qəmli-qəmli Şəfiqəyə: – Onsuz da bu ağır itki məni yaman sarsıdıb. Bilmirsən ki, hələ mən Vəli haqqında sağlığında şeir yazmışam? Özü də necə şeir? İndi vida şeiri yazsam gərək bir də yaşanmış günlərə qayıdam. Yatmış duyğularımı elə silkələyəm ki, ömür ağacından xatirələr yarpaq-yarpaq tökülsün. Bu mənim üçün daha böyük sarsıntı olar – dedim. Mən özümü ələ alıb hər cür sarsıntıdan çıxım deyə, Şəfiqə təkidlə: – Hər nə olsa, yazmalısan – dedi. Yadıma Vəliylə bir telefon söhbəti düşdü. Bir gün o telefonda məndən soruşdu ki, nə yazırsan? Dedim ki, heç nə. Dedi ki, niyə? Dedim ki, qələmim sınıb. Əlbəttə, mən bu sözləri işgüzar dostuma zarafatla dedim. Sonra ordan-burdan söhbət edib xudahafizləşdik. Aradan heç bir saat keçməmiş qapı döyüldü. Qapını açdım. Gələn Vəlinin sürücüsü idi. Qoltuğunda bir çanta var idi. Sürücü ilə tanış idim. Əl verib görüşdüm. Onu içəriyə dəvət etdim. Sürücü içəri keçib nəzakətlə mənə: – Sağ olun, əyləşməyəcəyəm. Vəli müəllim sizə bir az yazı ləvazimatı göndərib. Onları gətirmişəm – dedi. Doğrusu, yazı ləvazimatı sözlərini eşidəndə məni heyrət bürüdü. Amma heyrətimi büruzə vermədim. Sürücü çantadan bir neçə təzə bloknot, bir neçə də təzə qələm çıxarıb masanın üstünə qoydu. Mən də telefona doğru getdim. Vəliyə zəng edib: – Qardaş, mən səninlə zarafat edirdim. Sən isə mənə bir aləm yazı ləvazimatı göndəribsən – dedim. Vəli gülə-gülə: – Məgər eşitməyibsən ki, sözün düzünü elə zarafatda deyərlər.



Sən yazmalısan! Ona görə də həm qələmin, həm kağızın bol olmalıdır! – dedi. Mən Vəliyə: – Payına görə sağ ol. Ancaq xalqımızın gözəl adəti var. Pay aldığın qabı boş qaytarmazlar. De görüm ərəb əlifbasını oxuya bilirsən? – dedim. Vəli zarafatla: – Məgər bilməyirsən ki, xalqımızın gözəl adətlərindən biri də qonağa hörmət etməkdir. Universitetdə qonaq sayılan cənublu tələbələr ərəb əlifbası dərsindən azad idilər. Axı siz ərəb əlifbasını elə cənubda öyrənib gəlmişdiniz. Biz isə hıqqana-hıqqana öyrənirdik – dedi. Mən ərklə Vəliyə: – Onda sənə ərəb əlifbasıyla təzə çapdan çıxan “Günəşli baharın yarpaqları” adlı kitabımı avtoqrafla göndərirəm. Bu mənim nəzərdə tutduğum üç cildlik xatirələrimin bir hissəsidir. Avtoqrafik səpkidə yazılan bu əsəri bəlkə də “Mənim dastanım” adlandırdım. Vaxtın olanda oxuyarsan. Necə deyərlər, həm ziyarət, həm ticarət. Həm ərəb əlifbasıyla yenidən görüşər, həm də kitabın səhifələrinə səpələnən Təbrizin tarixi hadisələri ilə tanış olarsan – dedim. Vəli mehribanlıqla mənə: – Payın çox olsun – dedi – Doğrusu, belə paydan imtina etmərəm. Biz telefonda xudahafizləşdik. Mən dəstəyi yerinə qoydum. Sonra “Günəşli baharın yarpaqları” adlı kitabımın birini götürdüm. İlk səhifəsində avtoqraf yazıb Vəlinin sürücüsünə verdim. Sürücü mənimlə təbəssümlə xudahafizləşib getdi. Aradan bir həftə keçdi. Bir gün Vəli işdən mənə zəng vurdu. Həmişəki qaydayla əhvallaşdıq. O mənə: – Sən doğru deyirmişsən, mən o kitabı oxuyandan sonra ərəb əlifbasını əməlli-başlı öyrəndim. Ərəb əlifbasıyla yazılmış Təbriz hadisələri isə məni həm qürurlandırdı, həm də sarsıtdı – dedi.

İndi də Vəlinin vətənpərvər yoldaşlarıyla mindiyi vertolyotun Qarabağ üzərində erməni qəsbkarlarının vurduğu raketilə alışıb-yanması xəbəri məni sarsıtmışdı. Sən demə, insan sarsılanda silkələnib təzədən bütövləşə bilirmiş. Bəli! O sarsıntının bütöv mücəssəməsinə çevrilməyə qadirmiş!

Çayımı içib stəkanı nəlbəkiyə qoydum. Ayağa qalxıb iş otağıma keçdim. Deyəsən Şəfiqə məsələni duydu. Ara qapını örtdü ki, səs gəlməsin. Mən masanın dalında əyləşib siyirmədən qələm, kağız çıxarıb qarşıma qoydum. Yadıma bir əhvalat düşdü. Bir gün Siyasi Maarif evinin yanından keçirdim. Vəlini xatırladım. Axı biz universitetdə oxuyanda beş il bu Siyasi Maarif evinin qabağından keçib mənim İçərişəhərdəki mənzilimə getmişdik. Mən Siyasi Maarif evinə girib Vəlinin kabinetinə doğru addımladım. Qapını iki barmağımın arxasıyla yavaşca taqqıldatdım. Vəli içəridə – Buyurun! – dedi. Mən qapını açanda Nizami adına Ədəbiyyat İnstitutunun direktoru Mirzəağa Quluzadəni Vəliylə üzbəüz əyləşib söhbət edən gördüm. İçəri keçib salam verdim. Vəli ayağa qalxıb mənimlə görüşdü. Sonra əyləşdi. Mən əlimi uzadıb Mirzəağa Quluzadəylə də görüşdüm.

Bir neçə gün əvvəl mənim "Ədəbiyyat və incəsənət" qəzetində bir silsilə şeirim çıxmışdı. Şeirlərdən biri "Mehribanım" adlanırdı. Özü də lirik səpkidə yazılmışdı. Sevgidən, vəfadan, dəyanətdən danışırdı. Univermağın qabağında Mirzəağa Quluzadə ilə rastlaşdım. Görüşdük. O səmimiyyət dolu etirafla mənə: – Sizin "Mehribanım" şeiriniz çox xoşuma gəldi. Sözlərinə musiqi bəstələnsə, gözəl nəğmə olar. Bəstəkar tanışınız varmı? – dedi. Mən yarı ciddi, yarı zarafatla müsahibimə: – Bəstəkar tanışım çoxdur, ancaq hayıf ki, özüm müştəri deyiləm – dedim. Deyəsən Mirzəağa Quluzadə mənim eyhamımı başa düşdü. Sözlərimə yalnız mənalı təbəssümlə cavab verməklə kifayətləndi. Sonra ayrıldıq.



Mən keçib masanın ətrafında Mirzəağa Quluzadə ilə üzbəüz əyləşdim. Mirzəağa Quluzadə mən gəlməmişdən qabaq Vəliylə söhbətini unutdu. Yox! Sən demə, Vəliylə Mirzəağa müəllimin arasında söhbət Nəriman Nərimanovdan gedirmiş. Axı Vəli Nəriman Nərimanovun bütün əzablara qatlaşan fədakar tədqiqatçısı idi. Bəlkə də Nəriman Nərimanovun həyatını doğma atası Hüseyn kişinin həyatından daha yaxşı bilirdi. Bəli! Vəli acı taleli Nəriman Nərimanova yalnız hörmət yox, həm də səcdə edirdi. Bəlkə də ona görə Vəlinin xalqla səmimiyyətlə dolu ülfətində Nəriman Nərimanova xas olan sadəlik vardı. Vəlinin Nəriman Nərimanovu sevməsini yuxarılar da bilirdi, aşağılar da. Nə isə... Mirzəağa müəllim hansı bir şairinsə haçansa Nəriman Nərimanov haqqında yazdığı bir şeiri Vəliyə oxudu. Sonra mənə baxıb etirafla: – Əlbəttə, Əli Tudənin yanında belə şeiri oxumaq münasib sayılmaz. Şeir o qədər də güclü deyil – dedi. Sonra üzünü Vəliyə tutub riqqətlə: – Əli Tudə İsmayıl Cəfərpurun qırxında mərhumun qəbri üstdə bir şeir oxudu ki, az qaldı gücüylə bütün qəbristanı silkələyə. Gözlərimizdən axan yaşlar bizi suya döndərmişdi. Şeir sanki tək İsmayılın yasından yox, bütün o taylı siyasi mühacirlərin faciəli taleyindən danışırdı. Qəribədir, mən indiyə qədər qəbr üstündə sevinən insan görməmişəm. Həyatımda ilk

dəfə, bəlkə də son dəfə bunu gördüm. Sanki qəbr üstündə həsrətə, əzaba, ölümə meydan oxuyan şeir o taylı siyasi mühacirlərin ürəyindən qopmuşdu. İndi bir qiyam dalğasına çevrilən qəbristanda sükut heykəllərinə dönən baş daşlarına dəyib parçalanırdı. Sonra qəbrlərdən aralanırdı. O taylı siyasi mühacirlər Əli Tudəni növbəylə qucaqlayıb öpməyə başladılar. İsmayıl bizim institutun fədakar əməkdaşı idi. Hələ o mərhumun xatirəsini əbədiləşdirmək üçün bir iş görə bilməmişik. Əli Tudə şeirilə bizim üzümüzü də ağartdı – dedi. Vəli dönüb mənə iftixarla baxdı.

İndi mən Vəlinin ömrünün faciəli aqibəti haqqında şeir yazırdım. Vəliylə keçirdiyimiz günlər qırx dörd illik bir məsafəni əlvan, zəngin, məhrəm kadrlarda yerləşdirən bir kino lentinə bənzəyirdi. Bu kino lentindəki kadrlar dalğın gözlərimin önündən keçdikcə məni də öz arxasınca çəkib aparırdı. Mən bu kadrları əyləyib ağ vərəqlər üstə köçürməyə çatışmırdım. Kadrlar o qədərdi ki.... Deyirlər yara isti olanda ağrısı çox bilinməz. Soyuyandan sonra isə ağrısına dözmək olmaz. Ancaq yaranın həm ağrısının, həm də dərinliyinin nə qədər olduğunu isti vaxtında duya-duya, görə-görə yazırdım. Özü də içimdə ağlaya-ağlaya yazırdım. Bəli! Yalnız içimdə ağlayırdım. İstəmirdim ki, səsimi qonşu otaqda onsuz da narahat olan Şəfiqə də eşidib daha da pərişan ola.

Mən şeiri qurtarandan sonra qonşu otağa keçib Şəfiqəyə oxudum. O diqqətlə mənə qulaq asıb: – Yaxşıdır – dedi. Sabahı "Xalq qəzeti"nin redaktoru Tofiq Rüstəmova zəng vurdum. Vəli haqqında şeir yazdığımı dedim.



O dedi ki, şeiri tez mənə çatdır. Mən şeiri Tofiq Rüstəmova göndərdim. Şeir "Alovlu şərəf" adıyla Vəlinin vəfatının yeddinci günündə "Xalq qəzeti"ndə çıxdı.

Tələbəlik dostum Vəli Məmmədovun əziz xatirəsinə:

**Səni düşünəndə, xatirə dolu**
**Tələbəlik çağım düşür yadıma.**
**Deyirəm, hanı o yaşıl yaz yolu?**
**Saralmış şəkillər çatır dadıma.**

**Birində təklikdə yaşayanlar tək**
**Tənhalıq gəlməsin deyə eynimə,**
**Qəmi də birlikdə daşıyanlar tək**
**Əlini qoyubsan mənim çiynimə.**

**Birində Yardımlı torpağındakı**
**Ata ocağında danışırıq biz.**
**Hələ də Bakının sorağındakı**
**Təbrizi andıqca alışırıq biz.**

**Birində yolları dolaşıq kimi**
**Buz külək dolmasın deyə qoynuma,**
**Sən yaz təravətli sarmaşıq kimi**
**Möhkəm sarılıbsan mənim boynuma.**

**Qardaşım! Bığ yerin tərləməmiş sən,**
**Mehriban ananın ev-eşiyiydin.**
**Ancaq bir sinifdə bilirdim ki, mən,**
**Sən böyük külfətin son beşiyiydin.**

**Sən necə sadəydin məsum uşaq tək**
**Dərin gözlərində günah batardı.**
**Sənə qızların da yaxın dayaq tək**
**Bir iş tapşırmağa ərki çatardı.**

Həyatda sən elə istedadlıydın
Bir əlin dərsdəydi, bir əlin işdə.
İnamda sən elə etiqadlıydın
Sənlə böyüyürdü balaca iş də.

Hələ tələbəykən müdrik dövranda
Səni gözləyirdi yüksək məqamlar.
Bəs səni yaşadan nəydi cahanda?
İnamlar, inamlar, yenə inamlar.

Elə aşmışdı ki, işin başından,
Üzünü görmək də çətinləşmişdi.
Heyrətli nə vardı? Gənclik yaşından
Əzmin zəhmətinlə mətinləşmişdi.

Sən kimdin? İlahi şəxsə yozduğum!
Səni tapmayırdım bəlkə görəm mən.
Avtoqraf deyilən sözlər yazdığım
Təzə kitabımı sənə verəm mən.

Sən dağlar oğluydun, öz qeyrətinlə
Bulaq suyundan da təmizdin, qardaş!
Elə ona görə öz surətinlə
Öz müdrik xalqına əzizdin, qardaş!

Sənin ürəyində Azərbaycanın
İki yox, yalnız bir ünvanı vardı!
Sənin diləyində Azərbaycanın
Yarımçıq yox, bütöv dastanı vardı!

Könlüm dözməyəndə uzun həsrətə,
Bir soraq gözlədim doğma torpaqdan.
Sən özün apardın məni sərhədə,
Bəlkə Savalanı görəm uzaqdan.



Bəli! Mənə yanan bir məhrəm təki
Əlindən o gəldi himmət naminə.
İmkanın olsaydı bir həmdəm təki
Sən nələr etməzdin şəfqət naminə.

Nə qədər başımdan basdısa tufan,
Bir yol baş əymədim qüdrətinə mən.
Hörmətlə baş əydim sənin hər zaman
Səmimiyyət dolu ülfətinə mən.

Yad sənin müqəddəs torpaqlarının
Çörəyini yeyib, suyunu içdi.
Sonra da silahsız oylaqlarının
Mərd insanlarını silahla biçdi.

Söz cəbhə sansa da öz dünyasını,
Döyüşdə silahla qorunar torpaq!
Silahsız olmağın ilk mənasını
Mən Təbrizdə bildim qırx beş il qabaq.

"Azadlıq meydanı" qaynadı-daşdı,
Fikirlər bişirən nəhəng qazan tək.
Ağ saçlı dalğalar sahili aşdı,
Azadlıq havası çaldı ozan tək.

Kimsə tamam yumub qanlı gözünü
Tanklara əmr etdi: – Kütləni biçin!
Sən tankın üstünə atıb özünü
Dedin əvvəl mənim üstümdən keçin.

Duysan da hər sözün təmtərağını,
Hər dərdə işinlə yarayırdın sən.
Doğmalar doğması Qarabağını
Yaddan Moskvada qoruyurdun sən.

**Demə yatmayıbmış kəmfürsət yad da,**
**Məqam gözləyirmiş dövran içində.**
**O səni atəş tək yandırdı odda,**
**Dedilər "Yanıbsan duman içində".**

**Yox! Yox! Sən mübariz yoldaşlarınla**
**Düşmən gülləsinin hədəfi oldun.**
**Göydə də öz məslək qardaşlarınla**
**Vətənin alovlu şərəfi oldun...**

Bütün günü masanın üstdəki telefon susmaq bilmədi. Şeiri oxuyub zəng edənlər mənə yaman sarsıldıqlarını dedilər. Ancaq bilmədilər ki, neçə gündür mən özüm də özümdə deyiləm. Atalar deyib ki, toyuq ölsə bir çəngə tükdür. Dəvə ölsə bir dəvəyə yükdür. Bəs fil ölsə necə? Yəqin ki, bir filə yükdür. Bəli! Gedən filin dərdinin ağırlığını qalan fil çəkməlidir...

Mən həmişə Vəlini xatırlayanda dodaqaltı bir yanğılı bayatı pıçıldayıram:

**Ayaq gedər, yol getməz,**
**Ümid itər, yol itməz,**
**Haçansa, haradasa**
**Ömür bitər, yol bitməz...**

## KEŞMƏKEŞLİ DÖVRAN

1991-ci ildə Sovet İttifaqı dağıldı. Daha şura hökuməti yox idi. SSRİ ərazisindəki respublikalarda yeni ictimai-siyasi sistem qurulmamışdı. Qurulsa da möhkəmlənməmişdi. Necə deyərlər, köhnə qurtulmamışdı, təzə isə hələ yetişməmişdi. Hər yerdə hərc-mərclik hökm



sürürdü. Bundan istifadə edən, xaricdəki havadarlarına arxalanan Ermənistan qondarma Qarabağ məsələsini bəhanə edib Azərbaycana qarşı elan olunmayan müharibəyə başladı. Azərbaycanlılar özlərindən sayca az olan ermənilərin döyüşlərdə bir uğur qazana bilməyəcəyini güman edirdi. Elə mən özüm də bu fikirdəydim. Ancaq hadisələrin sonrakı nəticələri göstərdi ki, bu güman kökündən yanlış imiş. Təpədən-dırnağa qədər zəhmə bürünən zorun həcmi böyük-kiçikliklə ölçülmür. Yox! Qayanı andıran fil bəzən elə məsumlaşır, elə fağırlaşır ki, xortumu boyda insandan mərhəmət umur. Ovucun içi boyda əqrəb, belində sanki haçalı dağ qaldıran dəvəni bir dişdəmlə yerə yıxıb çabaladır. Nəhəng bir imarəti dalğalı alovuyla udan yanğını söndürən insanın ağzını mirvari dənəsi boyda istiot elə yandırır ki, gözlərinin çeşmələrini təlatümə gətirir. Bəli! Qadir insanı ağladır. Həyasız it saymaz qapıya tez dürtülər. Onda qalmış öz-özünə açılan darvaza ola. Belə darvazadan nəinki bir it, hətta it sürüsü də keçə bilər. Elə keçdi də. Ermənilər nizami ordusuyla Qarabağdakı Azərbaycan kəndlərinin, qəsəbələrinin, şəhərlərinin öz-özünə açılan darvazalarından içəriyə soxuldular. Azərbaycanın isə nizami ordusu yox idi. Azərbaycanlılar başa düşmədilər ki, özgələrin iplərinin üstünə odun yığmaq olmaz. Bəli! Vətən torpaqları uğrunda nəinki dəstə-dəstə döyüşmək, hətta cihad etmək gərəkdir. Necə deyərlər, azdan az ölər, çoxdan çox. Ölü bu gün, şüvəni də bu gün...

Mən o çağlarda hardasa eşitdiyim kiçik bir hekayəti xatırladım. İki siçan balası süd qazanına düşür. Nə qədər çabalayırlarsa qazandan çıxa bilmirlər. Axırda bi-

ri deyir ki, mən daha yoruldum. Ölmək ölməkdir, xırıldamaq nə deməkdir? Beləliklə, ölümü minnətsiz qəbul edir. Ancaq o biri südün içərisində o qədər çabalayır ki, axırda süd yağa dönür. Siçan balasının ayaqlarının altı bərkiyir və o qazandan çıxa bilir. Bəli! Dünyadakı bütün canlılar dara düşəndə çıxış yolu axtarırlar...

Ermənilər bir gecə də (1992-ci il fevralın 26-da) Xankəndindəki Sovet ordusu əsgərlərinin hərbi yardımı ilə Qarabağın zümrüd səltənəti sayılan Xocalı şəhərini qrad raketləri, tank mərmiləri ilə yandırıb külə döndərdi. Bakıdan yardım gözləyə-gözləyə qalan xocalılar o dəhşətli yanğından, qırğından salamat çıxa bilmədilər. Tarixdə hələ tayı olmayan əzab içində qırıldılar. Bu qırğın Qarabağda azərbaycanlıların soyqırımı idi. Sabahı səhər Respublika radiosunun Cənubi Azərbaycan redaksiyasına zəng vurub Qarabağ haqqında həm danışıb, həm də şeir oxumaq istədiyimi bildirdim. Fikrimi məmnuniyyətlə qəbul etdilər. Vaxt məhdudiyyəti qoymadılar. Qarabağ mövzusunda nə qədər istəsəydim danışa bilərdim. Sinəm sözlə dolu idi. Bu haqda yazdığım şeirlərim də çox idi. Ancaq Xocalı faciəsi ilə əlaqədar Qarabağa aid yeni şeir yazmaq qərarına gəldim. Yazı mizimin arxasına keçəndə yadıma bir əhvalat düşdü. Bir həftə əvvəl bir papaqçı dükanının qabağından keçəndə dayandım. Sonra nəzakət dolu maraqla papaqçıya: – İndi papaq sifariş verənlərin sayı çoxmudur? – dedim. Papaqçı təəssüflə: – Yox! Papaq qoyan kişilər cəbhələrdə düşmənlərlə döyüşüb torpaqlarımızın dərdini çəkir. Arxada qalanlar isə paraq gərək olmadığına görə sifariş də vermirlər. Unudurlar ki, keçmişdə



də torpaqlarımızı qoruyan kişilər papaq qoyublar. Ona görə də papağı həmişə alçaq yerdən yox, kişiyə hörmət əlaməti olaraq uca yerdən asarmışlar – dedi. Mən papağı qeyrət qalası sayan kişiləri ana-ana “Qarabağ düşüncələri” adlı şeirimi yazdım:

**Nənəm qüdsi nemətin**
**Önündə baş əyərdi.**
**Erməninin bezindən**
**Söz düşəndə deyərdi:**
**O, toyda da, yasda da**
**Mənfəət arayandır.**
**Nə diriyə, nə dəki**
**Ölüyə yarayandır.**
**Nənəm görmədi heyhat**
**Erməni cəlladları,**
**Xəyallarında daşnaq**
**Niyyətli fəsadları,**
**Qonşunun torpağında**
**Təzə pay arayacaq.**
**Hər bir yaramazlığa**
**Can-başla yarayacaq.**
**Kimsə unutmasın ki,**
**Mehriban ünsiyyətdə –**
**Qarşılıqlı olmalı**
**Diqqət də, məhəbbət də!**
**Yoxsa solub gedərlər**
**Açılmamış qönçə tək.**
**Hardasa kəsilərlər**
**Yarımçıq bir küçə tək.**

Torpaq unudularsa,
Həsrətlə yola baxar.
Nəzarətsiz hüsnünə
Başqası sahib çıxar.
Qarabağ laqeydlik
Qurbanı olmadımı?
Neçə-neçə faciə
Dastanı olmadımı?
Deyirlər vəhşi çoxdur
Ormanların içində.
Yox! Vəhşi daha çoxdur
İnsanların içində.
İndi başdan-ayağa
Yaraqlı ermənilər,
Havadarlı, arxalı,
Dayaqlı ermənilər,
Daşları səngərlərə
Çevrilən Qarabağın,
Arxasızlıq üzündən
Kövrələn Qarabağın,
Möhtəşəm sinəsini
Dəlik-deşik eləyir.
Bəli! Suyunu içib,
Üstünə od ələyir.
Xocalı faciəsi
Yaddan nə təhər çıxar?
O faciəyə Xatın
Özü heyrətlə baxar...
Xocalı Azərbaycan
Xirosiması oldu.
Yasında tarix özü
Bəyaz saçını yoldu...



Yaraqsız qocaların
Ağ saqqalı o axşam
Topların tüstüsüylə
Qara boyandı tamam.
Sərv boylu analar
Yanıb kösövə döndü.
Ay parçası körpələr
Nizə ucunda söndü.
Mərd igidlər döyüşdü
Son gülləsinə qədər.
Ancaq tufan gələndə
Sədd də dağılıb gedər.
Zaman-zaman uyumuş
Dağlar fəryada gəldi.
Zəlzələ qopdu... Nə yer,
Nə göy imdada gəldi.
Füsunkar bir şəhərdən
Kül olmuş torpaq qaldı.
Qaçanların dalınca
Hönkürən bulaq qaldı.
Qaçanlar gizlənsə də
Meşənin harasında,
Buz heykələ çevrildi
Ağaclar arasında.
Daim sabaha baxan
Ağlımızın gözləri,
Atalar haçan deyib
Görəsən bu sözləri?
Fışdırıqla heç zaman
Donuz çıxmaz darıdan.
Yaraqdır, yalnız yaraq
Döyüşçünü yarıdan!

**Yoxsa tapdananların**
**Tapılmaz əlacları.**
**Gərək toplara dönsün**
**Qarabağ ağacları.**
**Gərək tanklara dönsün**
**Qarabağ qayaları.**
**Yoxsa qəsbkarların**
**Həyasız həyaları**
**Doyumsuz iştahını**
**Artıracaq daha da.**
**Ömürlər dönəcəkdir**
**Tüstüyə də, aha da...**
**Müdafiə düşmənin**
**Tuşlanmış gülləsidir.**
**Hücum zəfər qəsrinin**
**İlk möhkəm pilləsidir.**
**Mən işğal davasını**
**Kinlə naxışlayıram.**
**Azadlıq davasını**
**Sözlə alqışlayıram.**
**Yediyi çörəkləri**
**Ayaqlayan nankorlar,**
**Ümidini uzaqda**
**Soraqlayan nankorlar,**
**Hələ pərdələsə də**
**Həqiqət günəşini,**
**Cibinə qoya bilməz**
**Ədalət günəşini.**



**Axı, sim tarınkısa,**
**Təranə də simindir.**
**Bəs torpaq? O ətrindən**
**Bilinərki kimindir!**
**Yerevansa dansa da**
**Qədim Azərbaycanı,**
**Yalnız yuxuda görər**
**“Böyük Ermənistan”ı.**

Radioda əvvəl Qarabağ haqqında bir xeyli danışıb, sonra şeirimi oxudum.

Gözləri qızmış ermənilər xülyaya dönmüş iddialarından əl çəkmir, Azərbaycan torpaqlarına yeni-yeni hücumlar edirdi. Müharibə gedirdi. Şimali Azərbaycanda yaşayan Cənubi Azərbaycanlı siyasi mühacirlərin övladları da Qarabağ uğrunda gedən döyüşlərə atılmışdı. Aralarında qəhrəmancasına həlak olanı da az deyildi. Təpədən-dırnağadək texnika ilə, müasir silahlarla təchiz olunmuş ermənilərin zorla öz ev-eşiklərindən çıxartdıqları azərbaycanlılar dəstə-dəstə, qatar-qatar, karvan-karvan Azərbaycanın içərilərinə çəkilməyə başladı. Bəli! Qaçqınların, köçkünlərin, didərginlərin sayı gündən-günə artdı... Mənim yol çəkən gözlərimin qarşısında Vətəndən didərgin düşdüyüm günlər təzədən canlandı. Sanki sinəmdə ürəyim dilə gəldi. O tövsiyəylə: – Sən də hələ 47 il bundan qabaq Vətənindən didərgin düşməmisənmi? Bəs niyə yazmırsan? Yaz! Qoy indiki didərginlər oxuyub görsünlər ki, o zaman sənin də başına hansı müsibətlər gəlib – dedi. Doğrusu, yenidən o günlərə qayıtmaq mənim üçün ağır idi. Ancaq is-

lanmışın yağışdan nə qorxusu? Mizimin arxasına keçib "Didərginlər" şeirimi yazdım:

**İbtidai insan qədim zamanda**
**Vəhşilər içində məskən salıbdır.**
**Bəlkə ona görə bəzi insanda**
**Hələ vəhşilikdən izlər qalıbdır.**

**Keşməkeşli dünya insanlardan çox**
**Bəlkə hadisələr doğan anadır.**
**Həssas baxışından yalnız bəzən yox,**
**Həmişə intizar yağan anadır.**

**"Özü də, sözü də azad" dünyada**
**Yenə öldürən var, yenə ölən var.**
**Dəyərli torpağı kasad dünyada**
**Bölünmüş yerləri yenə bölən var.**

**Fədakar, xeyirxah, mehriban insan**
**Dinc yandıra bilmir öz ocağını.**
**Dünyada qırğından nigaran insan**
**Sanki qaçaq qoyub bir ayağını.**

**Komik aktyorlar mələklər kimi**
**Arabir söz satır, arabir də naz.**
**Bəs niyə salonda təlxəklər kimi**
**Güldürənlər çoxdur, gülənlərsə az?**

**Dünyada fəlakət yağışlarından**
**Bəla ələndikcə möhnət qabarır.**
**Məsum insanların baxışlarından**
**Gülüşü göz yaşı yuyub aparır...**



**Elə başılovlu çıxdım Təbrizdən,**
**Götürə bilmədim bir dəst paltar da.**
**Mən keçmək istərkən yanan dənizdən,**
**Döydü kürəyimi soyuq ruzgar da...**

**"Günahım" nə idi? Şahla döyüşmək!**
**Vətənə, millətə, dilə azadlıq!**
**Qərəzdən yoğrulmuş fərqi dəyişmək,**
**Şəhərə abadlıq, kəndə abadlıq!**

**Qəribədir, şahla döyüşüb, ancaq**
**Kama çatanlar gör nə deyir mənə:**
**O İrana xain, ABŞ-a dayaq**
**Şahla döyüşsəm də "suçluyam" yenə.**

**Ağalar nədənsə utanmır düzü,**
**Zənn edir kar tarix vaxtın nəşidir!**
**Yox! Onlar yanılır! Axı hər sözü**
**Hər anın şahidi tarix eşidir.**

**Vətəndən Vətənə köçsəm də, mən də**
**Didərginəm! Özüm çəkdim qayğımı.**
**Vətənin suyundan içsəm də, mən də**
**Soyuda bilmədim Vətən yanğımı.**

**İstədim səadət tapam Vətəndə,**
**Üstəlik itirdim Vətəni də mən.**
**İstədim atımı çapam Vətəndə,**
**Özümlə gətirdim Vətəni də mən.**

**Demə didərginlik özü ömürdür,**
**Sənin tarixinin bəlkə kəsri var?**
**Bil ki, bir anın da sözü ömürdür,**
**Mənim tariximin yarım əsri var!**

**Ömrüm başdan-başa nə olub? Sınaq!**
**O qədər sınağa dözmüşəm özüm,**
**İndi oğluma da həyatda ancaq**
**Dözüm öyrədirəm, vüqarlı dözüm!**

**Sən yazıq dünyanın halına yan ki,**
**Hardasa keçməyir bircə sözü də.**
**Min-min didərginin şəxsində sanki**
**Min-min didərgindir dünya özü də.**

**Bir yerdə dursa da qəribləriylə**
**Dağına-düzünə daşınır dünya.**
**Yaxşı ki, minlərlə nəsibləriylə**
**Özündən özünə daşınır dünya.**

**Yoxsa xislətinə biganə kimi**
**Dünya bir köçəri quş olmazdımı?**
**Yellər uğuldayan viranə kimi**
**Yeri başdan-başa boş qalmazdımı?**

**Görəsən özünün halından əvvəl**
**Dünyanın halını anan varmıdır?**
**Səsini gur edib, könlünü məşəl,**
**Qovğalı dünyaya yanan varmıdır?**

**Bütün insanlara yanan dünyaya**
**Yanmamaq ən böyük cinayət olar.**
**Heyrət şaxtasında donan dünyaya**
**Milyonlarla ah da hərarət olar.**

**Sanma boz köynəkli sislər içində**
**Yanmağa adicə tonqal gərəkdir.**
**Yox! Yox! Buz nəfəsli kəslər içində**
**Özünü yandıran amal gərəkdir!**



Respublika iqtisadi böhran keçirirdi. Bahalıq bazardükanda alıcılara meydan oxuyurdu. Yaşayış xərcləri gündən-günə artırdı. Hər yerdə söhbət ancaq güzərandan gedirdi. Yuxarıdakılar isə bahalığın günahını müharibədə görürdülər... Deyirlər tarixdə bir Prometey hekayəti var. Prometey insanlara işıq payladığı üçün qaranlıq allahı Zevsin qəzəbinə düçar olur. Zevs onu ömürlük zəncirlə bir qayaya bağlatdırır. Ac qartallar hər dəfə Prometeyin ürəyini söküb yeyəndə o ölür. Sonra təzədən dirilir. Şairlər də öz əziyyətli həyatlarıyla məşhur əzabkeş Prometeyi xatırladır. Axı, şairin hər təzə yazdığı əsər onun ürəyini sökə-sökə, didə-didə, yeyə-yeyə ərsəyə çatır. Ancaq Prometeyin hekayəti əfsanə, şairlərin hekayəti isə realdır. İndi isə şairlərin yaradıcılıq əzabına dolanışıq əzabı da qarışmışdı. Özü də o yalnız yaradıcılıq əzabını yox, bütün əzabları üstələmişdi...

Şəfiqə səhər işə gedib axşamüstü evə qayıtdığı üçün bazara dəyə bilmirdi. Bazara mən gedirdim. Ancaq bəzən işdən qayıdanda bazara da o özü gedirdi. Təqaüdə çıxandan sonra isə bazar işini həmişəlik öz öhdəsinə götürdü. Bir gün evdə işi çox olduğu üçün bazara məni göndərdi. Bu o zaman idi ki, artıq Şimali Azərbaycanda iqtisadi tənəzzül get-gedə şiddətlənirdi. Mən yaxındakı bazara getdim. Gördüm bazar həmişəki bazar deyil. Bəli! Bazar od tutub yanır. Özü də tüstüsüz yanır. Alıcılar yaman deyinir. Gileylənən kim, şikayətlənən kim... Mən alacağım şeylərin kiçik siyahısına baxdım. Kartofsatana yaxınlaşıb kartofun qiymətini soruşdum. O gözlərini laqeyd-laqeyd kartofa dikib qiymətini dedi. Heyrətdən

gözlərim kəlləmə çıxdı. Cibimdəki pullar heç bir kilo kartofun dəyərini ödəmirdi. Doğrusu, əsəbiləşdim. Piştaxtadan uzaqlaşdım. Daha alacağım başqa şeylərin qiymətlərilə maraqlanmadım. Axı, bazarda hər şey puldan asılı olur. Alqı da, satqı da. Pulsuz sorğu-sualın nə mənası? Daha bazarda qala bilmədim. Qalmağa heç lüzum da yox idi. Gəlib dayanacaqda trolleybus gözlədim ki, minib evə qayıdam. Özü də əliboş. Trolleybus gəldi. Dayanacaqda gözləyən sərnişinlər arasında basabas düşdü. Birtəhər minə bildim. İçəri də basabas idi. Mən tez düşəcəyimə görə sərnişinləri yara-yara qabağa irəlilədim. Qocalar, uşaqlar, şikəstlər əyləşən yerə çatdım. Bu zaman iki ahıl kişinin gileyli-gileyli danışdığını eşitdim. Biri o birisinə: – Daha bazara girmək kasıb-kusub işi deyil. Bəli! İndi gərək bazara gedən özüylə özü ağırlığında pul apara. Bazarda hər şeydən ucuz insandır. Dünənə qədər yer üzünün əşrəfi sandığımız insan. Deyəsən dünyanın axırıdır – dedi. Sanki o biri kişinin dərdi deşildi. Yanında əyləşən müsahibinə hiddətlə: – Canım, axı mənim nəyimə gərəkdi ki, dövlətin başında duran şəxs dişsiz ağzında protezi saxlaya bilir, ya bilmir? Məmləkəti ki, saxlaya bilirdi. Onda nə bu qədər alverçi vardı, nə də bu qədər dilənçi – dedi. Bu kişinin təəssüflə xatırladığı şəxs SSRİ-nin keçmiş dövlət başçısı L.İ.Brejnev idi. Bu söhbəti məndən başqa eşidənlər də vardı. Ancaq bu, gileyli-gileyli danışmaq yox, yanğılı-yanğılı qeybət etmək idi. Trolleybus evimizə çatanda düşdüm. Məni astanada qarşılayan Şəfiqə heyrətdən dondu. Axı, dolu bazardan boş qayıtmışdım. Mən



Şəfiqəyə: – Daha mənimki bazarla qurtardı. Mən elə bilirdim yalnız it qudurur. Sən demə, bazar da qudurarmış. Bəli! Bazara da yaxın düşmək olmur – dedim. Şəfiqə əsəbiləşdiyimi görüb dinmədi. Mən sinəmin dolduğunu, az qala partlayacağını duyub soyunmadan otağa keçib elə birnəfəsə "Qeybət" şeirimi yazdım:

**Qeybət kişilərə yaraşmayır, yox,**
**O hələ qədimdən arvad işidir.**
**Əfsus, kişilər də hər söhbətdən çox**
**İndi bir-birindən qeybət eşidir.**

**Ancaq bu qeybətlər insandan deyil,**
**Dövrandan danışır, bəli, dövrandan.**
**Tədbirdən, qayğıdan, imkandan deyil,**
**Nöqsandan danışır, bəli, nöqsandan.**

**Dəhşətdir sevincin sevincə həsrət**
**Qapını döyməyə vaxtı olmaya.**
**Sən baxta sığınıb qalasan... Fəqət**
**Baxtın özünün də baxtı olmaya.**

**Yolların zəhmini dərindən duyub**
**Dəmir çarıq geyə, çarıq, kişilər.**
**Təəssüf içində özünü qoyub**
**Baxta baxt axtara yazıq kişilər.**

**İşə bax! Alovla döyüşən kəslər**
**İndi közünə də minnət eləyir.**
**Dövranı cürətlə dəyişən kəslər**
**Dövranın hökmündən qeybət eləyir.**

**Nağıllar tükənir... Şikayət dolu**
**Söhbətlər qurtara bilmir ki, bilmir.**
**Ömürlər tükənir... Məzəmmət dolu**
**Qeybətlər qurtara bilmir ki, bilmir.**

**Vay ondan, mövqeyi itə insanın,**
**Arzusu "bəlkə"yə dönə güman tək.**
**Dövran kişinin yox, kişi dövranın**
**Əlinə göz dikə bir şey uman tək.**

**Yox! Yox! Axarını dəyişsin dövran,**
**Allah da xeyirxah deyir duaya.**
**Kişilər dövrandan danışan zaman**
**Qeybəti çevirsin xeyir-duaya...**

Bir kişi mal kəlləsi almaq üçün bazara gedir. Qəssabdan kəllənin qiymətini soruşur. Qəssab iki min manat deyir. Kişi qəssaba nə qədər min beş yüz manata ver, götürüm, deyirsə, qəssab daş atıb başını tutur. Bəli! Razı olmur ki, olmur. Kişi təəssüflə qəssaba: – Dünya yaman dəyişib. Daha arada xətir-hörmət qalmayıb. Biz üç kişi bir mal kəlləsindən ötrü sənin yanına gəlmişik, sən isə bizi hörmətsizliklə yola salmaq istəyirsən – deyir. Qəssab heyrətlənir. Dükanın qabağında ət növbəsində dayanmış adamlar kişiyə maraqla baxır. Qəssab istehzayla kişiyə: – Sən təksən ki, kimlərdir o üç kişi? – deyir. Kişi kinayə ilə qəssaba: – Mən, Məmmədəmin, Nizami – deyir. Qəssab utanır. Növbədəki adamlar isə mənalı-mənalı bir-birinin üzünə baxıb qımışır... Sən demə, kişi üç nəfər deyəndə özünü, sonra min manatlıq əskinazın üstündəki Məmmədəmin Rəsulzadənin şəkli-



ni, daha sonra isə beş yüz manatlıq əskinazın üstündəki Nizami Gəncəvinin şəklini nəzərdə tuturmuş. Ancaq qəssab özünü o yerə qoymur. Kişi evinə əliboş qayıdır... Yadıma Molla Pənah Vaqifin "Bayram oldu, heç bilmirəm neynəyim?" misrası ilə başlayan şeiri düşdü. Düşündüm ki, doğru deyirlər. Tarix təkrar olur. Mən də qəhətliyi, kasadlığı, bahalığı damğalayan "Şükür deyirik" adlı bir şeir yazdım:

**Bahar gəlib-gedən yaşıl karvandır,**
**Solğun çiçəyə də şükür deyirik.**
**Günəş bom-boş göydə şaxmır haçandır,**
**Müdhiş şimşəyə də şükür deyirik.**

**Yorğun gözümüzü döydükcə sazaq,**
**Düz yolumuzu da az qalır azaq.**
**Quru kösöv də yox bir ocaq çataq,**
**Nəmli təzəyə də şükür deyirik.**

**Bu boyda torpaqda bəhərdən yox iz,**
**Təbiət insana diz çökdürür, diz.**
**Arılar harasa uçub-gedib, biz**
**Balsız pətəyə də şükür deyirik.**

**Gümüş zirvələrin başı dumandır,**
**Həqiqət həqiqət, güman gümandır.**
**Un kisəsi boşdur... Bizsə haçandır**
**Sınıq ələyə də şükür deyirik.**

**Kimisi dalını çevirir sözə,**
**Kül yox, pul üfürür kimisi gözə...**
**Biz nə mey bilirik, nə də ki məzə,**
**Yavan çörəyə də şükür deyirik.**

**Ağır yüklər altda dözmür çiynimiz,**
**Bir təzə köynək də görmür əynimiz,**
**Fikir tünlüyündə çaşıb beynimiz,**
**Yorğun ürəyə də şükür deyirik.**

**Himayəmiz hanı oğulsaq da biz,**
**Müştərimiz hanı noğulsaq da biz,**
**Boğanaq içində boğulsaq da biz,**
**Kiçik köməyə də şükür deyirik.**

**Küsənlər unudub barışığını,**
**Daha bəyənməyir yar aşığını.**
**O itirib fitri yaraşığını,**
**Süni bəzəyə də şükür deyirik.**

**Neçə-neçə başsız küləyə düşdük,**
**Müəmmalar dolu kələyə düşdük,**
**Zirvədən hellənib ətəyə düşdük,**
**Tapdaq ətəyə də şükür deyirik.**

**Hanı korun-korun yandıran kaman,**
**Desin dərdimizi, eşitsin cahan...**
**Bilsin, sədəfli tar susduğu zaman**
**Qarğı tütəyə də şükür deyirik.**

**Alova düşsə də alışmır heç kim,**
**Dövranın işinə qarışmır heç kim,**
**Ağzına su alıb danışmır heç kim,**
**Dinən pəltəyə də şükür deyirik.**

**Kimi büsat qurur, kimi də növraq,**
**Bəs biz neynəyirik? Soruşma nahaq.**
**Əlimiz heç yana çatmayır, ancaq**
**Quru diləyə də şükür deyirik.**



Xarici dövlətlər Şimali Azərbaycana humanitar yardım etməkdə sanki bir-birilə yarışa girdi. Yox! Daha çox şöhrət qazanmaq uğrunda çalışdı. Xaricdən Şimali Azərbaycana karvan-karvan humanitar yardım gəldi... Ancaq televiziyada dindirilən qaçqınlar heç bir humanitar yardım almadıqlarını dedi. Sən demə, vəzifəli pul hərisləri humanitar yardımları da bazarlara çıxarıb satdırırmış. Şimali Azərbaycana humanitar yardım göndərən ölkələrdən biri də qonşu İran idi. Ancaq İran bir oxla iki nişan vururdu. Bir yandan özünü gözə soxmaq üçün qaçqınlara humanitar yardım göstərir, bir yandan da ermənilərlə əlaqələrini genişləndirirdi. Bəli! İran Ermənistanda banklar, Azərbaycanda isə məscidlər açırdı. Üstəlik, Azərbaycanda təşkil etdiyi dini mədrəsələrdə dini təbliğ edən mollalar hazırlayırdı. Din müqəddəs məbəddir! Ancaq hər şeyin cilovunu aparıb məbədə bağlamaq günahdır. Dini qalxdığı əlçatmaz yüksək məqamdan aşağı endirməkdir. Dini müəyyən məqsədlər üçün təbliğ etmək, etiqadı bazara çəkməkdir. Müxtəlif qiymətlərlə satmaqdır. Allahı da, peyğəmbəri də, dini də şah beytlərlə tərənnüm edən Şeyx Nizami Gəncəvi yazıb ki, suda da inci saflığı var. Ancaq çox içəndə o da insana ağrı gətirər. Bəli! Dinin şitini-şorunu çıxarmaq olmaz. Xəzinələrin dəyərini artıran almas da, qızıl da, zümrüd də, yaqut da, firuzə də sürtüldükcə çəkisi əskilir. Din gərək həmişə öz çəkisində qalsın. Bir evə bir adam gec-gec qonaq gedəndə hörmətli olur. Tez-tez gedəndə hörmətdən düşür. Dini yerli-yersiz təbliğ edən mollalar öz rollarının sözlərini unutmaqdan qorxub onları tez-tez təkrarlayan aktyorları andırır...

Mən İranın humanitar yardım pərdəsi altında Şimali Azərbaycanda apardığı dini təbliğatı düşünəndə yadıma ataların nə balını istəyirəm, nə də bəlasını məsəli düşdü. Düzü özlüyümdə belə məqsədli humanitar yardımları sinəsi nadir, zəngin, əlvan nemətlərlə dolu bir diyara yaraşdıra bilmədim. Şimali Azərbaycana müraciətlə "Özgə köməyi" adlı şeirimi yazdım:

**Yaşım az deyildir, əngin dünyanın**
**Döyüş yollarını sanıyıram mən.**
**Həmişə soyulan zəngin dünyanın**
**Gönünü dabbaqda tanıyıram mən.**

**Qəribə zamandır, zorla-kələklə**
**Ölkələr dağıdır biri-birini...**
**Bir ölkə dilənçi payı köməklə**
**Hardasa şirin də salır yerini.**

**Vətən! Təmənnasız günəş də doğmaz,**
**Bilər yanğısını soyudar külək...**
**Sənin öz nemətin dünyaya sığmaz,**
**Özgə sədəqəsi nəyinə gərək?**

**Tamahkar vaxt almaz boş sözlərilə,**
**Ömründə faydasız dada çatmaz o.**
**Hansı ağacdasa öz gözlərilə**
**Bir meyvə görməsə, yüz daş atmaz o.**

**Özgənin qıllanmış qoltuğundansa**
**Qürurun fövqündə özünə sığın!**
**Özgənin bir naşı buyruğundansa**
**Özünün bir müdrik sözünə sığın!**



**Dünyada özünə arxalan ancaq,**
**Özgənin atına minən tez düşər.**
**Özgə köməyiylə qurulan ocaq**
**Sönər... Doğma oddan doğma köz düşər.**

Mən hələ yeniyetmə vaxtı görmüşdüm ki, kənddə dəyərli bir şey dəyərləndirilməyəndə kəndlilər təəssüflə: – Yağ yaxşı yağdır, hayıf ki, it dərisindədir – deyərdilər. Bununla da it dərisini günahlandırardılar. Yox! İt dərisi nədir? O yaxşı yağı it dərisinə yığanları günahlandırardılar... Ana təbiət Azərbaycanı möcüzə yaradıb. Ona görə ki, dünya ölkələrinin çoxunda yetişməyən nadir nemətlər Azərbaycanda hasil olur. Üstəlik, burda mövcud olan təbii sərvətlər də dünya ölkələrinin çoxunda yoxdur! Bəli! Ana təbiət Azərbaycandan heç nəyini əsirgəməyib. Azərbaycan ecazkar bir büllur güldandır. Bu büllur güldan o qədər şəffafdır ki, hətta uzaqlardan baxanların da gözlərini qamaşdırır. Adətən güldana gül qoyarlar. Özü də adi gül yox, nadir gül! Güllər həm rəngləri, həm də ətirləri ilə tamaşaçılarını heyran qoyar. Qəribə olsa da, Azərbaycan adlı büllur güldana canlı təzətər gülləri elə tikanlarıyla qoymuşlar. Bu tikanlar gülləri nəinki sancır, hətta yaralayır da. Sanki o tikanlar büllur güldanı xaricdən döyəcləyən qara yellərdən qabaq özləri içəridən parçalamaq istəyir. Güllərin başlarının bəlalarına çevrilir. Güllər tikanların ucbatından yaman həyəcan keçirir. Sanki gah qəzəbdən alovlanır, gah da qüssədən solur... Mən bu nisgillə dolu həqiqətləri gözlərimlə gördükcə öz-özümə dedim:

**Mehribanlıq yoxsa öz aramızda,**
**Sarsılmaz vəhdətdən necə danışaq?**
**Zəhərə dönmüşsə söz aramızda,**
**Danılmaz hikmətdən necə danışaq?**

**Nəğməni nəğməyə qatırsa ilham,**
**Yola gül yox, nəğmə atırsa ilham,**
**Ehtiyac içində batırsa ilham,**
**Ucalan sənətdən necə danışaq?**

**Biganəlik varsa öz canımızda,**
**Düşüb qalmışıqsa daş qınımızda,**
**Meydan açılsa da dörd yanımızda,**
**Sədləşən vüsətdən necə danışaq?**

**Məhrəm sıralarda intizam yoxsa,**
**Məğrur qürurlarda ehtişam yoxsa,**
**Müdrik ululara ehtiram yoxsa,**
**Keçmişə hörmətdən necə danışaq?**

**Çöldə barımızı dəribsə yağı,**
**Evmizin içinə giribsə yağı,**
**Qətlimizə fərman veribsə yağı,**
**Qəzəbli qeyrətdən necə danışaq?**

**Dünyaya hay-haray yayırıqsa biz,**
**Ancaq yerimizdə sayırıqsa biz,**
**Ayağa dolaşan çayırıqsa biz,**
**Qanadlı sürətdən necə danışaq?**

**Kimdənsə mərhəmət gözləyiriksə,**
**Kimdənsə ədalət gözləyiriksə,**
**Kimdənsə dəyanət gözləyiriksə,**
**Umulmaz qismətdən necə danışaq?**



**Gəlin bölünməyək namərdə, mərdə,**
**Azğın yağıları bu doğma yerdə**
**Özümüz gəbərdək... Deməyək bir də**
**Arxalı dəhşətdən necə danışaq?**

Şəfiqə neçə-neçə həyat sınağından keçmiş yorulmaz bir qadındır. Evlənməyimizdən qırx ildən artıq keçdiyinə baxmayaraq o, bir dəfə də məni sevdiyini dilinə gətirməmişdir. Həya edirdi. O qədər sevgisini sözlə yüklənmiş dilində nəqarətə döndərənlər var ki...

**Kiminsə dilindən payız küləyi**
**– Sevirəm! – sözünü apara bilər.**
**Ancaq sevə-sevə susan ürəyi**
**Nə külək, nə tufan qopara bilər.**

Şəfiqənin sevgisi dilində yox, ürəyindədir. O sevgisini sözündə deyil, əməlində sübut edirdi. Belə əməl isə nə hesaba sığırdı, nə kitaba. Zaman gəlib, bağlı sərhədlər açılıb. O taya gediş-gəliş bir az asanlaşıb. Hacı Cavad Bakıdan Tehrana qayıtdıqdan sonra mənə zəng vurub dedi ki, sizə İrana gəlmək üçün dəvətnamə göndərmişəm. Poçt vasitəsilə alacaqsan. Sən də gəl, gənclik illərində gəzdiyin yerlərdə bir də gəz. Səndən sonrakı dəyişiklikləri öz gözlərinlə gör. Ancaq gələndə sən də mənə zəng vur ki, sizi Astarada qarşılayım...

Biz o taydakı qohum-əqrabaya hədiyyələr almaq üçün bir siyahı tutduq. Maşallah o qədər qohum-əqraba var ki... Yığılsalar, bir qəsəbəni doldurarlar. Kimə nə aparacağımızı adının qarşısına yazdıq. Böyük xalamın adı gələndə Şəfiqə qətiyyətlə mənə: – Mən böyük xa-

langilə hədiyyə aparmayacağam – dedi – İstər inci, istər incimə. Bəli! Ürəyi də, əli də açıq Şəfiqə böyük xalamgilə hədiyyə aparmağa etiraz etdi. Hələ bir az üzümə bozardı da. Mən narazı-narazı Şəfiqəyə: – Axı niyə böyük xalamgilə hədiyyə aparmayacaqsan? – dedim. Şəfiqə hiddətlə: – Böyük xalan olmağı bir yana, necə olub ki, o, qızını sənin tək oğlana verməyib? Sənin gələcəyini görməyib? Sən bilirsən ki, mən xəsis deyiləm. Ancaq böyük xalan yaman xəsislik eləyib. Özü də bacısı oğluna. Yox! Necə deyərlər, özü-özünə eləyib, külü gözünə eləyib. Doğrusu, mən Şəfiqənin humanistliyinin möhtəşəm zirvəsinə heyran qaldım...

Bir gün nahardan sonra Şəfiqə dedi ki, gərək gedib mağazalara dəyəm. Sonra da hazırlaşıb getdi. Mən də səhər çıxan qəzetlərə baxdım. Bir qədər sonra telefonumuz səsləndi. Dəstəyi qaldırdım. Zəng vuran Şəfiqə idi. O həyəcanla mənə: – Bax gör mənim çantam evdə qalıb? – dedi. Mən tələsik otaqları dolaşdım. Çantanı tapmadım. Dəstəyi götürüb heyrətlə: – Çanta evdə yoxdur – dedim. Sonra dəstəyi yerinə qoydum. Ancaq narahat olduğum üçün daha qəzetlərə baxa bilmədim. Otaqda var-gəl etməyə başladım. Bir qədər sonra qapının zəngi çalındı. Gedib qapını açdım. Gələn Şəfiqə idi. Bilmirəm soyuqdanmı, həyəcandanmı məsum çöhrəsi avazımışdı. O soyunub əyləşdi. Sonra həyəcanla başına gələn əhvalatı danışmağa başladı. Sən demə, Şəfiqənin mindiyi metro qatarı basırıq imiş. O oturacaqda əyləşib çantasını qucağına qoyubmuş. Növbəti dayanacaqda qatara bir gənclə, qucağı uşaqlı bir gəlin minir. Basırığı



yara-yara gəlib Şəfiqənin qabağında dayanırlar. Şəfiqə qucağındakı çantanı götürüb yanına qoyur. Uşağı gəlindən alıb qucağında əyləşdirir. Qatar iki dayanacaqdan sonra dayananda gəlin uşağı Şəfiqədən alıb əri ilə qatardan düşür. Şəfiqə əlini uzadıb yanına qoyduğu çantanı götürmək istəyir. Ancaq çantanı yanında tapa bilmir. Əvvəl gözlərinə inanmır. Sonra bəlkə çantanı heç özümlə götürməmişəm deyə özündən şübhələnib evə zəng edir. Sən demə, haçansa, kimsə çantanı çırpışdırıb aparıbmış... Çantanın içərisində də pasport, sənədlər, ev açarı, baş darağı, cib dəftəri, çeşmək varmış...

Səhər Natiq müəyyən idarələrə gedib anasının çantada nələr itirdiyini dedi. Ona çanta barədə çıxacaq xəbəri gözləməyi məsləhət görürlər. Biz də gözləməli olduq. Dünya yaxşı adamlardan xali deyilmiş. Bir az sonra çay süfrəsi başına yığışdıq. Əllərimizi fikirli-fikirli süfrəyə uzadanda telefonumuz səsləndi. Mən dəstəyi qaldırıb – Bəli! – dedim. Dəstəkdən yad səs gəldi. Müsahibim səmimiyyətlə mənə: – Mən Azərbaycan Neft və Kimya İnstitutunun qabağından danışıram. Burda təmir işləri aparırıq. Qum qalağının üstdə bir qara çanta tapmışam. İçindəki cib dəftərinin üstündə bu nömrəni görüb zəng etmişəm – dedi. Mən sevindim. Sevincim yanımda əyləşib həyəcan dolu maraqla telefon söhbətinə qulaq asan Şəfiqəyə də, Natiqə də sirayət etdi. Onlar da sevindi. Natiq dərhal dəstəyi məndən alıb zəng edən adamla nəzakətlə danışdı. Görüşəcəkləri yeri təyin etdi. Evdən çıxanda özüylə bir qədər pul da götürdü. Bəs necə? İtən şeyi tapana muştuluq vermək millə-

timizin qədim adətlərindən biridir. Ancaq yaxşı adətdir. Ona görə ki, itən şeyin tapılmasında yalnız bir tərəf yox, iki tərəf də sevinməlidir. İtən şeyin həm sahibi, həm də tapanı. Rəhmətlik Mirzə Cəlil düz deyirmiş ki, nigaranlıqdan üzücü şey yoxdur. Natiq qara çantanı o xeyirxah adamdan alıb gətirəndən sonra nigarançılıqdan çıxıb rahatlandıq... Yox! Mən rahatlana bilmədim. Vətənin ağır halına laqeyd-laqeyd baxan insanları düşünə-düşünə dedim:

**Dünyada ən böyük, ən müdrik ana**
**Vətəndir! İnamla sən sığın ona!**
**Ondan nə dərd gizlə, nə də sirr saxla,**
**Hüsnünə gözündə məhrəm yer saxla!**
**O dərindən duyar yanğılarını,**
**Məhəbbətlə çəkər qayğılarını...**
**Vətənin yanğıya dönsə fəryadı,**
**Özgəmi duymalı? Yox! Öz övladı!**
**Doğma anasını duymasa övlad,**
**Özü nankor olar, ocağı bərbad...**
**Bəli! Şölə-şölə sönər ocaq da,**
**Bir kül qalağına dönər ocaq da...**

Artıq dünyanın neçə-neçə yerində alovlu döyüşlər gedirdi. Mən heyrətlə düşünürdüm ki, nankor insanlar bu gözəl dünyanın qədrini niyə bilmir. Namərdlər əvvəl dünyanın ağaclarını, heyvanlarını, quşlarını qırdı. Sonra bir-birini qırdı. İndi isə dünyanın neçə-neçə füsunkar guşəsini xaraba qoyur... Kimsə, haçansa, harda-



sa həyat mübarizədir deyib. Ancaq daha həyat mübarizə deyil, müharibədir. Bəli! Yaşamaq müharibə istəyir.

Qapımızı tez-tez dilənçilər döyür. Qapını açıram. Dilənçilərin biri qaçqınam deyir, biri köçkünəm deyir, biri didərginəm deyir. Mən isə axı mən də köhnə qaçqınam, köçkünəm, didərginəm deyə bilmirəm. Yadıma bir hekayət düşür. Bir axşam yoxsul bir kişinin qapısı döyülür. Kişi qapını açır. Qapıda dayanmış seyid ərklə: – Mən Allah qonağıyam. Sizin evdə gecələmək istəyirəm – deyir. Məlum məsələdir ki, yoxsul adamın nə artıq yeməyi, nə də izafi yatağı olur. Kişi Allah qonağını içəri dəvət edib necə yaşadığını ona bildirmək istəmir. Bəli! Dağdan uca qürurunu Allah qonağının ayaqları altına atmağı özü üçün bağışlanmaz qəbahət sanır. Qabağa düşüb seyidə: – Arxamca gəl – deyir. Seyid də onun arxasınca düşür. Kişi gedib məscidin qabağında dayanır. Sonra barmağıyla məscidin qapısını seyidə göstərib qətiyyətlə: – Bax, Allahın evi buradır. Allahın qonağı bu evdə nə qədər istəsə, o qədər də qala bilər – deyir. Sonra geriyə dönüb evinə doğru addımlayır. Seyid isə heyrət içində yoxsul kişinin arxasınca baxa-baxa qalır. Mən də qapımıza gələn dilənçiləri arxamca salıb hökumət evinin qapısına apara bilərdim. Axı, heç kim heç kimə hökumət qədər kömək edə bilməz. Ancaq mən bu dilənçiləri hökumət evinin qapısına aparmırdım. Mənə elə gəlirdi ki, tək bizim qapımıza gələn dilənçiləri yox, bütün qapılara gedən dilənçiləri hökumət görür... Ancaq neynəmək? Mən özüm əliboş olsam da qapımıza gələn dilənçiləri əliboş qaytarmamağa çalışırdım...

Keçmişdə bir adamın vəziyyəti pis olanda filankəsin kitabı bağlanıb deyərdilər. Ancaq indi kitabın öz kitabı bağlanıb. Nəşriyyatlar çap xərclərini bəhanə gətirib ancaq pul çıxara bilən kitablar buraxırlar. Bu kitablar hansılardır? Mərsiyə, lətifə, meyxana kitabları. Pulu olan "söz ustaları" öz kitablarını çap etdirə bilirlər. Pulu olmayan əsl söz ustaları daha ya heç nə yazmır, ya da yazdıqlarını miz üstdə qalaqlayırlar. Mən də yazdıqlarımı üst-üstə yığıram. Bir neçə şair məddahlığa qurşanıb. Tarixə düşməsələr də dəbə düşüblər. Sən demə, şairin məşhurlaşmağının səbəbi gözəl əsərlər yazmağında deyilmiş. Dəbə düşməyində imiş. Özü də təkbaşına yox, təbliğlə birlikdə... "21 Azər" Nehzətinin 48-ci ildönümü yaxınlaşırdı. Bəli! Yarım əsrin tamamlanmasına cəmi iki il qalırdı. Mən uzun ədəbi, ictimai-siyasi yol keçmişəm. Nədənsə, yenə dönüb o yola iftixarla baxdım. Ancaq nisgil dolu qürur hissi keçirdim. Nə gizlədim. Sevindim də, kövrəldim də. "21 Azər"ə neçə-neçə şeir yazsam da birini də yazdım. Adını da "21 Azərdə Vətənlə söhbət" qoydum:

**Vətən! Bu gecə də söhbət edək biz,**
**Söhbətimdən başqa nəyim var mənim?**
**Bu söhbəti məhrəm ülfət edək biz,**
**Ülfətimdən başqa nəyim var mənim?**

**Təbriz üç alovlu nehzət görübdür,**
**Zəfər güllərindən tağlar hörübdür!**
**O müti yox, azad ömür sürübdür,**
**Nehzətimdən başqa nəyim var mənim?**



**Mən sənə həmişə hörmət etmişəm,**
**Dilsiz körpənə də xidmət etmişəm,**
**Ecazkar hüsnünə heyrət etmişəm,**
**Heyrətimdən başqa nəyim var mənim?**

**Alova dönəndə közdə də cürət,**
**Şimşəyi andırar gözdə də cürət...**
**Mən cürət cücərtdim, sözdə də, cürət,**
**Cürətimdən başqa nəyim var mənim?**

**Haçan alovlandı söz hiddətimlə,**
**Doldu neçə-neçə göz hiddətimlə,**
**Saraylar titrətdim öz hiddətimlə,**
**Hiddətimdən başqa nəyim var mənim?**

**Zaman sınayanda qüvvətdə məni,**
**Doğmalar tək qoydu himmətdə məni,**
**Hayıf, tez çaşdırdı qəflət də məni,**
**Qəflətimdən başqa nəyim var mənim?**

**Sanma ki, kimsədən xələt almışam,**
**Ya imtiyaz, ya da sərvət almışam,**
**"Səni atdığımçın" "töhmət" almışam,**
**"Töhmət"imdən başqa nəyim var mənim?**

**Yaxşı ki, nə öldüm, nə itdim, Vətən!**
**Şumlanıb təzədən mən bitdim, Vətən!**
**Sənə səhhətimi həsr etdim, Vətən!**
**Səhhətimdən başqa nəyim var mənim?**

**Qınama gözümə qonan həsrəti,**
**Sozara-sozara yanan həsrəti,**
**Odlu gəncliyimi anan həsrəti,**
**Həsrətimdən başqa nəyim var mənim?**

**Səni nə mey dolu ixtilat etdim,**
**Nə iztirab dolu xatirat etdim,**
**Sənət əsərimdə nəqarət etdim,**
**Sənətimdən başqa nəyim var mənim?**

**Səndən ayrılalı kim tapdı fürsət,**
**Həm dövlət qazandı, həm də ki, şöhrət,**
**Mən qürbət qazandım, nisgilli qürbət,**
**Qürbətimdən başqa nəyim var mənim?**

**Harda korluq çəkdim, zillətlə çəkdim,**
**Kimdən minnət çəkdim, xiffətlə çəkdim,**
**Sənin qeyrətini qeyrətlə çəkdim,**
**Qeyrətimdən başqa nəyim var mənim?**

**Dedilər heyrətlə gəzmə arada,**
**Yetişmək istəsən neçə murada,**
**Sifətini dəyiş! Dedim dünyada**
**Sifətimdən başqa nəyim var mənim?**

**Yalnız söz olsa da nemətim mənim,**
**Dəyişmək olmamış adətim mənim,**
**Məğrur yaranmışdır xislətim mənim,**
**Xislətimdən başqa nəyim var mənim?**

**İnsan yaranmışdır zəhmət çəkməyə,**
**Heç kimdən, heç nədən minnət çəkməyə...**
**Sözlə neçə-neçə surət çəkməyə,**
**Zəhmətimdən başqa nəyim var mənim?**

**Demə kim sevinər şən insan kimi?**
**Xiffətlər gəlsələr bir karvan kimi,**
**Xiffətləri dağıt sən duman kimi,**
**Xiffətimdən başqa nəyim var mənim?**



**Sənin səadətin olub niyyətim,**
**Yaşla gözlərimə dolub niyyətim,**
**Şaxələnib... Sanma solub niyyətim,**
**Niyyətimdən başqa nəyim var mənim?**

**Demə mərd külfətim tək qovaq təki,**
**Arxamda durduqca bir dayaq təki,**
**Üstündə əsirəm mən yarpaq təki,**
**Külfətimdən başqa nəyim var mənim?**

**Anasan! Fərman ver! Yuxarı başda,**
**Uğrunda döyüşüm yenə bu yaşda,**
**Qüdrət daşa düşsə, göyərər daş da,**
**Qüdrətimdən başqa nəyim var mənim?**

**Ağarmış saçını dağıtsa tufan,**
**Sənə dünyaları verərəm qurban,**
**Tək onda, tək onda deməərəm, inan,**
**Qismətimdən başqa nəyim var mənim?**

## ƏBÜLFƏZİN YANINDA YIĞINCAQ

Biz tarixi silsilə zirvələrə bənzətsək, bu zirvələrdən biri də mədəniyyətdir. Bəli! Bir xalqı, bir milləti dünyada tanıdan başlıca amil onun mədəniyyətidir. Obrazlı desək, əgər iqtisadiyyat bir məmləkətin daimi sakinidirsə, mədəniyyət o məmləkətin həm sakini, həm də səyyahıdır! O dünyanı diyar-diyar gəzib haradan gəldiyini, nələrə qadir olduğunu şəstlə nümayiş etdirir. Yenə obrazlı desək, əgər mədəniyyət bir cazibədar

simfoniyadırsa, orada çağlayan nəqarət ədəbiyyatdır. Vaxtilə təqribən dünyanın yarısını silahla fəth etmiş ingilisləri bəşəriyyətə silah yox, Şekspir tanıdıb. Bunu ingilislər özləri də qürurla etiraf edir. Onlar hətta aldıqları neçə-neçə torpaqdan keçə biləcəklərini aşkar deyib, Şekspirin şöhrətinin diyardan-diyara pərvazlanmasına çalışırdılar. Yer üzündəki xalqlar da göy üzündəki ulduzlara bənzəyir. Böyükləri də, kiçikləri də. Elə böyük xalq var ki, yalnız bir dahi yetirə bilib. Sonra da həmişə o bircə dahiylə fəxr edib. Allaha min şükür olsun ki, doğma Azərbaycanımızın baxtı bu sarıdan da gətirib. Dünyadakı çoxsaylı xalqlarla müqayisədə o qədər də böyük olmayan xalqımızın yetirdiyi neçə-neçə dahinin yalnız birilə bir məmləkət öyünə bilər. Bəs başqaları? Onları da ayrı-ayrı məmləkətlərə səpələsək, onlarla bütün dünya fəxr edə bilər. Qətran Təbrizi, Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Saib Təbrizi hələ orta əsrlərdə dünyanın söz sənətində parlayan ilham günəşləri idi. Nizamişünas tədqiqatçıların uzun müddətli araşdırmalarına görə Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının təsiri Şekspirin "Romeo və Cülyetta" əsərində açıqca duyulmaqdadır. Bəli! Hikmət şairi Nizami Gəncəvinin yalnız məşhur ərəb qızının vəsfinə həsr etdiyi poeması deyil, bütöv "Xəmsə"si dünyanın bir sıra sənətkarlarına ilham mənbəyi olub. Neçə-neçə şair "Xəmsə"yə nəzirə şəklində öz xəmsəsini yaradıb, neçə-neçə rəssam "Xəmsə"nin məşhur qəhrəmanlarına həsr etdikləri miniatür şəkillərdən ibarət rəsm qalereyasını təşkil edib, neçə-neçə bəstəkar "Xəmsə" mövzusunda musiqi əsərləri bəstələyib.



Məhəbbət şairi Məhəmməd Füzuli öz ana dilindən, yəni Azərbaycan türkcəsindən başqa həm farsca, həm də ərəbcə yazıb-yaradıb. O, Azərbaycan ədəbiyyatında qəzəli elə bir sənət zirvəsinə qaldırıb ki, nə öz əsrində yaşayan, nə də özündən sonra gələn şairlər o zirvəyə çata bilməyib. Füzulinin hikmətlə dolu hər qəzəli özündə böyük bir dastan yükü daşıyır. Ona görə də dünya Füzulişünasları şairin qəzəllərindəki dərin hikmətləri açmaq üçün hələ də baş sındırırlar.

Saib Təbrizi həm öz ana dilində, yəni Azərbaycan türkcəsində, həm də fars dilində yazıb-yaradıb. Öz qələminin şərəfini uca tutan şair, qəzəli sədaqətlə Füzuli zirvəsində saxlamağa çalışıb. Ağır zəhmət bahasına buna nail ola bilib.

Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə qaldıran Şah İsmayıl Xətai də həm öz ana dilində, yəni Azərbaycan türkcəsində, həm də fars dilində irili-xırdalı gözəl əsərlər yazıb. Yeri gəlmişkən, Şah İsmayıl Xətainin sənət ustalarına göstərdiyi qayğıdan da danışmaq lazımdır. Şah İsmayıl Xətai dövrünün istedadlı sənətkarlarını saraya toplamış, mədəniyyətin, ədəbiyyatın, incəsənətin inkişafına təkan vermişdir. Elə şair Füzuli də, aşıq Qurbani də, rəssam Behzad da onun dövründə püxtələşib məşhurlaşıblar. Qəribədir, Şah İsmayıl Xətai bircə gün də səsinin ayrılığına dözə bilmədiyi sənətkarları özüylə döyüşlərə aparmazdı. Bəli! Onların müvəqqəti ayrılığına dözərdi, ancaq döyüşlərdə

xətər toxunmasına razı olmazdı. Bizcə, təması hərarətli, qılığı nəzakətli şərqin indiki dövlət xadimləri də sənətkarlara qayğı göstərməyi Şah İsmayıl Xətaidən öyrənməlidirlər. Məlumdur ki, alması usta cilalayandan sonra o, brilyant olur. Göz qabağına qoyulur. Ancaq sənətkar öz sənətini özü cilalayır. Dövlət xadimləri isə göz qabağına çıxarır. İndiki təbircə desək, təbliğ elətdirir. Yoxsa başqaları o sənətin harada yarandığını, hansı dəyərə malik olduğunu bilməz. Axı illərlə bərabər nəsillər də dəyişir... Cilalamaq sözünü yazanda yada Molla Pənah Vaqifin şeirləri düşür. Gözəllik aşiqi olan şair öz ana dilini, yəni Azərbaycan türkcəsini elə cilalayıb parladıb ki, işığı özündən sonra yazılan xətlərin də üstünə düşüb. Vaqif öz qoşmalarında Azərbaycan gözəllərinin surətini sözlə elə çəkib ki, o qoşmaların yolu hayana düşsə, haranın gözəlinə məxsus olduğunu özləri dönə-dönə deyə bilərlər.

Mirzə Fətəli Axundov yaxşı bilirdi ki, millətinin əksər hissəsi savadsızdır. Nə oxuya, nə də yaza bilir. O millətini, heç olmasa, öz vətənində nələr baş verdiyindən hali etmək üçün çox düşündü. Nəhayət, həyat hadisələrini səhnədə canlandırmağı, həm də surətləri öz dilində danışdırmağı qərara aldı. Bir-birinin ardınca dəyərli səhnə əsərləri yaratdı. O səhnə əsərlərinə savadlı da, savadsız da baxdı. O səhnə əsərləri elə bir aynaya döndü ki, düzü düz, əyrini də əyri göstərdi. Tamaşaçılar o aynaya baxa-baxa mənasız keçən ömründən mənalı nəticələr çıxartdı. M.F.Axundov öz səhnə əsərləri ilə şərqdə dramaturgiyanın bünövrəsini qoysa da, qərbin dahi dramaturqları ilə bir səviyyəyə ucala bildi.



Cəlil Məmmədquluzadə həm nasir, həm dramaturq, həm də publisist idi. Dahi olmaq üçün bu ədəbi janrların yalnız birində fəaliyyət göstərmək kifayət idi. Üstəlik, o naşirlik də edirdi. Cəlil Məmmədquluzadənin nəşr etdiyi “Molla Nəsrəddin” məcmuəsi təkcə Azərbaycanda deyil, bütün şərq ölkələrində sevilə-sevilə oxunurdu. “Molla Nəsrəddin” dövrəsinə toplanmış qələm sahiblərinin yalnız əsərlərini çap etməklə kifayətlənmirdi. Yox! Həm də onları püxtələşdirə-püxtələşdirə daha da müdrikləşdirirdi. Bəli! Cəlil Məmmədquluzadə neçə dahinin surətini özündə birləşdirib Vahid Azərbaycanın qaranlıqları içində alışıb-yanan öz əzəməti boyda canlı məşəl idi.

Gözəl şair, tərcüməçi, həkim Abbas Səhhət yaxın dostu Mirzə Ələkbər Sabirin yanğılı təəssüflər doğuran vəfatını xatırlayarkən deyib ki, Sabir öz kəskin şeirləri ilə İranın məşrutə inqilabına bir ordu qədər kömək edib. Doğrudan da belədir. Ancaq Abbas Səhhət yaşasaydı görərdi ki, Sabirin kəskin şeirləri özündən sonra da neçə-neçə inqilaba kömək edə-edə bütün müsəlman dünyasını silkələyib ətalətdən hərəkətə çağırıb. Nə gizlədək. Elə naşı tənqidçilər tapılıb ki, onlar Sabiri öz millətinə gülməkdə günahlandırıblar da. Ancaq Sabirin qəhqəhəli gülüşlərinin arxasında gizlənən sakit göz yaşlarını görə bilməyiblər. Sabir əgər qəhqəhəli gülüşlərini susdurub sakit göz yaşlarını büruzə versəydi, onda həm öz qürurunu sındırar, həm də millətini

bədbinləşdirərdi. Ancaq Sabir dahi idi. Arzuları da, əməlləri də dahiyanə idi.

Sənətkarlıq ənənələrinə sadiq qalmaqda Mirzə Əli Möcüz Şəbüstərinin taleyi Saib Təbrizinin taleyinə bənzəyir. Yuxarıda dedim ki, Saib Təbrizi qəzəl janrını Füzuli zirvəsindən düşməyə qoymayıb. Bəli! Öz məharəti ilə tənəzzülün yolunu bağlayıb. Mirzə Əli Möcüz də öz satirik şeirlərində Sabir üslubunun kəsərini kütləşməyə qoymayıb. Qələmi həmişə iti saxlayıb. Dövrünün dərdlərini, ehtiyaclarını, şikayətlərini öz orijinal sözlərilə gülüb-ağlayan misralara çevirib.

Vahid Azərbaycanın bütün humanist sənətkarları yer üzünün əşrəfi olan insanlara hər şeydən əvvəl azadlıq arzulamışdır. Yalnız azad insan işləyə də bilər, işləməyə də bilər, sevə də bilər, sevməyə də bilər, razılaşa da bilər, razılaşmaya da bilər, inana da bilər, inanmaya da bilər, köçə də bilər, köçməyə də bilər.

Vahid Azərbaycan torpağında elə dahi sənətkarlar yetişib ki, yalnız şair yox, həm də qəhrəman olub. Qürbət məmləkətdə öz məsləki uğrunda diri-diri soyulan İmadəddin Nəsimi də, öz sinəsini ana Vətəninə sipər edib bir əlində qılınc, bir əlində qələm tutan Şai İsmayıl Xətai də qəhrəman idi.

Deyirlər ki, toplar gurlayanda bülbüllər susur. Mübahisə etməyə dəyməz. Bəlkə də belədir. Axı bülbüllər zərif xilqətdirlər. Yəqin toplar gurlayanda diksinib susurlar. Hətta uçub başqa yerlərə də gedirlər. Ancaq mükəmməl sənət əsərləri topların özlərini də susdura bilirlər. Sənət həmişə qadirdir, ecazkardır, məğrurdur.



Dünyada çox müharibələr, talanlar, qırğınlar olub. Sərvətlər də, nemətlər də, dövlətlər də dağılıb. Qıtlıq da, bahalıq da, aclıq da yaranıb. Ancaq sənət kimsədən nə mərhəmət, nə də sədəqə ummadan salamat addımlaya-addımlaya zamandan-zamana, nəsildən-nəsilə keçib. Bəli! Sənətin baxtı sərvətdən də, nemətdən də, dövlətdən də uğurlu olub. O elə günəşə dönüb ki, bir məmləkətdə qürub etsə də, başqa məmləkətdə tilu* edib. Vahid Azərbaycandan dünyaya səpələnib başqa-başqa ölkələrin muzeylərini bəzəyən sənət inciləri dediyimizə əyani sübutlardır. İndi Şimali Azərbaycan ərazisində müharibə gedir. Azərbaycanın qürurdan, qeyrətdən, hünərdən yoğrulmuş övladları öz müqəddəs torpaqlarını erməni qəsbkarlarının murdar ayaqlarının saldığı izlərdən təmizləmək üçün odların-alovların içində döyüşür. Ancaq unutmaq olmaz ki, möhtəşəm sənətin sadiq varisləri odların-alovların içində doğulur. Yoxsa bərəkətli sənət qısırlaşardı. Biz sənət bahadirlərimizi təsadüfdən-təsadüfə yox, hər zaman bütün dünyaya tanıtmalıyıq. Nahaq deməyiblər ki, üzüyü qaşıyla tanıyarlar.

1992-ci ildə Şimali Azərbaycan Respublikasında Əbülfəz Elçibəy prezident seçildikdən sonra bir dəstə Xalq Cəbhəsi üzvləri də hakimiyyət başına gəldi. Ticarətə geniş meydanlar verildiyi halda mədəniyyət, ədəbiyyat, incəsənət tamam unuduldu.

*Günəşin üfüqdən qalxması, Günün çıxması

Azərbaycan Respublikasının rəhbərliyi 1992-ci il dekabrın 31-ni bütün dünya azərbaycanlılarının həmrəyliyi günü elan etdi. O gün respublikanın hər yerində təntənə ilə qeyd olunacaq, görüşlər, yığıncaqlar, iclaslar keçiriləcəkdi.

Dekabr ayının 29-da haradansa evə təzəcə gəlmişdim ki, telefon səsləndi. Dəstəyi qaldırdım. Danışan Respublika Prezidentinin müşaviri Hidayət Orucov idi. Mən Hidayəti hələ "Gənclik" nəşriyyatının baş redaktoru işlədiyi zamandan tanıyırdım. Nəşriyyat "Mənə elə baxma" adlı nəsr kitabımı buraxacaqdı. Ona görə də Hidayətlə tez-tez görüşürdüm. O kitabımın çıxmasına xüsusi qayğı göstərirdi. Hidayətin həm şəxsiyyətinə, həm də yaradıcılığına hörmətim vardı. O da hər yerdə mənim haqqımda hörmətlə danışardı. Sonra dediyi sözlər qulağıma da çatardı. Sən demə, Hidayətin mənə bəslədiyi bu hörmətin başqa səbəbi də varmış. Bilirdim ki, Hidayət Ermənistandan köçüb gəlmiş Azərbaycan şairidir. Ancaq Azərbaycana gələnə qədər Ermənistanın harasında yaşadığını bilmirdim. Bir dəfə biz Hidayətin iş otağında söhbət edirdik. Mən onun Cənubi azərbaycanlılara bəslədiyi hörmətdən söz salanda Hidayət kədər dolu baxışlarını üzümə dikib susdu. Handan-hana: – Bizim kəndimiz Ermənistanla Cənubi Azərbaycan sərhəddində yerləşirdi – dedi – Biz hələ uşaqkən bu taydan baxanda o taydakı yaşıdlarımızı görürdük. Qadağan olsa da onlarla gizlində danışmağa imkan tapırdıq. O zamandan Azərbaycanın iki yerə parçalanmasını bilirdik. Doğrusu, Hidayətin bu yanğı dolu sözlərindən kövrəldim. Mənə elə gəldi ki, əgər mən Şimali Azərbaycanda yalnız Cənubi Azərbaycan həsrəti çəkmişəmsə, Hidayət Ermənistanda həm Şimali, həm də Cənubi Azərbaycan həsrəti çəkib. Deməli, mənim həsrətim birqat olubsa, Hidayətin həsrəti ikiqat olub.



"Mənə elə baxma" adlı nəsr kitabım gözəl tərtibatla çıxdı. Oxucuların rəğbətini qazandı. Qəzetlər kitab haqqında bir neçə təqdirlə dolu yazı buraxdı. Mən də Hidayətə öz təşəkkürümü bildirdim. Bu o zaman idi ki, Azadlıq meydanında tez-tez əzəmətli mitinqlər keçirilirdi. Hidayətin mətbuat səhifələrində müntəzəm olaraq ictimai-siyasi publisistik yazıları çıxırdı. Bu yazılar saysız-hesabsız başqa yazılardan öz orijinallıqları ilə seçilirdi. Mən də maraqla oxuyurdum. Yazılardakı müdrik cəsarətə heyran qalırdım. Sonra Hidayətə zəng edib öz təəssüratlarımı məmnuniyyətlə bildirirdim. Hidayət Mətbuat komitəsi xəttilə ilk dəfə İrana gedib qayıdandan sonra Bakı radiosuyla çıxış edib səfəri haqqında səmimiyyətlə danışdı. Təbriz barəsində dediyi sözlər uyumuş xatirə duyğularımı yenidən oyatdı. Sabahı Hidayətə zəng edib radioda İran səfəri haqqındakı çıxışına qulaq asdığımı dedim. Hidayət bu səfər barədə "Ülfət" qəzetinin iki sayında böyük yazı çap etdirdiyini bildirdi. Sonra o yazıları oxumağımı arzuladığını dedi. Mən o yazıları da məmnuniyyətlə oxudum. Yazılarda ən xoş gələn o idi ki, yenə də müdrik cəsarət ağa ağ,

qaraya qara demişdi. Hidayətə zəng edib bu yazıları haqqında da fikirlərimi dedim.

Bir neçə gündən sonra televiziyaya baxanda gördüm ki, Hidayət mətbuat konfransında çıxış edir. O daha "Gənclik" nəşriyyatının baş redaktoru deyil, Respublika Prezidentinin müşaviridir. Hidayətin təzə iş yerinin telefon nömrəsini bilmirdim. Yoxsa, onu yeni vəzifəyə keçməsi münasibətilə təbrik edəcəkdim. İndi Hidayət özü mənə zəng vurmuşdu. Məhrəm-məhrəm salamlaşdıq. Bir-birimizdən əhval tutduq. Birdən Hidayət sanki nəyisə xatırlayıb qəribə bir tonla: – Siz də o təşkilatın üzvüsünüz? – dedi. Hidayət təşkilat deyəndə Azərbaycan Demokrat Firqəsinin aparatını nəzərdə tuturdu. Məni heyrət bürüdü. Bir anda düşündüm ki, məgər Hidayət bilmir ki, mən ömrümün ən gözəl çağı olan gəncliyimi Cənubi Azərbaycanda bu firqənin bayrağı altında döyüşlərdə keçirmişəm. Sonra bu firqənin yaratdığı Milli hökumət məni özünün yaratdığı bir neçə mədəniyyət ocağından birinə rəhbər təyin edib. Mən də 22 yaşımda dişlə-dırnaqla elə bir mədəniyyət ocağı alışdırmışam ki, işığı bütün Şərqə düşüb. Bəli! İran tarixində ilk dəfə Təbriz Dövlət filarmoniyasını mən öz əzablı zəhmətimlə yaratmışam. Milli məclis həm döyüş, həm də əmək fəaliyyətimə görə məni "21 Azər" medalı ilə təltif edib. Şah ordusu beynəlxalq imperializmin köməyilə Milli hökuməti yıxdıqdan sonra mən də doğma Vətənimdən didərgin düşmüşəm. Ancaq nədənsə Hidayət məni cavab verməyə



qoymadı. Dedi: – Siz hər şeydən əvvəl görkəmli bir şairsiniz. Dekabr ayının 31-i bütün dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Prezident Əbülfəz Elçibəy bir neçə Cənubi azərbaycanlını qəbul edəcək. Sizin adınızı da o siyahıya salmışam. Ancaq gərək sabah, dekabrın 30-da mənim yanıma gələsiniz. Soruşdum ki, bu məsələ barəsində çağrılan adamların hansıyla əlaqə saxlamaq olar? Elə bilirdim ki, Hidayətin danışığı məxfidir. Axı danışığını çox da açıb-ağartmırdı. Dedi ki, ya Söhrab Tahirlə, ya da Qafar Kəndliylə əlaqə saxlamaq olar. Doğrusu, Söhrabın adını eşidəndə onsuz da nigaran ürəyimi gizli bir şübhə gizildətdi. Vicdanla etiraf edirəm ki, Söhrabın mənə qarşı yaxşılıqdan başqa heç bir yamanlığı keçməyib. Ziyafətlərdə, iclaslarda, mitinqlərdə, toylarda, bayramlarda, yaslarda mən şeir oxuyanda o boynumu qucaqlayıb üzümdən öpüb. Yaradıcılığım haqqında neçə-neçə səmimiyyət dolu məqalə yazıb. 60 illiyimdə televiziyada haqqımda gedən verilişin aparıcısı olub. Mən də Söhrabın yaradıcılığına etinasız deyiləm. Söhrab hələ təzə-təzə tanınmağa başlayanda ona lirik poema həsr etmişəm. Ancaq nə gizlədim. Onun şəxsiyyəti məni qane etmir. Ona görə ki, sözü bütöv deyil. Söhrab gah nala, gah mıxa vuran nalbəndi xatırladır. Bəli! Bəzən belə olur, bəzən elə. Təki girdiyi qılıqdan xeyir çıxara bilsin. Mən Hidayətə fikirli-fikirli: – Yaxşı, gələrəm – dedim. Sonra dəstəyi yerinə qoydum.

Axşam Söhraba yox, Qafara zəng etdim. Dedim Respublika Prezidentinin müşaviri Hidayət Orucov zəng edib bildirdi ki, mən bir dəstə Cənubi azərbaycanlı ilə prezident Əbülfəz Elçibəyin qəbulunda olmalıyam. O adamlar arasında sən də varsan. Hidayət dedi ki, sənə zəng edib bu barədə məlumat ala bilərəm. O adamlar kimlərdir? Prezidentin qəbulunda hansı məsələlərdən danışılacaq? Hidayətin dediyinə görə biz sabah onun, birisi gün isə prezidentin qəbulunda olmalıyıq. Qafar dedi ki, bu telefon söhbəti deyil. Gələrsən Hidayətin yanında görüşüb danışarıq. Mən təbiətən ürəyiaçıq adam olduğuma görə gizli işdən xoşum gəlməz. Ona görə də Qafarın bu məsləhəti ürəyimdəki şübhə qığılcımlarını alovlandırdı. Telefon dəstəyini yerinə qoyub düşündüm. Nə səbəbini, nə də nəticəsini bildiyim qəbula getməməyi qərara aldım. Sonra yan otağa keçib əyləşərək televiziyaya baxdım. Seyid Cəfər Pişəvəri haqqında veriliş başlandı. Verilişdə Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi ilə yaranmış "21 Azər" Nehzətinin fəal iştirakçılarından Mirəli Mənafi, Tağı Şahin, Əli Tohidi, Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin sədri Əmirəli Lahrudi, akademik İmam Mustafayev S.C.Pişəvərinin həm şəxsiyyəti, həm də xalqına xidməti haqqında hərarətlə danışdılar. Sonra natiqlər Pişəvərinin maşın qəzasında həlak olmasında sui-qəsd düzəldilməsini də etiraf etdilər. Tağı Şahin dedi ki, əgər Seyid Cəfər Pişəvəri o tayda düşmənlər əlində həlak olsaydı, biz bunu özümüzə iftixar sayardıq.



Təəssüf ki, o bu tayda, "dostlar" əlində həlak oldu. Doğrusu, Tağı Şahinin bu sərrast deyilmiş obrazlı ifadəsi mənə çox təsir etdi... Sonra ekranda Milli hökumət zamanı o tayda çəkilmiş "Arazın o tayında" filminin yadigar kadrları növbəylə təzədən canlandırıldı. İlahi, bu kadrlar necə doğma, necə məhrəm idi. Sən demə, dünyada ən nəhəng ümman zaman özü imiş. O neçə-neçə növraqları, büsatları, cəlalları öz şahə qalxmış dalğalarıyla yuyub apara bilirmiş. Yox! Bununla da ürəyi soyumayırmış. Ən dərin xatirələrin də rişələrini qazıb yerindən qopara bilirmiş. İndi bu kadrlar özlərini öz dilsiz baxışlarıyla mənim yadıma salmağa çalışırdı. Birdən ekranda Təbriz Dövlət Filarmoniyasında çəkilmiş kadrlar canlandı. Bəli! Xalq çalğı alətləri orkestri, saz çalan qızlar ansamblı, rəqs edən oğlanlar dəstəsi, aşıqlar qrupu növbəylə mənə baxıb keçdi. Yox! Keçə-keçə məni silkələdi. Uyumuş xatirələrimi oyatdı. Bizi sən yaradıbsan dedi. Özü də hələ 22 yaşın olanda. Riqqətə gəlmiş ürəyimdə heyrətlə şübhə bir-birinə qarışdı. Bəli! Belə bir əzəmətli musiqi cəlalı yaratdığıma görə həm heyrətləndim, həm də şübhələndim. Ona görə heyrətləndim ki, bu əzəmətli musiqi cəlalı böyük bir məmləkətin yaraşığı ola bilərdi. Ona görə şübhələndim ki, o artıq yox idi. Mən özümdə olan istedaddan da şübhələndim. Doğrudanmı bu əzəmətli musiqi cəlalını mən yaratmışam? – deyə özüm-özümə sual verdim. Bəs belə isə, niyə onu unutmuşam? Yox! Unutmamışam. Haqqında neçə-neçə nisgil dolu xatirə yazıb mətbuat səhi-

fələrində çap etdirmişəm. Ancaq kənardan onu mənə unutdurmağa çalışıblar. Elə Təbrizin özündə Milli hökumətin yaşadığı son günlərdə. Sanki hələ bu azmış. İndi özümdəki istedada olan şübhəmi də elə o zaman o kənardakı gözəgörünməz şeytan mənə aşılamışdı. Mən isə özümdə istedad olmasında şübhələnməkdə o zaman da yanılmışdım, indi də yanılıram.

Yadıma bir telefon söhbəti düşdü. Şah İsmayıl Xətai haqqında əsər yazırdım. Mənə bu görkəmli dövlət xadimi barədə bəzi məlumatlar lazım idi. Tarix elmləri doktoru, həmyerlim Seyidağa Onullahiyə zəng etdim. Məqsədimi bildirdim. O da Şah İsmayıl Xətai haqqında mənə bəzi məlumatları verdi. Söhbətimiz qurtarana yaxın dedi ki, Moskvada Həsən Üzzarinin xatirələr kitabını görüb. Sonra maraqla vərəqləyib oxuyub... Həsən Üzzari Təbriz Dövlət Filarmoniyasında mənim müavinim idi. Ona görə də o kitabla maraqlandım. Seyidağa dedi ki, Həsən Üzzari kitabı yaxşı niyyətlə yazıb. Filarmoniyada maaşların yüksək olduğunu səmimiyyət dolu sözlərlə etiraf edib. Ancaq milli orkestrdə Azərbaycan tarına nisbətən İran tarına az yer verildiyini də qeyd edib. Seyidağaya dedim ki, Həsən Üzzarinin tarlar haqqında dediklərində həqiqət var. Bu haqda mən də yazmışam. Özü də Həsən Üzzaridən xeyli əvvəl yazıb kitab halında çap etdirmişəm. Meşənin dərinliyinə getdikcə odun bollaşar. Biz də Azərbaycan (Qafqaz) tarı axtara-axtara tar bolluğuna düşmüşdük. İran tarı ilə Azərbaycan tarı yalnız birinin diz üstdə, birinin sinə üstdə çalınması ilə fərqlənmir. Yox! Səslərilə də, ifa-



larıyla da bir-birindən seçilir. Mənim fikrimcə elə muğam var ki, Azərbaycan tarında, elə muğam da var ki, İran tarında yaxşı səslənir. Məsələn, "Humayun", "Əbuəta", "Dəşti"... Sanki İran tarıyla məhrəmləşir. Bəli! İran tarında daha yanğılı, əzəmətli, ehtiraslı səslənir. Ancaq Təbriz filarmoniyasının İrana yox, Azərbaycana məxsus olduğu da bir həqiqət idi. Seyidağa Onullahi mənim bu fikrimi məmnuniyyətlə təsdiq etdi...

Gecə yata bilmədim. Təbrizdə yaşadığım bir ilin hər günü bir kino lentinə dönüb səhərə qədər gözlərimin qarşısından keçdi. Səhər Tağı Şahinə zəng vurub Seyid Cəfər Pişəvəri haqqında dediyi yanğı dolu cümlələrinə görə çıxışını təqdir etdim. Ancaq indi televiziyada S.C.Pişəvəri haqqında danışan natiqlərdən çox-çox qabaq, hələ 1985-ci ildə mən, "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdiyim "Pişəvəri" adlı yazımda bu görkəmli inqilab sərkərdəsinin faciəli taleyi barəsində cəsarətlə söz açmışdım. Həyatına sui-qəsd edildiyini də açıqcasına demişdim. Sonra bu yazımı Qərbi Avropanın bir sıra ölkələrində yaşayan Cənubi Azərbaycan mühacirləri öz qəzetlərində çap etmişdilər. Fransadan, Danimarkadan, Belçikadan, İsveçdən, Almaniyadan Bakıya mənim görüşümə gələn o taylı qələm qardaşlarım özləri mənə bu haqda danışırdılar...

Dekabr ayının 31-i idi. Axşam televizoru açdım. Bir neçə verilişdən sonra prezidentin qəbuluna gedən Cənubi azərbaycanlılar göstərildi. Hidayət prezidentin yanında əyləşmişdi. Mən Əbülfəz Elçibəyin ətrafında

əyləşənləri maraqla nəzərdən keçirdim. Balaş Azəroğlu, Söhrab Tahir, Firuz Sadıqzadə, Tağı Şahin, Qafar Kəndli, Əbülfəz Haşimi, İsmayıl Şəms, Məmmədəli Müsəddiq, Cavad Təqdisi, Əsəd Qurbanzadə, bir də Badikanın gəlini gözümə dəydi. Əvvəl Hidayət danışdı. O qəbula gələnləri bir-bir prezidentə təqdim etdi. Sonra bu yaxınlarda Cənubi azərbaycanlıların keçirdikləri "21 Azər" gecəsində iştirak etdiyini də dedi. Ancaq gecənin harada keçirildiyini bildirmədi. Halbuki, bu gecə Siyasi mühacirlərin klubunda yox, Pedaqoji institutun mühazirə otağında keçirilmişdi. Məruzəçi də Söhrab Tahir olmuşdu. Azərbaycan Demokrat Firqəsinin liderləri isə "21 Azər" gecəsini Siyasi mühacirlərin klubunda keçirmişdi. Gecəyə radio, televiziya, mətbuat işçilərini də dəvət etmişdilər. Qələm sahibləri firqə liderlərindən müsahibə də alıb mətbuatda çap etdirmişdilər. Hidayət danışıb qurtarandan sonra Cənubi azərbaycanlılar tərəfindən ilk sözü prezidentin sol yanında əyləşən Söhrab Tahir istədi. Sən demə, haçansa universitetdə Söhrabın görüş gecəsi keçirilibmiş. O görüşdə Əbülfəz Elçibəy də Söhrabın yaradıcılığı haqqında bir neçə xoş söz deyib. Söhrab əvvəlcə bunu prezidentin yadına saldı. Sonra dedi ki, pasportumu dəyişib yerli pasport almışam. Daha haraya istəsəm icazəsiz gedə bilərəm. Bu yaxınlarda Məmməd Arazla Naxçıvana getmişəm. Məhz Naxçıvana. Söhrab bilirdi ki, Əbülfəz də, Məmməd də naxçıvanlıdırlar. Yeri gəlmişkən deyim ki, Məmməd Araz da mənə "Bir şair küsüb" adlı şeir həsr



edib. "Anamdan yadigar nəğmələr" kitabında çap etdirmişdi. Bir dəfə yazıçı Əlfi Qasımov qəflətən zəng edib dedi ki, hazırlaş, səni müəllimlərlə görüşə aparacağam. Məmməd Araz da bizimlə gedəcək. Əlfiyə dedim ki, axı belə olmaz. Gərək qabaqcadan bir-iki şeir seçəsən. Özü də müəllimlərin zövqünə uyğun ola. Əlfi qətiyyətlə: – Sənə şeir seçmək lazım deyil. Ona görə ki, sən pis şeir yazmazsan. Nə oxusan, müəllimlərin ürəyinə yatacaq. Hazırlaş, gedək – dedi. Hazırlaşdıq da, getdik də. İnstitutun böyük salonu müəllimlərlə dolmuşdu. Necə deyərlər, iynə atsaydın, yerə düşməzdi. Görüşə Əlfi özü sədrlik edirdi. İlk sözü mənə verdi. Kürsüdən müəllimlərə bir neçə şeir oxudum. Hər şeir də öz alqış payını qazandı. Birdən birinci sırada əyləşən yaşlı bir müəllim ayağa qalxıb nəzakətlə mənə: – Hörmətli şair, xahiş edirəm o taydan bu taya keçəndə Naxçıvanda gecə yazdığınız "Mən nə gətirdim" şeirini oxuyasınız – dedi. Sonra yerində əyləşib gözlədi. O şeirin yazılmasından neçə-neçə illər keçirdi. İndisə yanımda deyildi. Hafizəmdə də yaxşı qalmamışdı. Mənim naqis cəhətim bəlkə də şeirlərimi əzbərdən bilməməkdir. Yox! Bu naqislik deyil. Mümkünatsızlıqdır. Axı neçə-neçə kitabdakı şeirlərin hamısını necə əzbərdən bilmək olar? Mən kürsüdə sükut içində o şeirin misralarını yadıma salmağa çalışdım. Sonra deməyə başladım. Misralar nizamla bir-birini əvəz edirdi. Ancaq birdən dayanmalı oldum. Nə etdimsə, arada şeirin bir neçə misrası yadıma düşmədi. Bu an Məmməd Araz səhnədəki Rəyasət masa-

sının arxasından üzünü mənə tutub yadıma düşməyən misraları oxudu. Sanki sahibkarın öz mallarını özünə qaytardı. Mən məmnun-məmnun Məmməd Araza baxıb oxuduğu misraların davamını özüm söylədim...

Görüş qurtarandan sonra Məmməd Araz mənə yazdığı “Bir şair küsüb” şeirini daxil etdiyi “Anamdan yadigar nəğmələr” kitabını avtoqrafla mənə bağışladı. Avtoqrafda yazmışdı: Əlimə qələm alandan əsərlərini sevə-sevə oxuduğum, şəxsiyyətinə hörmət bəslədiyim Əli Tudəyə...

Sonra Söhrab Qarabağ cəbhəsinə tez-tez getdiyini, cəbhə şeirləri yazdığını, hətta o şeirlərin “Ədəbiyyat” qəzetinin birinci səhifəsində dərc edildiyini dedi. Sonra dilədi ki, Cənubi azərbaycanlılardan ibarət bir assosiasiya yaransın. Sonra söz verdi ki, yaranacaq assosiasiyanın üzvləri hər yerdə, hər zaman işlərin uğurla nəticələnəcəyinə çalışacaqlar. Mən Söhrabın özünüreklam mahiyyətli çıxışına qulaq asdıqca düşündüm ki, axsaq atın kor nalbəndi olar və yadıma haçansa yazdığım misraları xatırladım:

**Söz oxdur, yaydan çıxsa,**
**Havada qanad çalar.**
**Daha sən ona deyil,**
**O sənə hakim olar.**
**Ona görə min sözün**
**İçindən seç sözünü.**
**Hələ dönə-dönə də**
**Sən ölçüb-biç sözünü.**



Axı əvvəl söz verib, sonra əməl etməyən adama yalançı deyirlər. Yalançı olmaq isə insana yaraşmayan sifətdir. Ona görə də atalar deyib, əvvəl arxı hoppan, sonra özünə bərəkallah de!

Sonra özüm-özümə sual verdim: Bu Söhrab Azərbaycan Demokrat Firqəsindən niyə narazıdır? Biz o tayda Milli hökumət qurandan sonra 18 yaşlı yeniyetmə Söhrabı bu taya, Bakıya hərbi məktəbə oxumağa göndərmişdik. Milli hökumətin yaranmasında onun heç bir fəaliyyəti olmayıb. Milli hökumət süqut etdikdə də Söhrab Təbrizdə yox, Bakıda idi. Orda baş verən dəhşətli hadisələrdən uzaq olub. Sonra bu tayda təhsilini başa vurduqdan sonra bütün ömrü boyu Firqə aparatında işləyib. Azərbaycan Demokrat Firqəsinin Bakı şəhər komitəsinin birinci katibi seçilib. Mərkəzi Komitənin üzvü olub. Yaxşı maaş alıb. Son zamanlarda “Azərbaycan” qəzetində ədəbiyyat şöbəsinin müdiri işləyib. Mən haçan Firqə aparatına gedəndə Söhrabı öz otağında tək əyləşib təzə əsərlərini makinada yazan görmüşəm. Sonra da təqaüdə çıxıb aparatdan gedib.

Balaş Azəroğlu Azərbaycan yazıçılarının 1991-ci ildə keçirilən IX qurultayında daha Cənubi Azərbaycan ədəbiyyatı üzrə Yazıçılar İttifaqının katibi seçilmədi. Sonra mənə dedilər ki, o, heç olmasa Yazıçılar İttifaqında sədrin Cənubi Azərbaycan ədəbiyyatı üzrə müşaviri olmaq istəyib. Balaş bu haqda neçə dəfə Hüseyn Abbaszadəyə zəng edib ki, o Anarı razı salsın. Nəhayət, Anar da bu məsələyə razılıq verib...

Balaş üzünü prezidentə tutub dedi ki, bilmirəm assosiasiyamı, yoxsa qurummu yaratmaq yaxşıdır? Ancaq nə yaranırsa o, Şimali Azərbaycanla İranın mənafeyinə xidmət etməlidir.

Yenə özüm-özümə sual verdim: – Bu Balaş Azərbaycan Demokrat Firqəsindən niyə narazıdır? Axı o, Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin büro üzvü seçilib. "Azərbaycan" qəzetinin redaktoru olub. Sonra Mərkəzi Komitənin şöbə müdiri təyin edilib. Daha sonra Mərkəzi Komitənin sədr müavini, İran Xalq Partiyası Mərkəzi Komitəsinin üzvü seçilib. Ancaq dünən eşitdim ki, Balaş İran Xalq Partiyası Mərkəzi Komitəsinə ərizə yazıb üzvlükdən çıxmaq istədiyini bildirib. Bəli! Bir zamanlar İran Xalq Partiyasının beynəlxalq hörməti sayəsində Berlin darvazasından Çin səddinə qədər qürurla gəzən bir adam indi onun Mərkəzi Komitəsinin tərkibində qalmağı özünə rəva bilmirdi. Axı, dünyanın siyasi havası dəyişmişdi. Həm də Balaş bütün imtiyazlardan sanballı yüklər tutmuşdu. Daha heç kimə, heç nəyə ehtiyacı yox idi. Burda deyiblər: Dəvə, dəvə, yükünü mənə, it cəhənnəmə. Ancaq belə də deyiblər: Öküz öldürüb, üstündən ad götürə bilməzsən. Mən elə dünən Nizami adına Ədəbiyyat İnstitutunun 1988-ci ildə buraxdığı "Cənubi Azərbaycan ədəbiyyatı" antalogiyasını bir də vərəqləmişdim. Orda Söhrab Tahirin Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin üzvü, Balaş Azəroğlunun isə həm Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin, həm də İran Xalq Partiyası Mərkəzi Komitəsinin üzvü olduğu barədə geniş yazılıb. Bu yazıları daha ərizə ilə də pozdurmaq olmaz...



Mənə demişdilər ki, Anar Yazıçılar İttifaqının sədri seçiləndə Balaşla Mədinə onu ailəsiylə qonaq çağırıb. Sonra mətbuatda oxudum ki, uzun illər Bakıda erməni dilində çıxan "Qrakan Azərbaycan" jurnalının redaksiya heyətinin üzvü olan Mədinə bu dəfə doğma dildə çıxan "Azərbaycan" jurnalının redaksiya heyətinin üzvüdür. Yazıçılar İttifaqına qəbul komissiyasının üzvüdür. Mən isə Bakıda yaşadığım müddətdə Yazıçılar İttifaqına məxsus olan nə bir redaksiya heyətinin, nə də bir komissiyanın üzvü seçilməmişdim. Hətta Balaş Yazıçılar İttifaqının Cənubi Azərbaycan üzrə katibi olanda da...

Mədinənin xəstəxanada yatdığını bilirdim. Yanına gedə bilməsəm də vəziyyətini qızım Rənadan soruşurdum. Mədinə Gülgün qızım Rənanın işlədiyi xəstəxanada yatırdı. Müalicə həkimi də Rəna idi. O tez-tez evlərindən Şəfiqəyə zəng edib Mədinənin vəziyyəti barədə ona danışırdı. Bir dəfə də Şəfiqə Mədinənin yanına xəstəxanaya getmişdi. Xeyli söhbət etmişdilər...

Şəfiqə xəstəxanadan qayıdanda mən riqqət dolu maraqla ona: – Mədinə necədir? – dedim. Şəfiqə təəssüflə mənə: – Mədinə əzab çəkə-çəkə danışırdı. O hər şeydən gileylidir. Hətta doğmalarından da. Bilirsən axırda nə dedi? Dedi ki, əgər ayağa dursam, gedib başımı Əlinin sinəsinə qoyacağam. Sonra o ki var, ağlayacağam – dedi. Doğrusu, bu yanğılı sözlər məni

kövrəltdi. Bu səmimiyyətlə dolu sözlər Mədinənin etirafı idi. Dənizin özü də etiraf qədər günahı təmizləyə bilməz. Sanki Mədinə mənim barəmdə nə dediyinin, nə etdiyinin haqsız olduğunu xəstəxana çarpayısında dərk etmişdi. Axı biz Təbrizdə də, Bakıda da öz ağırlığımızda duz-çörək yemişdik. Mənim Balaşla dostluğum Ərdəbildə başlamış, Təbrizdə davam etmiş, Bakıda isə möhkəmlənmişdi. Ancaq niyə gizlədim. Mədinə Balaşla ailə həyatı qurandan sonra hikkəsinin küləyi ilə aramızı soyutmuşdu. Əsas səbəb yaradıcılıq qısqanclığı idi. Bəli! Mədinə istəyirdi ki, Cənubi Azərbaycan poeziyası deyiləndə yalnız əri ilə özünün adı çəkilsin. Ona görə də bu taydakı o taylı şairlər deyirdilər ki, Mədinə ailə ədəbiyyatını Cənubi Azərbaycanın hegemon ədəbiyyatına çevirməyə çalışır. Mən isə ədəbi aləmdə özümü gözə soxmaq istəmirdim. Necə deyərlər, başımı aşağı salıb yazırdım...

Bir gün səhər çay-çörəyimizi yeməmiş qızım zəng edib dedi ki, Mədinə dünən gecə xəstəxanada vəfat edib. Oğlanları gəlib cənazəni evlərinə aparıb. Dərhal mən də, Şəfiqə də qalxıb geyindik. Balaşgilə getdik.

Mən otağa daxil olanda Balaşı bir neçə tanış adamın əhatəsində oturmuş gördüm. O məni görcək ayağa qalxdı. Otağın ortasında qucaqlaşdıq. O da ağladı, mən də ağladım. Balaş ağlaya-ağlaya mənə: – Əli! Görürsən də, başımıza nə gəldi – dedi. Mən nə deyə bilərdim? Yalnız iki kəlmə: – Allah rəhmət eləsin – dedim. Sonra Balaş əyləşdi. Mən də onun yanında... Mədinənin



dəfnində bütün ailəmiz iştirak etdi. Sonra hər cümə axşamı Şəfiqəni də götürüb Mədinənin hüzr məclisinə gedirdim. Evə girəndə paltomu dəhlizdə çıxarıb gənclərə verirdim. Onlar da kiçik otağa aparırdı. Sən demə, paltoları kiçik otağa yığırmışlar. Mən də böyük otağa daxil olub məclisdəkilərin arasında əyləşirdim. Evimizə qayıdanda yenə gənclər paltomu kiçik otaqdan gətirib dəhlizdə özümə verirdilər. Onu da deyim ki, məndən başqa məclisdən çıxanların hamısı özləri kiçik otağa keçib paltolarını götürürdülər. Hətta Anar da. Sağ olsun gənclər. Mənə hörmət edirdilər.

Bir axşam hüzr məclisi dağılanda dəhlizdəki gənclər yox idilər. Harasa iş dalınca getmişdilər. Mən də kiçik otağa girənlərə qoşulub paltomu özüm götürməli oldum. Divar boyu uzanan kitab dolabına baxanda məni heyrət bürüdü. O qədər kitabın qarşısında parlayan şüşənin arxasında Rəsul Rzanın şəkli gözə girirdi. O, əlini çənəsinə söykəyib xəyala dalmışdı. Allah bilir, Anar da bu otağa girəndə o şəkilə neçə dəfə baxmışdı. Deyirlər, məhəbbət qarşılıqlı olur. Mənə elə gəlir ki, adi mənasından çıxıb nadir məna daşıyan baxış da qarşılıqlı olur. Məsələn, bunun ona hörmətinə, onun bunun şəfqətinə çevrilir. Balaş isə dünya görmüş adamdır. Bu yolu çoxdan keçib gəlib. İndi də nə etdiyini özü yaxşı bilir. Yadıma rəhmətlik Çexovun məşhur sözləri düşdü. Yazıçı deyib ki, əgər səhnədə divardan bir tüfəng asılsa tamaşanın sonuna qədər o mütləq açılmalıdır. Yəni, atəş açmalıdır. Yəqin Rəsul Rzanın da Balaşın kitab

dolabının aynasında nümayiş etdirilən əksi oğlu Anar tərəfindən haçansa, haradasa qiymətləndiriləcək... Nə isə. Paltomu geyib tələsik otaqdan çıxdım ki, belə müti hisslər bu yaşımda da mənə sirayət edə bilməsin. Dəhlizdə Anarla qarşılaşdım. O da paltosunu götürmək üçün kiçik otağa gedirdi...

Veriliş qurtardı. Yerimdən qalxıb televizoru söndürdüm. Doğrusu, elə əsəbiləşmişdim ki, daha sonrakı verilişlərə baxmağa hövsələm qalmamışdı.

Yadıma bir əhvalat düşdü. Bir gün evdən çıxıb "Kommunist" (indiki İstiqlaliyyət) küçəsilə harasa gedirdim. Birdən islam inqilabından sonra Cənubi Azərbaycanı tərk edib Şimali Azərbaycana keçən bir siyasi mühacirlə qarşılaşdım. Biz Təbrizdə tanış olmuşduq. Görüşdük. Köhnə tanışımın kefini soruşdum. O kefsiz idi. Ona görə də bu haqda mənə heç nə demədi. Yox! Kədər dolu pıçıltıyla: – Avropaya gedirəm! – dedi. Mən heyrətlə: – Niyə? – dedim. O təəssüflə: – Bəli! Burdakı şəraitin qənaətbəxş olmadığını görüb Avropaya getməyimi qətiləşdirmişəm. Ancaq məni təəssüfləndirən bu deyil – dedi. Mən maraqla: – Bəs nədir? – dedim. Tanışım gileyli-gileyli: – Yol pulum yox idi. Özüm də ona-buna ağız açan adam deyiləm. Sən ki, məni Təbrizdən yaxşı tanıyırsan. Təbrizdən gələndə özüm üçün tikdirməyə gətirdiyim pencək-şalvarlıq parçanı satmaq qərarına gəldim. O zaman sizinlə Təbrizdən gələn bir adama müraciət edib bu parçanı yol xərci üçün satıram – dedim. O, parçanın o üzünə,



bu üzünə baxdı. Deyəsən, parça xoşuna gəldi. Şəstlə mənə: – Parçanı özüm götürürəm. Sən qiymətini de – dedi. Mən parçanı Təbrizdə neçəyə aldığımı ona dedim. O dinmədi. Fikrə getdi. Handan-hana parçanı məndən yarı qiymətinə ala biləcəyini dedi. Sanki boynuma hələ bir minnət də qoymaq istədi. Niyə gizlədim. Əvvəllər elə bilirdim ki, səninlə gələnlər ancaq Vətənlərini itiriblər. Sən demə, kişiliklərini də itiriblər. Məgər o bilmədi ki, mən öz əynimə tikdirəcəyim parçanı əlacsızlıqdan satıram? Əvvəla, kişi kişinin öz əyninə tikdirəcəyi parçanı almaz. Sonra da ki, kişi kişiyə ya bəxşeyiş, ya da borc pul verər. Bu namərd isə halal parçanı yarı qiymətinə istədi – dedi.

Mən yaman sarsıldım. Utandığımdan gözlərimi yerə dikib daha köhnə tanışımın üzünə baxa bilmədim. Bəli! Tələsik onunla xudahafizləşib yola düzəldim. Bilmədim keçirdiyim həyəcanlı halları duydu, yoxsa duymadı? Axı atalar deyib ki, bir dana bir naxırın adını korlayar. Daha deməyiblər ki, bir naxır öz adını korlayar...

Yenə yadıma bir əhvalat düşdü. Bir neçə gün əvvəl elə bu küçədə məslək və qürbət yoldaşım Əbülfəz Haşimi ilə görüşdük. O məhrəm-məhrəm mənə: – Keçən axşam bir məclisdə idik. Yerli yoldaşlardan biri sənin şeirlərindən birini hərarətlə oxudu. Məclisdə əyləşənlərə dedim ki, biz o taydan bu taya keçəndə mən Naxçıvanda hönkür-hönkür ağladım. Sanki ürəyimə dammışdı ki, biz bir daha o taya qayıtmayaca-

ğıq. Əli Tudə hiddət dolu ərklə mənə ağlama, kişi ağlamaz dedi. Mən kim olduğumu yadıma salıb dərhal kiridim – dedi.

Nə gizlədim. Əbülfəz Haşiminin bu sözlərindən qürurlandım. Ancaq bu sözləri Əbülfəz Haşimiyə dediyimi yadıma sala bilmədim. Lakin onu yadıma sala bildim ki, doğrudan da onda biz kişiydik. Özü də qeyrətli, cürətli, himmətli kişi. Elə indi də kişiyik. Amma qeyrəti, cürəti, himməti əriyən sklet kişi.

Soyunub yatağıma girdim ki, bəlkə yatıb hər şeyi unudam. Ömrüm boyu narahat etdiyim yazıq əsəblərimi heç olmasa bir qədər dincəldəm. Elə əsəblərim dincəlməyə başlayırdı ki, xəyalım çırpınıb qanadlandı. Məni yenidən keçdiyim yollara qaytardı. Yox! Sanki yorğun gözlərimin qarşısında bir televiziya ekranı açdı. Mən o ekranda göstərilən səhnələrə bir də baxdım. Ancaq həm qürurla, həm də təəssüflə baxdım. Ona görə qürurla baxdım ki, o yanğı, döyüş, uğur dolu səhnələrdə mənim unudulmaz rolum olub. Ona görə təəssüflə baxdım ki, kimlərlə yoldaş olduğumu bilməmişəm. Səhnələr o zaman qurtardı ki, artıq gecə də qurtarırdı. Mən isə hələ də yuxuya gedə bilməmişdim. Əgər insanın keçmişi müqəddəsdirsə, o öz keçmişinə şəstlə baxmalıdır. Gözlərini qapayıb yatmamalıdır. Axı, insanın öz müqəddəs keçmişinə baxa-baxa yuxuya getməsi məsciddə yatmaq qədər günahdır. Təvazökarlıqdan uzaq olsa da, mən keçmişimi iftixarla müqəddəs saymışam, sayıram, sayacağam da...



Sabahı Hökümə Billuri zəng vurdu. Sən demə, o da televiziya ekranında Cənubi azərbaycanlıların prezidentlə görüşünə baxıbmış. Hökümə xanım o görüş haqqında fikrimi bilmək istədi. Mən də dedim. Birdən o canıyananlıqla: – Sənin ki, Cənubi Azərbaycanda o qədər qohumların var, niyə öz yurduna getmirsən? Üstəlik şöhrətin də, qiymətin də, hörmətin də var – dedi. İstədim Hökümə xanıma deyəm ki, doğrudur, o tayda qohumlarım çoxdur. Ancaq həyat yoldaşım bu taylıdır. Dörd övladım Şimali Azərbaycan vətəndaşıdır. Altı nəvəm var. Onlar da Şimali Azərbaycan vətəndaşı olasıdı. Sonbeşiyim oğlum isə hələ evlənməyib. Sənin isə həyat yoldaşın o taylıdır. Cəmi iki övladın var. Oğlun ailə qurub, qızın yox. Onlar da o taylı hesab olunur. Ona görə də sənin Cənubi Azərbaycana getməyin mənim getməyimdən çox asandır. Amma heç nə demədim. Nə bilim? – dedim. Sonra telefonda xudahafizləşdik. Dəstəyi yerinə qoydum.

Aradan iki gün keçdi... Sabir Əmirov (Nəbioğlu) mənə zəng vurub: – Xəbərin var? – dedi. Mən maraqla müsahibimə: – Nədən? – dedim. Sabir Əmirov eyhamla: – Prezident Elçibəyin iştirak etdiyi bir yığıncaqda Hökümə Billuriyə təntənəylə Şimali Azərbaycan pasportu verilib. Hökümə xanım bu pasportu qürurla daşıyacağını deyib. Sonra prezidentdən xahiş edib ki, “Yazıçı” nəşriyyatında respublikanın böhranlı iqtisadiyyatı ilə əlaqədar saxlanılan kitabının çapa getməsi üçün yardımını əsirgəməsin. Bu haqda hökumət qəzetində də

yazılıb. Oxumamısan? – dedi. Mən etirafla: – Yox! Oxumamışam – dedim. Demək mənə Cənubi Azərbaycana getməyi məsləhət görən Hökümə xanım özü Şimali Azərbaycan vətəndaşlığını qəbul edib. Burda deyiblər, özünə omac ova bilmir, başqalarına əriştə kəsir... Sabir Əmirovla telefonda xudahafizləşdik. Dəstəyi yerinə qoydum. Sonra yenə özüm-özümə sual verdim: – Hökümə Billuri Azərbaycan Demokrat Firqəsindən niyə narazıdır? Axı, o ki Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinə üzv seçilib. "Azərbaycan" qəzetinin redaktoru olub. "Cənubi Azərbaycan ədəbiyyatı antalogiyası"nda bu haqda geniş yazılıb.

Düşündüm, bu qələm yoldaşlarım unudurlar ki, bir qəhrəman döyüşdən zəfərlə qayıdanda onu təntənə ilə qarşılayarlar. Sonra dinc həyatda dünyadan köçəndə də onu təntənə ilə yola salarlar. Bəli! Daha səssiz-səmirsiz dəfn etməzlər. Vaxtıyla Azərbaycan Demokrat Firqəsi də döyüşdən zəfərlə qayıdanda təntənə ilə qarşılanmışdı. Bunu bütün dünya görmüşdü. Bütün radiolar demişdi. Bütün qəzetlər yazmışdı. Ancaq indi də assosiasiya, ya da qurum yaratmaq iddiasına düşənlər onu yaşaya-yaşaya səssiz-səmirsiz dəfn etmək istəyirlər. Bu naxələflər məgər başa düşmürlər ki, Cənubi Azərbaycan tarixinin tam bir ilini unudulmaz islahatlar dövranına çevirən bir Xalq inqilabının varisi ola bilməz. Axı, Azərbaycan Demokrat Firqəsi inamını tamam itirmiş miskin bir dəstədən ibarət deyil ki, hər hansı bir tufanın qarışıqlığında uçuruma yuvarlanıb qırıla bilsin. O Səttarxandan, Xiyabanidən, Pişəvəridən dərs alaala, neçə-neçə sınaqdan alnıaçıq, üzüağ çıxa-çıxa müdrikləşən böyük bir təşkilatdır. Bu təşkilat neçə-neçə assosiasiya, quruma sığışa bilməz. O dillərdən daha çox ürəklərdə yaşayır. Özü də həm bu tayda, həm də o tayda... Tarix yaranandan ayrı-ayrı mövqelərdə duran şəxslər arasında umu-küsülər olub, olur, olacaq... Bəzən də bu umu-küsülər xüsusi mənafe yükü daşıyıb, daşıyır, daşıyacaq. Ancaq Azərbaycan Demokrat Firqəsi onsuz da çox qurbanlar verib. Daha ümumi mənafeləri xüsusi mənafelərə qurban verə bilməz. Axı o, boynunda xalq məsuliyyəti deyilən çox ağır bir yük daşıyır. Azərbaycan Demokrat Firqəsi zamanın dolaşıq yollarında təcrübə toplaya-toplaya öz xalqının həm müdrik, həm də ağsaqqal rəhbəri səviyyəsinə qalxıb. Azərbaycan xalqının həmişəyaşar adətinə görə həm müdrik, həm də ağsaqqal rəhbərə baş əyərlər, arxa çevirməzlər. Bu yalnız qəbahət deyil, həm də xəyanətdir. Bu xəyanəti nə xalq, nə vətən, nə də tarix bağışlayar. Dəyanətli zəmanətilə şöhrət zirvələrinə qalxdığın bir müdrikin, bir ağsaqqalın əməyini laqeyd-laqeyd tapdalayıb keçmək ən azı nankorluqdur. Belə nankorlar öz atalarını diri-diri basdırmaq istəyən qatil övladlara bənzəyirlər. Nəyə nail olmağa çalışsalar da lənətdən başqa heç nə qazana bilməzlər...

Elə həmin gün "Sənətkar simasızlığı" adlı şeir yazdım:

**Dünya əlvan olsa da,**
**Dağın öz siması var.**
**Düzün öz siması var,**
**Bağın öz siması var.**
**Otun öz siması var,**
**Yolun öz siması var.**

**Gülün öz siması var,**
**Kolun öz siması var.**
**Odun öz siması var,**
**Suyun öz siması var.**
**Yasın öz siması var,**
**Toyun öz siması var.**
**Kim bilmir nə küləkdə,**
**Nə çəndə, nə yağışda,**
**Simada hələm-hələm**
**Dəyişmir bir naxış da.**
**Sima dilli adamda**
**Naxış yox, rəy deməkdir.**
**O ya kövrək təşəbbüs,**
**Ya möhkəm səy deməkdir.**
**Elə adamlar var ki,**
**Öz simaları yoxdur.**
**Yadlaşmış simaları**
**Sözlərindən də çoxdur.**
**O kəslər nə Vətəni,**
**Nə milləti düşünür.**
**Nə andı, nə ilqarı,**
**Nə qeyrəti düşünür.**
**Təzə nəfəslə əsən**
**Yeli axtarır gözü.**
**Yox! Yelin qabağına**
**O özü düşür, özü...**



**Hardasa tərəddüdsüz**
**O yellə sövdalaşır.**
**Özünü sata-sata**
**Daha da gədalaşır.**
**Elə adamlar var ki,**
**Öz siması məşhurdur.**
**O müdrikdən müdrikdir,**
**O cəsurdan cəsurdur.**
**Yel nədir? Tufan əssə**
**O qopmaz öz yerindən.**
**Kor olmazmı haçansa**
**Qoparsa göz yerindən.**
**Bəli! Nə silkələnir,**
**Nə dəki laxlayır o.**
**Köksüylə bir ölkəni**
**Tufandan saxlayır o.**
**O kəslərdir təzadlı**
**Dünyada zaman-zaman,**
**Həyatda məğrur-məğrur,**
**Təmasda azman-azman**
**Vətəni də yaşadan,**
**Milləti də yaşadan,**
**Andı da, ilqarı da,**
**Qeyrəti də yaşadan.**

Aradan iki gün keçdi. Yenə Hökümə Billuri zəng edib dedi ki, eşitmişəm sənin də "Yazıçı" nəşriyyatında kitabın var. Nə vəziyyətdədir? Dedim: – Bəli, var. Bu "Təbriz yolu" adlı on çap vərəqi həcmində bir ki-

tabdır. Yarısı şeirlərdən, yarısı poemalardan ibarətdir. Redaktor Müzəffər Şükür kitabı oxuyandan sonra tərif dolu bir müqəddəmə yazıb. Sonra aparıb poeziya şöbəsinə verib. Poeziya şöbəsi də kitabı bədii tərtibat şöbəsinə göndərib ki, rəssam əsərlərə uyğun şəkillər çəksin. Sonra kitab çap olunmaq üçün mətbəəyə göndərilsin. Ancaq nəşriyyata təzə direktor gələn Əkrəm Əylisli bir sıra kitablarla yanaşı mənim kitabımı da plandan çıxarır. Kitab indi poeziya şöbəsindədir – dedim. Hökümə xanım maraqla: – Bəs indi nə fikirdəsən? Bu haqda harasa, kiməsə bir söz deyibsən, ya yox? – dedi. Mən şəstlə: – Yox! – dedim – Özün bilirsən ki, ona-buna ağız açmaq mənim təbiətimə yaddır. Ancaq Hökümə xanımdan soruşmadım ki, bəs sənin "Yazıçı"dakı kitabın nə vəziyyətdədir? Axı, eşitdiyimə görə sən kitabının çıxmağına kömək göstərməyi prezidentdən xahiş edibsən. Yox! Soruşmadım. Nəzakət xatirinəmi? Yenə yox! Bir daha bildim ki, bu boyda dünyada hərənin öz şəxsiyyəti, məramı, yolu olub, olur, olacaq. Ona görə də kimsə kimsəyə cavabdeh deyil. Hökümə xanımla telefonda bir az da ordan-burdan danışandan sonra xudahafizləşdik. Ancaq mənə elə gəldi ki, bu xudahafizləşmə əvvəlki xudahafizləşmələrə bənzəmədi. Yol ayrıcını xatırlatdı. Mən bu yanda qaldım, Hökümə xanım isə o yana getdi...

Dedilər ki, əzrayıl uşaq paylayır. Biri dedi ki, əzrayılın verdiyi uşağı istəmirəm, təki mənim uşağıma dəyməsin. Xalq cəbhəsinin üzvləri xalq deyə-deyə iş



başına gəlib xalqa elə zərərlər vurdular ki, sonralar o zərərlərin yerlərini doldurmaq mümkün olmadı. Bəli! Xalq cəbhəsi nəinki yumurtladı, hətta falanı da içdi. Əbülfəz Elçibəy hakimiyyətdən getdi, Heydər Əliyev hakimiyyətə gəldi...

## 70 İLLİYİM

Mənim anadan olmağımın 50 illiyini 1974-cü ildə, 60 illiyimi 1984-cü ildə respublika mətbuatı, radiosu, televiziyası geniş qeyd etmişdi. Həm şəxsiyyətim, həm də yaradıcılığım haqqında sanballı məqalələr yazılmışdı. İndi 1994-cü ilin yanvar ayı başa çatmaqda idi. Ancaq qarışıq həyatda, ağır güzəranda mənim yadıma artıq 70 yaşa yetişdiyim düşmürdü. Bəli! Bu haqda heç kimə, heç nə demirdim. Hətta ailə üzvlərimə də. Bir axşam qızlarım kürəkənlərimlə bizə gəldilər. Çay süfrəsi ətrafındakı söhbət zamanı böyük kürəkənim üzünü ailə üzvlərinə tutub həyəcanla: – Əli müəllimin 70 yaşı tamam olur. Ancaq heç bu məsələ ilə maraqlanan yoxdur – dedi. Sən demə, Şəfiqənin sinəsi sözlə dolu imiş. Deməyə məqam gözləyirmiş. O tənəylə böyük kürəkənimə: – Axı heç özü maraqlanır ki, başqaları da maraqlana? Sanki bütün ömrünü Vətənə, xalqa, inqilaba, azadlığa, sənətə həsr edən adam bu deyil – dedi. Sonra ailə üzvləri bu haqda niyə Yazıçılar birliyinə, Siyasi mühacirlər cəmiyyətinə bir söz demədiyim üçün məni o ki var, danladılar. Sabahı bu barədə o taylı qə-

ləm yoldaşım Sabir Əmirova dedim. O yaradıcılığım haqqında səmimiyyətlə dolu məqalələr yazıb "Ədəbiyyat və incəsənət", "Xalq", "Mühacir" qəzetlərində çap etdirdi. Sabirin məqaləsi əsasında respublika radiosunun Cənubi Azərbaycan redaksiyası mənə bir saatlıq veriliş həsr etdi. Nə gizlədim. Haqqımda deyilənləri eşitdikcə sanki özümü təzədən tanıyırdım. Ona görə də mənim haqqımda bütün yazı işlərini tək başına görən qələm yoldaşım Sabirə öz minnətdarlığımı bildirdim. Ancaq sən demə, televiziyanın atı daha yüyrək imiş. Böyük kürəkənim və Natiq televiziyada rejissor işləyirdilər. Natiq mənim haqqımda yığcam, dolğun, məhrəm bir süjet hazırlayıb "Xəbərlər" proqramında göstərdi. Sanki bu qısa, ancaq mənalı süjet anadan olduğumun 70 illiyini bütün Azərbaycana car çəkdi.

Sabahı telefonumuz tez-tez səsləndi. Həm tanıdığım, həm də tanımadığım adamlar məni təbrik etdi. Poçtalyonlar isə qapımızı tez-tez döyüb təbrik teleqramları gətirdilər. İranlı Siyasi mühacirlər cəmiyyətinin göndərdiyi teleqramda deyilirdi: "Hörmətli Əli Tudə! Silahdaşımız, dostumuz, qardaşımız! Anadan olmağınızın 70, yaradıcılığınızın 50 illiyi münasibətilə sizi ürəkdən təbrik edirik. Həm ədəbi yaradıcılığınızda, həm də şəxsi həyatınızda ömrün gələcək pillələrində də sizi də, bizi də sevindirəcək uğurlar arzulayırıq".

Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin mənə göndərdiyi teleqramda yazmışdı: "Hörmətli Əli müəllim! Sizi, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini, sevimli şairimizi anadan olmağınızın 70



illiyi münasibətilə ürəkdən təbrik edirəm. Xalqımız Sizi cənubun da, şimalın da dərdini, sevincini, hiss və həyəcanını eyni doğmalıqla və yüksək poetik səviyyədə ifadə edən bir sənətkar kimi tanıyır və sevir. Sizin poeziyanız neçə illərdən bəridir ki, xalqımızın qəlbinə yol tapmış, yeni-yeni nəsilləri mənən zənginləşdirmiş və heç zaman Araz sərhəddi tanımamışdır. Sizə uzun ömür, can sağlığı və həmişəki kimi böyük yaradıcılıq uğurları diləyirəm".

Yadıma 50 illiyimdə yazdığım dörd misra düşdü:

**Hələ ağarmasa da**
**Dərin düşüncəli baş,**
**Ömür yolunda qarlı**
**Aşırımdır əlli yaş.**

Bəli! Aşırımı çoxdan aşmışdım. Daha üzü aşağı gəlirdim. Ancaq nədənsə zirvə həvəsi hələ də məni tərk etməmişdi. Mən yalnız sənət dünyasındakı zirvələrə deyil, zirvə sandığım yazı masama da hörmət edirdim. Ona görə də məni tərk etməyən zirvə həvəsiylə yazı masamın arxasında əyləşib "Uzun ömür" adlı şeirimi yazdım:

**Keşməkeş üst-üstə yığır yükləri,**
**Əldən də, dildən də salır insanı.**
**Deyirlər zamanın ağır yükləri**
**Ayağı altına alır insanı.**

**Yalandır! Həyatda doğulan hikmət**
**Daha təcrübəylə kamala dolur.**
**Boş sözdür məzəmmət, şikayət, qeybət,**
**Başına gələnlər başmaqçı olur.**

**Yetmişə də yetdim! Sən demə zaman**
**Dözümə təpər də verə bilərmiş.**
**Ağır yüklər çəkən cəsur bir insan**
**Uzun bir ömür də sürə bilərmiş!**

**Yaxşı ki, yetmişin əllisini mən**
**Vədlə yox, əməllə naxışlamışam.**
**Məndən daha nikbin, məndən daha şən**
**Fədakar qələmə bağışlamışam.**

**Vətənsiz hər ad da, san da hədərdir,**
**Sanma mən Vətəni qürbət etmişəm.**
**Mənsəb sahibləri gəldi-gedərdir,**
**Mən Azərbaycana xidmət etmişəm.**

**Şair nəğməkardır öz sənətində,**
**Mənim də hər şeirim şaqraq səsimdir.**
**Ana torpağımın söz sənətində**
**Yalnız bircə şeirim qalsa, bəsimdir.**

Gələn teleqramlar arasında bir məktub da vardı. Onu Neftçaladan filologiya elmləri doktoru İmamverdi Əbilov göndərmişdi. O səmimiyyətlə yazırdı: "Möhtərəm Əli Tudə! 70 yaşınızın tamamlandığı bu qayğılı günlərimizdə, sizi – şeirimizin cəfakeşi, fədakar yaradıcılarından birini salamlayır, sidq məhəbbətlə təbrik edirəm. "Cənub nəğmələri" ilə başlanan 44 illik qiyabi tanışlığımız həsrət və intizarla yaşa doldu. 26 yaşlı coşqun nəğməkar Əli Tudə 70 yaşlı poeziya ağsaqqalına döndü. Fəqət nə intizar səngidi, nə həsrət azaldı. Ürək dolusu sevincə tamarzı qaldığımız məqamda nə



yaxşı ki, bizi dərddən-ələmdən ayıran işıqlı günlər, ümidimizi qanadlandıran hadisələr olur. Sizin yubileyinizi belə tarixi günlərdən biri hesab edir, səksən, doxsan, yüz... yaşınızda da nisgilsiz, həsrətsiz bir ovqatla pərəstişkarlarınızı sevindirən ilhamlı ömür arzulayıram". Məktubu oxuyandan sonra yenə yazı masamın arxasında əyləşdim. Bu masa sənət dünyamda həm zirvə, həm də tarix idi. Bu dəfə "Özüm" şeirimi yazdım:

**Kim deyə bilər ki, bir ovuc ürək**
**Sonsuz arzuların məbədi deyil?**
**Ancaq yadımızda saxlayaq gərək,**
**Heç nə bu dünyada əbədi deyil.**

**Bir qarış torpağı sən qazsan əgər,**
**Ordan da bir şirin xatirə çıxar.**
**Əvvəl gözlərini hiddətlə döyər,**
**Sonra matdım-matdım üzünə baxar.**

**Bir vaxt qız saçında gəzişən əlim**
**Nə ocaq söndürüb, nə də ev yıxıb.**
**Bəs niyə elə bil büzüşən əlim**
**İndicə qazanda qaynayıb çıxıb.**

**Ömrümdə payızdır... Mərd əlim fəqət**
**Yaşıl nəğmə yazan yarpaq kimidir.**
**Əlimin damarlı dərisi xət-xət**
**Nəğmə köçürülmüş varaq kimidir.**

**Bu gündən sabaha addım atıram,**
**Xatirəm arxamda ocaqdır, yanır.**
**Az qalır hardasa günü batıram,**
**Xatirəm qarşımda çıraqdır, yanır.**

**Məni dağa-daşa salma ey külək,**
**Tarixi kənarda axtarmır gözüm.**
**Toz basmış arxivlər nəyimə gərək,**
**Təpədən-dırnağa tarixəm özüm!**

Tarix isə qurtarmaq bilmir. Günlərdən aylar, aylardan illər, illərdən isə əsrlər yaranır. Tarix yalnız keçmiş deyil, yox, həm də gələcəkdir. Gələcəyin isə necə olacağını heç kim bilmir...

## EPİLOQ

*Şair! Sığınsa da bircə mizə o,*
*Yolu neçə-neçə ölkədən düşür.*
*Diqqətlə düzsə də sözü-sözə o,*
*Bir söz haradasa cərgədən düşür.*

Haçansa, haradasa görkəmli bir rəssam geniş bir salonda yaratdığı rəsmlərdən ibarət əlvan, möhtəşəm, cazibədar bir sərgi açır. Salona dəstə-dəstə daxil olan tamaşaçılar sərgiyə maraq dolu məmnuniyyətlə baxır. Sonra öz minnətdarlığını müəllifə bildirmək üçün sərgidən bir az kənarda əyləşən rəssama doğru gedirlər. Ancaq rəssamın ağladığını görüb heyrətlənirlər.



Rəssam təəssüflə həssas tamaşaçılara: – Əgər siz çəkdiyim rəsmləri yox, neçə çəkmək istədiyim rəsmləri görsəydiniz, mənim ağlamağıma heyrət etməzdiniz – deyir. Tələbkar tamaşaçılar bu dəfə daha artıq heyrət edir. Nəyə? Ecazkar sənət əsərləri yaradan rəssamın səmimiyyətlə dolu təvazökarlığına! Sonra isə müəllifin qarşısında hörmətlə baş əyib sərgi salonundan çıxırlar. Mən ömür dastanımın bəzi səhifələrini təşkil edən, içində yaşadığım hadisələri yazıb qurtarandan sonra o rəssam tək ağlamasam da, nigaranlıq içində çırpındım. Dedim görəsən bəzən kövrəlib, bəzən hiddətlənib, bəzən sevinib, bəzən kədərlənib, bəzən tərifləyib, bəzən günahlandırıb qələmə aldığım əhvalatları oxucular necə qarşılayacaq?

Bəlkə də mən o əhvalatları daha mənalı, daha sanballı yaza bilərdim. Əlbəttə, əgər fərəhli güzəran, əlverişli şərait, təpərli həvəs olsaydı...

*1991-1995.*

## KİTABIN İÇİNDƏKİLƏR

Əli Tudə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
**Proloq** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9

Şair taleyi . . . . . . . . . . . . . . . . . . . . . . . . 11
Qəbristanda fatihə . . . . . . . . . . . . . . . . . . . . 34
Özgə münasibətlər . . . . . . . . . . . . . . . . . . . 43
Qəribə təsadüflər . . . . . . . . . . . . . . . . . . . . 52
Altmış yaşım . . . . . . . . . . . . . . . . . . . . . . . 56
Unudulmuş təvazökarlar . . . . . . . . . . . . . . . 76
Qadın etirafı . . . . . . . . . . . . . . . . . . . . . . . 90
Arxaya səyahət . . . . . . . . . . . . . . . . . . . . . 101
Köhnə dost . . . . . . . . . . . . . . . . . . . . . . . . 110
Sənətkar intiharı . . . . . . . . . . . . . . . . . . . . 156
İkilikdə söhbət . . . . . . . . . . . . . . . . . . . . . 165
Şəhriyarın yadigarı . . . . . . . . . . . . . . . . . . 173
Vətən suları . . . . . . . . . . . . . . . . . . . . . . . 177
20 Yanvar . . . . . . . . . . . . . . . . . . . . . . . . 185
Didərgin azərbaycanlılar . . . . . . . . . . . . . . . 193



Məndən sonra . . . . . . . . . . . . . . . . . . . . . . 208
Acı həqiqət . . . . . . . . . . . . . . . . . . . . . . . . 238
Dəhşətli xəbər . . . . . . . . . . . . . . . . . . . . . . 253
Keşməkeşli dövran . . . . . . . . . . . . . . . . . . . 264
Əbülfəzin yanında yığıncaq . . . . . . . . . . . . . 293
70 illiyim . . . . . . . . . . . . . . . . . . . . . . . . . 325
**Epiloq** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 330

**Redaktor** *Natiq Cavadzadə*
**Rəssam** *Nazim Rzaquliyev*
**Kompüter yığımı** *Yaqut Rəhimova*
**Kompüter işləri** *Sevda Allahverdiyeva*

**ƏLİ TUDƏ**

HƏYATIM, XATİRƏLƏRİM...
*(beşinci hissə)*
XX cild

Kitab Natiq Əli Tudə oğlu Cavadzadənin
şəxsi vəsaiti ilə çap olunub.

Çapa imzalanmışdır 25.01.2022. Kağız formatı $60x90^{1}/_{16}$.
Fiziki çap vərəqi 21,0. Şərti çap vərəqi 21,0. Qarnituru Times.
Sifariş 180. Tiraj 500.

---

"Azərbaycan nəşriyyatı" MMC mətbəəsində çap edilmişdir.
Az 1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99412) 5380010. Faks: (99412) 5389085.
E-mail: info(a)neshriyyat.qov.az